YOL – İQTİSADİYYAT, MƏDƏNİYYƏT, BİR SÖZLƏ, HƏYAT DEMƏKDİR.
Heydər ƏLİYEV

Nəqliyyat hüququ

# ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:

**PAŞAYEV A.M.** – Redaksiya Şurasının sədri – *Milli Aviasiya Akademiyasının rektoru, akademik, fizika-riyaziyyat elmləri doktoru.*

**ABBASBƏYLİ A.N.** – *Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının müdiri, professor, tarix elmləri doktoru.*

**EMİNƏ YAZICIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq elmləri doktoru.*

**MALEYEV Y.N.** – RF XİN *Diplomatiya Akademiyasının kafedra müdiri, professor, hüquq elmləri doktoru.*

**TİMÇENKO L.D.** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq elmləri doktoru.*

**VALEYEV R.M.** – *Kazan Dövlət Universitetinin professoru, hüquq elmləri doktoru.*

**ƏLİYEV Ə.İ.** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq elmləri doktoru.*

**HÜSEYNOV L. H.** – *AR MM Aparatı Dövlət qulluğu üzrə qanunvericilik şöbəsinin müdiri, professor, hüquq elmləri doktoru.*

**VƏLİYEV İ.V.** – *AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Cinayət hüququ və cinayət prosesi» şöbəsinin müdiri, professor, hüquq elmləri doktoru.*

**ZEYNALOV R.M.** – *Beynəlxalq Yol Polisi və Nəqliyyat Təşkilatı Assambleyasının üzvü, AR NK YHTK-nın sədr müavini, AR DİN BDYPİ-nin rəisi, polis general-mayoru.*

**ABBASOV İ.M.** – *Bakı Biznes Universitetinin rektoru, professor, iqtisad elmləri doktoru.*

**MƏMMƏDOV H.Ə.** – *Azərbaycan Texniki Universitetinin rektoru, professor, texnika elmləri doktoru.*

**QULİYEV İ.O.** – *Milli Aviasiya Akademiyası Hüquqşünaslıq kafedrasının müdiri, professor, hüquq elmləri doktoru.*

**MƏMMƏDOV R.F.** – *Bakı Dövlət Universiteti Beynəlxalq ümumi hüquq kafedrasının müdiri, professor, hüquq elmləri doktoru.*

**ƏFƏNDİYEV O.F.** – *Azərbaycan Dövlət İqtisad Universiteti Hüquq kafedrası, professor, hüquq elmləri doktoru.*

**ƏLİYEV E.Ə.** – *Azərbaycan Respublikası DİN BDYPİ-nin əməkdaşı, Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü, dosent, hüquq elmləri doktoru.*

**№2–3(43)**

**2004-cü ilin dekabr ayından çıxır.**

*Təsisçilər:*

– Milli Aviasiya Akademiyası;
– Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası (ABADA) İctimai Birliyi;
– Əliyev E.Ə.

***Müəlliflə redaksiyanın mövqeyi uyğun olmaya bilər.***

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**

***Redaksiyanın ünvanı:***

**Bakı şəhəri,**
**Yasamal rayonu,**
**Yeni Yasamal y/sahəsi,**
**Ş.Bünyadzadə küçəsi, 12**

Tel:. +994124388789
mob:. +994503225298
+99450210-24-42
vebsayt:
www.intranslaw.org
www.intranslaw.az
Elektron poçt:
intranslaw@rambler.ru
transportlaw@intranslaw.com

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

**Baş redaktor** — ***ƏLİYEVA İ.M.*** – ADU-nun kafedra müdiri, filologiya elmləri doktoru.

**Məsul redaktor** — ***MƏMMƏDOV Ə.Q.*** — BDU Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının müdir əvəzi, dosent, hüquq elmləri üzrə fəlsəfə doktoru.

**Baş redaktorun müavini**— ***HACIYEV E.A.*** — AR DNŞ SOCAR – KPŞ MMC Marketinq Departamentinin rəisi, hüquqşünas, BNA-nın həqiqi üzvü.

**Böyük redaktorlar** — ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, dosent, filologiya elmləri üzrə fəlsəfə doktoru.

— ***AĞAKİŞİYEV Ə.Y.*** — BDU-nun baş müəllimi, filologiya elmləri üzrə fəlsəfə doktoru.

**Redaktorlar** — ***NƏZİROV Q.H.*** — «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini, texnika elmləri üzrə fəlsəfə doktoru, əməkdar mühəndis, dosent.

— ***VƏLİYEV E.T.*** — AR VN Xüsusi Rejimli Vergi Xidməti Departamentinin baş dövlət vergi müfəttişi, kiçik vergi xidməti müşaviri, hüquqşünas.

— ***BAĞIROV F.T.*** — «AZAL» QSC Aviasiya Təhlükəsizliyi İdarəsinin şöbə rəisi.

— ***ƏLİYEV E.E.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.

— ***HACIYEVA G.E.*** — kompüter və informasiya üzrə aparıcı mütəxəssis.

— ***ƏLİYEVA F.E.*** — inzibatçı, BDU BXH və Avropa hüququ kafedrasının müəllimi, hüquqşunas.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində 16 sentyabr 2004-cü il tarixdə dövlət qeydiyyatına alınmışdır *(01 iyun 2006-cı il tarixli dəyişikliklərlə).*

**ŞƏHADƏTNAMƏ: 0104-P72-40981**

12 avqust 2016-cı il tarixdə 240 səhifə həcmində çap olunmuşdur.
Tirajı 300 ədəd.

**2016**

II-III RÜB

# "ASAN XİDMƏT" – DÜNYANIN MARAQ GÖSTƏRDİYİ AZƏRBAYCAN BRENDİ

***Azərbaycanın korrupsiyaya qarşı mübarizə məqsədilə həyata keçirdiyi institusional islahatlara nümunə olaraq "ASAN xidmət" mərkəzlərini göstərə bilərik. Hazırda "ASAN xidmət" mərkəzlərində 30 növ hüquqi, 32 növ funksional yardımçı xidmətlər təşkil edilib... Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq vardır. Təsadüfi deyil ki, bir sıra dövlətlərin rəsmiləri ölkəmizə gələrək, "ASAN xidmət"lərin fəaliyyəti ilə yaxından tanış olurlar.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan özünün müstəqillik dövründə, xüsusilə ulu öndər Heydər Əliyevin ikinci dəfə respublikamıza rəhbərliyindən sonra bütün sahələrdə öz nümunəsini, dövlət idarəçiliyində demokratik prinsiplərə önəm verilməsini, beynəlxalq birliyə inteqrasiyasını ortaya qoyaraq, dünyaya güclü, müstəqil, müasir, davamlı inkişaf edən bir ölkə kimi açıldı. Həmin vaxtdan başlayaraq nüfuzlu beynəlxalq təşkilatların, inkişaf etmiş dünya dövlətlərinin, araşdırma mərkəzlərinin, tanınmış ekspertlərin, ictimai-siyasi xadimlərin və aparıcı kütləvi informasiya vasitələrinin diqqətini ölkəmizə çəkən də məhz bu amillərdir. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycan bütün sahələrdə əlaqələrini daha da genişləndirdi, ikitərəfli əməkdaşlıq sahəsində tərəfdaşlarının sayını getdikcə artırdı. Təsadüfi deyildir ki, bu gün dünyanın müxtəlif regionlarında, nüfuzlu beynəlxalq qurumlarda, mötəbər tədbirlərdə Azərbaycanın inkişaf modeli, Azərbaycan nümunəsi, "Azərbaycan fenomeni" haqqında çox danışılır.

Ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış siyasi xəttin, inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilməsi, müasir dövrün reallıqları, inkişaf meyilləri əsasında, konkret proqramlar çərçivəsində uğurla davam etdirilməsi ölkəmizi dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşmaqdadır. Bu faktlar artıq dünya birliyində də etiraf olunur. Fakt üçün 2013-cü ildə «The Buisness Year» şirkətinin Azərbaycan Prezidenti İlham Əliyevi dünyada «İlin Prezidenti» elan etdiyini xatırlatmaq istərdik.

«The Buisness Year» şirkətinin 4 ildir ardıcıl olaraq Azərbaycanla əməkdaşlığının əsasında bu qənaətə gəlməsində əsas məqsədi respublikamızda həyata keçirilən yeni inkişaf modeli nümunəsini dünyaya daha yaxından tanıtmaq olmuşdur. Təkcə son beş ilə nəzər salsaq, bir daha şahidi olarıq ki, bu dövrdə Azərbaycanın dinamik inkişafı, dünyanın geosiyasi məkanında fəal iştirakı, BMT-nin Təhlükəsizlik Şurasının üzvü kimi qlobal arenada sülh və təhlükəsizliyin təmin olunmasına, ilk «Azərspace» telekommunikasiya peykinin orbitə buraxılması ilə ölkədə, bölgədə və dünyada internetin, informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafına önəmli töhfələr vermişdir. Eyni zamanda, respublikamız mühüm beynəlxalq ictimai,

siyasi, iqtisadi, humanitar forumların, sivilizasiyalararası dialoqların, beynəlxalq idman yarışlarının keçirildiyi mərkəzə çevrilmişdir. Göstərilən səbəblərin hər biri dövlət başçımızın müasir düşüncə tərzinin yüksək səviyyədə olmasının, demokratik prinsiplərə, modernləşməyə böyük üstünlük verməsininnəticəsi kimi dəyərləndirilir.

Ölkəmizin beynəlxalq aləmdə reytinqinin getdikcə artmasını stimullaşdıran amillərdən biri də Azərbaycan heç kimdən asılı olmayan, milli maraqlara uyğun, tam müstəqil daxili və xarici siyasət yürütməsi olmuşdur. 2012-ci ildə Azərbaycanın güclü rəqabət şəraitində bütün maneələri dəf edərək, 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi və dünyanın nəhəng dövlətləri ilə birlikdə beynəlxalq münasibətlər sistemində yaxından iştirak etməsi, bu quruma iki dəfə sədrlik etməsi də dediklərimizə bariz nümunədir. Azərbaycan bu qurumdakı fəaliyyəti ilə təsdiq etdi ki, böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, hər bir dövlət öz nümunəsini ortaya qoya, ədalət prinsipinin, sülh və təhlükəsizliyin möhkəmlənməsinə öz töhfələrini verə bilər.

Qloballaşan müasir dövrümüzdə idarəetmə sistemində modernləşmə yeni idarəetmə modelləri zərurətini yaratmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl islahatlar da idarəetmənin təkmilləşdirilməsinə, yeni düşüncə tərzinin formalaşdırılmasına istiqamətlənmişdir. Yeni idarəetmə modellərinin əsas prinsiplərindən biri şəffaflığın artırılmasının ön plana çəkilməsidir. Məhz bu baxımdan dövlətimizin başçısı demokratik idarəçiliyin formalaşdırılmasını, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılmasını, xidmətlərin daha keyfiyyətli və müasir innovasiyalarla həyata keçirilməsini, korrupsiya və rüşvətxorluğun qarşısını almaq məqsədilə 2012-ci il 13 iyul və 5 sentyabr tarixli fərmanlar imzalamışdır. Həmin fərmanlarla Respublika Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və «ASAN xidmət» mərkəzləri yaradıldı və fəaliyyəti təşkil olundu. Həmin vaxtdan ölkəmiz güclü siyasi iradəyə əsaslanan sistem xarakterli mütərəqqi islahat tədbirləri, inkişaf tempi və yaradılan yeni, səmərəli, müasir xidmət modeli olan «ASAN xidmət» mərkəzlərinin fəaliyyəti ilə də dünyanın diqqətini özünə cəlb etdi.

Respublikamızda ümumbəşəri sosial bəla olan korrupsiyanın və rüşvətxorluğun qarşısının alınmasına xüsusi önəm verilərək, ölkə Prezidentinin siyasi iradəsi ilə bu sahədə ciddi mübarizə aparılır. Hazırda dünyanın diqqət mərkəzində olan «ASAN xidmət» mərkəzlərinin bu istiqamətdə fəaliyyəti yüksək qiymətləndirilir. Bu xidmət vasitəsilə vətəndaş məmnunluğuna yönələn şəffaf və elektron xidmətlərin tətbiqi getdikcə genişləndirilir. Dövlət başçısının təşəbbüsü ilə yaradılmış və Azərbaycanın brendi sayılan «ASAN xidmət» mərkəzlərinin uğurlu fəaliyyəti cəmiyyətimizdə, eləcə də beynəlxalq aləmdə təqdir olunur və bu təcrübə Azərbaycan modeli kimi böyük maraq doğurur. Operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında fəaliyyət göstərən «ASAN xidmət» mərkəzlərində kadrların bilik və bacarıqlarının, peşəkarlığının yüksəldilməsi, etik qaydalara dönmədən əməl olunması, ixtisaslarının artırılması daim diqqətdə saxlanılır. Agentliyin yaradılması ilk növbədə «vətəndaş dövlət qulluqçusu» münasibətlərinin inkişafı, vəzifəli şəxslərdə

yeni düşüncə tərzinin və fəaliyyət üslubunun formalaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Dünyada nadir təcrübə olan «ASAN xidmət» məhz Azərbaycan brendi kimi dünyada ad çıxarmış, bir sıra ölkələrdə bu mütərəqqi təcrübənin tətbiq edilməsi müzakirə mövzusuna çevrilmişdir. Onu da qeyd edək ki, «The Buisness Year» şirkəti tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin dünyada «İlin Prezidenti» elan edilməsindəki amillərdən biri də məhz «ASAN xidmət» modelinin yaradılması və səmərəli fəaliyyəti olmuşdur. Qeyd olunmuşdur ki, Azərbaycan həm özünün inkişaf nümunəsi, həm də brendləri ilə dünyada tanınan bir ölkəyə çevrilmişdir. Ölkəmizdə olan yüksək səviyyəli qonaqlar «ASAN xidmət»in fəaliyyətini böyük maraqla müşahidə edir, öz ölkələrində də belə bir modelin yaradılmasını arzu etdiklərini gizlətmirlər.

Azərbaycan brendi olan «ASAN xidmət»in fəaliyyətini Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya Parlamenti və digər ölkələrdə yüksək qiymətləndiriblər. Özünəməxsus hüquqi strukturun fəaliyyətini bir sıra beynəlxalq əməkdaşlar və tanınmış ekspertlər yüksək qiymətləndirmiş, bu qurumu «Azərbaycan modeli» adlandıraraq, aparıcı təcrübə kimi qeyd etmişlər. Avropa Şurasının Baş katibi Torbyorn Yaqland ölkəmizdə səfərdə olarkən «ASAN xidmət»mərkəzlərindən birinə gəlmiş, bu xidmətlə yaxından tanış olduqdan sonra demişdir:»ASAN xidmət» unikal modeldir və bütün Avropa ölkələri Azərbaycanın bu sahədə təcrübəsini öyrənməlidir. «ASAN xidmət» Avropaya həqiqətən də xoş təəssürat bağışlayıb».

Artıq Əfqanıstanda «ASAN xidmət» modelinin tətbiqinə qərar verilib. Azərbaycanın «ASAN xidmət»lə bağlı təcrübəsini öyrənən əfqan mütəxəssisləri hesab edirlər ki, bu modelin ölkələrində tətbiqi vətəndaşlara daha modern və çevik xidmət göstərməyə imkan verəcək.

Göründüyü kimi, «ASAN xidmət» artıq dünya dövlətlərində böyük maraq oyadıb. Təbii ki, belə bir modelin ilk dəfə Azərbaycanda yaradılması və qısa müddət ərzində beynəlxalq aləmdə nümunə kimi götürülməsi ölkəmizin uğurudur. Çünki dünya ictimaiyyətini də narahat edən bütün bürokratik əngəllər bu xidmət vasitəsilə aradan qaldırılır, vətəndaşlar vaxtilə yaşadıqları problemlərin, xüsusilə süründürməçiliyin, rüşvətxorluğun, uzun getgəlin və digər narahatlıq yaradan halların heç birini bu gün yaşamırlar. Bu vaxta qədər 10 milyon insanın bu xidmətdən yararlanması da bundan xəbər verir.

Dünyanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrinin ölkəmizə səfərləri zamanı onları maraqlandıran «ASAN xidməti»dir və ilk sualları da bu barədə olur. Avropanın «Neurope.eu» informasiya portalında Azərbaycan Prezidenti İlham Əliyevlə dərc olunan müsahibədə də əməkdaşı maraqlandıran Azərbaycanın müəllifi olduğu innovasiyalar olmuşdur. Həmin sualı cavablandıran dövlətimizin başçısı demişdir: «Biz dünyada mövcud olan texnoloji yenilikləri tətbiq etməklə yanaşı, özümüz də bəzi innovasiyaların yaradılması ilə bağlı təşəbbüslər göstəririk. Nümunə kimi, Azərbaycan brendi olan Vətəndaşlara Xidmətlər və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini və onun «ASAN xidmət» mərkəzlərini qeyd edə bilərik. «ASAN xid-

mət» vətəndaşların məmnunluğu prinsipinə əsaslanan və bir çox xidmətin bir mərkəzdə cəmləşdirildiyi təsisatdır. «ASAN xidmət» mərkəzlərinin fəaliyyət sferasına dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin səmərəli təşkili və bu sahədə idarəçilik sisteminin müasirləşdirilməsi daxildir. Bu mərkəzlər mütərəqqi hökumət-vətəndaş münasibətlərinin nümunəsidir. Mərkəzlər hazırda 25 sayda ictimai xidmət təklif edir. Təsadüfi deyil ki, bir il ərzində bir milyondan çox vətəndaş bu mərkəzlərə müraciət etmişdir. Buna görə də «ASAN xidmət» mərkəzlərinin təklif etdiyi xidmətlərin miqyasını genişləndirmək niyyətindəyik».

Bu gün hər bir vətəndaş «ASAN xidmət» fəaliyyətindən razılıq edir. İlk növbədə ona görə ki, bu qurum fəaliyyətə başlayandan uzun növbələrdə saatlarla dayanma, məmur kabinetlərinə ayaqdöymələr, müxtəlif idarələri gəzərək, arayışlar almaq, əsəbiləşmək, rüşvət üstündə mübahisələr etmək artıq tarixə qovuşub. Artıq insanlar bütün bu süründürməçiliklərdən tamamilə azad olublar. Hazırda bir çox məsələləri həll etmək, sənəd və ya hüquqi məsləhət almaq, notarius xidmətləri, VVAQ, kommunal xərclərin ödənməsi, bank və sığorta xidmətlərindən istifadə etmək, sürücülük vəsiqəsinin dəyişdirilməsi, doğum haqqında şəhadətnamə, şəxsiyyəti təsdiq edən sənədin alınması və digər xidmətlər üçün sadəcə «ASAN xidmət» mərkəzlərimizdən birinə müraciət etmək kifayətdir. Ümumilikdə «ASAN xidmət»ə 220 xidmət növü daxildir. «ASAN xidmət» mərkəzlərində vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanması üçün hər cür şərait yaradılıb. İnsanların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər göstərilir. Buraya bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, poçt şöbələri, fotostudiya daxildir. Xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Məqsəd dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının tam aradan qaldırılması, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiq olunması, dövlət qulluqçusu – vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – «dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» – yanaşmasının formalaşdırılmasıdır.

«ASAN xidmət» mərkəzlərində daha bir yenilik isə dövlət başçısının tapşırığına əsasən, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə tələb olunan xüsusi razılıq lisenziyasının verilməsi olub. Dövlətimizin başçısı «ASAN xidmət»in xalq tərəfindən böyük razılıqla qarşılandığını nəzərə alaraq, daha da genişləndiriləcəyini bildirib: «Hər bir sahədə şəffaflıq olmalıdır, yerli və mərkəzi icra orqanları, ilk növbədə, insanlara xidmət göstərməlidirlər, anlamalıdırlar ki, onlar insanlar üçün çalışırlar. Xalq tərəfindən onlara verilən qiymət, yəni, münasibət əsas meyardır. Mən onların fəaliyyətinə qiymət verəndə, ilk növbədə, bu amili nəzərə alıram və alacağam».

***Mənbə:*** www.xalqqazeti.com

# HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK TƏLİMİNDƏ AZƏRBAYCANÇILIQ

***Məlum olduğu kimi, ilk insan birliklərinin formalaşdığı yaşayış məskənlərindən biri hesab edilən Azərbaycan həm də qədim dövlətçilik ənənələrinə malik olan bir ölkədir. Bundan başqa, Azərbaycanda mütəfəkkir düşüncəsinin, siyasi və ədəbi təfəkkürün izləri də çox dərindir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev böyük tarixi keçmişi, möhkəm milli əsasları, geniş siyasi və ədəbi dünyagörüşü olan qədim və inkişaf etmiş bir xalqın çoxəsrlik və çoxcəhətli ənənələrinin meydana çıxardığı qüdrətli dövlət xadimidir.***

Əsrlər boyu Azərbaycanda baş vermiş ictimai-siyasi dəyişikliklər, ərazi bütövlüyü və milli müəyyənlik uğrunda aparılmış mübarizələr, region ölkələri ilə münasibətlər, idrak işığında keçilmiş çoxəsrlik yollar ədəbiyyatın, elmin, maarifçiliyin, incəsənətin mötəbər simalarını yetirdiyi kimi, böyük siyasətin də görkəmli yaradıcılarını ərsəyə gətirməli idi. Heydər Əliyev Azərbaycanın çoxəsrlik ictimai-siyasi təfəkkürünün formalaşdırılıb XX əsrdə meydana çıxardığı görkəmli dövlət xadimidir. Fikrimizcə, Heydər Əliyev Azərbaycanın Nizami Gəncəvidən və Bəhmənyardan, Atabəylərdən və Səfəvilərdən, Məhəmməd Füzulidən, Mirzə Fətəli Axundzadədən, Cəlil Məmmədquluzadədən, Hüseyn Caviddən Üzeyir Hacıbəyliyə qədər keçdiyi şərəfli və məsuliyyətli tarixi yolun qanunauyğun məntiqi nəticəsi kimi dünyaya gəlmiş möhtəşəm parlaq simadır.

Dünya miqyaslı Heydər Əliyev, hər şeydən qabaq, Azərbaycan hadisəsidir. O, çoxəsrlik tarixi və böyük ənənələri olan Azərbaycanın ölkəmizə və xalqımıza, bütövlükdə bəşəriyyətə bəxş etdiyi nadir tarixi şəxsiyyətdir. Geniş dünyagörüşə malik olan görkəmli dövlət xadimi Heydər Əliyevin çoxcəhətli fəaliyyətində milli və bəşəri dəyərlər vəhdətdə cəmləşmişdir.

Ümummili lider Heydər Əliyevin dövlətçilik təlimində azərbaycançılıq əsas, aparıcı yer tutur. O, azərbaycançılığı mənsub olduğu xalqın ən ali keyfiyyətlərini özündə birləşdirən siyasi-ideoloji və ümummilli dəyər olmaqla bərabər, həm də bəşəri düşüncəni zənginləşdirən, yüksək mənada insanlığa xidmət edən özünəməxsusluq kimi qəbul etmişdir. Heydər Əliyev ölkəmizdə çoxəsrlik azərbaycançılıq ideallarını milli dövlətçilik ideologiyası səviyyəsinə qaldıran ümummilli liderdir.

Ölkəmizdə ictimai və ədəbi fikirdə vətən və xalq anlayışının tarixi çox qədim olsa da, azərbaycançılıq məfkurəsinin meydana gəlməsi XIX əsrdən etibarən mövcud olmuşdur. Ölkəmizin ədəbiyyatı və mətbuatı Azərbaycan ölkəsi, Azərbaycan dili, azərbaycanlı, Azərbaycan milləti anlayışlarını XX əsrin əvvəllərində

daha da qüvvətləndirmişdir. Müstəqil dövlətçilik ideyası da həmin dövrdə qüvvətlənmiş, ədəbi düşüncədən siyasi təfəkkürə qədər yüksəlmiş və dərinləşmişdir. Azərbaycan Xalq Cümhuriyyəti məhz qüvvətli və davamlı milli ideallların işığında meydana çıxmışdır. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olduğu üçün azərbaycançılıq müstəqil dövlətin ümummilli ideologiyası səviyyəsinə gəlib çata bilməmişdi. Sovet hakimiyyəti illərində isə hakim kommunist ideologiyası azərbaycançılığı arxa plana keçirmiş, bunun əvəzinə ən yaxşı halda vətənpərvərlik ideyası ədəbiyyatda yaradılmışdır.

Məhz ümummilli lider Heydər Əliyev yaşadığı dövrün siyasi quruluşunun sərt qadağalarına baxmayaraq, azərbaycançılıq anlayışının geniş müstəvidə baxışlar sistemini formalaşdırmışdır. Heydər Əliyevin simasında tariximizdə ilk dəfə olaraq Azərbaycan məsələsinə dövlət səviyyəsində kompleks şəkildə yanaşılmış, problemə ardıcıl siyasi münasibət bəslənilmiş və konkret nəticələr əldə olunmuşdur. Azərbaycançılığın dövlət ideologiyası səviyyəsində formalaşdırılması və təsdiq edilməsi, qəbul olunması Heydər Əliyevin müstəqil dövlətçilik uğrunda mübarizəsinin əsas ana xətlərindən birini təşkil edir. Görkəmli dövlət xadimi Heydər Əliyev azərbaycançılıq siyasətini özünün çoxcəhətli fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürmüş, bu ideologiyanın xalqın milli şüurunda və dövlətçilik təfəkküründə inkişaf etdirilib möhkəmləndirilməsi işini həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Məhz Heydər Əliyevin çoxcəhətli və ardıcıl siyasəti sayəsində azərbaycançılıq ictimai-ədəbi mühitdə ümummilli hərəkat, siyasi müstəvidə dövlət ideologiyası mahiyyəti qazanmışdır.

Qeyd etdiyimiz kimi, çoxillik siyasi fəaliyyətinin bütün dövrlərində tarixin verdiyi şansların, yaratdığı imkanların hamısında Heydər Əliyev özünü Azərbaycana həsr etmiş, Azərbaycan idealı uğrunda daim mübarizə aparmışdır. Hələ Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə başçılıq etdiyi illərdən və sovet hakimiyyəti zamanı ölkəmizə rəhbərliyinin birinci dövründə böyük gələcək ümidi ilə milli dövlətçilik naminə həyata keçirdiyi genişmiqyaslı siyasi-ideoloji, iqtisadi-mədəni, ədəbi-tarixi tədbirlər sonrakı mərhələdə qazanılmış dövlət müstəqilliyinin möhkəm təməlini, etibarlı bünövrəsini təşkil etmişdir. Məlum olduğu kimi, orta əsrlərdə Səfəvilərin hakimiyyəti illərində azərbaycançılıq amili dövlət siyasətinin bütün istiqamətlərini deyil, müəyyən sahələrini əhatə edə bilmişdi. Azərbaycan xanlıqları dövründə də ölkə parçalandığı üçün vahid milli siyasətin həyata keçirilməsi mümkün olmamışdı. Çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra ölkədə ümumi maarifçilik sahəsində müəyyən irəliləyişlər olsa da, siyasi proseslərdə azərbaycançılıq pərdə arxasına keçirilmiş, milli faktorların imperiya maraqlarının içərisində əridilməsi siyasəti ön plana çəkilmişdir. Analoji siyasət So-

vetlər İttifaqı tərəfindən də eyni dərəcədə, hətta bir qədər də şiddətlə və “ustalıqla” gündəmdə saxlanılmışdır. Bütün bunlara əsasən qətiyyətlə demək olar ki, Azərbaycanın çoxəsrlik tarixində Heydər Əliyev qədər uzun müddət və ardıcıl şəkildə azərbaycançılıq siyasəti ilə məşğul olan ikinci bir dövlət xadimi olmamışdır. Azərbaycan SSR-in Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyindəki fəaliyyətini də nəzərə alsaq, demək olar ki, Heydər Əliyev qırx ildən artıq bir dövrdə azərbaycançılıq ideyası ilə dövlət işi səviyyəsində məşğul olmuşdur. Sovetlər İttifaqının rəhbərliyi ilə anlaşıqlı münasibətlər qurmağı bacarmış Heydər Əliyevin Azərbaycanı geridə qalmış aqrar respublikadan hərtərəfli inkişaf etmiş ölkəyə çevirməsi mühüm tarixi hadisədir. Eyni zamanda, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, konkret olaraq 1978-ci ildə Azərbaycan dilini ölkəmizin konstitusiyasına dövlət dili kimi daxil etdirməyə nail olması da misilsiz tarixi hadisələrdən biridir. Nəzərə almaq lazımdır ki, həmin dövrdə nəinki Orta Asiya respublikalarında, heç Siyasi Büroda böyük təmsilçiləri olan Ukraynada da xalqın dili dövlət dili səviyyəsinə çatdırıla bilməmişdi. Buna görə də Sovetlər İttifaqında vahid beynəlmiləlçilik prinsiplərinin həyata keçirildiyi bir zamanda Azərbaycan dilinin rəsmi olaraq dövlət dili kimi qəbul olunması çoxəsrlik dövlətçilik tariximizin nadir hadisəsidir. Azərbaycan dilinin sovet hakimiyyəti dövründə dövlət dili statusu qazanması Azərbaycan Respublikasının gələcək müstəqilliyinin mühüm təminatlarından biri idi. Bu hadisə Heydər Əliyevin dövlət xadimi olaraq hələ sovet hakimiyyəti illərindəki azərbaycançılıq idealının açıq və parlaq təzahürü, böyük qələbəsi idi. Bu yolla Heydər Əliyev keçmiş sovet rejimi dövründə bütün çətinliklərə baxmayaraq, ölkəmizdə milli istiqlal düşüncəsinin əsaslarını formalaşdırmaq kimi məsuliyyətli və şərəfli bir vəzifəni böyük ustalıqla həyata keçirmişdir. Bundan başqa, Sovetlər ölkəsi ilə münasibətləri tərs gələn milli istiqlalçıların Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun, xalq yazıçısı Mirzə İbrahimovun, böyük vətəndaş alim Abbas Zamanovun, xalq şairləri Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının böyük dayağı ölkə rəhbəri Heydər Əliyev olmuşdu. İndi Azərbaycan Respublikasının keçən əsrin yetmiş-səksəninci illərində baş verən əsas siyasi-iqtisadi, elmi-mədəni hadisələri yenidən təhlil edilərkən görünən və görünməyən bütün proseslərin alt qatında, fəlsəfəsində, mahiyyətində millilik amilinin, müstəqillik düşüncəsinin, milli dövlətçilik təfəkkürünün varlığını, mövcudluğunu çox aydın surətdə görmək olur. Lakin ən böyük dahilik çətin ideoloji məhdudiyyətlər mühitində həmin prosesləri yaşayıb-hazırlayıb həyata keçirərkən böyük gələcəyi görmək istedadına malik olmaqdan ibarət idi. Bu mənada Heydər Əliyev dövlətçilikdə qeyri-adi müdriklik və uzaqgörənlik istedadına malik olan qüdrətli liderdir. Bu böyük

dövlət xadiminin müdriklik və uzaqgörənliyinin hərəkətverici qüvvəsi Vətənə, xalqa, doğma torpağa sonsuz inam və məhəbbətdən, sınaqlardan çıxmış böyük siyasi təcrübədən yoğrulmuşdur. Heydər Əliyev keçdiyi çətin və şərəfli yolla Sovetlər İttifaqında beynəlmiləlçi ideologiyanın sərt dövlətçilik prinsipi kimi qəbul edildiyi dövrlərdə vətənpərvər dövlət xadimi olub, Kremlin zirvəsinə qədər yüksəlməyin mümkünlüyünü sübut etmişdir. Azərbaycanda Sovetlər İttifaqının ən sərt dövrlərində Heydər Əliyevin özünəməxsus bir siyasətlə azərbaycançılıq istiqamətində həyata keçirdiyi böyük tədbirlər gələcək dövlət müstəqilliyinin təməllərinə çevrilmişdir. Bütün bunlara görə Heydər Əliyev üçün uzaqgörən bir dövlət xadimi olaraq çökmüş sovet ideologiyasından yeni müstəqil dövlətçilik siyasətinə keçmək çətinlik yarada bilməmişdir. Keçmiş sovet dövlətinin mərkəzdəki və respublikalardakı rəhbərlərinin bir çoxlarının adları dağılmış imperiya ilə birlikdə arxivə getdiyi halda, Heydər Əliyevin portretləri milli azadlıq hərəkatının bayraqları ilə birlikdə meydanlarda yüksəklərə qaldırılırdı. Deməli, Azərbaycanda xalq hərəkatı, milli azadlıq mübarizəsi böyük dövlət xadimi Heydər Əliyevin böyük azərbaycançılıq ideallarından keçib gəlmişdi. Bu mənada Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqillik qazanmış gənc respublikaların demək olar ki, mütləq əksəriyyətinin rəhbərlərindən fərqli olaraq Heydər Əliyev və ümumiyyətlə Azərbaycan xüsusi bir "keçid dövrü" yaşamamışdır. Əksinə, Azərbaycan üçün Heydər Əliyev epoxasının birinci mərhələsi sovet sosialist sistemindən müstəqil dövlətçilik erasına keçid dövrü xarakteri daşımışdır. Milli ideologiyanın formalaşdırılması baxımından digər keçmiş sovet respublikalarının müstəqilliyin ilk illərində üzləşdikləri çətinlikləri uzaqgörən dövlət xadimi Heydər Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində Azərbaycan xalqı müstəqil dövlətçiliyi qazanana qədər yaşamışdı. Xalqın tələbi ilə yenidən rəhbərliyə qayıdan Heydər Əliyevin qüdrətinin işığında Azərbaycanda keçid prosesləri sürətlə getmiş, zaman etibarilə qısa bir müddətdən sonra ölkəmizdə müstəqil dövlət quruculuğu öz təbii, qanunauyğun məcrasına salınmışdır. Məhz buna görədir ki, Azərbaycan müstəqillik qazanmış keçmiş sovet respublikaları ilə müqayisədə milli ideologiya baxımından bir mərhələ qabaqdadır.

Azərbaycanın müstəqillik dövrünün vəzifələrini də görkəmli dövlət xadimi Heydər Əliyev dönmədən, qətiyyətlə həyata keçirmişdir. Cəmiyyət həyatında bütün sahələr üzrə dövlət idarəçiliyinin genişmiqyaslı islahatlarını apararaq yenidən qurmaq işinin baş memarı Heydər Əliyev oldu. Məktəb islahatları da, torpaq islahatları da, geniş mənada cəmiyyəti yeniləşdirməyin, möhkəmləndirməyin təməl prinsipləri də Heydər Əliyev tərəfindən qətiyyətlə həyata keçirilmişdir. Heydər Əliyev keçmiş sovet hakimiyyəti ilə yeni müstəqil dövlətçilik anlayışı ara-

sında elə bir möhkəm sədd yaratdı ki, daha heç kəsdə bir daha geriyə qayıtmağa cürət və cəsarət qalmadı. Uzaqdan-yaxından Azərbaycanı parçalamaq niyyətində olanlar da Heydər Əliyevə dərindən inam bəsləyən və onun ətrafında sıx birləşən xalqın bütövlüyünün qarşısında geri çəkilməyə məcbur oldular. Çox mürəkkəb ictimai-siyasi şəraitdə çevriliş cəhdləri, separatçılıq meyilləri ilə çıxış edən hərbi müxalifətlə demokratik müxalifəti bir-birindən ayıraraq, özgə dəyirmanların daşını fırlatmağa can atanların arxlarını kəsməklə Heydər Əliyev müstəqil hüquqi dövlətin çarxının dünyəvi prinsiplər əsasında ahəngdar işləməsini təmin etməyi bacarmışdır. Görkəmli dövlət xadiminin Naxçıvan Muxtar Respublikasındakı fəaliyyəti dövrü Azərbaycanda müstəqil dövlət quruculuğunun laboratoriyası funksiyasını daşımışdır. Bu məsuliyyətli və şərəfli illər Azərbaycan dövlətçiliyinin çətin və zəruri sınaq mərhələsi idi. Naxçıvan Ali Məclisinin Sədri kimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında qəbul etdiyi tarixi qərarlar o zamankı Azərbaycan rəhbərliyi üçün "yolverilməz hallar" səviyyəsində anlaşılsa da, xalqımız tərəfindən ölkənin gələcəyinə, müstəqilliyin yaşadılacağına böyük ümidlər kimi qəbul edilmişdi. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin rəhbərliyinə vətənpərvər Azərbaycan xalqının arzularının və ümidlərinin dalğasında gəlmişdi. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Azərbaycanı rəsmi və ya qeyri-rəsmi olaraq tanımamışdan çox qabaq Heydər Əliyevi tanıdıqları üçün qısa müddətdə ölkəni də tanımalı oldular və Azərbaycan dünya birliyində öz yerini tuta bildi. Bu mənada Naxçıvan möhtəşəm Heydər Əliyev abidəsinin pyedestalı, Bakı böyük baş meydanı, bütövlükdə Azərbaycan isə onun əzəmətli heykəlidir. Heydər Əliyev ölkəmizin bütün hüdudlarını əhatə edən Azərbaycan xəritəsidir. Yaxud da Heydər Əliyev dünya xəritəsində Azərbaycanın nadir kompasıdır. Azərbaycanın yerini göstərmək üçün Heydər Əliyevi tanımaq yetərli idi. Bütün bunlara görə azərbaycançılıq ideologiyası Azərbaycan tarixinə Heydər Əliyevin dövlətçilik təlimi kimi daxil olmuşdur. Azərbaycanın dövlət müstəqilliyinin inkişaf etdirilməsi təliminin möhkəm əsasları da Heydər Əliyev tərəfindən yaradılmışdır.

Azərbaycanda milli birlik və həmrəylik ideyasının həyata keçirilməsi də azərbaycançılıq idealına xidmətin ifadəsidir. Azərbaycan dili anlayışı kimi, Heydər Əliyevin kəşfi olan Azərbaycan xalqı anlayışının da ölkəmizdə bərqərar olması müstəqil dövlətin daxili sabitliyinin təmin edilməsinə, tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir. Heydər Əliyevin adı ilə bağlı olan Azərbaycan xalqı anlayışı azərbaycançılıq prinsiplərinin ölkəmizdəki bütün etnik qruplar tərəfindən vahid prinsip kimi qəbul edilməsinə imkan yaradan müdrik bir dövlətçilik təlimidir.

Dünya azərbaycanlıları anlayışı da Azərbaycanın çoxəsrlik dövlət siyasətində

Heydər Əliyevin adı ilə bağlı olan mühüm xidmətlərdən biridir. Sovet hakimiyyəti illərində mövcud rejimin yaratdığı çətinliklərə baxmayaraq, məhdud şəkildə olsa da, dünya azərbaycanlıları ilə yaradılan əlaqələrin cığırları dövlət müstəqilliyinin ilk illərindən etibarən genişləndirilmiş, yeni əlaqələr yaradılmış, dünya azərbaycanlılarının birliyinə və həmrəyliyinə doğru böyük addımlar atılmışdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən görkəmli dövlət xadimi Heydər Əliyevin "31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik günü haqqında" imzaladığı 16 dekabr 1991-ci il tarixli qərar son yüzillikdə dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin varlığını təsdiq edən və onlarla əlaqələrin zəruriliyini dövlət səviyyəsində rəsmiləşdirən ilk mühüm qərar kimi xüsusi əhəmiyyətə malikdir. Bu, dünya azərbaycanlılarının həmrəyliyinin dövlət tərəfindən verilmiş birinci bəyannaməsi idi. "Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik günü haqqında"kı qərar muxtar respublika Ali Məclisi tərəfindən verilsə də, bütövlükdə Azərbaycanda, geniş mənada dünyada soydaşlarımız, həmvətənlərimiz arasında geniş əks-səda doğurmuşdur. Beləliklə, dünya azərbaycanlılarının hər ilin 31 dekabrında Yer kürəsinin müxtəlif qitələrində qeyd etdikləri həmrəylik günü həmvətənlərimizin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi uğrunda səylərinin birləşdirilməsinə, ölkəmizin reallıqlarının beynəlxalq aləmdə yayılmasına geniş meydan açan dövlət əhəmiyyətli proqram statusu qazanmışdır.

Ölkəmizdə 2001, 2006 və 2012-ci illərdə dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi də möhtəşəm siyasi-tarixi hadisələrdir. Ulu öndərə məxsus "Dünya azərbaycanlılarının bir vətəni var, bu Azərbaycandır" kəlamı müasir dövrün azərbaycançılıq təliminin siyasi-ideoloji əsasını təşkil edir. Dünya azərbaycanlılarının birinci qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tarixi nitqi azərbaycançılıq məfkurəsinin siyasi manifestidir. Heydər Əliyevin azərbaycançılıq təlimi dünya azərbaycanlılarını tarixi vətən və vahid ideologiya ətrafında birləşdirir. Bundan başqa, Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli fərmanı ilə Xarici Ölkələrdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin, yaradılması dünya azərbaycanlılarının diaspor fəaliyyətinin təşkilinin milli dövlət siyasəti səviyyəsinə qaldırıldığına sübutdur. Azərbaycan diasporunun formalaşması və inkişafı sahəsində qazanılan nailiyyətlər məhz həyata keçirilən həmin siyasətin bəhrələridir. Azərbaycanın xarici siyasətinin uğurla həyata keçirilməsində dünya ölkələrindəki diaspor təşkilatlarımızın səmərəli fəaliyyəti atılmış addımların uzaqgörənliyini bir daha təsdiq edir. Heydər Əliyevin müdrik siyasəti azərbaycançılığı ölkə sərhədlərindən dünya birliyi səviyyəsinə çatdırmışdır. Azərbaycançılıq dünyada yaşayan

bütün azərbaycanlıların birliyinin və həmrəyliyinin ideologiyasıdır. Görkəmli dövlət xadimi Heydər Əliyev ölkə miqyasında və dünya azərbaycanlıları müstəvisində azərbaycançılığın ən uca zirvələrini fəth etmişdir. Sözün obrazlı mənasında Heydər Əliyev dünyada azərbaycançılığın rəmzinə çevrilmişdir.

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir. Beləliklə, möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur. Ölkəmizin Prezidenti İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.

Artıq hər kəsə yaxşı məlumdur ki, ulu öndər Heydər Əliyevin dövlətçilik təliminə uyğun olaraq milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması Prezident İlham Əliyev siyasətinin təməl prinsipidir. Dövlət rəhbəri İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini təşkil edir. İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətinin əsaslarını müəyyən edən, təzə istiqamətlər açan, yol göstərən görkəmli siyasi liderdir. Dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin olması müstəqil ölkənin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.

Görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli, müstəqil dövlətçilik təlimi, sınaqlardan çıxmış bu siyasi kurs Prezident İlham Əliyevin çoxcəhətli fəaliyyətinin strategiyasını təşkil edir. Heydər Əliyev siyasi kursu Azərbaycan dövlətinin ümummilli inkişaf strategiyasının nəzəri-ideoloji əsaslarından ibarətdir. Heydər Əliyev təlimi ölkəmizin və xalqımızın dirçəliş və tərəqqi yolunun uzunmüddətli proqramıdır. Heydər Əliyev fəlsəfəsi Azərbaycan idealının ölkənin çoxcəhətli inkişafında özünütəsdiqinin dialektikasından ibarətdir. Ölkə Prezidenti İlham Əliyev Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, ardıcıllıqla və yaradıcılıqla həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və istedada malikdir. Böyük sürətlə yeniləşən Bakı şəhəri, Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm

layihələr Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu, Şimal-Cənub dəhlizi hər gün müasirləşən Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə, ardıcıllıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni dövrün və müasir Azərbaycanın reallıqları ilə daha da zənginləşdirən görkəmli siyasi xadimdir. Ümummilli lider Heydər Əliyevdən sonrakı tarixi mərhələnin meydana çıxardığı siyasi-ictimai reallıqlar, iqtisadi-hərbi proseslər, ideoloji-etnik problemlər mövcud siyasi kursun işığında hadisələrin və gedişatların yenidən dəyərləndirilməsini tələb etdiyi məqamlarda Prezident İlham Əliyev istənilən məsələyə yaradıcı münasibət bəsləməyi, yeni müstəvidən yanaşmağı müvəffəqiyyətlə həyata keçirir. Bu mənada İlham Əliyev daim inkişafda olan, yeniləşib zənginləşən Heydər Əliyevçi siyasi təlimin, yeni dövlətçilik nəzəriyyəsinin yaradıcısıdır. İlham Əliyev mövcud siyasi kursun inkişaf edən yeni epoxa ilə şərtlənən yeni dövrünün lideri səviyyəsində görkəmli təmsilçisidir. İlham Əliyev Azərbaycanın sınanılmış yolu olan Heydər Əliyev yolunun böyük magistrallardakı qüdrətli sükançısıdır. Məhz İlham Əliyev yeni dünya düzənində Azərbaycana baş ucalığı gətirən, ölkəmizi daimi irəli aparan böyük siyasətçidir. Azərbaycanın yeni tarixi epoxadakı müasir həyatı, qazanılan möhtəşəm nailiyyətlər Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir. Bakının tez-tez keçirilən genişmiqyaslı böyük və əhəmiyyətli tədbirlərə layiqincə evsahibliyi etməsi də Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin real göstəricilərindəndir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda yüksək səviyyədə təşkili və keçirilməsi Azərbaycanın yeni tarixi dövrdə Yer kürəsinin böyük çağırış və məqsədlərinin dünyadakı əsas mərkəzlərindən biri olduğunu nümayiş etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sivilizasiyalar Alyansının Qlobal Forumundakı tarixi nitqi geniş mənada sivilizasiya anlayışının müasir konsepsiyasının parlaq ifadəsidir. “İnklüziv cəmiyyətlərdə birgəyaşayışı: çağırış və məqsəd” mövzusuna həsr edilmiş ilin ən böyük forumunun ən mühüm, əsaslı, müasir reallıqlara hesablanmış və gələcəyə ünvanlanmış nitqini bəyan edən Azərbaycan Respublikasının Prezidenti həm də XXI əsrin müdrik və uzaqgörən dövlət liderlərindən biri olduğunu nümayiş etdirmişdir: “Bizim aramızda bölüşdürəcəyimiz heç nə yoxdur. Hamımız eyni planetdə yaşayırıq. Bütün xalqlar sülh, əmin-amanlıq və təhlükəsizlik şəraitində yaşamağı, ailələrini qorumağı, övladlarını böyütməyi arzulayır. Bütün dinlər eyni dəyərləri insanlıq, mərhəmət, həmrəylik və sülhü təbliğ edir. Bu gün dünyanın tələb etdiyi səylərimizin birləşdirilməsidir. Bugünkü toplantı, bu forum multikulturalizm ideyasının beynəlxalq ictimaiyyət

tərəfindən güclü dəstəklənməsinin aydın göstəricisidir".

Tarixə "Bakı prosesi", "Bakı bəyannaməsi" kimi daxil olmuş beynəlxalq sənədlərin və çağırışların Azərbaycanda baş verməsi Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin böyük təntənəsidir.

Məhz dövlət səviyyəsində meydana çıxan belə addımlar Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsinin, beynəlxalq miqyaslı qərarlara imza atmaq, dünyaya müraciətlə bəyanatlar səsləndirmək haqqı qazanmasının, Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsinin əsasına çevrilmişdir. Bütün bunlar Prezident İlham Əliyevin timsalında inanılmış, sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunun ardıcıllıqla, qətiyyətlə, yaradıcılıqla davam etdirilməsinin nələrə qadir olduğunun, ölkəmizi hansı səviyyəyə gətirib çatdıra biləcəyinin gerçək təzahürləridir. Beynəlxalq aləmdə böyük nüfuz qazanmış İlham Əliyev dünyanın qəbul etdiyi Azərbaycan adlı möhtəşəm əsərin yaradıcısıdır. Eyni zamanda həm də dünyada söz sahibi olan, qəbul edilmiş liderlərdən biridir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılıq təlimində millətlərarası münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi məsələləri xüsusi yer tutur. Azərbaycan çoxmillətli dövlət olduğu üçün millətlərarası münasibətlərin tənzimlənməsi ölkədə əsas məsələlərdən biri idi. Millətlərarası münasibətləri tənzimləmədən ölkədə milli birliyə, vətəndaş həmrəyliyinə nail olmaq mümkün deyildi. Bu mənada Heydər Əliyev üçün millətlərarası münasibətlər məsələsi azərbaycançılığın üzvi tərkib hissəsi olmuşdur. Ulu öndər geniş mənada ölkəmizdə azərbaycançılıq ideyasını həyata keçirərək daha da möhkəmləndirmək üçün millətlərarası münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi işinə dövlət siyasətinin tərkib hissəsi kimi xüsusi diqqətlə yanaşmışdır. Sovet hakimiyyəti illərində ölkədə yaşayan müxtəlif xalqların nümayəndələri üçün bərabər iş və təhsil şəraiti yaradılmışdır. Bundan başqa, müstəqillik dövründə Azərbaycanda mövcud olan ayrı-ayrı dinlərin daşıyıcılarına dövlət səviyyəsində eyni münasibət bəslənilmişdir. Ulu öndər islam dini ilə yanaşı ayrı-ayrı dinlərə aid ibadət və inanc yerlərinin qorunub saxlanılmasına şərait yaratmış, həmin məbədgahlar təmir və ya bərpa edilərək xalqın istifadəsinə vermişdir. Beləliklə, ölkəmizdə yaşayan yəhudilər, udilər, ingiloylar, talışlar, ləzgilər və başqa millətlərin nümayəndələri özlərini Azərbaycanda çox rahat hiss etmiş, buranı özlərinə əbədi vətən seçmişlər. Bu yolla Heydər Əliyevin azərbaycançılığın üzvi tərkib hissəsi kimi inkişaf etdirdiyi millətlərarası münasibətlər zəminində XX əsr boyu Azərbaycanda nəinki heç bir xoşagəlməz hadisə baş verməmiş, hətta ayrı-ayrı xalqların münasibətləri qohumluq səviyyəsində daha da möhkəmlənmişdir. Bütün bunlar Heydər Əliyevin çoxmillətli cəmiyyətdə apar-

dığı ardıcıl millətlərarası münasibətlər siyasətinin uğurlu nəticələridir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, azərbaycançılıq, millətlərarası münasibətlər dinlərarası dialoq və tolerantlıq sahəsində də görkəmli dövlət xadimi Heydər Əliyevin açdığı yollar, formalaşdırdığı ənənələr, müəyyən etdiyi istiqamət müstəqilliyin yeni tarixi epoxasında da yaradıcı şəkildə, ardıcıllıqla davam və inkişaf etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qətiyyətlə həyata keçirdiyi azərbaycançılıq siyasəti əslində Heydər Əliyev təlimi ilə üst-üstə düşür və bir-birini tamamlayır. Azərbaycançılıq Heydər Əliyevçiliyin başlıca məzmununu və fəlsəfəsini tam şəkildə əks etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı Heydər Əliyevçilik azərbaycançılıq siyasətinin vəhdətdə, üzvi əlaqədə nəzərə alınmasını, birlikdə dərindən və əsaslı şəkildə qavranılmasını əhatə edir. Bundan başqa, cəmiyyət hadisələrinə yaradıcılıqla yanaşan Prezident İlham Əliyev azərbaycançılıq Heydər Əliyev təlimini daim yeni ideyalarla, zəruri müddəalarla zənginləşdirərək daha da inkişaf etdirir. Bu mənada dövlət başçısının həyata keçirdiyi genişmiqyaslı və məqsədyönlü azərbaycançılıq Heydər Əliyevçilik siyasəti müasir dünyanın və yeni Azərbaycanın reallıqları, çağırışları ilə daha da zənginləşdirilərək inkişaf etdirilmiş müasir təlimdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılığın üzvi tərkib hissəsi kimi həyata keçirdiyi millətlərarası münasibətlər siyasətinin müstəqillik illərinin sonrakı mərhələsində multikulturalizm siyasəti səviyyəsində təbliğ edilməsinə və daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir. Azərbaycanda vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsinə və inkişafına xidmət edən multikulturalizm siyasəti ölkəmizdə yaşayan ayrı-ayrı xalqların möhkəm birgəyaşayışının təmin edilməsində mühüm rol oynayır. Azərbaycanda məskunlaşmış bütün xalqlar üçün yaradılmış bərabər şərait bizdə normal və ahəngdar çoxmillətli cəmiyyətin formalaşmasında mühüm rol oynamışdır.

Bundan başqa, ulu öndər Heydər Əliyevin təlimində xüsusi əhəmiyyətə malik yer tutan dinlərarası dialoq siyasəti müasir dövrdə daha da inkişaf etdirilərək tolerantlıq səviyyəsinə çatdırılmışdır. Dinlərarası dialoqun yaradıcılıqla inkişaf etdirilməsinin davamı kimi formalaşmış tolerantlıq siyasəti hazırkı mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin azərbaycançılıq təlimində əsas müddəalardan biri kimi mühüm yer tutur. Tolerantlıq dini dözümlülük müstəqil Azərbaycan dövlətinin yeni tarixi mərhələdəki dövlət siyasətinin ana maddələrindən biridir. Azərbaycan Respublikasının Konstitusiyasına görə ölkəmizdə dinin dövlətdən ayrı olmasına baxmayaraq, dinlərarası münasibətlər dövlət səviyyəsində vahid qaydada tənzimlənir. Müxtəlif dinlərin daşıyıcıları olan şəxslər, ailələr, icmalar, qurumlar arasında dostluq, əməkdaşlıq, mehriban insani münasibətlər

hökm sürür. Bu, hazırda yer üzündə analoqu olmayan və ya çox az mümkün olan əhəmiyyətli bir nəticədir. Bu, görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən millətlərarası münasibətlər və dinlərarası dialoq sahəsində möhkəm əsasları yaradılmış, böyük təməlləri atılmış bu işin yaradıcılıqla inkişaf etdirilməsinin mühüm yekunudur. Bu, ölkəmizdə Prezident İlham Əliyevin apardığı düşünülmüş siyasətin böyük bəhrəsidir. Məhz Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət multikulturalizmi və tolerantlığı ölkə həyatının zəruri faktoruna çevirmişdir. Ona görə də ölkəmizdə artıq multikulturalizmin Azərbaycan modeli formalaşmışdır. Multikulturalizmin Azərbaycan modeli Azərbaycanda sabit və məqsədyönlü şəkildə inkişaf edən müasir cəmiyyətin əsas hərəkətverici qüvvələrindən biridir. Nəticə etibarilə azərbaycançılığın ayrılmaz tərkib hissəsi olan multikulturalizm və tolerantlıq müasir Azərbaycan cəmiyyətinin bütöv mənəvi simasını müəyyən edir.

Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda multikulturalizmin mahiyyəti və əhəmiyyəti haqqındakı aşağıdakı fikirləri və qənaətləri bu istiqamətdə aparılmış məqsədyönlü siyasətin əsas yekunlarını və başlıca vəzifələrini çox dolğun şəkildə ifadə edir: "Multikulturalizmin alternativi yoxdur. Əlbəttə bizə məlumdur ki, bununla bağlı müxtəlif fikir və baxışlar var. Bəziləri multikulturalizmin iflasa uğradığını iddia edirlər. Ancaq müasir nümunələr var. Bizim üçün multikulturalizm dövlət siyasətidir və həyat tərzidir. Multikulturalizm dəyərlərinin gücləndirilməsi, hesab edirəm ki, müasir siyasətin çox müsbət meyli olacaqdır. Bütün məsuliyyətli siyasətçilər bu müsbət dinamikaya töhfələrini verməlidirlər".

Beləliklə, əsası ulu öndər, görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil dövlətdə azərbaycançılıq ideologiyası təlimi müasir Azərbaycanda dövlət səviyyəsində inkişaf etdirilərək dünyaya örnək ola biləcək yüksək şəkildə yaradıcılıqla davam və inkişaf etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə bərqərar etdiyi real multikultural mühit və tolerantlıq şəraiti milli-mənəvi birliyin, həmrəylik və qarşılıqlı münasibətlərin, azərbaycançılıq təliminin daha da inkişaf etdirilməsinə işıq salır. Bu isə ölkəmizin bütün sahələr üzrə hərtərəfli ahəngdar inkişafının təmin edilməsinin möhkəm əsaslarını təşkil edir və dünya birliyində Azərbaycanı əhəmiyyətli dövlətlərdən birinə çevirir.

**İsa HƏBİBBƏYLİ,**
**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik.**

***Mənbə:***
www.azerbaijan-news.az

# HEYDƏR ƏLİYEVİN MÜƏLLİFİ OLDUĞU KONSTİTUSİYA İNSAN HÜQUQ VƏ AZADLIQLARININ ETİBARLI TƏMİNATÇISIDIR

**Çoxsaylı nailiyyətləri və kataklizmləri ilə tarixə qovuşan XX əsr meydana gətirdiyi millətlərarası və dövlətlərarası ziddiyyətlərin güclənməsi ilə yanaşı, ksenofobiyanı və ekstremizmi ehtiva edən ümumbəşəri və qlobal problemlərlə də yadda qaldı. Bu baxımdan XXI yüzillikdə dünyada əks proses olaraq milli özünəməxsusluğun, mental-əxlaqi xüsusiyyətlərin qorunub saxlanılması, kütləvi mədəniyyət stereotiplərindən qaçma meyillərinin güclənməsi də təsadüfi deyil. Bir çox ölkələrin dini ekstremizm, ksenofobiya, aqressiv islamofobiya, millətçilik problemlərindən əziyyət çəkdiyi hazırkı dövrdə tolerantlıq artıq sonsuz dözümlülüyün təbliği kimi deyil, zorakılığa, qanunsuzluğa qarşı qəti çıxış, həyata fəal münasibət və insanın danılmaz hüquqlarının tanınması kimi başa düşülür.**

Bu gün bəşəri miqyasda tolerant dəyərlərə münasibət hər bir ölkənin demokratik və sivil məramlara, habelə xalqların birgəyaşayış normalarına münasibətinin bariz təcəssümünə çevrilmişdir. Beynəlxalq anlayışda multikulturalizm eyni ölkədə yaşayan xalqların mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasət kimi qəbul olunur. Məsələyə bu prizmadan yanaşdıqda Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şəraitin yaradıldığını görürük. Tarixən sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu Azərbaycanda etnoslararası ənənəvi dostluq münasibətləri, qarşılıqlı mədəni-mənəvi zənginləşmə, vahid vətənçilik təfəkkürü ətrafında inteqrasiya zaman-zaman Azərbaycanda unikal etno-mədəni və etno-siyasi münasibətlər sistemini, etnik-dini müxtəlifliyə və zəngin milli-mənəvi dəyərlərə malik vahid bir cəmiyyət tipini, mükəmməl dözümlülük mühitini formalaşdırmışdır.

Azərbaycan cəmiyyətinə əsrlər boyu xas olan böyük sərvətlərdən biri də məhz tolerantlıqdır. Ümummilli lider Heydər Əliyevin "Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var" sözləri bu baxımdan xalqımızı dəqiq xarakterizə edir.

Azərbaycan müxtəlif xalqların və dinlərin unikal məkanı, nadir birliyidir. Bu birliyin tarixində etnik və ya dini zəmində toqquşmalar və diskriminasiyalar olmayıb. Ölkəmizdə yaşayan xalqlar öz milli mədəniyyətlərini, dillərini inkişaf etdirmək imkanlarına malikdirlər. Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan hər zaman harmonik mövcud olan, müxtəlif, bir-birini tamamlayan və vahid mədəniyyəti formalaşdıran, dünyada multikulturalizmin xüsusi, ən uğurlu modellərindən birinin bərqərar olduğu ərazi olub.

Dahi Heydər Əliyev ölkəmiz üçün taleyüklü azərbaycançılıq konsepsiyasını hazırlayarkən məhz Azərbaycan cəmiyyətinin

bu tarixi xüsusiyyətinə, xalqımıza xas olan dəyərlərə söykənib. Ulu öndər vurğulayırdı: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".

Ötən əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin siyasi iradəsi sayəsində tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə yüksəltdi. Onun irəli sürdüyü, əsas tərkib hissəsinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş azərbaycançılıq konsepsiyası ölkədə çoxmillətli, çoxkonfessiyalı, çoxmədəniyyətli mühiti təmin etdi, vətəndaşların vahid bayraq altında birləşməsində həlledici rol oynadı.

Cəmiyyətimizdə əsrlər boyu mövcud olan tolerantlıq, müxtəlif xalqların və konfessiyaların nümayəndələrinə hörmətlə yanaşılması, cəmiyyətin multikultural xarakteri Heydər Əliyevin dövlətçilik dühası, onun siyasi bəsirəti və uzaqgörənliyi sayəsində siyasi və hüquqi prinsiplər cərgəsinə yüksəlib, Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətləri kimi qəbul edilib. Bu mənada "Heydər Əliyev müstəqil Azərbaycanda multikulturalizmin banisidir" fikrini əsaslandırmaq məqsədilə hüquqi-siyasi əhəmiyyət kəsb edən bəzi mühüm faktları və bu sahədə qəbul edilmiş fundamental normativ-hüquqi aktları sadalamaq və təhlil etmək faydalı olardı:

Ulu öndər hələ 1993-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasında ziyalılarla görüşündə ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması məsələsinə toxunmuşdu. Üzünü təkcə ziyalılara yox, ziyalıların timsalında bütün Azərbaycan xalqına tutaraq demişdi: "Azərbaycanda insan azadlığı, təşəbbüs azadlığı, din azadlığı, dil azadlığı, sahibkarlıq azadlığı bütün azadlıqlar təmin olunmalı, insan hüquqları, insan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir".

Ulu öndər etnik, din, dil, cins ayrıseçkiliyi salmadan Azərbaycan xalqının hər bir nümayəndəsinin rahat, azad və əmin-amanlıq şəraitində yaşaması üçün səy və bacarığını əsirgəmir, bu istiqamətdə iqtisadi-siyasi, sosial-mədəni dövlət siyasəti həyata keçirirdi.

Türk, fars, ərəb, kürd, ləzgi, talış, gürcü, rus, erməni dillərində müntəzəm yayımlanan radioverilişlər bu gün də dövlət büdcəsi hesabına maliyyələşdirilir.

Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildə hazırlanaraq referendumda qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörməti təmin edir, bütün ölkə vətəndaşlarının qanun qarşısında bərabər olduğunu təsdiqləyir.

Konstitusiyanın 21-ci maddəsinin II hissəsinə (Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir) uyğun olaraq

"Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunun bir sıra müddəalarında dövlət dilinin tətbiqi və istifadəsi ilə yanaşı, digər dillərdən də istifadə olunması müəyyən edilmişdir. Qanunun 5.2-ci maddəsinə əsasən, Azərbaycanda başqa dillərdə təhsil müəssisələrinin fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Konstitusiyanın 25-ci maddəsinin III bəndinə görə, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquq və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Konstitusiyanın 44-cü maddəsinə əsasən, "Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz". Eyni zamanda, Əsas Qanunun 45-ci maddəsində deyilir: "Hər kəsin ana dilindən istifadə etmək hüququ, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz".

Konstitusiyanın 47-ci, 48-ci, 49-cu və 58-ci maddələrində Azərbaycan Respublikası ərazisində yaşayan şəxslərin "Fikir və söz azadlığı", "Vicdan azadlığı", "Sərbəst toplaşmaq azadlığı" və "Birləşmək hüququ" təsbit edilmişdir. Həmin müddəalarda şəxsin etnik mənsubiyyətindən asılı olaraq, hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır.

Azərbaycan Respublikasında mülki, cinayət, inzibati xətalar haqqında işlər üzrə icraat Azərbaycan dilində, yaxud müəyyən ərazidəki əhalinin çoxluq təşkil edən hissəsinin dilində aparılır. İşdə iştirak edən, məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslər ana dilində və ya bildiyi hər hansı başqa dildə məlumat, izahat, şikayət və ya vəsatət vermək hüququna, habelə Cinayət-Prosessual, İnzibati Xətalar və Mülki-Prosessual məcəllələri ilə müəyyən edilmiş qaydada tərcüməçinin xidmətlərindən istifadə etmək hüququna malikdirlər.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyi milli zəmində törədilə biləcək cinayətlərə görə məsuliyyət müəyyən etmişdir.

Cinayət Məcəlləsinin 154-cü maddəsi insan və vətəndaşların Konstitusiyada təsbit olunmuş bərabərlik hüququnu pozmağa görə məsuliyyət müəyyən edir. Bu maddəyə əsasən, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər vurmaqla şəxsin bərabərlik hüququnu pozma cinayət məsuliyyəti yaradır.

Cinayət-Prosessual Məcəllənin 11-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında cinayət prosesi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir. Cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən şəxslərdən hər hansı birinə

vətəndaşlıq, sosial, cinsi, irqi, milli, siyasi və dini mənsubiyyətindən, dilindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, yaşayış yerindən və olduğu yerdən asılı olmayaraq və qanunla əsaslandırılmamış digər mülahizələrə görə üstünlük vermir. Bu məcəllənin 26-cı maddəsinə əsasən, Azərbaycan Respublikası məhkəmələrində cinayət-mühakimə icraatı dövlət dilində və ya müvafiq ərazinin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır.

Mülki-Prosessual Məcəllənin 11-ci maddəsinə əsasən, mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı dövlət dilində Azərbaycan dilində və ya müəyyən ərazi əhalisinin əksəriyyətinin dilində aparılır.

Ölkəmizdə multikulturalizmin və tolerantlığın əsas amili həm də dinlərin qanun qarşısında bərabərliyidir. Dini etiqadından asılı olmayaraq, hamının qanun və məhkəmə qarşısında bərabər olması xüsusi qanunvericiliyə aid olan bir çox normativ hüquqi aktlarda da nəzərdə tutulmuşdur. Məsələn, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 16.1-ci maddəsində, Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 8.2-ci maddəsində, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 6.1-ci maddəsində, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 7.1-ci maddəsində, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 11-ci maddəsində, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1.9-cu maddəsində və bir çox digər qanunvericilik aktlarında bu barədə normalar yer alıb.

Ailə Məcəlləsinin 2.4-cü maddəsinə əsasən, nikaha daxil olarkən və ailə münasibətlərində sosial, irqi, milli, dini və dil mənsubiyyətinə görə vətəndaşların hüquqlarının hər hansı formada məhdudlaşdırılması qadağandır.

Seçki Məcəlləsinin 3-cü maddəsinə əsasən, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən və qanunla nəzərdə tutulmuş digər əsaslardan asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ var.

Göründüyü kimi, insan və vətəndaş hüquq və azadlıqlarının irqi, milli, dini və digər əsaslara görə məhdudlaşdırılmasının yolverilməzliyi prinsipi Konstitusiya ilə yanaşı, Cinayət, Cinayət-Prosessual, Mülki-Prosessual, Ailə, Əmək məcəllələrində və digər qanunvericilik aktlarında təsbit edilmişdir. Azərbaycanda fəaliyyət göstərən müəssisə və təşkilatlarda çalışan işçilərin, o cümlədən də milli azlıqların nümayəndələrinin əmək, məşğulluq və sosial hüquqlarının qorunmasına dövlət nəzarəti bu sahəyə aid olan normativ hüquqi aktların tələblərinə uyğun həyata keçirilir.

Eyni zamanda “Kütləvi informasiya vasitələri haqqında” qanunun 10-cu maddəsinə əsasən, milli, irqi, sosial ədavəti, yaxud dözülməzliyi təbliğ etmək məqsədilə KİV-dən istifadəyə yol verilmir.

“İctimai televiziya və radio yayımı haqqında” qanunun 7.0.7-ci maddəsinə uyğun olaraq, dini və irqi ayrı-seçkiliyi təbliğ edən proqramların yayımlanmaması ictimai yayımçının vəzifəsi kimi müəyyən olunmuşdur.

1999-cu il 26 noyabr tarixli “Notariat haqqında” Azərbaycan Respublikasının

Qanununa müvafiq olaraq, notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxs dövlət dilini bilmirsə və ya notariat hərəkətinin hər hansı başqa dildə aparılmasını xahiş edirsə, notarius imkan daxilində öz tərəfindən rəsmiləşdirilən sənədlərin mətnlərini arzuolunan dildə tərtib edə və ya mətn tərcüməçi tərəfindən ona tərcümə edilə bilər.

"Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində milli mədəniyyətin inkişafına və qorunub saxlanılmasına yardım nəzərdə tutulur. Dövlət Azərbaycan xalqının milli mədəniyyətinin inkişafına və qorunub saxlanılmasına, eləcə də Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verir.

Göründüyü kimi, milli və ya dini azlığın nümayəndəsi olmasına baxmayaraq, Azərbaycan vətəndaşı olan hər bir kəs eyni hüquqlara malikdir. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" 30 sentyabr 1998-ci il tarixli Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə görə, "Azərbaycan Respublikasının vətəndaşlığı, onun əldə edilməsi əsaslarından asılı olmayaraq, hamı üçün bərabərdir. Azərbaycan Respublikası vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri onların mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən, həmin yerdə yaşadığı müddətdən və başqa hallardan asılı olmayaraq bərabərdir".

Azərbaycan Respublikasında heç bir millətin, milli və ya dini azlığın nümayəndəsinə və ya onlardan olan qrupa milli xüsusiyyətlərini və ya dini mənsubiyyətlərinə görə başqalarından üstün olmaq kimi ideyaları aşılamaq, çox fəal təəssübkeşlik göstərmək, hətta bu ideyaların həyata keçirilməsində fiziki təzyiqlərdən istifadə etmək qanunla məhdudlaşdırılır, bu sahədə sui-istifadə hallarına yol verən şəxs və ya qrup cinayət məsuliyyətinə cəlb edilməklə müvafiq qanunlar çərçivəsində cəzalandırılır.

Daxili qanunvericiliyin bu müddəaları ilə yanaşı, Azərbaycan Respublikasının 1996-cı il 31 may tarixində qoşulduğu irqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, aparteidin qarşısının alınması və onun cəzalandırılması, genosidin qarşısının alınması və onun cəzalandırılması haqqında BMT konvensiyaları kimi beynəlxalq sənədlərin müddəaları da tətbiq olunur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra milli azlıqlarla bağlı qanunvericilik bazasını təkmilləşdirmək istiqamətində də bir sıra addımlar atdı. Belə ki, beynəlxalq münasibətlərdə daha çox diqqət mərkəzində olan milli azlıqların hüquqlarının qorunması istiqamətində üzvü olduğu bütün beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən konvensiya və sazişlərə qoşulan ölkəmiz fundamental beynəlxalq hüquqi sənədlərin milli qanunvericilikdə təsbitini və implementasiyasını təmin etdi. Bu sırada xüsusilə BMT, ATƏT və Avropa Şurası ilə hüquqi müstəvidə intensiv əməkdaşlıq qısa müddət ərzində öz nəticəsini verdi.

Azərbaycan Respublikası 2000-ci ilin iyun ayında Avropa Şurasında "xüsusi də-

vət olunmuş qonaq" statusunda iştirak etdiyi dövrdə "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına qoşulmuşdur. 2001-ci il noyabr ayının 1-də Prezident Heydər Əliyev Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına uyğun olaraq, Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı ilkin hesabatın hazırlanması və təqdim edilməsi barədə sərəncam imzaladı. Sərəncamda Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına Azərbaycan Respublikasının qoşulmasını nəzərə alaraq və həmin konvensiyanın müddəalarına uyğun olaraq, Azərbaycan Respublikasının öz öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə ilkin hesabatın hazırlanması və Azərbaycan Respublikası hökuməti adından Avropa Şurasının Baş katibinə təqdim olunmasını təmin etmək məqsədilə Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına uyğun olaraq, Azərbaycan Respublikasının öz öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə ilkin hesabatının hazırlanması üçün işçi qrupun yaradılması nəzərdə tutulurdu.

Sərəncamdan dərhal sonra Azərbaycan Respublikasında milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının qorunması üzrə mövcud vəziyyət barədə ilkin hesabat hazırlanaraq Avropa Şurasına təqdim olundu. Hesabatda bildirilirdi: "Azərbaycan müxtəlif etnik və dini qrupların ənənəvi dözümlülük və harmonik birgəyaşayışı üzərində qurulmuş və həyata keçirilən milli siyasətin aparıldığı çoxmillətli və çoxdinli ölkədir. Qanun mənşəyindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir".

Ulu öndər Heydər Əliyev yüzillər boyu Azərbaycanda formalaşmış bu milli keyfiyyətin və cəmiyyətimizdəki etnik-mədəni müxtəlifliyin qorunub saxlanmasına və təşviqinə xüsusi həssaslıqla yanaşır, Azərbaycanın burada yaşayan bütün xalqların ümumi vətəni olduğunu dönə-dönə vurğulayırdı. Onun "Polietnizm bizim tarixi nailiyyətimizdir" sözləri müasir Azərbaycan cəmiyyətinin tolerant ovqatını və dövlətin siyasi iradəsini dəqiq ifadə edir.

Bir sıra beynəlxalq təşkilatlar öz sənədlərində qeyd edirlər ki, azərbaycanlıların onlarla bərabər bir torpaqda yaşayan xalqlara qarşı tolerantlığı etalon hesab edilə bilər. Həqiqətən də xalqımıza məxsus olan mehriban qonşuluq, dini və etnik dözümlülüyü davam etdirməklə mövcud hakimiyyət dillərin, dinlərin, etnik psixologiyaların, ənənələrin inkişafına həmişə böyük önəm verir.

Azərbaycanda hətta ən azsaylı millətlərin nümayəndələri belə icmalarda birləşə, öz mədəniyyət, dil və adət-ənənələrini inkişaf etdirə bilərlər. Onlar heç bir dini və milli ayrı-seçkiliyə məruz qalmırlar. Azərbaycanda üç əsas din İslam, xristianlıq və iudaizm qarşılıqlı hörmət şəraitində fəaliyyət göstərir.

Ümummilli lider milli azlıqlarla keçirdiyi bir görüşündə demişdir: "Mən görüşlərimi milli azlıqların nümayəndələri ilə görüş adlandırmaq istəməzdim. Bu, Azərbaycanın, Azərbaycan xalqının nümayəndələri ilə görüşdür".

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verməklə, ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini bildirib. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar.

Azərbaycanın mənəvi-siyasi yüksəlişində son dərəcə vacib məqamlardan biri də Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumun axırıncı açılışı zamanı etdiyi çıxışında Prezident İlham Əliyev multikulturalizmi "alternativi olmayan, gələcək inkişaf üçün ən məqbul variant" kimi dəyərləndirməklə təkcə Azərbaycanda deyil, müasir dünyada multikulturalizm meyillərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir.

Belə bir siyasi kontekstdə Prezident İlham Əliyev 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşavirinin Xidmətini yaratdı. Bu gün bu xidmət ölkənin ideoloji həyatının önəmli istiqamətlərini əlaqəli şəkildə öyrənən, obyektiv səbəbdən özünü göstərən müəyyən boşluqların doldurulmasını təmin edən vacib bir orqan kimi fəaliyyət göstərir.

Prezident İlham Əliyevin multikulturalizm siyasətinin növbəti əhəmiyyətli addımı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixində imzaladığı fərman oldu. Bu mərkəzin yaradılmasının əsas məqsədi ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlığın, etnik-mədəni, dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq və təşviq etməkdir. Dünyanın multikulturalizm sahəsində aparıcı mütəxəssislərinin, görkəmli ictimai və siyasi xadimlərinin Bakıda beynəlxalq səviyyədə belə bir mərkəzin açılmasını son dərəcə təbii və işgüzar şəkildə qəbul etmələri məhz Azərbaycanın bu gün dünya multikulturalizminin mərkəzinə çevrilməsi reallığını aydın şəkildə nümayiş etdirir.

Dövlət başçısı 2015-ci il mayın 18-də Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışındakı nitqində bu barədə demişdir: "Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub və Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin

təşviqi istiqamətində hökumətimizin atdığı daha bir addım idi".

Prezident İlham Əliyevin multikulturalizmə, tolerantlığa verdiyi siyasi dəyərin dünya miqyasında real elmi, mədəni, sosial müstəvilərə köçürülməsi işində Heydər Əliyev Fondunun xidmətləri danılmazdır. Bu gün Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu olduqca əhəmiyyətli layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri rejimində fəaliyyət göstərməsini reallaşdırır.

Fondun düşünülmüş, sistemli fəaliyyətində multikulturalizmin mühüm aspektlərindən biri olan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi istiqaməti xüsusi yer tutur. Fondun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə dünyanın bir çox ölkəsində keçirilən silsilə tədbirlərdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar.

Multikulturalizmin Azərbaycanda həyat tərzi olduğunu dəfələrlə bəyan edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulayıb ki, "multimədəniyyətli cəmiyyətlərin formalaşması, bu ideyaların təbliği, hesab edirəm ki, hər bir məsuliyyətli siyasətçinin, ictimai xadimin fəaliyyətinin tərkib hissəsi olmalıdır". Azərbaycan dövlətinin başçısı XXI əsrdə multikulturalizmin alternativinin olmadığını bildirmişdir: "Bəzən eşidirik ki, multikulturalizmin gələcəyi yoxdur. Hesab edirəm ki, biz bu məsələdə dünyaya müsbət təcrübə göstərməliyik. Azərbaycanda bu sahədə toplanmış təcrübə müsbət təcrübədir".

Azərbaycan Prezidentinin dünyada multikultural ənənələrin öyrənilməsi, dünya ictimaiyyətinin ölkəmizin tolerantlıq və multikulturalizm sahəsində təcrübəsi ilə tanış edilməsinə dair qarşıya qoyduğu vəzifələr müvəffəqiyyətlə yerinə yetirilir. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi də məhz dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir. Digər tərəfdən, bu, Azərbaycanda multikultural təhlükəsizliyin təmin olunmasına sistemli yanaşmanın mövcudluğundan xəbər verir.

Beləliklə, Azərbaycanda multikulturalizm sahəsində bir-birini tamamlayan, sistemli xarakter daşıyan siyasi iradə və onun gerçəkləşməsi proqramı ölkədə multikulturalizm ənənələrinin qorunub saxlanılmasına, daha da inkişaf etdirilməsinə və geniş təbliğ olunmasına xidmət edir. 2016-cı il yanvar ayının 11-də imzaladığı sərəncamla 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi möhtərəm Prezident İlham Əliyevin multikultural dəyərlərə yüksək diqqət və xüsusi önəm verməsini bir daha sübut edir.

**Ziyafət ƏSGƏROV,**
**Milli Məclis Sədrinin birinci müavini,**
**YAP Siyasi Şurasının üzvü.**

***Mənbə:***
www.azerbaijan-news.az

# MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ

***Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.***

**Heydər ƏLİYEV.**

"Multikulturalizm" anlayışının işlədilməsinə nisbətən yaxın vaxtlarda başlanmışdır. Lakin bu terminin yaranmasından öncə də uzun tarixi bir dövr ərzində multikulturalizm əslində mövcud idi. Belə ki, qədim filosoflar, xüsusən, yunan filosofu Platon varlığı və dünya qavrayışını idealistcəsinə izah edirdilər. Platonun yer üzündə bütün canlıları birləşdirən vahid bütöv yanaşması var idi. Multikulturalizm mövcud mühitin demokratikləşdirilməsi, sərbəst qarşılıqlı təsirin və mədəni plüralizmin yaranması tendensiyası ilə səciyyələnə bilər. Bir sıra tədqiqatçılar vurğulayırlar ki, multikulturalizm yüksək inkişaf etmiş ölkələrə xasdır. Bununla belə, müəyyən tədqiqatlar göstərdi ki, əksinə, belə ölkələrdə mültikulturalizm heç də uğur qazanmayıb. Məsələn, bu yaxınlarda Almaniya, Fransa və Böyük Britaniya kimi ölkələrin başçıları – Merkel, Sarkozi və Kameron bildirmişlər ki, onların ölkələrində multikulturalizm tənəzzülə uğramışdır və multikulturalizm milli identikliyin zəifləməsinə gətirib çıxarmışdır.

Multikulturalizm mədəni müxtəlifliyin qorunması, mədəniyyətlərarası dialoqun inkişafı, demokratik dövlət konsepsiyası, tolerantlıq istiqaməti, müxtəlif mədəniyyətlərin vahid cəmiyyətdə və dövlətdə dinc yanaşı mövcudluğu və qarşılıqlı təsiri siyasətidir. Multikulturalizmin xarakterik xüsusiyyəti tolerantlıqdır (dözümlülükdür). Çox zaman tolerantlığı hüquqi və siyasi mədəniyyətin formalaşması, insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipinin bərqərar olması, dözümlülük münasibətinin tərbiyə edilməsi, başqa xalqların mədəniyyətinə və dəyərlərinə hörmət göstərilməsi, zorakılığın, irqçiliyin, ksenofobiyanın, dini dözümsüzlüyün, terrorçuluğun qəbul edilməməsinin formalaşması ilə əlaqələndirirlər. Lakin tolerantlıq anlayışından məhz milli aspekti ayırsaq, o zaman bu, müxtəlif etnososial qrupların təmsilçilərinin bir-birinə müəyyən münasibətində ifadə oluna bilər.

Hesab edirəm ki, mədəniyyət – müxtəlif həyat tərzləri, inam və dəyərlər, habelə onların bədii təcəssümü deməkdir. Bunlar bir qayda olaraq bir nəsildən digər nəslə ötürülür, lakin, demək olar ki, toxunulmazlıq, dəyişməmək xüsusiyyəti daşımır. Zaman keçdikcə mədəniyyət dəyişir, yeni dövrlərə uyğunlaşır və yeni formalar əldə edir. Qloballaşma prosesləri müxtəlif mədəniyyətlərin nümayəndələri arasında ünsiyyət və əlaqə səviyyəsini yüksəltdiyindən mövcud cəmiyyətlər daha multimədəni olur. Mütəxəssislər tərəfindən multikulturalizm siyasətinə bir neçə yanaşma fərqləndirilir. 1. Assimilyasiyasız inteqrasiya – multikulturalizm birmillətli dövlət qurmaqdan və separatçı ovqatlardan imtina edilməsi istiqamətində baza olaraq, mədəni plüralizm, vahid vətəndaş identikliyi və dövlətin bütövlüyünün birlikdə mövcud olmasına dəstəyi ifadə edir. Bu, Kanada modelidir. 2. Əksdiskriminasiya – özünü tarixi və sosial ədalətzisliyin aradan qal-

dırılması sayəsində müxtəlif irq, etnos və dinlərin təmsilçilərinin hüquq bərabərliyinin təmin olunmasını ehtiva edir. Bu, ABŞ modelidir. 3. Funksional tolerantlıq – hər hansı dövlətdə müəyyən iqtisadi problemlər zamanı xaricdən müvəqqəti işçi qüvvəsi dəvət edilməsi, yaxud qəbul edilməsi ilə əlaqədardır. Bu cür hallarda qastarbayterlər gəldikləri ölkənin vətəndaşları ilə bərabər hüquqlara malik olmasalar da, hər halda öz özgürlüklərini qoruya bilir və problemlərlə üzləşmədən yaşayıb fəaliyyət göstərirlər. Bu, Almaniya modelidir. 4. Xırdalanma ölkənin beynəlxalq nüfuzunun yüksəlməsi və əmək resurslarının çatışmazlığının aradan qaldırılması məqsədilə ölkəyə miqrantların cəlb edilməsi ilə bağlıdır. Dövlət ölkəyə gələn əcnəbi işçi qüvvəsinin qarşısında yalnız bir şərt qoyur – onlar loyal olmalı, demokratik cəmiyyətin baza prinsiplərinə əməl etməlidirlər. Bu, Avstraliya modelidir.

Multikulturalizmin əsasını çoxetnoslu tərkibi olan Azərbaycan xalqı təşkil edir və xalqımız müxtəlif etnosların birliyini təmsil edir. Məlum olduğu kimi, azərbaycançılıq ideologiyası ulu öndər Heydər Əliyev tərəfindən yaradılmışdır. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə, onun siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan cəmiyyətinin inkişafının ideya təməli olan azərbaycançılıq konsepsiyasını irəli sürmüşdür. Akademik Ramiz Mehdiyev azərbaycançılığı milli ideologiyanın kamil nümunəsi hesab edərək yazırdı ki, azərbaycançılığın məzmunca mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir. Azərbaycançılıq keçmiş tarixi dövrlərin mifologiyasını, mədəni kodlarını və rəmzlərini mənimsəyərək onlardan yeni ideyaları əsaslandırmaq və milli dövlətin inkişafının yeni vektorunu müəyyənləşdirmək üçün istifadə edir. İndi o, cəmiyyətimizdə ən qurucu və dinamik qüvvədir: “Azərbaycançılığın gücü həm də bundadır ki, o, fərdi maraqları və meyilləri dövlətin siyasəti ilə birləşdirməyə və xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamağa qadirdir. Təbii ki, milli birliyə mənsubluq hissi həyatın özünə də məna verir və onun əhəmiyyətini müəyyən edir, qarşılıqlı məsuliyyət və ümumi işə bağlılıq hissini gücləndirir, tənhalıq və qəriblik hissini aradan qaldırmağa kömək göstərir. Bu ideologiya Azərbaycanda vahid cəmiyyət, vahid xalq formalaşdırır”.

UNESCO-nun sabiq baş katibi Koişiro Matsuura bildirirdi ki, multikulturalizmi gücləndirmək, dəstəkləmək üçün həyata keçirilməli iki əsas istiqamət var: bunlardan birincisi zəngin mədəni irs, maddi və qeyrimaddi mədəni irsi qorumaq, ikincisi isə müasir mədəniyyətdə həmin izləri qoruyub saxlamaqdır. Yeri gəlmişkən, qeyri-maddi mədəni irsdən danışarkən, ölkəmizin Birinci xanımı, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva bütün dünya millətlərinin genetik əsasında qeyri-maddi irsin durduğunu söyləmiş və bu amilin xalqların formalaşmasında əhəmiyyətli rol oynadığını qeyd etmişdir. Buna görə də müasir dünyada qeyrimaddi mədəni irsin mühafizəsi çox vacibdir. 2005-ci ildə muğam şifahi və qeyri-maddi mədəni irs inciləri sırasına daxil edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, UN-

ESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın yüksək diqqət və qayğısı sayəsində Azərbaycan mədəniyyətinin tarixinə daha bir parlaq səhifə yazılmışdır – UNESCO-nun Qeyri maddi-mədəni irsin qorunması üzrə Komitəsinin sessiyasında Azərbaycanın aşıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Ümumiyyətlə, indiyə qədər kəlağayı, muğam ifaçılıq sənəti, Novruz bayramı, Azərbaycan xalçası, tar ifaçılıq sənəti, Lahıc misgərlik sənəti də UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə qurumun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

Bu gün biz tolerantlıq prinsipləri və mədəni müxtəlifliyə hörmətə əsaslanan yeni sivilizasiyalar və mədəniyyətlərə başqa bir alternativ qəbul etməyən bir cəmiyyətdə yaşayırıq. Hazırkı dövrdə bu, dünyada baş verən proseslərin və modelləşmənin effektli tədbirlərinin nəticələrinin tam şəkildə anlaşılması üçün mühüm şərtdir. Hesab edirəm ki, dünya xalqları arasında sülh və barışıq ideyalarının irəliləyişində və mədəni müxtəlifliyin inkişafında əsas rolu məhz UNESCO, İSESCO, TÜRKSOY kimi nüfuzlu təşkilatlar oynamalıdır. Bu təşkilatlar irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, bütün xalqlar üçün ümumi hörmət və ədalətin təmin olunması məqsədilə xalqlararası əməkdaşlığın genişlənməsi və sosial birliyə yardım üçün vacib olan bütün ehtiyatlara və vasitələrə malikdir. Belə fəaliyyət bütün dünyada sülhün qorunması üçün ən yaxşı zəmanətlərdən biridir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası nüfuzlu beynəlxalq təşkilatların təkcə üzvü deyildir, həm də onların işində fəal iştirak edir. Məsələn, ölkəmiz UNESCO ilə əməkdaşlığı möhkəmləndirərək, bu qurumun "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında", "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında", "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında", "Beynəlxalq xüsusi hüququ unifikasiya institutunun (YUNİDRUA) oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni dəyərlər haqqında", "Qeyri-maddi mədəni irsin qorunması haqqında", "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" konvensiyalarına qoşulmuşdur. Azərbaycan – UNESCO münasibətlərinin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri olmuşdur. 2004-cü ilin sentyabrında Mehriban xanım Əliyeva musiqi mədəniyyətinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsində xidmətlərinə və UNESCO-nun ideyalarına göstərdiyi sadiqliyə görə bu təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülmüşdür.

Avropa Şurasının 2008-ci ildə qəbul etdiyi Mədəniyyətlərarası dialoq üzrə "Ağ kitab"a əsasən, mədəniyyətlərarası dialoq – müxtəlif etnik, mədəni, dini və dil mənşəli fərdlər və qruplar arasında qarşılıqlı hörmət əsasında açıq fikir mübadiləsidir. Bu cür dialoq digər insanların da yanaşma tərzlərini

dinləmək arzusu və imkanı ilə yanaşı, eyni zamanda, öz fikrini də ifadə etmək azadlığının və imkanının olmasını tələb edir. Burada göstərilir ki, assimilyasiya və ya çoxmədəniyyətlilik (multikulturalizm) heç bir halda tam və ya ayrı-ayrılıqda tətbiq olunmur. Assimilyasiya və ya çoxmədəniyyətliliyin elementləri onların ən yaxşı keyfiyyətlərini özündə əks etdirən yeni yaranmaqda olan mədəniyyətlərarası paradiqmanın aspektlərini əhatə edir. O, assimilyasiyadan – bütün diqqətin şəxsiyyətə yönəldilməsi; çoxmədəniyyətlilikdən isə mədəni müxtəlifliyin tanınması kimi ən yaxşı keyfiyyətləri götürərək özündə cəmləşdirir. Bununla yanaşı, mədəniyyətlərarası paradiqma bərabər ləyaqət və bölünmüş dəyərlərə əsasən, dialoqun intreqrasiya və sosial birliyə tənqidi münasibətdə olan yeni elementini də əhatə edir.

Qeyd etmək lazımdır ki, Qərb ilə Şərqin qovuşuğunda, müxtəlif sivilizasiyaların kəsişdiyi ərazidə yerləşən Azərbaycanda qədim dövrlərdən etibarən multikulturalizm və tolerantlığın tarixi ənənələri formalaşmışdır. Tarixin ayrı-ayrı dövrlərində ölkəmiz müxtəlif xalqların, mədəniyyətlərin və konfessiyaların təmsilçiləri üçün sığınacaq olmuşdur. Məsələn, Azərbaycan xalqının öz torpaqlarında sığınacaq verdiyi xalqlardan biri də yəhudilərdir. Onların Azərbaycanda məskunlaşmalarının tarixi 2600 il əvvələ gedib çıxır. Yəhudilərin bu böyük tarixi dövr ərzində azərbaycanlılar tərəfindən nə vaxtsa dini ayrı-seçkiliyə məruz qalması baş verməmişdir. Azərbaycana kənardan gəlmiş ilk din olan yəhudilik həm də bu ərazilərdə yayılan ilk səmavi dindir. Azərbaycanda ən qədim yəhudi icması sayılan dağ yəhudiləri bizim eradan əvvəl VI əsrdə Yerusəlimdə birinci məbəd adlanan məbədin sökülməsi nəticəsində vətənlərini tərk etmiş qədim yəhudi qəbilələrinin nəslindəndirlər. XIX əsrdə Azərbaycana köçürülən rus əhalisi iki qrupdan ibarət idi. Həmin əsrin 70-80-ci illərindən sonra burada məskunlaşan rusların bir qismi müflisləşmiş və yerlərdə torpaqdan məhrum olmuş kəndlilər, digər qrup isə xristian dininin müxtəlif cərəyanlarına məxsus olan təriqətçilər idi. XX əsrin 20-30-cu illərində respublikaya rusların miqrasiyası güclü olmuşdur. Onlar təsərrüfatın müxtəlif sahələrinə aid mütəxəssisləri, alimləri, fəhlələri təmsil edirdilər.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Azərbaycan ərazilərində hələ qədim dövrlərdən çoxsaylı etnoslar yaşayıb: tatlar, talışlar, udilər, ləzgilər, saxurlar və s. Lakin çoxsaylı etnosların Azərbaycan ərazisində yaşamasına və etnik tərkibin müxtəlif olmasına baxmayaraq, heç bir etnik qrup minilliklər ərzində Azərbaycan ərazisindən digər ərazilərə köçürülməmişdir. Bu, tolerantlıq keyfiyyətinin Azərbaycan xalqının etnik tərkibindən irəli gəldiyini, həmçinin bu ərazilərdə mövcud olmuş sivilizasiyaların dözümlülük mədəniyyətinə malik olduğunu sübut edir. Azərbaycanda min illər əvvəl mövcud olmuş və formalaşmış tolerantlıq ənənələri zaman keçdikcə yeni xüsusiyyətlər əldə etmiş və bu coğrafiyada yaşayan insanların əsas keyfiyyətinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı həmişə burada yaşayan millət, din və mədəniyyətlərin müxtəlifliyi ilə fəxr etmiş, müdrikcəsinə düşünmüşdür ki, hər bir insan ölkənin vətəndaşı olmaqla, onun səciyyəvi xüsusiyyətlərini inkişaf etdirməli, mədəni özgürlüyünü və milli özəlliyini qorumalı olan vahid bir ailənin üzvüdür.

Azərbaycan xalqının humanistliyi ondan ibarətdir ki, əsrlər boyu və bu günə qədər də azsaylı etnik azlıqları qoruyub saxlaya bilmişdir. Bu isə bugünkü rəngarəngliyi sübut edir. Tarix dünyaya vahid dövlət çərçivəsində müxtəlif etnik və dini qrupların dinc yanaşı mövcudluğunun nadir nümunəsini vermişdir. Azərbaycan xalqı qədim dövrlərdən bəri zorakı assimilyasiya üsulları tətbiq etmədən öz vətəndaşlarına vətənpərvərlik, qarşılıqlı hörmət və millətçiliyin hər hansı formasını tanımamaq hissləri aşılamışdır. Ölkəmizdəki multimədəniyyət çoxdan başa çatmış faktdır və assimilyasiya prosesi burada tamamilə könüllü əsasda baş verir.

Bildiyimiz kimi, bir vaxtlar bərabərlik və milli müxtəlifliyin qorunması ideyası yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hökumətinin də diqqət mərkəzində idi. Belə ki, 1918-ci il mayın 28-də bəyan edilən İstiqlal Bəyannaməsinin 4-cü maddəsində deyilirdi: "Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq, öz sərhədləri daxilində bütün vətəndaşların mülki və siyasi hüquqlarına təminat verir". Bundan başqa, 5-ci maddə "AXC-nin ərazisində məskunlaşan hamıya inkişaf etmək üçün geniş imkanlar" yaradılmasına təminat verirdi. Bax, elə ona görə də bütün ölkə ərazisində tədrisin müxtəlif millətlərin dillərində aparıldığı məktəblər açılır, qəzetlər nəşr edilir, klublar, teatrlar və müxtəlif maarifçi müəssisələr fəaliyyət göstərirdilər.

1993-cü ildə xalqın təkidi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyət gələn ümummilli lider Heydər Əliyev ölkədə demokratik, hüquqi dövlət quruculuğunun əsasını qoydu və apardığı islahatlarla dövlətçiliyimizi getdikcə inkişaf etdirməyə başladı. Ulu öndər cəmi bir il sonra – 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışında söyləmişdir: "Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plürализm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Qarşımızda duran ən mühüm vəzifə Konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, respublika həyatına tətbiq etmək və onun verdiyi təminatları reallaşdırmaqdan ibarətdir".

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuşdur. Belə ki, bu məsələ Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1, 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1, 2) və başqa maddələri göstərmək olar.

Əgər II Dünya Müharibəsindən sonrakı dövrdə Avropa dövlətləri Osvensim kabusunun təsiri altında ksenofobiyanın və antisemitizmin hər hansı təzahüründən ehtiyatlanırdısa, hazırda bu, tədricən təkcə dini deyil, ondan da pis olan irqi millətçiliyin və nəzarət olunmayan gərginliyin artımının müşahidə olunduğu görünməz hədləri keçməkdədir. Bununla əlaqədar AFR-in

kansleri Angela Merkelin "Almaniyada multimədəniyyət cəmiyyəti baş tutmadı" ilə bağlı bəyanatı səciyyəvidir. AFR, Böyük Britaniya, Fransa, İtaliya və köhnə dünyanın digər firavan ölkələrində doğumun aşağı düşməsi daxili gərginliyin artmasına səbəb olmaqdadır. Avropa, bir tərəfdən, keçmiş müstəmləkələrinin əlavələrinə çevrilmək və onların təsiri altında müsəlmanlaşmaq istəmir. Digər tərəfdən isə onun başqa bir çıxış yolu da yoxdur. Çünki perspektivdə bu ölkələrdə yerli əhalinin yüksək yaşayışını təmin etmək üçün işləməyə heç kəs olmayacaq. Mühacirlərin assimilyasiya edilməsi üçün göstərilən cəhdlər Qərb həyat tərzinin qəbul edilməməsi ilə toqquşur.

Ölkəmizdə Azərbaycanın timsalında müxtəlif millətlərin və dini qrupların dinc yanaşı mövcudluğunun mümkünlüyünü sübut etmək; əhalinin əsas sosial təbəqələrinin psixoloji portretini yaratmaq, tarixi kontekstdə cəmiyyətin dini tərkibinin inkişaf mərhələlərini göstərmək; titul millətin yüksək etnik dözümlülüyünün səbəb-nəticə əlaqələrini açmaq; azərbaycanlıların hansı səbəbdən öz metropoliyalarının sərhədlərindən kənarda yaxşı uyğunlaşmalarını və onların bir çox dövlətlərdə etnososial mühitin ayrılmaz hissəsinə çevrilməyə necə nail olduqlarını konkret nümunələrlə izah etmək; milli azlıqların hüquqlarının müdafiəsi və təminatı sahəsində Azərbaycan Respublikası qanunvericiliyini və gündəlik həyatda onların yerinə yetirilməsi məsələlərini nəzərdən keçirmək; müxtəlif milli icmaların öz dini və milli ənənələrinin, eləcə də dil və mədəniyyətlərinin qorunması və inkişafı istiqamətində fəaliyyətlərindən nümunələr təqdim etmək; dövlətin din xadimlərinin dinlərarası razılaşmanı qorumağa və hər hansı ekstremizm təzahürünə qarşı mübarizə aparmağa hansı şəkildə nail olduqlarını şərh etmək məqsədilə müxtəlif tədqiqatlar aparılmışdır.

Ölkəmizdə bu cür tədqiqatların aparılması ilə yanaşı, bir sıra beynəlxalq əhəmiyyət kəsb edən tədbirlər keçirilməkdədir. 2011-2014-cü illərdə Bakıda yüksək səviyyəli I, II, III və IV Beynəlxalq Humanitar forumlar təşkil olunmuşdur. 2011 və 2013-cü illərdə Azərbaycan paytaxtı I və II Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarının keçirildiyi məkan olmuşdur. III Mədəniyyətlərarası Dialoq Forumu 2015-ci ilin mayında təşkil olunmuşdur. Tədbirdə Azərbaycan prezidenti cənab İlham Əliyev bildirmişdir ki, multikulturalizm ölkəmizdə inkişaf etmişdir: "Bildiyimə görə, Forumun mövzularından biri məhz ictimai xadimlər və siyasətçilərin məsuliyyətinə həsr edilib. Biz bəzi hallarda görürük ki, dini nifrət süni şəkildə yaradılır. Bəzən dünyanın müxtəlif yerlərində etnik və dini zəmində zorakılığın şahidi oluruq və o zaman siyasətçilərin və vəziyyətə təsir edə bilən insanların məsuliyyəti artır. Düşünürəm ki, bu səbəbdən multikulturalizm dəyərlərini birgə səylərlə təşviq etməliyik. Bilirəm ki, bununla bağlı müxtəlif fikirlər və bəzən də pessimist ideyalar var. Lakin multikulturalizmin müsbət nümunələri də var və Azərbaycan onlardan biridir. Hesab edirəm ki, multikulturalizmi gələcəyi olmayan məfhum kimi təqdim etmək təhlükəlidir, əksinə, səylərimizi dayandırsaq, dünyada vəziyyət daha da pisləşəcək. Bu səbəbdən artıq dünyada multikulturalizm mərkəzlərindən biri olaraq tanınan Azərbaycan kimi ölkələrin nümunəsi yaxşı göstəricidir ki, multikulturalizm yaşayır və biz müsbət meyilləri stimullaşdırmalıyıq. Bunun alternativi nədir? Təc-

ridolunma, ayrıseçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillərdir ki, onlar artıq bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub".

IV Bakı Beynəlxalq Humanitar Forumunda Azərbaycan prezidenti cənab İlham Əliyev müasir dünyada həm coğrafi, eyni zamanda, humanitar baxımdan Azərbaycanın nadir rolu olduğunu göstərmişdir. Ölkəmiz Avropa ilə Asiya arasında, qədim "İpək yolu" üzərində yerləşən bir ölkədir, ölkə rəhbərliyi çalışır ki, sivilizasiyalararası dialoq, humanitar dialoq daha da güclənsin. Yenə də cənab prezidentimizin sözlərinə müraciət etmək istəyirik: "Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrıseçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir. Biz bu təhlükəli meyillərə qarşı öz səsimizi ucaltmalıyıq. Əlbəttə ki, bunu, ilk növbədə, dövlətlər etməlidirlər. Amma, eyni zamanda, dövlətlərin bu siyasətini böyük dərəcədə hər bir cəmiyyətin siyasi və ictimaielmi elitası, ictimai rəy müəyyən edir. Heç bir dövlət və hökumət başçısı ictimai rəyi nəzərə almaya, ona məhəl qoymaya bilməz. Ona görə hesab edirəm ki, biz birgə səylərimizlə bu məsələləri açmalıyıq, danışmalıyıq".

Azərbaycanda multikulturalizmə böyük önəm verildiyini sübut edən faktlardan birini qeyd etmək istərdik. Belə ki, 2014-cü il 15 may tarixində Prezident İlham Əliyev tərəfindən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sərəncam imzalanmışdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasında məqsəd tolerantlığın bir həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək, etnik-mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək, təhsil, mədəniyyət, elm və digər sosial sahələrdə özünü göstərən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması istiqamətində layihələr həyata keçirməkdir.

Tarixən multikulturalizm Azərbaycanda olmuş və yaşam tərzinə çevrilmişdir. Ölkə vətəndaşları Azərbaycanda yaşayan bütün azsaylı millət və xalqların milli-mənəvi dəyərlərinə, mədəni irsinə hörmətlə yanaşırlar. Respublikamızda ayrı-ayrı konfessiyaların təmsilçiləri də titul millət tərəfindən yalnız tolerant münasibətlə rastlaşırlar. Bütün bunlar dövlət səviyyəsində aparılan uğurlu siyasətin nəticələridir. Bütün bunlar ölkə rəhbərliyinin sözdə deyil, əməldə insanlarımızın hüquq və mənafelərini prioritet hesab etdiyinin əyani sübutudur. Və biz gerçəkdən də qürur duyuruq ki, multikultural dəyərlərin yüksək səviyyədə intişar tapdığı və inkişaf etdiyi bir ölkədə – Azərbaycanda yaşayırıq.

**Aytən MUSTAFAYEVA,**
**AMEA Hüquq və İnsan Haqları İnstitutunun direktoru, hüquq elmləri doktoru, Milli Məclisin deputatı.**

***Mənbə:*** **«Respublika» qəzeti,**
25 may 2016-cı il.

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN FƏALİYYƏTƏ BAŞLAMASINDAN 18 İL KEÇİR

**"Konstitusiya müddəalarının aliliyinin və onların təkamülünün təmin edilməsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi mühüm rol oynayır. Ali konstitusiya ədalət mühakiməsi orqanı qismində Konstitusiya Məhkəməsi ölkəmizin hüquq sisteminin inkişafına öz töhfəsini verir, hüquqi tənzimləmə məsələləri üzrə müsbət təcrübə formalaşdırır, konstitusiya nəzarəti funksiyalarını yerinə yetirməklə Konstitusiyanın birbaşa tətbiqini həyata keçirir".**

*Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikası Konstitusiyasının 20 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına ünvanlanmış təbrik məktubundan*

Müasir müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin siyasi rəhbər kimi Azərbaycan xalqı üçün verdiyi böyük töhfələrdən biri də ölkəmizdə konstitusionalizm ideyalarının inkişaf etdirilməsi, dövlətçilik tariximiz üçün tam yeni olan konstitusiya nəzarəti institutunun yaradılması və inkişafı olub.

Azərbaycanın ilk müstəqil Konstitusiyası xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Bu tarixi hadisə xalqımızın həyatında yeni, əhəmiyyətli bir səhifəni yazdı, dövlətimizin hüquqi, siyasi və iqtisadi inkişafının gələcək istiqamətlərini müəyyənləşdirdi.

Əsas Qanun əks etdirdiyi humanizm və demokratiya prinsipləri ilə ölkəmizin tərəqqisi, dövlətçiliyin möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi üçün hərtərəfli zəmin yaratdı. Ulu öndər Heydər Əliyevin gərgin əməyinin bəhrəsi olan bu tarixi və hüquqi əhəmiyyətli sənədin suveren Azərbaycanın müstəqillik yolunda daha inamla addımlamasında, milli mənəvi dəyərlərimizin qorunmasında, əhalinin rifahının təmin edilməsində böyük rolu oldu.

Ölkə Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir tendensiyaları nəzərə alınaraq, Azərbaycanın hüquq sistemi üçün tamamilə yeni təsisatın – konstitusiya ədalət mühakiməsi orqanının yaradılması, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyən edildi. Bu, olduqca əhəmiyyətli hadisə idi.

1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi, 1998-ci il iyul ayının 14-də Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ilə Konstitusiya Məhkəməsinin 7 hakiminin təyin edilməsi ilə və həmin il iyulun 18-də ulu öndər Heydər Əliyevin Konstitusiya Məhkəməsinin müstəqilliyini və hakimlərinin hüquqi statusunu təmin etmək məqsədilə imzaladığı Fərmanla Konstitusiya Məhkəməsi rəsmən fəaliyyətə başladı.

Konstitusiya nəzarətinin səmərəli həyata keçirilməsi, habelə bu institutun özünün təkamülünü nəzərdə tutur. İctimai inkişafın

daim yeniləşən meyilləri bütövlükdə hüquq sisteminin təkmilləşdirilməsini şərtləndirir, insan və vətəndaş hüquqları və azadlıqlarının tam təmin olunması və vətəndaşların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün zəruri şəraitin yaradılmasına cavabdeh olan dövlət strukturlarına qarşı əlavə tələblər irəli sürür. Digər tərəfdən, Azərbaycanda həyata keçirilən demokratikləşmə proseslərinin dərinləşdirilməsi, insan hüquqlarının və azadlıqlarının müdafiəsinin hüquqi mexanizmlərinin daha da təkmilləşdirilməsi ölkəmizdə konstitusiya islahatlarının aparılmasını zəruri edib.

2002-ci il avqustun 24-də və 2009-cu il martın 18-də keçirilmiş referendumlar nəticəsində Konstitusiyanın mətninə əhəmiyyətli əlavələr və dəyişikliklər edilib. Konstitusiya islahatları digər sahələrlə yanaşı, Konstitusiya Məhkəməsinin fəaliyyətini də əhatə edib, 2002-ci il avqustun 24-də keçirilmiş referendumla Əsas Qanunun mətninə edilmiş dəyişikliklər nəticəsində Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ olan subyektlərin dairəsi genişlənib, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), məhkəmələr və vətəndaşlar Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ əldə ediblər.

Konstitusiya islahatlarının keçirilməsindən sonra Avropa Şurasının ekspert və mütəxəssislərinin iştirakı ilə hazırlanmış “Konstitusiya Məhkəməsi haqqında” yeni Qanunun 2004-cü il 8 yanvar tarixindən qüvvəyə minməsi ilə Konstitusiya Məhkəməsinin fəaliyyətində keyfiyyətcə yeni mərhələ başlayıb. “Konstitusiya Məhkəməsi haqqında” yeni Qanunda digər müddəalarla yanaşı, yeni subyektlər tərəfindən Konstitusiya Məhkəməsinə müraciət edilməsi və həmin müraciətlərə baxılması prosedurları da müəyyənləşdirilib.

Bu gün Konstitusiya Məhkəməsi geniş səlahiyyətlərə malik müasir konstitusiya nəzarəti orqanıdır. Qeyd olunan nəzarətin yurisdiksiyasına normativ hüquqi aktların geniş dairəsi daxildir. Bu da bütün qanunvericilik sisteminə konstitusiya nəzarətini həyata keçirmək, Konstitusiya və qanun normalarının şərhi vasitəsilə hüququn inkişafı və hüquq tətbiqetmə təcrübəsinin istiqamətləndirilməsi baxımından olduqca əhəmiyyətli funksiyaların həyata keçirilməsi deməkdir.

Müasir dövrdə konstitusiya nəzarəti orqanlarının mühüm vəzifələrindən biri Konstitusiya normalarının mütəmadi olaraq inkişaf etdirilməsi, onlara dinamizm qazandırılmasıdır. Bu yanaşma ilk növbədə belə bir zərurətdən irəli gəlir ki, dövlətin əsas qanunu bir tərəfdən siyasi sabitliyin təminatçısı kimi qəbul edilir, digər tərəfdən isə o, cəmiyyətin konkret hədəflərə yönəlmiş inkişaf istiqamətlərini müəyyənləşdirir. Bu mənada Konstitusiyanın aliliyinin təmin olunması ictimai münasibətlərdə sabitliyin mühüm amili kimi çıxış edir. Bütövlükdə konstitusiya hüququnun inkişafına xidmət edən bu vəzifənin icra olunmasında Konstitusiya Məhkəməsinin üzərinə mühüm hüquqi vəzifələr düşür.

Konstitusiya Məhkəməsinin fəaliyyəti nəticəsində Konstitusiya normaların statik məcmusu olmaqdan çıxır, Konstitusiya dəyərləri və prinsipləri zamanın tələbləri çərçivəsində şərh edilir, eləcə də onların

daimi inkişafı təmin olunur. Bununla da Konstitusiya ictimai inkişafın ortaya çıxan yeni tələbatlarının nizama salınmasında canlı vasitə rolunu oynayır. Bu isə öz növbəsində ona cəmiyyətdəki yeniliklərə adekvat təsir imkanı verən xüsusi dinamizm qazandırır.

Konstitusiya Məhkəməsi özünün əsas səlahiyyətlərindən biri olan normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunu yoxlamaq səlahiyyəti vasitəsilə ilk növbədə, Konstitusiyanın aliliyini təmin etmiş olur. Konstitusiya Məhkəməsi yoxlanılan normanın və ya onun hər hansı bir hissəsinin Konstitusiyaya və ya özündən üstün hüquqi qüvvəyə malik akta uyğun olmadığını müəyyən etdikdə onu qüvvədən düşmüş elan edir. Bununla həmin normativ hüquqi aktın müvafiq müddəası öz hüquqi qüvvəsini itirir və Azərbaycan Respublikasının ərazisində tətbiq edilə bilməz. Burada mühüm məqam ondan ibarətdir ki, qeyd etdiyimiz kimi, yoxlanılan norma Konstitusiya Məhkəməsi tərəfindən məqsədəmüvafiqlik nöqteyi-nəzərindən deyil, Konstitusiyanın fəlsəfəsinə və prinsiplərinə uyğunluğu baxımından qiymətləndirilir. Beləliklə, Konstitusiya Məhkəməsi yoxlanılan normativ hüquqi aktı bütövlükdə və ya onun ayrı-ayrı hissəsini qüvvədən salmaqla Konstitusiya ilə uyğunsuzluq təşkil edən həmin normaları qanunvericilik sistemindən kənarlaşdırmış olur.

Konstitusiya Məhkəməsinin mühüm səlahiyyətlərindən biri də Konstitusiyanın və qanunların şərh edilməsidir. Burada əsas məqsəd bu və ya digər normanın məzmununu aydınlaşdırmaqla onun real konstitusiya-hüquqi predmetini hüquq tətbiqedicilərin nəzərinə çatdırmaqdan ibarətdir. Bu zaman Konstitusiya Məhkəməsinin verdiyi rəsmi şərh hüquq normasının Konstitusiyaya uyğun olmayan hər hansı digər şəkildə tətbiqini mümkünsüz edir, onun tətbiqi qaydası dəqiqləşdirilir. Verilən rəsmi şərh vasitəsilə hüquq norması eyni zamanda müasir dəyərlər baxımından dolğunlaşdırılaraq təkmil formanı qəbul edir. Bu isə geniş mənada hüququn tətbiqi təcrübəsinin konstitusiya hüququna müvafiq inkişaf etdirilməsi məqsədinə xidmət edir.

Konstitusiya Məhkəməsinin fəaliyyəti müddətində qəbul edilmiş qərarlar sırasında Konstitusiya və qanunların şərhinə dair çıxarılmış qərarlar xüsusi hüquqi çəkiyə malikdir. Belə ki, Məhkəmə tərəfindən bu günədək Konstitusiyanın və qanunların müxtəlif müddəalarının şərh edilməsinə dair 143 qərar qəbul olunub.

Artıq qeyd edildiyi kimi, fəaliyyətə başladığı ilk illərdə Konstitusiya Məhkəməsinə birbaşa fərdi şikayətlərin verilməsi nəzərdə tutulmurdu. Lakin "Konstitusiya Məhkəməsi haqqında" yeni Qanunun 2004-cü ilin yanvarından qüvvəyə minməsindən sonra Konstitusiya Məhkəməsinə fərdi şikayətlər institutu fəaliyyətə başladı. Keçən dövrün təcrübəsi göstərir ki, Azərbaycan vətəndaşları öz hüquqlarının müdafiəsinin səmərəli vasitəsi qismində fərdi şikayət hüququndan kifayət qədər fəal istifadə edirlər. Konstitusiya şikayəti institutu insan hüquqlarının və azadlıqlarının müdafiəsinin, Konstitusiyanın aliliyinin təmin edilməsinin səmərəli formalarından biri kimi çıxış edir və Əsas Qanunun sadəcə deklarativ müd-

dəalardan ibarət sənəd deyil, birbaşa qüvvədə olan normalar məcmusuna çevrilməsi baxımından olduqca əhəmiyyətlidir.

Konstitusiya Məhkəməsinə vətəndaşlar tərəfindən hər hansı formada, o cümlədən Məhkəmənin rəsmi internet səhifəsi vasitəsilə elektron formada göndərilən şikayət, müraciət, ərizə və məktublar diqqətlə baxılır və müvafiq qaydada cavablandırılır.

Vətəndaşlar, habelə onların hüquqi nümayəndələri bir çox hallarda Konstitusiya Məhkəməsinə dəvət edilərək ətraflı və əlavə məlumat əldə etmək üçün dinlənilir. Məhkəmənin Aparatının əməkdaşları vətəndaşlara həmçinin şikayətin qanunvericiliyin tələblərinə uyğun şəkildə tərtib edilməsində praktiki və hüquqi yardım göstərirlər.

Qeyd edilməlidir ki, ölkəmizin sürətlə inkişafı hüquq sisteminin inteqrasiyasına da öz təsirini göstərir. Sivil dövlət kimi dünyaya bəlli olan respublikamız universal, beynəlxalq hüquq dəyərlərinə sadiq olduğunu daim nümayiş etdirir. Odur ki, son il ərzində Konstitusiya Məhkəməsinə müraciət edən vətəndaşlar öz mövqelərini Azərbaycan Respublikasının Konstitusiyası ilə yanaşı, həmçinin Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş təminatlar ilə də əsaslandırmağa çalışıblar. Bu aspekt cəmiyyətdə hüquqi maariflənmə prosesinin inkişaf etməsinin göstəricisi kimi də qiymətləndirilə bilər.

Konstitusiya Məhkəməsi habelə qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələri həll edir və Konstitusiyada nəzərdə tutulmuş digər səlahiyyətlərini həyata keçirir.

Ümumiyyətlə, konstitusiya nəzarəti konstitusiya müddəalarının aliliyini təmin edən vasitə olmaqla, demokratik, hüquqi dövlətin mühüm atributu kimi qiymətləndirilir. Geniş mənada konstitusiya nəzarətinin əsas təyinatı dövlət orqanlarının Konstitusiyanın tələblərinə zidd hüquqi aktlarının qanunvericilik sistemindən kənarlaşdırılmasından və ya onların real konstitusiya-hüquqi məzmununun aydınlaşdırılmasından ibarətdir.

Xüsusilə vurğulanmalıdır ki, Konstitusiya Məhkəməsi qanunvericiliyin ona verdiyi səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir və hakimiyyətin digər qollarının normayaratma fəaliyyətinə müdaxilə etmir. Lakin məhz ali konstitusiya nəzarəti orqanına xas olan və bir çox halda hüquq tənzimlənməsi sahəsində mövcud boşluqları aradan qaldıran – Konstitusiyanın və qanunların rəsmi şərhi, Konstitusiyaya uyğun olmayan hüquq normalarının qüvvədən salınması yeni hüququn ortaya çıxmasına səbəb olmaya bilməz. Məhkəmənin belə fəaliyyəti həm demokratik mahiyyəti, həm də mövcud sistemə müvafiqliyi baxımından milli hüququn inkişafının ümumi qanunauyğunluğundan və inkişaf istiqamətlərindən kənara çıxmır və ölkəmizin hüquq sisteminin daha da zənginləşdirilməsinə xidmət edir.

Konstitusiya Məhkəməsinin qərarları və həmin qərarlarda əksini tapan hüquqi mövqelər Konstitusiyanın əsasları, onun aliliyi və birbaşa qüvvəsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları, habelə insan hüquqlarının və azadlıqlarının prioriteti prinsipi nəzərə alınmaqla formalaşdırılır.

Sözsüz ki, Konstitusiya Məhkəməsinin qərarının yüksək hüquqi qüvvəsi onun bütün hissələrinə, o cümlədən hüquqi mövqelərinə də şamil edilir, bəzən bu hüquqi mövqelər müstəqil əhəmiyyət qazanır. Konstitusiya Məhkəməsinin hüquqi mövqelərinin qüvvəsi onun qərarlarının hüquqi qüvvəsinə bərabər olduğundan və ümumi xarakter daşıdığından, yalnız konstitusiya işinin predmetini təşkil etmiş hala deyil, hüququn mənbəyi kimi hüquq tətbiqetmə təcrübəsində rast gəlinən analoji hallara da şamil edilir və bu mənada həmin qərarlar hüquq tətbiqedici orqanlar üçün əhəmiyyətli mənbə qismində çıxış edir.

Konstitusiyaya əsasən Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyətinin ayrılmaz hissəsi olaraq öz fəaliyyətini digər məhkəmələrlə sıx əməkdaşlıqda həyata keçirir. Məhkəmələr tərəfindən keçən il ərzində Konstitusiya Məhkəməsinə daxil olmuş müraciətlərdə hüquq tətbiqedici orqanlar üçün mühüm məsələlərə toxunulub ki, onlara aydınlıq gətirilməsi, açıqlanması və yaxud rəsmi şərh edilməsi son nəticədə bir çox hallarda nəinki məhkəmələr üçün, eyni zamanda hüquq və mühafizə orqanlarının işi üçün praktiki fayda daşıyıb.

Məhkəməmiz konstitusiya ədalət mühakiməsinin müasir tendensiyalarını davamlı olaraq izləyir və fəaliyyətində tətbiq edir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ və xarici konstitusiya nəzarəti orqanlarının məhkəmə təcrübəsi öyrənilir və Konstitusiya Məhkəməsinin qərarlarında onlara istinadlar edilir. Bu, həm qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi müvafiq beynəlxalq müqavilələrin tətbiq edilməsinin zəruriliyindən irəli gəlir, həm də Məhkəmənin mövqeyinin daha da zənginləşdirilməsinə və düzgün əsaslandırılmasına xidmət edir.

Bu günədək Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 324 qərar, o cümlədən fərdi şikayətlər əsasında 113 qərar qəbul edilib. Həmin qərarlar Konstitusiyanın aliliyinin təmin olunmasına, insan hüquqlarının və azadlıqlarının qorunmasına xidmət edir. Konstitusiya Məhkəməsinin qərarlarında ərizəçilərin pozulmuş hüquq və azadlıqlarının bərpa olunması ilə yanaşı, hüquq və azadlıqlarının məhkəmə müdafiəsi, bərabərlik hüququ, mülkiyyət hüququ, əmək, mənzil, istirahət və sosial təminat hüquqları və s. mühüm məsələlərə dair hüquq tətbiqetmə baxımından əhəmiyyətli hüquqi mövqelər formalaşdırılıb.

Konstitusiya Məhkəməsinin Plenumu son qərarlarından biri olan Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusu əsasında qəbul etdiyi "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 28 sentyabr tarixli 217 saylı və 2014-cü il 26 dekabr tarixli 399 saylı qərarlarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2016-cı il 2 iyun tarixli Qərarında Konstitusiyanın 37-ci maddəsində, habelə Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan istirahət hüququ ilə əlaqədar formalaşdırdığı hüquqi mövqelərə istinadla bir daha qeyd edib ki, bu hüququ realizə etməklə fərd əmək münasibətlərindən irəli

gələn vəzifələrin icrasından azad edilir və bu vaxtdan istədiyi kimi istifadə edərək, ilk növbədə, öz mənəvi və fiziki qüvvələrinin, əmək qabiliyyətinin bərpa edilməsinə və sağlamlığının möhkəmləndirilməsinə nail olur. Bununla yanaşı, istirahət hüququnun digər vacib təyinatı şəxsiyyətin qabiliyyət və istedadlarının inkişafından və təkmilləşdirilməsindən, şəxsi və ictimai həyatda iştirakının təmin edilməsindən ibarətdir.

Konstitusiya Məhkəməsinin Plenumu həmin Qərarında 2001-ci il 30 noyabr tarixinədək qüvvədə olmuş "Hərbi tribunallar haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının müvafiq normalarını əlaqəli şəkildə təhlil edərək belə nəticəyə gəlib ki, Nazirlər Kabinetinin 2012-ci il 28 sentyabr tarixli 217 saylı və 2014-cü il 26 dekabr tarixli 399 saylı Qərarlarında nəzərdə tutulmuş "hərbi qulluqçu" müddəası hərbi tribunalların hakimlərini, hərbi kollegiyaya daxil olan Ali Məhkəmənin üzvlərini və onların aparatlarında xidmət etmiş hərbi qulluqçuları da ehtiva edir. Bu baxımdan Nazirlər Kabinetinin qeyd edilən qərarları ilə hərbi tribunalların hakimlərinə, hərbi kollegiyaya daxil olan Ali Məhkəmənin üzvlərinə və onların aparatlarında xidmət etmiş hərbi qulluqçulara 1994-cü il fevralın 1-dən "Hərbi tribunallar haqqında" Qanun qüvvədə olduğu dövrədək istifadə olunmamış növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi istisna edilmir.

Şirvan Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə əsasən, əmələ gələn istifadə hüququna xitam verilməsinə dair" 2016-cı il 29 mart tarixli Qərarında isə Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında formalaşdırdığı hüquqi mövqelərinə istinadla bir daha qeyd edib ki, mülkiyyət hüququnun məhdudlaşdırılması qanunçuluğun tələbinə cavab verməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə tətbiq edilməli, mütənasib olmalı və bu konstitusiya hüququnun mahiyyətini dəyişməməlidir. Bu cür məhdudiyyətin mümkünlüyü və onun xarakteri layiqli həyat səviyyəsi də daxil olmaqla konstitusiya əhəmiyyətli dəyərlərin müdafiəsi ilə şərtləndirilməlidir. Vətəndaşın sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısının dövlətin sosial sahədə konstitusiya məqsədləri sırasında göstərilməsi və Konstitusiyada heç kəsin yaşadığı mənzildən qanunsuz məhrum olunmasının mümkünsüzlüyünün müəyyən edilməsi mənzil münasibətləri sahəsində dövlətin siyasətinin vacibliyinə və konstitusiya əhəmiyyətli olduğuna dəlalət edir. Buna görə, konstitusiya əsasları olan dövlətin mənzil siyasəti üzrə qəbul edilən qərarlar Konstitusiyadan irəli gələn şərtlərə riayət olunmaqla, mülkiyyət hüququnun məhdudlaşdırılması üçün əsas kimi çıxış edə bilər. Lakin hər bir halda belə məhdudiyyət qarşıya qoyulmuş məqsədə ağlabatan şəkildə mütənasib olmaqla mülkiyyətçinin üzərinə fərdi və həddən artıq yük qoymamalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu həmin Qərarda Mülki Məcəllənin 228.1-ci və 228.2-ci maddələrinə əsasən əldə olunan istifadə hüququ ilə əlaqədar qeyd

edib ki, bu hüquq öz sahibinə yalnız aid olduğu yaşayış sahəsindən şəxsi ehtiyacını qarşılamaq imkanını təmin edir (yaşayış sahəsindən fayda götürmək, yəni əvəzli olaraq başqalarının istifadəsinə vermək imkanını təmin etmir). Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ olan şəxs, mülkiyyətçi də daxil olmaqla istənilən şəxsdən həmin yaşayış binasına olan hüququnun pozulmasını aradan qaldırmağı tələb edə bilər. Bu hüquq başqa şəxslərə özgəninkiləşdirilə bilməz və vərəsəlik qaydasında vərəsələrə keçmir.

Bu maddənin məzmununa görə, ailə üzvlərinin yaşayış binasının tərkib hissəsindən istifadə hüququnun əmələ gəlməsi üçün iki təməl şərtin yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi ilə birgə yaşayan şəxslərlə onun arasında etibarlı ailə əlaqələrinin mövcudluğu və yaşayış sahəsinə olan ehtiyacını bu mülkiyyətçinin evindən istifadə etməklə qarşılamaq məcburiyyətində olmasının tələb olunduğunu qeyd edən Konstitusiya Məhkəməsinin Plenumu bu əsaslar aradan qalxdığı andan mülkiyyətçinin iradəsinə zidd olaraq yaşayış sahəsindən keçmiş ailə üzvünün istifadə etməsinin hüquqi cəhətdən əsassız olması qənaətinə gəlib.

Plenum, həmçinin müraciətdə qaldırılan məsələnin konstitusiya əhəmiyyətini nəzərə alaraq, qeyd edib ki, məhkəmələr Mülki Məcəllənin 228.5-ci maddəsinə əsasən, əmələ gələn istifadə hüququna xitam verərkən hər bir halda müvafiq hüquq münasibətlərinin bütün iştirakçılarının hüquq və maraqlarının ədalətli və ağlabatan tarazlığını gözləyərək, konstitusiya hüquqlarının əsassız və həddindən artıq məhdudlaşdırılmasının qarşısını almalıdırlar. Buna görə də məhkəmələr tərəfindən bu mübahisələrə baxılarkən işin faktiki halları dəqiq müəyyənləşdirilməli və araşdırılmalı, o cümlədən yaşayış binasının tərkib hissəsindən istifadə hüququ həyata keçirilmədikdə, onun səbəbləri aydınlaşdırılmalı, bu xüsusat digər hallarla birlikdə məcmu qaydada tədqiq olunmalı və məhkəmənin müvafiq qərarında əsaslandırılmalıdır. Bu mənada xüsusilə qeyd olunub ki, keçmiş ailə üzvünün yaşayış sahəsindən istifadə etmək zərurətinin mövcudluğuna baxmayaraq, mülkiyyətçinin və digər mənzil sakinlərinin onun bu hüquqdan istifadə etməsini mümkünsüz etdiyi qanunazidd hallar müəyyən olunduqda, keçmiş ailə üzvünün istifadə hüququna kompensasiya ödənilmədən xitam verilə bilməz.

“Azərbaycan Respublikası Vergi Məcəlləsinin 65.2-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinə və 73-cü maddəsinin II hissəsinə uyğunluğunun yoxlanılmasına dair” 2016-cı il 17 mart tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 73-cü maddəsində əksini tapan vergiləri ödəmək vəzifəsi ilə bağlı qeyd edib ki, dövlət büdcəsinə köçürülməli pul məbləği vergi ödəyicisinin öz şəxsi mülkiyyətində olsa da, o, həmin pula istədiyi kimi sərəncam vermək hüququna malik deyil və bu pulu mütəmadi olaraq dövlətə köçürməlidir. Əks halda, digər şəxslərin, habelə dövlətin hüquqları və qanunla qorunan maraqları pozulmuş olardı.

Vergi ödəmək vəzifəsində cəmiyyətin ümumi maraqları əks olunub. Dövlət təkcə vergi ödəyicilərinin deyil, həm də cəmiyyətin digər üzvlərinin hüquqlarını və qanuni maraqlarını müdafiə etmək məqsədilə vergi münasibətlərinin tənzimlənməsi üzrə tədbirlər görmək hüququna malikdir və belə tədbirləri həyata keçirməlidir. Buna görə də vergi tutulması, vergi ödəyicisinin mülkiyyətindən əsassız məhrum edilməsi kimi deyil, onun konstitusiya vəzifələrindən irəli gələn əmlakının müəyyən hissəsinin qanuni götürülməsi kimi qiymətləndirilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayıb ki, vergilərin və başqa dövlət ödənişlərinin yalnız qanunla müəyyən edilməsi prinsipi vergilərin və başqa ödənişlərin qanunvericiliyə uyğun olaraq qəbul olunmuş və qüvvəyə minmiş qanunla müəyyən edilmiş olmasını nəzərdə tutur. Plenum Konstitusiyanın və vergi qanunvericiliyinin müvafiq normalarını əlaqəli şəkildə təhlil edərək belə nəticəyə gəlib ki, vergi orqanı tərəfindən milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra sənədi olan sərəncam verilməsini nəzərdə tutan Vergi Məcəlləsinin 65.2-ci maddəsi Konstitusiyanın 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinə və 73-cü maddəsinin II hissəsinə uyğundur.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı ilk illərdən bu günədək beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verib, xarici ölkələrin konstitusiya nəzarəti orqanları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq qurub. Məhkəməmiz Konstitusiya Ədalət Mühakiməsi üzrə Ümumdünya Konfransının, Avropa Konstitusiya Məhkəmələri Konfransının və Asiya Konstitusiya Məhkəmələri Assosiasiyasının tamhüquqlu üzvüdür.

Eyni zamanda, Türkiyə, Rusiya, Qazaxıstan, Almaniya, Bolqarıstan, Serbiya, Slovakiya, Ukrayna, Gürcüstan, Moldova, Litva, Latviya, Belarus, İndoneziya və digər ölkələrin konstitusiya nəzarəti orqanları ilə sıx ikitərəfli əlaqələr qurulub, qarşılıqlı səfərlər təşkil edilib. Türkiyə, Belarus, Moldova, Bolqarıstan və İndoneziyanın Konstitusiya məhkəmələri ilə qarşılıqlı əməkdaşlıq haqqında memorandumlar imzalanıb.

Məhkəməmiz ilə qeyd edilən dövlətlərin konstitusiya nəzarəti orqanları arasında əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişafı, Konstitusiya məhkəmələri arasında hüquqi sahədə əlaqələrin daha da möhkəmləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsi üçün geniş imkanlar yaradır. Bütün bunlar isə öz növbəsində, Konstitusiya Məhkəməsinin təcrübəsini zənginləşdirməklə və onun qəbul etdiyi qərarlarda müasir hüquqi tendensiyaların tətbiqinə zəmin yaratmaqla, həm praktiki, həm də nəzəri sahələrdə təcrübə mübadiləsinə geniş imkanlar açır.

Həyata keçirilən beynəlxalq əməkdaşlıq Konstitusiya Məhkəməsi tərəfindən bey-

nəlxalq konfransların uğurla təşkilində də özünü büruzə verir. Bu mənada 2015-ci il oktyabrın 2-də Konstitusiyanın 20 illiyinin geniş qeyd edilməsinə öz töhfəsini verərək Konstitusiya Məhkəməsi "Fərdi şikayətlər vasitəsilə Konstitusiya Məhkəməsi tərəfindən insan hüquqlarının və azadlıqlarının müdafiəsi" mövzusunda beynəlxalq konfrans keçirib. Konfransda Azərbaycan Respublikasının dövlət orqanlarının rəhbərləri və nümayəndələri, habelə xarici ölkələrin, o cümlədən Türkiyə, Rusiya, Monteneqro, Qazaxıstan, Gürcüstan, Belarus, Latviya, Serbiya, Slovakiya və digər ölkələrin Konstitusiya məhkəmələrinin sədrləri və hakimləri, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimləri, Avropa Şurası Venesiya Komissiyasının və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin nümayəndələri, ölkəmizin hüquq ictimaiyyətinin nümayəndələri iştirak edib və Konstitusiya məhkəmələri tərəfindən insan hüquqlarının və azadlıqlarının müdafiəsi məsələləri ətrafında geniş elmi-praktik fikir mübadiləsi aparılıb.

Konstitusiya Məhkəməsinin fəaliyyət göstərdiyi 18 ilin təcrübəsi göstərir ki, Konstitusiya Məhkəməsinə verilmiş səlahiyyətlər özünü doğrultmuş və məhz dövrün tələblərindən irəli gəlib. Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı ilk illərdən bu günədək Konstitusiyanın aliliyinin təmin edilməsi, insan hüquqları və azadlıqlarının səmərəli qorunması və pozulmuş hüquqların bərpası istiqamətində fəal çalışıb.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi, siyasi, hüquqi, mədəni və digər sahələrdə mühüm nailiyyətlərlə müşayiət olunur. Hüquqi dövlət ideya və prinsiplərinin bərqərar edilməsi, əhalinin sosial rifahının günbəgün daha da yaxşılaşdırılması, ölkə iqtisadiyyatının inkişafı, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə tərəqqi – bütün bunlar düşünülmüş milli strategiyanın tərkib hissəsi olaraq davamlı xarakter daşıyır. Bu gün Azərbaycan regionun lider dövləti kimi beynəlxalq miqyaslı tədbirlərə və idman yarışlarına layiqincə ev sahibliyi edir. Bu tədbirlər Azərbaycanın zəngin tarixi və mədəni irsinin, multikultural dəyərlərinin təbliğinə şərait yaradır və ölkəmizin beynəlxalq aləmdə nüfuzu günbəgün daha da yüksəlir.

Əminik ki, ölkəmizin hərtərəfli inkişafı və nailiyyətləri kontekstində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də öz fəaliyyəti ilə Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinə, Konstitusiyanın aliliyinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının səmərəli müdafiəsi işinə bundan sonra da öz töhfələrini verməkdə davam edəcəkdir.

**Fərhad Abdullayev,**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsinin sədri,**
**hüquq elmləri doktoru.**

***Mənbə:***
www.azerbaijan-news.az

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU SİYASƏTİNDƏ MULTİKULTURALİZM AMİLİ

**Bütün fəaliyyəti dövrlərində Azərbaycan xalqına sədaqət və ləyaqətlə xidmət etmiş Heydər Əliyevin yalnız bir məqsədi – amalı olmuşdur: Azərbaycanı inkişaf etdirmək, Azərbaycan vətəndaşlarının sosial-rifah halını yüksəltmək, ölkəmizi irəliyə, xoşbəxt gələcəyə aparmaq. Bu yolda ulu öndərimizin Azərbaycan xalqı qarşısında xidmətləri misilsiz və əvəzolunmazdır.**

Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında zəngin idarəçilik təcrübəsi, dahiyanə uzaqgörənlik, tükənməz enerji, misilsiz təşəbbüskarlıq Heydər Əliyevi başqalarından fərqləndirən əsas cəhətlər idi. Doğma xalqının böyük təəssübkeşi olan ulu öndər ali kürsüyə yüksəldiyi ilk gündən bütün varlığı ilə xalqın intibahı və xoşbəxt gələcəyi naminə böyük fədakarlıqlar göstərmişdir. Ölkəmizə otuz ildən çox rəhbərlik etmiş Heydər Əliyevin fəaliyyət dövrü xalqın taleyində şanlı və parlaq səhifəyə çevrilmişdir. Bu dövr Azərbaycanda müstəqilliyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın özünün təbii və konstitusion hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması ilə əlamətdardır. Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan bu kəşməkəşli və şərəfli yol, əslində, məhz dahi öndərimizin hakimiyyətə birinci rəhbərliyi dövründən başlamışdır.

Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan ümummilli liderimizin fəaliyyəti təkcə Azərbaycan üçün deyil, həm də postsovet məkanı üçün mühüm əhəmiyyət daşımaqla yanaşı, dünya miqyasında gedən proseslərə də təsir göstərmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü – 1969-1982-ci illəri əhatə etmişdir və həmin illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur.

Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə bu dövr Azərbaycanın yeni tarixinə qızıl hərflərlə yazılmışdır. Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan Heydər Əliyevin səyi nəticəsində SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Xalqımızı Azərbaycan üçün mühüm tarixi əhəmiyyət daşıyan həmin qərarların icrasına səfərbər edən Heydər Əliyev doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparmışdı.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiy-

yatına get-gedə daha dərindən inteqrasiya olunmasının təməli məhz həmin illərə söykənir.

Qarşıya konkret məqsədlər qoyaraq insanları bu məqsədlər naminə səfərbər edən və qüvvələri səmərəli şəkildə istiqamətləndirən Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhətlərindən biri də, bu böyük şəxsiyyətin məmləkətin inkişafı üçün zəruri olan məqamları görə bilməsi idi. Məhz Heydər Əliyevin müdrikliyi və əzmkar fəaliyyəti nəticəsində Azərbaycan 1982-ci ildə sovet respublikaları arasında ən qabaqcıl yerlərdən birini tuturdu. Əgər o vaxt müttəfiq respublikalar arasında cəmi iki respublika özü-özünü təmin edə bilirdisə, onlardan biri də Azərbaycan idi. Bu gün ölkəmizin inkişafına xidmət edən çox güclü infrastruktur, yeni sənaye sahələri də məhz o illərdə – 1970-ci illərdə yaradılmışdı. Həmin illərdə bütün səylər Azərbaycanda yeni müəssisələrin, fabrik və zavodların yaradılmasına, yolların, həmçinin dəmir yollarının salınmasına istiqamətlənmişdi.

Heydər Əliyevin fəaliyyəti Azərbaycan xalqının bu dahi insana bəslədiyi inamı və məhəbbəti ilə dəyərləndirildi. Bu məhəbbət, bu gün də milyonlarla azərbaycanlının qəlbində yaşayır və yaşayacaqdır.

1982-ci ilin sonlarında isə Heydər Əliyev Moskvaya dəvət olundu və Sovet İttifaqının Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin olundu, Siyasi Büroya üzv seçildi. Təbii ki, Heydər Əliyev o zaman Azərbaycandan getmək istəmirdi. Baxmayaraq ki, ona böyük etimad göstərilmişdi və Sovet İttifaqı tarixində ilk dəfə olaraq azərbaycanlı ən məsul, ən vacib vəzifələrdən birinə təyin edilirdi. Ulu öndər o vaxt deyirdi ki, mən Azərbaycanda hələ çox işlər görməliyəm. Ancaq, eyni zamanda, onu da yaxşı dərk edirdi ki, Moskvada yüksək vəzifədə Azərbaycana daha da çox kömək göstərə bilər. Heydər Əliyevin 1982-1987-ci illərdə fəaliyyəti zamanı Azərbaycanın inkişafı üçün ölkə miqyaslı çoxsaylı qərarlar və qətnamələr qəbul edilmiş, respublikamızın müxtəlif sahələrini inkişaf etdirmək üçün praktiki addımlar atılmışdı.

Lakin buna baxmayaraq, Heydər Əliyevin o vaxt Azərbaycanda yoxluğu, respublikanı çox böyük problemlərlə qarşı-qarşıya qoydu. 1987-ci ildə Mixail Qorbaçovun avantürist siyasətinə etiraz əlaməti olaraq Heydər Əliyev Moskvada tutduğu vəzifələrdən istefa verdi. Bununla da Azərbaycanın yeni faciələri başlandı. Yenidənqurma pərdəsi altında respublika iqtisadiyyatı məhv edildi. Fərsiz rəhbərlərin bir-birini əvəzlədiyi Azərbaycanda xaos, hərc-mərclik, anarxiya geniş vüsət aldı.

Onun vəzifədən getməsindən iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycan Respublikasından ayırmaq və Ermənistana birləşdirmək planlarını açıq şəkildə büruzə verdilər. Bir yandan Dağlıq Qarabağ hadisələri, digər yandan da ölkədə sonu görünməyən hakimiyyət

uğrunda mübarizə Azərbaycanı vətəndaş müharibəsinin astanasına gətirmişdi.

1987-1993-cü illər ərzində Azərbaycanın demək olar ki, bütün rayon və şəhərlərində qeyri-sabit vəziyyət, özbaşınalıq, kütləvi itaətsizlik hökm sürürdü. Azərbaycanın xilasını Heydər Əliyevdə görən xalq seçimini edərək, özünün həlledici sözünü dedi: "Azərbaycanı ağır vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilər".

O vaxt xalqımızın, müstəqilliyimizin, suverenliyimizin taleyi həll olunurdu. Ölkəmizə qarşı ərazi iddiaları artıq torpaqlarımızın işğalına gətirib çıxarmışdı. Belə bir vəziyyətdə Azərbaycanın ümumiyyətlə gələcək inkişafı şübhə altında idi. Bu vəziyyəti dərk edən Azərbaycan xalqı öz liderinə üz tutub Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etdi və 1993-cü ildən Azərbaycanda inkişaf, sabitlik və tərəqqi dövrü başladı. İlk növbədə, vətəndaş müharibəsi dayandırıldı, bütün qanunsuz birləşmələr tərk-silah edildi, ölkədə sabitlik yaradıldı və Azərbaycan bu sabitlik əsasında inkişaf etməyə başladı.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik və s. ümumbəşəri dəyərlər olan yeni bir ideologiyanın əsası qoyuldu.

Heydər Əliyev Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, həm də müasir Azərbaycan parlamentinin banisidir. 1993-cü il iyun ayında xalqın təkidi və tələbi ilə Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçilən Heydər Əliyev ilk gündən parlamentarizm ənənələrinə sadiq qalaraq, aşkarlıq prinsipinə üstünlük verdi. Ali Sovetə rəhbərlik etdiyi dövrdə ordu quruculuğunda, yeni hüquq sistemində, insan hüquq və azadlığı sahəsində mühüm qərarlar qəbul edildi.

Burada Heydər Əliyev – parlament işbirliyinin ən uğurlu layihəsi kimi, ölkə Konstitusiyasının qəbulunu qeyd etmək lazımdır. Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni mərhələsi başlandı. Ümummilli liderimizin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış və ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi həmin il, yəni 1995-ci ilin 12 noyabr tarixində keçirilən referendumda – ümumxalq səsverməsində qəbul edilmişdir. Bu mühüm tarixi əhəmiyyətə malik olan sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər, fundamental hüquq və azadlıqları öz əksini tapmışdır.

Onu da qeyd etmək lazımdır ki, 1993-cü ildən 2002-ci ilədək Milli Məclis tərəfindən qəbul edilmiş 1715 qanun və qə-

rardan 975-nin təşəbbüskarı Heydər Əliyev olmuşdur.

Heydər Əliyevin ölkəyə rəhbərliyi zamanı Azərbaycan Respublikasının iqtisadi siyasətinin ən mühüm istiqamətlərindən biri də müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Müstəqil Azərbaycan Respublikasının yeni tarixinə qızıl hərflərlə həkk olunmuş 20 sentyabr 1994-cü il bugünkü və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır. "Əsrin müqaviləsi" adı ilə bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun reallaşması müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən işlənib hazırlanmış yeni neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. "Əsrin müqaviləsi"nin imzalanması və icrasına başlanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu.

Qürur hissi ilə qeyd etmək lazımdır ki, "Əsrin müqaviləsi" layihəsi üzrə işlərin həyata keçirilməsində möhtərəm Prezidentimiz İlham Əliyevin xidmətləri də əvəzsizdir və bu gün də işlər onun rəhbərliyi ilə böyük uğurla davam etdirilir.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin zəngin əmək fəaliyyətinə nəzər salarkən, görə bilərik ki, o, zamanın və şəraitin verdiyi imkanlardan öz xalqının maraqları və yüksəlişi naminə maksimum istifadə etmiş, birmənalı olaraq ölkənin bütün sahələrinin inkişafının təməlini qoymuşdur. Heydər Əliyevin müdrik siyasəti cəmiyyətin bütün təbəqələrinin mənafelərini ifadə etməklə vətəndaşların dinindən, dilindən, irqindən asılı olmayaraq hüquq və azadlıqlarını, onların çoxmədəniyyətlilik ənənələrini müdafiə edir, ölkəmizdə multikultural dəyərlərə son dərəcə əhəmiyyətli yer verir.

Dünya təcrübəsi göstərir ki, multikulturalizmi qəbul etməyən ölkələr üçün yaxşı heç nə gözlənilmir. Bu gün dünyanın müxtəlif, hətta inkişaf etmiş ölkələrində belə, baş verən münaqişələrin böyük əksəriyyətinin kökündə milli, dini qarşıdurmalar ilk sırada gəlir. Bunun əsas səbəbi isə həmin ölkələrin multikulturalizmi lazımi səviyyədə qəbul etməmələri və ya başqa xalqlara məxsus dini, milli, mədəni dəyərlərə dözümsüzlük nümayiş etdirmələridir.

Bu, bir faktdır ki, Azərbaycan gerçəkliyinə tamamilə yad olan ayrı-seçkilik, islamofobiya, ksenofobiya kimi təhlükəli amillər bəşəriyyət tarixində hər zaman sivilizasiyaların və xalqların fəlakətinə səbəb olmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Heydər Əliyevin siyasi iradəsi Azərbay-

canda tolerantlıq və multikulturalizm ənənələrinin bərpa olunmasını təmin etmiş, dini mədəniyyətin və dinlərarası dialoqun proqram əsaslarının təməlini qoymuşdur. Multikulturalizmi azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etmiş Heydər Əliyev Azərbaycanın çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib onu keyfiyyətcə yeni müstəviyə keçirmişdir.

Azərbaycanda dinindən, dilindən, irqindən asılı olmayaraq bütün xalqların nümayəndələrinin dostluq, qardaşlıq şəraitində yaşamaları, tarixi-mədəniyyət abidələrinin bərpası və təmiri, bütün bunlar Azərbaycan reallıqlarının bariz nümunəsidir. Məscid, kilsə və sinaqoqların böyük diqqət və qayğı ilə tikilib bərpa olunduğu, bütün ənənəvi dini icmaların maddi-mənəvi cəhətdən dəstəkləndiyi Azərbaycanda multikultural həyat tərzi, dinlər və məzhəblər arasında dərin hörmət və ehtirama söykənən münasibət hökm sürür.

Təməli ulu öndərimiz tərəfindən qoyulmuş multikulturalizm siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Ölkəmizdəki tolerantlıq mühitinin əsasında duran mühüm amillərdən danışarkən, ilk növbədə siyasi sabitliyi, sosial və iqtisadi inkişafı qeyd etmək vacibdir. Ölkə başçısı müxtəlif tədbirlərdə, irimiqyaslı beynəlxalq toplantılarda çıxışları zamanı, multikulturalizm məsələsinə mütləq olaraq yer ayırır və bunun vacibliyini vurğulayır. Təsadüfi deyil ki, dövlət başçısının qərarı ilə 15 may 2014-cü il tarixində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

Ulu öndərimiz Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ili ölkəmizdə “Multikulturalizm ili” elan etmişdir. Ölkə başçısı Azərbaycanda “Multikulturalizm ili” elan edərkən xalqımızın tarixi kökündə formalaşan və yaşayan mənəvi, elmi, siyasi mənbələrə söykənmiş və bu ili, insanların bir-birinə mərhəmət, şəfqət göstərməsi, bir-birinə münasibətinin xoş olması ili kimi qeyd etmişdir.

Müstəqil dövlətçiliyimizin banisi və müasir Azərbaycanın memarı, böyük öndərimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev multikulturalizmlə bağlı fikirlərini bu cür ifadə etmişdir: “...Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət, başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrıseçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir”.

**Əli HÜSEYNLİ,**
**Milli Məclisin komitə sədri.**

***Mənbə:*** www.xalqqazeti.com

# ULU ÖNDƏR TƏHSİLİN İNKİŞAFINA XÜSUSİ QAYĞI İLƏ YANAŞIRDI

**Hər bir xalqın müstəqillik idealının, milli-mənəvi irsinin, malik olduğu potensialın konkret dövlət modelində əks edilməsi və onların dayanıqlı inkişafı üçün real əsasların formalaşdırılması, bir qayda olaraq, böyük liderlərin fenomenal idarəçilik keyfiyyətləri sayəsində mümkün olur. Tarixə möhürünü vuran belə liderlər mütərəqqi inkişaf modelinin siyasi və iqtisadi təməlini yaratmaq kimi ağır missiyanı da çiyinlərinə götürərək mənsub olduqları xalqların gələcək yaşam strategiyasını təyin edirlər. Çoxsaylı nümunələr əsasında demək olar ki, hər bir xalq uğurlu inkişaf yolunu məhz belə liderlərin rəhbərliyi ilə müəyyənləşdirmiş, dünya miqyasında layiqli yer tutmaq, özünü təsdiqləmək imkanı qazanmışdır.**

Bu reallıqlar fonunda əminliklə demək olar ki, müstəqil Azərbaycanın bu gün bölgədə və dünyada sayılıb seçilməsi, nüfuza malik olması, regional liderliyini təmin etməsi, qlobal çağırışlara cavab verən çevik və səmərəli siyasət yürütməsi məhz ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Bu il anadan olmasının 93-cü ildönümünü qeyd etdiyimiz ulu öndər Heydər Əliyev XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olaraq xalqımızı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Azərbaycan tarixinin yarım əsrlik bir dövrünün siyasi təkamülü, iqtisadi tərəqqisi, mənəvi yüksəlişi ümummilli lider Heydər Əliyevin möhtəşəm fəaliyyəti ilə bağlı olmuşdur.

Deyirlər ki, tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin gördükləri işlərin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi tanınır. Son yarım əsrlik tariximizə nəzər saldıqda, bu qənaəti birmənalı bölüşməli oluruq ki, Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yol, əslində, 1969-cu ildən Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra başlanmışdır. Məhz bu mərhələdən Azərbaycan cəmiyyəti ulu öndərin böyük səyləri nəticəsində yeni inkişaf parametrləri qazanaraq taktiki və strateji məqsədləri olan milli strategiyanı irəli sürmüş və onu uğurla həyata keçirmişdir.

Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Heydər Əliyev ölkədə milli ruhun və azərbaycançılığın sosializm ideologiyası çərçivəsində sıxışdırılmasının qarşısını alaraq onun dirçəldilməsi istiqamətində mövcud imkanlardan maksimum dərəcədə istifadə etmişdir. Xalqın tarixi yaddaşının özünə qaytarılması kimi ideoloji təməl prinsipləri əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, millətin qəlbində

illərdən bəri yığılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin formalaşdırmışdır.

Həmin dövrdə qarşıya qoyulmuş bu məqsədlərə nail olmaq üçün Azərbaycanın iqtisadi potensialının artırılmasının, onun SSRİ məkanında birincilər cərgəsinə çıxarılmasının vacibliyini əvvəlcədən görən Heydər Əliyev ölkədə genişmiqyaslı dəyişikliklərə start vermişdir. Eyni zamanda, iqtisadi və sosial sahələrdə dərin struktur islahatları aparmış, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaratmışdır. Heydər Əliyev dühası yaxşı bilirdi ki, iqtisadi cəhətdən azad olmayan millətin siyasi müstəqilliyindən söhbət gedə bilməz. Məhz ulu öndərin səyi ilə SSRİ hökuməti Azərbaycanla əlaqədar hərtərəfli yüksəlişi və intensiv inkişafı nəzərdə tutan mühüm qərarlar qəbul etmişdir. O dövrdə Azərbaycan xalqı üçün, sözün əsl mənasında, tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 1970-1980-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdir.

Ulu öndər Heydər Əliyevin qətiyyəti ilə həmin dövrdə həyata keçirilən tədbirlər həyatın bütün sahələrinin inkişafına, həmçinin iqtisadi, ictimai-siyasi yönümdə yaranmış tənəzzülün, xalqın mənəvi-psixoloji durumuna mənfi təsirinin qarşısının alınmasına gətirib çıxarırdı. Beləliklə, respublikanın qarşısında tamamilə yeni inkişaf səhifəsi açılır, bu səhifə ölkə tarixinə qızıl hərflərlə yazılırdı. Cəsarətlə söyləmək mümkündür ki, Azərbaycanın iqtisadi müstəqilliyi, onun xarici əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərindən inteqrasiya prosesi hələ 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

Ümummilli lider Heydər Əliyev dövlət idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmış, bilikli cəmiyyət naminə bütün imkanların səfərbər edilməsinə çalışmışdır. Ulu öndərin böyük uzaqgörənliklə həyata keçirdiyi elm, təhsil və mədəniyyət siyasəti milli ziyalı elitasının intellektual potensialının yüksəkliyində özünü göstərməklə aparılan islahatların praktik nəticələr verməsini təmin etmişdir. 1970-1980-ci illərdə təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və onların zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi, Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə müstəqilliyimiz üçün zəruri intellektual zəmin yaratmışdır. Heydər Əliyev peşəkar strateq olaraq daim qeyd edirdi ki, intellektual baza istənilən ölkədə dövlət müstəqilliyinin əsasını təşkil edən mühüm amillərdən biridir.

Həmin illərdə respublikada məktəb tikintisi prosesinin sürətlənməsi, maarif işinin yüksək səviyyədə təşkili, ixtisaslı kadrlar hazırlayan yeni ali məktəblərin açılması, fundamental və humanitar elmlərin inkişafı, əldə olunan kəşflərin iqtisadiyyatın bütün sahələrində tətbiqi ulu öndərin təhsil siyasətinin əsas leytmotivini təşkil etmişdir.

1969-1982-ci illərdə ulu öndərin təşəbbüsü ilə Azərbaycanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmişdir. Ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, bu ali məktəblərdə müxtəlif ixtisaslara yiyələnən tələbələrin sayı isə 70 mindən 100 minə qədər artmışdır.

Xüsusi vurğulamaq istərdik ki, Heydər Əliyevin respublikaya rəhbərliyə gəldiyi 1969-cu ildən sonra Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) fəaliyyəti ali təhsildə və elmdə zirvə mərhələsi olmuşdur. Ümumiyyətlə, 100 ilə yaxınlaşan tarixinə nəzər saldıqda məlum olur ki, bu ali təhsil ocağının intibah və tərəqqi mərhələləri məhz ulu öndərin respublikaya rəhbərliyi illərinə təsadüf edir. Ümummilli liderin universitetə isti münasibəti onun yubileylərinin keçirilməsində də özünü büruzə verirdi.

Mən özümü xoşbəxt insanlardan sayıram ki, Heydər Əliyevi tələbəlikdən tanıyıram və gənclərə göstərdiyi qayğının şahidiyəm. Yadımdadır, 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyi keçirilirdi. O zaman universitetin Kimya fakültəsinin üçüncü kurs tələbəsi idim. Mərasimə əlaçı tələbələr də dəvət edilmişdi. İndiki Şəhriyar klubunda keçirilən tədbirdə unudulmaz Heydər Əliyev Azərbaycan dilində çox dərin məzmunlu nitqlə çıxış etdi. Bu, bizi çox heyrətləndirdi. Çünki həmin vaxtlarda ən kiçik iclaslar belə rus dilində aparılırdı. Məhz Heydər Əliyevin o tədbirdəki çıxışı, deyərdik ki, tarixi bir məqam, tarixi bir nitq oldu. Biz ilk dəfə idi ki, ölkə rəhbərinin dilindən Bəhmənyar, Nəsirəddin Tusi, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi klassiklərin adını eşidirdik. Heydər Əliyev onların hər biri haqqında maraqlı fikir söyləyirdi. Açığı, onun doğma dilimizə, klassiklərimizə bu cür ehtiramla yanaşması bizə çox təsir etdi. Bəlkə də daxilimizdə milli hisslərin, vətəndaş təəssübkeşliyinin oyanıb inkişaf etməsində məhz həmin tarixi görüşün öz yeri var. İndinin özündə də ulu öndər haqqında düşünəndə gözlərim önündə həmin görüş canlanır. Qadağaların hökm sürdüyü bir dövrdə Heydər Əliyevin bu cəsarətli addımı biz gənclərin düzgün istiqamətlənməsində böyük rol oynadı.

Ulu öndər respublikaya rəhbərlik etdiyi bütün illərdə milli kadrların yetişdirilməsi işinə xüsusi qayğı ilə yanaşmış, bu məqsədlə təhsilin səviyyəsinin yüksəldilməsini önə çəkmişdir. O dövrdə milli mütərəqqi fikrin və ictimai düşüncənin başlıca mərkəzi kimi çıxış etməklə qabaqcıl ali məktəb statusunu qoruyub saxlayan, milli kadr hazırlığında əsas yükü üzərinə götürən Azərbaycan Dövlət Universitetinə diqqət və qayğının artırılması, bu təhsil ocağının fəaliyyətinin gücləndirilməsi daim Heydər Əliyevin nəzərində olmuşdur. Dahi rəhbər yaxşı bilirdi ki, universitet auditoriyalarında, kafedralarında işləyən, dərs deyən müəllimlər Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi prosesində müstəsna rol oynayırlar. O zaman azərbaycanlı gənclərin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində oxumağa göndərilməsi də məhz Heydər Əliyevin təşəbbüsü sayəsində baş tutdu. Bu qayğıdan bəhrələnənlərdən biri də mən idim. Ulu öndərin köməyi ilə Lomonosov adına Moskva Dövlət Universitetinin Kimya fakül-

təsinin aspiranturasına daxil oldum. Həmişə arzusunda olduğum, lakin reallaşmasına inana bilmədiyim bu hadisə həyatımda çox böyük rol oynadı. Yaxşı xatırlayıram ki, Moskvada təhsil aldığımız illərdə ulu öndər bir neçə dəfə bizimlə görüşdü, qayğılarımızla maraqlandı və hər dəfə də vətən üçün ləyaqətli kadrlar olmağı tövsiyə etdi. Heydər Əliyevin bizə göstərdiyi bu diqqət Rusiyada təhsil alan tələbələr üçün çox önəmli oldu. Biz hər addımımızda məhz ümummilli liderin məsləhətlərinə əməl etməyi, onun dediyi kimi öyrənməyi, oxumağı, vətənə yüksəkixtisaslı kadr kimi qayıtmağı qarşımıza məqsəd qoymuşduq. Həyat göstərdi ki, Heydər Əliyev necə uzaqgörən və müdrik şəxsiyyət idi. Məhz ulu öndərin təşəbbüsü sayəsində xarici ölkələrin ali məktəblərində təhsil alanlar sonralar Azərbaycana qayıdaraq xalqa, millətə ləyaqətlə xidmət etdilər. Bu xidmətin yüksək səviyyədə olması isə Heydər Əliyevin adı ilə bağlıdır. Çünki böyük şəxsiyyət hər birimizin həm əsl vətəndaş, həm də ixtisaslı kadr kimi formalaşmasında mühüm rol oynadı.

Ulu öndər Azərbaycan Dövlət Universitetinin 60 illik yubileyinin təşkilinin də əsas təşəbbüskarı olmuş, 1980-ci ildə keçirilmiş mərasimdə iştirak edərək təbrik nitqi söyləmişdir. Sovetlər birliyi dövründə universitetin beynəlxalq əlaqələrinin genişlənməsi də Heydər Əliyevin respublikada rəhbərliyə gəlişindən sonra mümkün olmuşdur. Universitet bir sıra dövlətlərin analoji ali təhsil müəssisələri ilə əməkdaşlığa başlamış, beynəlxalq əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Ümumiyyətlə, 1969-1982-ci illərdə Azərbaycanda humanitar və ictimai elm sahələrində böyük irəliləyişlər əldə edilmiş, dilimizin, tariximizin, folklorumuzun tədqiqi sahəsində uğurlu nəticələr qazanılmışdır. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, respublikada böyük iqtisadi, elmi və ədəbi-mədəni potensialın yaradılması da bu uzaqgörən siyasətin nəticəsi idi. Ümummilli liderin dövlətçilik fəlsəfəsinə görə elmə, təhsilə göstərdiyi qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir və bu istiqamət ulu öndərin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir.

Heydər Əliyev BDU-da biliyin yeganə meyara çevrilməsini, fəhlə və zəhmətkeş övladlarının nüfuzlu fakültələrə daxil olmasını əngəlləyən bəzi maneələrin aradan qaldırılması istiqamətində də misilsiz işlər görmüşdür. Böyük rəhbər belə neqativ hallara qarşı mübarizəni gücləndirərək ali təhsil ocaqlarına qəbul prosesinin şəffaf, obyektiv şəraitdə aparılması üçün bütün zəruri tədbirləri həyata keçirmiş, bu sahədə ciddi dönüşün yaranmasına nail olmuşdur. Əyintilərin kökünü kəsmək niyyətini cəsarətlə, qətiyyətlə, addım-addım gerçəkləşdirən ölkə rəhbərinin səyləri ilə universitetin hüquq, şərqşünaslıq kimi fakültələri yenidən istedadlı gənclərin üzünə açılmış, təhsilin səviyyəsi və nizam-intizamla yanaşı, kadr hazırlığı işi də keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Ötən əsrin sonlarına doğru istiqlaliyyətini əldə edən Azərbaycan yenə də məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşmış zəngin iqtisadi və elmi potensiala istinad etmişdir. Fəqət 1991-1993-cü illərdə respublikamızda hökm sürən ümumi böhranlı vəziyyət elm

və təhsil sahəsində də əsaslı problemlərə gətirib çıxarmışdı. Azərbaycan elmi tənəzzül girdabında çırpınır, nüfuzlu alimlər, bütün həyatını təhsilə həsr etmiş adlı-sanlı müəllimlər çörək ardınca xaricə üz tutur, mənəvi depressiya elmi mühitə getdikcə daha çox hakim kəsilirdi. Bu böhranlı vəziyyəti yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdışından sonra aradan qaldırmaq, elm və təhsil sahəsində dövlət siyasətinin mühüm istiqamətlərini müəyyənləşdirmək mümkün olmuşdu.

Ulu öndər həmin illərdə elmi-intellektual sferada hökm sürən tənəzzülün qarşısını almış, təhsilin öz məcrasına düşməsi, inkişafı üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşdırmışdır. Elmin inkişafına, bu prosesi həyata keçirən çoxminli ziyalılar ordusuna diqqət və qayğı gücləndirilmişdir. Heydər Əliyev Azərbaycan elminin milli əsaslar üzərində dünyaya inteqrasiyasını başlıca vəzifə kimi aktuallaşdırmışdır. Dövlət müstəqilliyinin ilk illərində ölkə rəhbərliyinin biganə münasibəti ilə qarşılaşan, siyasi qruplaşmaların çəkişmə meydanına çevrilərək əsl məqsədindən nisbətən kənarlaşan Bakı Dövlət Universiteti də məhz ulu öndərin hakimiyyətə qayıdışından sonra böhrandan çıxmışdır.

Ölkənin problemlər içində çaxnaşmasına baxmayaraq, Heydər Əliyevin qayğısı sayəsində 1994-cü ildə Bakı Dövlət Universitetinin 75 illik yubileyinin yüksək səviyyədə keçirilməsi baş tutmuşdu. Biz bu görüşə böyük ehtiram və ümidlə gəlmişdik. Həmişəki kimi, Heydər Əliyev özünəməxsus müdrikliklə elmin və təhsilin qarşısında dayanan problemlər haqqında fikirlərini söylədi, çıxış yolunu göstərdi. Ulu öndərin fenomen yaddaşı, universiteti yaxından tanıması, orada çalışan professor-müəllim heyətinin potensialından xəbərdar olması məni bir daha heyrətləndirdi. Heydər Əliyevlə hər görüş bir universitet təhsilinə bərabər idi. Bu, mübaliğə deyil, həqiqətdir.

Ümummilli lider BDU-nun 1999-cu ildə keçirilən 80 illik yubileyindəki tarixi çıxışında demişdir ki, Azərbaycanın keçmişini, onun mədəniyyətini, elm və iqtisadiyyatını, bütövlükdə cəmiyyəti Bakı Dövlət Universitetindən ayrı təsəvvür etmək mümkün deyildir. Ulu öndər universitetə hərtərəfli diqqət və qayğısı ilə bu ali təhsil müəssisəsinə yeni həyat vermiş, çətinliklərə rəğmən onu yeni dövrün tələbləri səviyyəsində mütəxəssis hazırlığına sövq etmişdir.

Ümumiyyətlə, BDU-nun indiyədək keçirilmiş altı yubiley mərasiminin dördü məhz Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edir. Bu mənada Heydər Əliyevlə Bakı Dövlət Universitetini bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Bütün bunlara rəğmən universitetin Böyük Elmi Şurası elmin və təhsilin inkişafına göstərdiyi qayğıya, bu təhsil ocağının şöhrətini yüksəkliklərə qaldırdığına görə Bakı Dövlət Universitetinin 80 illik yubileyi ərəfəsində ulu öndər Heydər Əliyevə BDU-nun Fəxri Doktoru diplomunu təqdim etmişdir. Dahi şəxsiyyətin BDU ilə bağlı ən mühüm və unudulmaz addımlarından biri də 13 iyun 2000-ci ildə bu ali təhsil ocağına özünüidarəetmə muxtariyyət statusunun verilməsidir. Müəyyən prinsiplər əsasında universitetə belə bir statusun verilməsi onun

inkişafında yeni mərhələnin əsasını qoymuş, təhsilin məzmun və formaca təkmilləşdirilməsini, dünya təhsil sisteminə sürətli inteqrasiyasını, eyni zamanda beynəlxalq əlaqələrinin genişlənməsini təmin etmişdir. Xarici ölkələrin mütərəqqi təcrübəsinin universitetdə tətbiqi, tədris-tərbiyə prosesinin müasir standartlara uyğun qurulması üçün məqsədyönlü addımlar atılmışdır.

Yadımdadır ki, universitetin 80 illik yubileyi ilə bağlı xarici ölkələrdən də qonaqlar gəlmişdi. 2000-ci ilin fevral ayında ümummilli lider həmin qonaqları və BDU-nun bir qrup ziyalısını qəbul etdi. Bir daha ulu öndərin elmə, təhsilə olan böyük marağı, hətta qonaqlarımızın çalışdığı universitetlər haqqında ətraflı məlumatı hamını heyrətləndirdi. Doğrudan da, bu dahi insanla hər görüş bir elmi tapıntıya sahib olmaq qədər qiymətli idi.

Mütərəqqi ideyalar olmadan insanları konkret məram və məqsədlər ətrafında səfərbər etmək, birləşdirmək mümkün deyil. Azərbaycan xalqının milli ideologiyasının vahid sistem halına gətirilməsi məhz ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq birliyinin dərin politoloji-nəzəri əsaslarını irəli sürmüşdür. Ulu öndər azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid konsepsiyada birləşdirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri bazasına çevirmiş, dünya azərbaycanlılarının milli birliyi, diaspor və lobbi quruculuğu istiqamətində ardıcıl addımlar atmasına gətirib çıxarmışdır. Ümummilli lider Heydər Əliyevin Dünya azərbaycanlılarının I qurultayındakı dərin məzmunlu nitqində böyük həyəcanla söylədiyi “Fəxr edirəm ki, mən azərbaycanlıyam!” sözləri sayı 50 milyonu ötmüş dünya azərbaycanlıları üçün milli qürur simvoluna çevrilmişdir.

Ulu öndərin siyasi kursunu böyük müdrikliklə davam etdirən Prezident İlham Əliyev onu yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır. Ölkə rəhbəri son 13 ildə ümummilli liderin elm və təhsil sahəsində müəyyənləşdirdiyi siyasəti daha da təkmilləşdirərək xalqın gələcəyinin elm və təhsillə bağlı olduğunu çıxışlarında dəfələrlə vurğulamış, fəal milli maarifçilik xətti yeridərək dünya təhsil sisteminə inteqrasiyanı vacib saymışdır.

Son illər dünyada geosiyasi səbəblərlə bağlı neftin qiymətinin 3 dəfəyədək aşağı düşməsi dövlət başçısının “bilik iqtisadiyyatı” modelinə üstünlük verməkdə nə qədər haqlı olduğunu bir daha təsdiq edir. Bu gün dünyanın inkişaf etmiş ölkələri yeni iqtisadiyyat “biliklərə əsaslanan iqtisadiyyat”larını qururlar və burada başqa göstəricilər, yəni elmi, innovasiyaları, intellektual mülkiyyəti və mədəniyyəti xarakterizə edən göstəricilər əsas götürülür. Hazırda inkişaf etmiş ölkələrdə milli sərvətin 60-80 faizini insan kapitalının təşkil etməsi də elmin inkişafının, başqa sözlə, bilik iqtisadiyyatının təzahürüdür. Bu da təsadüfi deyildir ki, son illər Azərbaycanda ger-

çəkləşdirilən milli layihələr insana, onun həyat keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş sərmayələrdir. Milli layihələrin səciyyəvi xüsusiyyəti ilk növbədə onların innovasiyayönümlü olmasındadır. Dövlət inkişafın elə istiqamətlərini dəstəkləyir ki, onlar qabaqcıl texnologiyalardan istifadə ilə və bu texnologiyaların sənayedə tətbiqi ilə bağlıdır.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərin əsasını qoyduğu mütərəqqi ənənələri keyfiyyətcə yeni mərhələdə davam etdirərək universitetə xüsusi qayğı ilə yanaşır. Dövlət başçısının BDU-ya hər zaman milli elm və təhsilimizin lokomotivi kimi yanaşması onun çağdaş tariximizdəki müstəsna rolu və xidmətləri ilə şərtlənir. Ölkə Prezidenti hesab edir ki, Afina universiteti yunanların, Sorbonna fransızların, Kembric ingilislərin milli şüurunun, elminin, maarifinin yüksəldilməsində hansı rolu oynamışdırsa, Bakı Dövlət Universiteti də xalqımızın taleyində həmin missiyanı yerinə yetirir. Universitetin 2009-cu ildə keçirilən 90 illik yubileyində çıxış edən cənab İlham Əliyev demişdir: “Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanmasında çox böyük işlər görmüşdür. Bu gün isə universitet inkişafının yeni mərhələsini yaşayır. Həm təhsilin keyfiyyəti artır, həm də universitetin maddi-texniki bazası möhkəmlənir. Bir sözlə, bizim Azərbaycanın yerləşdiyi bu bölgədə Bakı Dövlət Universitetinin xüsusi çəkisi vardır”.

Son illər respublikada elmin, orta və ali təhsilin inkişafı yönümündə həyata keçirilən islahatların müsbət bəhrələri Bakı Dövlət Universitetinin də fəaliyyətində dolğun əksini tapır. Ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə son 13 ildə BDU-nun maddi-texniki bazası möhkəmlənmiş, daha bir korpusu istifadəyə verilmiş, zəruri maddi-texniki baza ilə təchiz edilmiş laboratoriyalar, auditoriyalar onların ixtiyarına verilmişdir.

Bakı Dövlət Universiteti bu gün yüksəkixtisaslı kadrlar hazırlamaqla yanaşı, həm də 17 fakültəni, 125 kafedranı, 2 elmi-tədqiqat institutunu (ETİ), 4 elmi-tədqiqat mərkəzini (ETM), 24 elmi-tədqiqat laboratoriyasını, 3 milyona yaxın fonda malik fundamental kitabxananı özündə birləşdirən, Azərbaycan dili, ədəbiyyatı və tarixinin klassik məsələlərindən tutmuş genetika, nanotexnologiya, nanomaterialların alınmasınadək çox geniş spektrdə mövzuları əhatə edən araşdırmalar həyata keçirən nüfuzlu elmi mərkəzdir. Universitetin struktur bölmələrində 3 minə yaxın əməkdaş çalışır onlardan təxminən 300 nəfəri elmlər doktoru, 900 nəfəri fəlsəfə doktorudur. Professor-müəllim heyətindən 10 nəfəri AMEA-nın həqiqi üzvü, 11 nəfəri AMEA-nın müxbir üzvü, 12 nəfəri Milli Məclisin deputatıdır.

Ölkə Prezidentinin qarşıya qoyduğu tələbləri həyata keçirmək üçün sivil dünyanın mütərəqqi yeniliklərinin universitetimizə gətirilməsi, onların respublikanın elm, təhsil sahəsində tətbiqi də bu gün başlıca məsələlərdəndir. Alimlərimiz, gənc tədqiqatçılar, doktorant və dissertantlar hər il dəyəri milyonlarla ABŞ dolları həcmində olan

90-a qədər beynəlxalq və regional səviyyəli qrant layihələrinin yerinə yetirilməsində iştirak edirlər. Layihələr daha çox fundamental elmlər sahəsində, əsasən kimya, biologiya, fizika və riyaziyyat fakültələrinin əməkdaşları tərəfindən həyata keçirilir. Bu sırada nanotexnologiya sahəsindəki layihələri də xüsusi qeyd etmək olar.

Universitetin siması onun qazandığı elmi nailiyyətlərlə də ölçülür. Bu baxımdan ali təhsil ocağının alimlərinin əsərlərinin son illər dünyanın ən nüfuzlu elmi jurnallarında dərc olunması faktı üzərində də dayanmaq lazım gəlir. Məsələn, beynəlxalq "Tompson agentliyi"nin jurnalında yalnız konkret elmi yeniliklərlə bağlı məqalələr dərc edirlər. Son illərdə universitetin xətti ilə həmin jurnalda 200-dək məqalənin çap olunması burada elmi innovasiyaların miqyası barədə dolğun təsəvvür formalaşdırır.

Sonda bir faktı xüsusi qeyd etmək istəyirəm ki, hər bir elm-təhsil müəssisəsinin qarşısında konkret məqsədlər var: BDU-nun da əsas məqsədi gələcəyin vətənpərvər, ziyalı vətəndaşını, yüksək səviyyəli mütəxəssisini hazırlamaqdır. Bunu yaxşı bilən universitetin professor-müəllim heyəti qarşıdakı məqsədə çatmaq üçün strateji istiqamətləri dəqiq müəyyənləşdirmişdir. Onlar gələcəyin yetkin gəncliyini formalaşdırmaq məqsədilə əzmkarlıqla işləyir, xalqımızın sabahı naminə layiqli vətəndaşların, savadlı kadrların hazırlanması üçün tədris və təhsilin keyfiyyətini gündən-günə gücləndirməyə çalışırlar. Sivil dünyanın ən mütərəqqi yeniliklərinin BDU-ya gətirilməsi, bu yeniliklərin Azərbaycanın elm, təhsil sahəsində tətbiqi universitetin elmi şurasını düşündürən başlıca məsələlərdəndir.

Son dövrlərdə cəbhədə baş verən hadisələr, ordumuzun qazandığı qələbələr, vətən uğrunda canından keçən qəhrəman oğullarımızın rəşadəti bütün Azərbaycan xalqı kimi, Bakı Dövlət Universitetinin tələbələrini də ruhlandırmış, onlarda hərbi-vətənpərvərlik duyğularını gücləndirmişdir. Aprelin 4-də hadisələrin ən qaynar çağında respublikada ilk mitinqlərdən biri BDU-nun qarşısında oldu və keçirilən çoxminli mitinqdə tələbələr Ali Baş Komandan əmr edərsə, hər an təhsillərini də yarımçıq qoyub döyüşə getməyə hazır olduqlarını bildirdilər.

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasətin Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, ölkəmizin qlobal böhranın mənfi təsirlərini əzmlə dəf etməsi, regionlarımızın inkişafı, insanlarımızın maddi-rifah halının yaxşılaşdırılması, Azərbaycanın taleyüklü məsələlərinə ölkə başçısı tərəfindən xüsusi həssaslıqla yanaşılması və bütün problemlərin xalqın arzuladığı formada həlli Bakı Dövlət Universitetinin professor-müəllim heyətinin və tələbələrinin də ali istəyini əks etdirir. İnanırıq ki, 100 illik yubileyi yaxınlaşan BDU dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə yaxın perspektivdə dünyanın ən yüksək reytinqli ali təhsil ocaqları ilə bir sırada dayanacaqdır.

**Abel MƏHƏRRƏMOV,**
**Bakı Dövlət Universitetinin rektoru, akademik.**

***Mənbə:***
www.azerbaijan-news.az

# İQTİSADİ MODERNLƏŞMƏ, SİYASİ LİBERALİZM VƏ HÜQUQİ DÖVLƏT KONSEPSİYASI

*Ulu öndər Heydər Əliyev bu prinsipləri milli inkişafın ana xətti müəyyən etmişdir*

**Müasir siyasi nəzəriyyələr birmənalı təsdiqləyir ki, ictimai-iqtisadi formasiyanın xarakterindən asılı olmayaraq cəmiyyət və dövlət idarəçiliyi üçün şəxsiyyət-lider amili aktuallığını qoruyub saxlayır. Hər bir xalqın həqiqi azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün tarixi şans və milli iradə ilə yanaşı, güclü, xarizmatik liderə malik olması da son dərəcə mühüm şərtlərdən sayılır. Bu nöqteyi-nəzərdən, dünyanın ən qədim etnoslarından biri olaraq bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermiş Azərbaycan xalqının müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi çağdaş tariximizin unudulmaz dühası – ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.**

XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini əldə etmiş Azərbaycan xalqı məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında üzləşdiyi bir sıra faciələri aradan qaldırmış, milli varlıq və idrakının, özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasını gerçəkləşdirmişdir. Ulu öndər respublikaya birinci və ikinci rəhbərliyi dövründə fundamental dövlətçilik ənənələri formalaşdırmış, milli müstəqillik, azadlıq, dövlətçilik məfhumlarını illüziya və şüarçılıq səviyyəsindən milli ideologiya fəlsəfəsinə çevirməyi bacarmışdır. Xalqımızın milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş mütərəqqi ənənələrin təkmil ideoloji konsepsiya halına gətirilməsi və konkret dövlət modelində reallaşması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli lider Azərbaycanın prioritet inkişaf yoluna çevrilmiş milli iqtisadi modeli özünəməxsus uzaqgörənliklə əsaslandırmış, eyni zamanda, bu spesifik modelin yalnız demokratik tərəqqiyə əsaslanan möhkəm ictimai-siyasi sabitlik şəraitində davamlı nəticələr verə biləcəyini vurğulamışdır. Heydər Əliyevin rəhbərliyi altında iqtisadi sahədə həyata keçirilən islahatların başlıca qayəsini – iqtisadi cəhətdən güclü və müstəqil milli şirkətlərin yaradılması, insanların biznes təşəbbüskarlığının, özünüifadə və özünütəsdiq imkanlarının artırılması, demokratik dəyərlərin ictimai şüurda möhkəmlənməsi kimi mühüm prinsiplər təşkil etmişdir.

Ulu öndər dövlət – vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cə-

miyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstərmişdir. İctimai həyatın ən müxtəlif sahələrində haqq-ədalət prinsipinin qorunmasına çalışan, bunu əsl məmurluğun formuluna çevirən Heydər Əliyev yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmişdir.

Keçid dövrü cəmiyyətlərində demokratiyanın inkişafı ilə yanaşı, dövlət maraqlarının qorunmasının vacibliyi də aktual məsələ kimi gündəmə gəlir. Ulu öndər Heydər Əliyev böyük strateq kimi liberal dəyərləri üstün tutan bir sıra beynəlxalq siyasi dairələrin "Daha çox demokratiya, daha az dövlət" çağırışlarına cavab olaraq, Azərbaycanın yerləşdiyi mürəkkəb coğrafi-siyasi regionda, həmçinin, ictimai inkişafın mövcud pilləsində dövlətçilik prinsipinin dominant üstünlük qazanması zərurətini ustalıqla əsaslandırmağı bacarmışdır. Məsələ bundadır ki, demokratik dəyərlər yalnız tam oturuşmuş, iqtisadi cəhətdən güclü olan, sabit və istiqrarlı ölkədə tam intişar tapa bilər. Bütün bunlar olmadan demokratik dəyərlərin genişmiqyaslı tətbiqinə yönəlmiş səylər son nəticədə dövlətin dayaqlarının sarsılmasına gətirib çıxarır.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil xarici siyasət nəticəsində Azərbaycan sivil dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, qlobal məkanda cərəyan edən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən Azərbaycan Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi dövlətçilik fəlsəfəsi respublikamızın müasir dünyada xüsusi yerini müəyyənləşdirməklə yanaşı, onun beynəlxalq əlaqələrində də keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Böyük öndərin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri ümummilli mənafelərə, habelə siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Ümummilli lider çevik diplomatiya yeritməklə dünyanın demokratik dövlətlərinin və aparıcı təşkilatlarının Azərbaycana, habelə onun zorla cəlb edildiyi silahlı münaqişəyə münasibətinin əsaslı surətdə də-

yişməsinə nail ola bilmişdir. Bütün bunların nəticəsidir ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin dövlətçilik irsini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının və siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüşü kimi qəbul edir. Qlobal miqyasda aparıcı dövlətlər, o cümlədən, Qərbin demokratik dairələri Azərbaycanın perspektivini bu kursdan kənarda təsəvvür etmirlər. Heydər Əliyevin xarici siyasət doktrinası bu fəlsəfi dünyagörüşün mahiyyəti barədə real təsəvvürlərin ortaya çıxmasını şərtləndirir.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri də məhz ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır. Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində bu problem öz həllini tam şəkildə tapmış və beynəlxalq təşkilatlarda bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas dayaqlarından birinə çevrilmişdir. Bu gün respublikamız 300-dən çox beynəlxalq təşkilatla əməkdaşlıq edir. Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu qurumların tamhüquqlu üzvü olan Azərbaycan paralel olaraq Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı kimi qurumlarla fəal əməkdaşlıq edir.

Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini səmərəli şəkildə həyata keçirir. Ulu öndərin dövlətçilik konsepsiyasının uğurlu istiqamətlərindən biri də ölkəmizin 2001-ci ilin yanvarın 25-də Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasıdır.

Ulu öndər Heydər Əliyev böyük strateq kimi onu da nəzərə almışdır ki, hüquqi və demokratik idarəetməyə keçidin başlıca xüsusiyyətlərindən biri də hakimiyyət bölgüsü prinsipidir. Hakimiyyətin dəqiq bölgüsü aparılmadan, qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinin azad, sərbəst fəaliyyəti üçün hərtərəfli şərait yaradılmadan sivil idarəetmə mümkün deyildir. Azərbaycan Respublikasının 1995-ci ilin 12 noyabrında qəbul edilmiş ilk Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi, demokratik idarəetmə institutları və onların fəaliyyət mexanizminin istiqamətləri təsbit olunmuşdur.

Konstitusiyanın qəbulundan sonra vətəndaş cəmiyyəti və hüquqi dövlətin bərqərar edilməsi istiqamətində həyata keçirilən islahatlar da milli inkişaf strategiyasının

mahiyyətindən irəli gəlmişdir. Məhkəmə-hüquq sistemindəki islahatların əsas məqsədləri hüquqi dövlət çərçivəsində müstəqil məhkəmə sisteminin fəaliyyət göstərməsinin təmin edilməsindən, vətəndaşlar üçün ədalətli məhkəmə araşdırmasından, məhkəmə qərarlarından şikayət hüququnun həyata keçirilməsindən və s. ibarətdir. 1993-2003-cü illərdə qəbul edilmiş onlarca yeni qanun məhkəmələrin, prokurorluğun, polisin, ədliyyə orqanlarının və digər hüquq-mühafizə orqanlarının sivil statusunu müəyyənləşdirmişdir.

Ulu öndər 1993-cü dövlət qulluğu üçün milli kadrların hazırlanması işini daha geniş miqyasda, sistemli şəkildə davam etdirmişdir. Şübhəsiz, idarəçilikdə rəhbərin davranışları, idarəçilik metodu, dövlət qulluğunda üstünlük verdiyi meyarlar komandadakı əhval-ruhiyyəyə də müsbət və ya mənfi anlamda təsir göstərir. Bu mənada ulu öndərin yüksək vətənpərvərliyi, ekstremal situasiyalarda düzgün və ədalətli qərarlar qəbul etmək bacarığı, tükənməz enerjisi, işgüzarlığı, entuiziazmı onun rəhbərliyi etdiyi komandanın çevilikliyinə və işləkliyinə təkan vermiş, məmurlarda məsuliyyət hissini daha da gücləndirmişdir. Heydər Əliyev yaxşı işləyən dövlət qulluqçularını mükafatlandırmaqla yanaşı, verilmiş göstərişləri lazımi səviyyədə yerinə yetirə bilməyən, qulluq səlahiyyətlərini aşan, xalq kütlələrində haqlı narazılıq doğuran hərəkətlərə yol verən məmurları müşavirələrdə açıq ifşa etmiş, bu isə digərlərinə görk olmuşdur.

Fransız sərkərdəsi və dövlət xadimi Napoleon demişdir ki, “siyasətdə dahilik mümkün olanla mümkün olmayanı fərqləndirə bilmək qabiliyyətidir”. Bu prizmadan yanaşdıqda, Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı – Azərbaycan Prezidenti cənab İlham Əliyevin dünyanın yeni iqtisadi və siyasi münasibətlər sisteminə dərindən bələd olan praqmatik liderlik keyfiyyətləri, reallığa əsaslanan siyasət yürütməsi qabarıq görünür. Ölkə başçısının son 13 ildə reallaşdırdığı iqtisadi islahatlar nəticəsində Azərbaycan müasir keyfiyyət və iqtisadi yüksəliş mərhələsini yaşayır. Prezident İlham Əliyevin iqtisadi modernləşməni davamlı və sonu görünməyən proses kimi dəyərləndirməsi isə yeni elmi yanaşma kimi böyük maraq doğurur: “Biz gələcəyə baxmalıyıq. Bizi gələcəkdə nələrin gözlədiyi bizdən asılıdır. Azərbaycan xalqından asılıdır. Biz seçimimizi etmişik. Azərbaycan artıq müasir ölkədir. Ancaq müasirləşmənin limiti, hüdudları yoxdur. Bu, əbədi bir prosesdir, sonsuz bir prosesdir”.

Müasir dövrdə hər bir dövlətin tərəqqisi “insan meyarı”, yəni həyat keyfiyyətinin, şəxsiyyətin dövlət tərəfindən təmin olunan vəziyyətinin önə çəkilməsi ilə ölçülür. Şəxsiyyət azadlığı, insanların maddi rifah səviyyəsi, hər bir fərdin özünü cəmiyyətdə təsdiqetmə imkanı, insan və vətəndaş hü-

quqlarının qorunması – “insan meyarının” bu və digər elementləri onu dövlətin inkişafının qiymətləndirilməsinin əsas ünsürlərinə çevirir. Bu mənada, əminliklə demək olar ki, tarixin heç bir mərhələsində Azərbaycan cəmiyyəti son illərdəki kimi sürətli dəyişikliklərə uğramamış, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmamışdır.

Dövlət başçısının son illər praqmatizmə və əməli siyasətə söykənən iqtisadi siyasətinin əsas qayəsində məhz insan amili dayanmış, cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədlərə sadiq qalmaqla hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu təsdiqləmişdir. “Hər bir məmur xalqının xidmətçisi olmalıdır” – deyə hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirən dövlət başçısı hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir. Dövlət başçısı ötən 13 ildə ayrı-ayrı dövlət məmurlarına etimad meyarını məhz onların fəaliyyətinə əsasən müəyyənləşdirmiş, ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər, həyata keçiriləcək layihələr barədə dolğun məlumatlandırılmasını zəruri saymışdır.

Postneft mərhələsinə qədəm qoymuş Azərbaycanın yeni inkişaf mərhələsinin əsas tələbi qarşıda duran məqsədlərin yüksək səviyyəli, çoxşaxəli olması, zamanın çağırışlarına cavab verməsi ilə bağlıdır. Bu məqsədlərə nail olmaq üçün ciddi elmi əsaslara söykənən müasir idarəetmə üsullarının tətbiqi, eləcə də strateji yanaşmaların daha uzunmüddətli dövrü əhatə etməsi zərurəti yaranır. Ölkənin yaxın gələcək üçün inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, keçilən yolun nəzəri və praktiki prizmadan araşdırlıması zərurəti həm də onunla şərtlənir ki, respublikamız keçid dövründən modernləşmə mərhələsinə uğurla transformasiya edir.

BMT-nin təsnifatına əsasən, ümumi daxili məhsul istehsalının həcminə görə “Yuxarı inkişaf etmiş ölkələr” qrupuna daxil olan Azərbaycan bu gün özünün milli inkişaf modeli ilə dünya iqtisadiyyatında xüsusi çəkisi olan Malayziya, Cənubi Koreya, Sinqapur və digər ölkələrin sırasına daxil olmaq niyyətindədir. Başqa sözlə, respublikamız yeni dünya nizamının tələb etdiyi vəzifələrin həyata keçirilməsi prosesində öz zəngin imkanlarından səmərəli yararlanır, insan və təbii resurslarına, sosial-iqtisadi, bazasına, yerləşdiyi ərazinin təbii-coğrafi şəraitinə güvənərək müasir cəmiyyət formalaşdırmağa çalışır. Dünyanın iqtisadi cazibə və təsir mərkəzinin Qərbdən Şərqə yönəldiyi bir tarixi dönəmdə Azərbaycanın strateji önəmi və bənzərsizliyi onun Avropa ilə Asiyanın qovuşuğunda yerləşməsi, sivil əməkdaşlıq və dialoq məkanına çevrilməsi ilə şərtlənir. Xüsusi vurğulamaq lazımdır ki, BMT Sivilizasiyalar Alyansının bir

müddət əvvəl Bakıda keçirilmiş VII Qlobal Forumu Azərbaycanın multikulturalizm və tolerantlıq sahəsində əldə etdiyi uğurların müasir dünyaya təqdimatı baxımından geniş imkanlar açmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin hədəfi milli inkişafda intellektual irəliləyişə nail olmaqla, dövlətin siyasi suverenliyinin və davamlı iqtisadi rifahının təmin edilməsindən ibarətdir. Təhsil və elm lazımi səviyyədə olmasa, milli inkişafın perspektivləri, Azərbaycan dövlətçiliyinin davamlı inkişafı barədə düşünməyimiz çətin olar. Ölkə rəhbərliyinin insan kapitalının inkişafına xüsusi diqqətlə yanaşması, həm də respublikamızın sürətli iqtisadi inkişaf yolunda olması, geniş maliyyə imkanları qazanması ilə şərtlənir. Belə mühüm mərhələdə mövcud uğurların qorunub saxlanılması üçün idarəçilikdə yüksək elmi-intellektual səviyyənin təmin edilməsi son dərəcə vacibdir.

Ötən 13 ildə elmə və təhsilin problemlərinin həllinə geniş diqqət ayıran bir sıra fərman və sərəncamlar, mühüm dövlət proqramları imzalayan Prezident İlham Əliyev cəmiyyətə respublikanın iqtisadi imkanlarının genişlənməsi müqabilində bu sahəyə diqqətin daha da artırılacağı mesajını vermişdir. Azərbaycanlı tələbələrin xarici dövlətlərdə təhsilinin dövlət tərəfindən maliyyələşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetirilməsi, ümumilikdə elm-təhsil infrastrukturunun yeniləşdirilməsi ölkə vətəndaşlarının intellektual səviyyəsinin yüksəldilməsinə xidmət edən tədbirlər sırasındadır. Bu da təsadüfi deyildir: demokratiya, vətəndaş cəmiyyətinə aparan yol sırf iqtisadi azadlıqdan deyil, həm də mədəni-intellektual səviyyədən, iqtisadi modernləşməni təmin edən innovasion yeniliklərin tətbiqindən keçir.

Bütün bunlar bir daha göstərir ki, ulu öndər Heydər Əliyevin siyasi ideyalarını uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan hüquqi-siyasi və iqtisadi islahatlar postkeçid mərhələsində ölkədə modernləşmə xəttinin uğurla davam etdirilməsi üçün real zəmin yaratmışdır. Respublikamız qloballaşan dünyanın tərkib hissəsi kimi demokratik inkişaf yolunda inamla irəliləyir, yüksək iqtisadi inkişaf tempinə adekvat olaraq demokratik dəyərləri mənimsəyir. Ölkəmizin ildən-ilə artan sosial-iqtisadi imkanları deməyə əsas verir ki, Azərbaycan modernləşmə mərhələsini də tezliklə başa vuraraq dünyanın ən inkişaf etmiş dövlətləri ilə bir sırada dayanmaq imkanı əldə edəcəkdir.

**İlham MƏMMƏDZADƏ,**
**AMEA-nın Fəlsəfə**
**İnstitutunun direktoru.**

***Mənbə:*** www.xalqqazeti.com

# BÖYÜK SİYASİ KURSUN UĞURLU DAVAMI

**Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli liderimiz Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun 35 illik rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir. Respublikaya rəhbərlik etdiyi illərdə ulu öndər var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur.**

Yaxın kecmişə nəzər salsaq görərik ki, 1988-1993-cü illərdə Azərbaycanın ictimai-siyasi həyatında çaxnaşmalar, cəbhədəki məğlubiyyətlər, ölkədə anarxiya, xaos, vətəndaş müharibəsi və s. mövcud idi. Belə bir təhlükə və faciənin qarşısını almaq üçün xalq özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdi. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində tezliklə ölkədə vətəndaş müharibəsi dayandırıldı, Milli Ordumuzun döyüş qüdrətinin artırılması nəticəsində torpaqlarımızın işğalına son qoyuldu və atəşkəs əldə olundu. Qısa bir zamanda ulu öndərin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş təmin edildi. Siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı.

Ulu öndərin rəhbərliyi ilə müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu, parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edildi, hüquqi və sivil dövlət quruculuğu prosesi başlandı. İqtisadi islahatların həyata keçirilməsi geniş vüsət aldı və "Əsrin müqaviləsi" adını almış neft müqaviləsi imzalandı, dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrimiz genişləndi.

Heydər Əliyevin tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, onların arasında mehriban münasibətlərin dərin kök salmasına sərf edirdi. Xalqımızın ümummilli lideri BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, MDB və başqa beynəlxalq təşkilatların toplantılarında daim qlobal bəşəri problemlərə öz orijinal baxışı ilə fərqlənirdi. Çünki sözün həqiqi mənasında, bu böyük insanın amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etməkdən ibarət idi.

Ulu öndər Heydər Əliyev indi bütün dünyada Azərbaycanın rəmzinə çevrilib. Məhz ona görə də böyük öndərimizin adı xalqımız tərəfindən həmişə dərin hörmət və ehtiramla anılır. Tarixi təcrübə sübüt edir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar öz milli sərvətlərinə sahib olmaq və onları öz ölkələrinin inkişafına yönəltmək imkanı qazanırlar. Məlumdur ki, dünyanın bir çox ölkəsi zəngin neft ehtiyatına malikdir. Lakin bu ölkələrin heç də hamısı həmin sərvətdən xalqın rifahı üçün lazımi səviyyədə istifadə edə bilmir. Ümummilli

liderimiz Heydər Əliyev isə neft-qaz ehtiyatından əldə edilən gəliri Azərbaycan xalqının rifahına yönəldə bildi.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycanın yeni neft strategiyası həyata keçirilməyə başlandı və ölkə iqtisadiyyatına yatırılan investisiyanın həcmi ilbəil artdı. Keçmiş sovet respublikaları arasında Azərbaycan ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə böyük miqyaslı saziş imzaladı və Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da Prezident Heydər Əliyev o dövrdə növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü.

"Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi, xarici investorların ölkəmizə axını sürətləndirildi və Azərbaycanda yeni neft-qaz müqavilələrinin bağlanmasına güclü təkan verdi.

Həmin dövrdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş Heydər Əliyevə ünvanlandığı məktubda yazırdı: "Amerika Birləşmiş Ştatları Sizinlə sıx işləyərək, qlobal enerji təhlükəsizliyini təmin etməyə və Azərbaycan xalqı üçün daha firavan, dinc gələcək qurmağa yardım etməyə hazırdır".

Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi ölkəmizdə istehsal edilən neftin dünya bazarına çıxarılmasında mühüm rol oynayır. Heydər Əliyev kəmərin təməlinin qoyulması mərasimindəki nitqində demişdir: "Bakı-Tbilisi-Ceyhan çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər".

Heydər Əliyev tərəfindən yeridilən düzgün daxili və xarici siyasət nəticəsində 1995-ci ildə Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar edildi. Sosial-iqtisadi problemlərin həlli, o cümlədən əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən işlər ön plana çəkildi. Ardıcıl olaraq aparılan islahatlar qısa müddət ərzində öz bəhrəsini verməyə başladı və iqtisadiyyatın ayrı-ayrı sahələrində ciddi irəliləyişlər əldə olundu. Görülən məqsədyönlü və uzaq perspektivlərə tuşlanmış tədbirlər nəticəsində geriləmənin qarşısı birdəfəlik alındı.

Alfred Nobelin XX əsrin əvvəllərində "burada neft, qan və siyasət çox sıx şəkildə bir-birinə qarışıb", deyə xarakterizə etdiyi Azərbaycan artıq XX əsrin sonunda xalqın dahi oğlu Heydər Əliyevin gərgin əməyi, məntiqi siyasi gedişləri və inkişaf strategiyası nəticəsində qan-qadadan uzaq, sabitliyin və əmin-amanlığın hökm sürdüyü bir ölkəyə çevrilirdi. Gündən-günə artan neft gəlirləri, xarici investisiya axını ölkənin iqtisadi mənzərəsini dəyişdi, Azərbaycanı regionun lider dövlətinə çevirdi.

Regionda qlobal enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan hazırda bir sıra dünya və Avropa ölkələrinin "mavi yanacaq"la təminatında mühüm rol oynayır. "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsinin ölkəmiz üçün əhəmiyyəti olduqca böyükdür. Belə ki, sözügedən mərhələ çərçivəsində hasil edilən daha böyük miqdarda "mavi yanacaq" Azərbaycanın ixrac imkanlarını genişləndirməklə yanaşı, "Şahdəniz" qazının alıcılarının sayının da artmasına səbəb olacaq. Bu da ölkəmizin regionda, eləcə də dünyada strateji tərəfdaş kimi mövqeyini bir qədər də möhkəmləndirəcək.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə TANAP layihəsinin reallaşması olduqca mühüm tarixi hadisə sayıla bilər. Bu layihə ölkəmizin iqtisadi qüdrətinin və dünyadakı siyasi nüfuzunun artmasında önəmli rola malikdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev bu layihənin tarixi rolundan danışaraq deyib: "TANAP layihəsi bizə imkan verəcəkdir ki, Azərbaycan zəngin qaz resurslarını dünya bazarlarına böyük həcmdə nəql etsin. Hesab edirəm ki, TANAP layihəsi son illər ərzində nəinki ölkəmizdə, regionda, Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı olan məsələlər arasında ən böyük addımdır. TANAP layihəsinin təşəbbüskarı da Azərbaycan olmuşdur. Əminəm ki, TANAP layihəsini Azərbaycan öz tərəfdaşları ilə vaxtında icra edəcək və beləliklə, Avropanın enerji xəritəsi böyük dərəcədə dəyişdiriləcəkdir".

Azərbaycan hazırda nəinki özünün, eləcə də dünyanın enerji təhlükəsizliyi məsələlərinə layiqli töhfəsini verir. Dünya ölkələri, xüsusən də Qərb ölkələri enerji təhlükəsizliyi kimi ciddi problemin həllində Azərbaycanla daha sıx əməkdaşlıq qurmaqda marağını açıq şəkildə ortaya qoyub. İndi söhbət məhz Azərbaycanın fəal iştirakı ilə Xəzər-Qara dəniz-Aralıq-Baltik dənizləri və Avropa İttifaqı regionunda enerji əməkdaşlığının geniş formatı haqqında gedir. TANAP və TAP layihələrinin reallaşması bu istiqamətdə mühüm addım olacaqdır. Təbii ki, neft amilinin ölkəmizin iqtisadi və siyasi həyatında strateji əhəmiyyəti və xüsusi yeri vardır. Lakin Azərbaycan rəhbərliyi çalışır ki, ölkə neft amilindən asılı olmasın. Buna görə də qeyri-neft sektoruna aid layihələrin reallaşmasının sayı da durmadan artmaqdadır.

Qeyd etmək lazımdır ki, hazırda qlobal iqtisadi inkişafın gələcəyini müəyyənləşdirən texnologiyalar dünyanın ən aparıcı dövlətlərinin həyata keçirdikləri siyasətdə əsas xətti təşkil edir. Sürətlə yayılmaqda olan informasiya-kommunikasiya texnologiyaları və onların fonunda formalaşaraq yeni inkişaf vüsəti qazanan qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına birbaşa təsir göstərməkdədir. Təsadüfi deyil ki, artıq dövlətlərin iqtisadi üstünlüyü də məhz texnologiyalara yiyələnməyə, onları mənimsəmə gücünə əsaslanır. Bir sözlə, iqtisadi qüdrəti müəyyən edən meyarların, qazanılan makro və mikro iqtisadi göstəricilərin önündə bu gün məhz həmin ölkələrdə informasiya-kommunikasiya texnologiyalarının tutduğu yer və onun inkişafı dayanır. Texnoloji proseslərin, innovasi-

yaların insanlara xidmət, korrupsiyaya qarşı mübarizə, şəffaflıq, yenilik baxımından müasir dünyamızın əsas tələbinə çevrildiyi belə bir mühitdə ölkəmiz də qlobal çağırışlardan kənarda qalmayıb. Bu gün Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir və son 5-7 ildə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxildir.

Ölkəmizdə iqtisadi islahatların, o cümlədən regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi müstəsna rol oynayır. Məhz bunların sayəsində regionlarda sahibkarlıq inkişaf edir, yeni iş yerləri yaradılır. Hazırda Azərbaycanda sənayenin, xüsusən də qeyri-neft sənayesinin inkişaf etdirilməsi iqtisadiyyatın şaxələndirilməsi strategiyasının prioritet istiqamətlərindən biri kimi getdikcə daha çox aktuallıq kəsb edir. Bölgələrdə iri sənaye istehsalı zonalarının yaradılması isə neft-qaz ölkəsi olan Azərbaycanı həm də yaxın gələcəkdə regionun qeyri-neft sənayesinin inkişaf etdiyi bir dövlətə çevirəcəkdir.

Azərbaycanda sosial məsələyə həmişə xüsusi önəm verilir. Prezident İlham Əliyev demişdir: "Sosial siyasət həmişə prioritet olub və olacaq. Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür".

Son illərdə dünyanı bürüyən iqtisadi və maliyyə böhranından ən az itkilərlə çıxan ölkələrdən biri də Azərbaycandır. Belə ki, neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, bu il respublikamızda maaşlar və pensiyalar 10 faiz artırılıb. Bu da nadir hadisələrdən biridir. Əksər ölkələrdə ya maaşlar dondurulur, ya kəsilr, ya da maaşların verilməsində problemlər yaşanır. Ancaq dünyada hökm sürən iqtisadi və maliyyə böhranına baxmayaraq, Azərbaycanda maaşlar və pensiyalar artırılıb.

Qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatı təlatümlü dövrünü yaşayır. 2008-ci ilin qlobal maliyyə böhranının nəticələri aradan qalxmamış 2014-cü ildə Qərb-Rusiya qarşıdurması nəticəsində yenidən böhran dalğası başladı. Bu böhranın fərqli xüsusiyyəti neftin qiymətinin süni şəkildə aşağı salınması ilə müşayiət olunmasıdır. Belə vəziyyət ilk növbədə neft ixrac edən ölkələrin, o cümlədən Azərbaycanın iqtisadiyyatına da təsir göstərir.

Sevindirici haldır ki, böhranı qarşılamaq üçün ölkəmizdə vaxtında zəruri addımlar atılmışdır. İlk növbədə, qeyri-neft sektorunun inkişafına böyük məbləğdə vəsait yönəldilmişdir, özü də daha çox dövlət tərəfindən. Bu gün də qeyri-neft sektorunun bütün sahələrinə kifayət qədər böyük məbləğdə kapital yatırılır. İlk növbədə, zəruri infrastruktur layihələri həyata keçirilir. Bunun nəticəsidir ki, Azərbaycan hazırda inkişaf etmiş ölkələr səviyyəsində mükəmməl infrastruktura malikdir. Buna paralel olaraq qeyri-neft sektorunun sənaye, kənd təsərrüfatı, turizm, tikinti, nəqliyyat və digər sahələrinin inkişafı istiqamətində də böyük işlər görülür. Bunun üçün dövlət

hər il təkcə sahibkarlara milyonlarla manat güzəştli kreditlər verir.

Amma etiraf edək ki, hələlik ixracatda neft-qaz üstünlük təşkil edir. Buna görə də müəyyən çətinliklərin olması təbiidir. Odur ki, belə vəziyyətin qarşısını almaq üçün qeyri-neft sektorunda məhsul istehsalını artırmaq, ixracatda bu sektorun payını yüksəltmək zəruridir. Ümumiyyətlə, son hadisələr bir daha göstərdi ki, ölkənin dayanıqlı inkişafının təmin edilməsinin ən doğru yolu qeyri-neft sektorundan keçir. Hər bir sahənin, o cümlədən qeyri-neft sektorunun inkişafı isə kapital qoyuluşu tələb edir. Bunsuz iqtisadiyyatın inkişafı mümkün deyil. Dövlət bu istiqamətdə də məqsədyönlü siyasət aparır–özü həm birbaşa kapital qoyuluşunda iştirak edir, həm də xarici sərmayəni cəlb etmək üçün münbit investisiya mühiti yaradır. 2015-ci ildə Azərbaycan iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulub. Onun yarısı xarici sərmayələrdir. Bu da çox müsbət haldır. Deməli, dünyada baş verən iqtisadi böhrana baxmayaraq, ölkəmiz xarici investorlar üçün cəlbediciliyini qoruya bilib.

Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda investisiyanın təşviqi sənədini almış şəxslər və fərdi sahibkarlar tərəfindən ölkəyə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular əlavə dəyər vergisi və gömrük rüsumlarından azad olunub. 2016-2020-cı illərdə Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi ilə əlaqədar malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 faizi və mal mövqelərinə tətbiq olunacaq əmsallara uyğun dövlət büdcəsindən əlavə vəsaitin sahibkarlara ödənilməsi kimi tədbirlərin həyata keçirilməsi Azərbaycanda sahibkarlığın inkişaf strategiyasında mühüm addım kimi dəyərləndirilməlidir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün sahibkarlara dəstək istiqamətində çox önəmli addımlar atılır. Xüsusilə qeyd etmək lazımdır ki, yoxlamalarla bağlı Prezidentin göstərişləri yerinə yetirilir. Belə ki, 2016-cı ilin birinci rübü ərzində sahibkarlıq subyektlərində vergi istisna olmaqla, cəmi 34 yoxlama keçirilmişdir. Müqayisə üçün deyim ki, 2015-ci ilin birinci rübündə 19 min 300 yoxlama keçirilmişdi. Bu rəqəmlərə şərh verməyə ehtiyac yoxdur. Heç şübhəsiz, görülən tədbirlər və gələcəkdə iqtisadi sahədə şəffaflığın təmin edilməsi nəticəsində Azərbaycanda sahibkarlıq daha da sürətlə inkişaf edəcək və ölkə Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycan iqtisadiyyatına daha çox xarici sərmayə yönəldiləcək.

Avropa və Asiya qitələrinin qovşağında yerləşən Azərbaycan tarixən Qərblə Şərq, Şimalla Cənub arasında körpü olmuşdur. Bu günlərdə uğurla yekunlaşan VII Qlobal Bakı Forumunda digər vacib məsələlərlə yanaşı, dünya dövlətlərinin, o cümlədən Azərbaycan iqtisadiyyatının inkişafında müstəsna əhəmiyyəti olacaq tarixi İpək Yolunun tam gücü ilə işə salınmasının zə-

ruriliyinə də toxunmuşdur. Forumda Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Bu səbəbdən nəqliyyat infrastrukturuna, o cümlədən dəmir yollarının, hava və dəniz limanlarının inşasına yatırılan sərmayələr sayəsində biz nəqliyyat infrastrukturlarının kəsişmə nöqtəsinə çevrilirik. Artıq Şərq-Qərb nəqliyyat dəhlizi fəaliyyətə başlamışdır və ümid edirəm ki, bu il biz Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yollarının birləşdirilməsini başa çatdıracağıq. Beləliklə, Avropa və Asiya yeni, ən qısa nəqliyyat marşrutu əldə edəcəkdir. Çindən Avropaya gedən ilk konteyner qatarı artıq Azərbaycan ərazisindən keçmişdir. Bu, müasir infrastruktura malik olan yeni İpək Yoludur və biz bu marşrutu daha da cəlbedici etmək üçün tərəfdaşlarımıza vahid tariflərin tətbiqini təklif etmişik".

Bütün bunlar belə deməyə əsas verir ki, Azərbaycanda davamlı inkişaf möhkəm təməl üzərində qurulmuşdur və artıq hədəflər də müəyyən edilmişdir: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas vəzifə qeyri-neft sektorunun inkişafı hesabına ÜDM-in həcminin iki dəfə artırılmasıdır. Bu isə ölkənin gələcək sosial-iqtisadi inkişafı məsələsinə yeni yanaşma tələb edir. Həmin məsələlər öz əksini Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında tapmışdır. Bu konsepsiyanın əsas istiqamətlərindən biri də "İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı" bölməsidir. Həmin bölmədə qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlbinin genişləndirilməsi, bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin yaradılması, həmin müəssisələrdə innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi, ixracyönümlü məhsul istehsalının artırılması üçün dövlət və özəl sektorun investisiya əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilən daxili və xarici siyasət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcəkdir.

**Arif ŞƏKƏRƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, Əməkdar elm xadimi, Beynəlxalq Menecment Akademiyasının üzvü, iqtisad elmləri doktoru, professor.**

***Mənbə:***
www.xalqqazeti.com

# AZƏRBAYCANDA DÖVLƏT TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI ULU ÖNDƏR HEYDƏR ƏLİYEV ƏNƏNƏLƏRİNƏ ƏSASLANIR

**Azərbaycan tarixində qurucu və xilaskar dövlət xadimi, əsl xalq məhəbbətini qazanmış siyasi lider, milli azadlıq və qurtuluş hərəkatının qüdrətli öndəri kimi əbədi yer tutan Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ölkəmizin müstəqillik tarixinin əlamətdar bir dövründə qeyd edilir. Möhtərəm cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövləti özünün dayanıqlı sosialiqtisadi inkişafını təmin etməklə yanaşı, ərazi bütövlüyünün bərpası və təhlükəsizliyinin təmin olunması istiqamətində çox mühüm və taleyüklü addımlar atır. Ulu Öndər Heydər Əliyevin milli inkişaf strategiyasının müasir dövrün tələbləri, yeni ideyalar əsasında daha da zənginləşdirilərək, qətiyyət və ardıcıllılqla davam etdirilməsi ölkəmizi gücləndirir, uğur və nailiyyətlərimizi daim artırır.**

Müasir Azərbaycan dövlətçiliyi qədim və şərəfli tarixi köklərə, yüz illər boyu nəsillərdən-nəsillərə ötürülən ənənələrə bağlıdır. “Biz nadir irsin varisiyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bugününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”, deyən Ulu Öndər Heydər Əliyevin mənalı ömrü və möhtəşəm dövlətçilik fəaliyyəti məhz xalqımızın tarixi ənənələrinə sadiqliyinin ən bariz nümunəsidir. O bu tarixi ənənələrə nəinki əsl vətəndaş və rəhbər məsuliyyəti ilə yanaşmış, həm də özü Azərbaycanın yeni, müasir dövlətçilik tarixini yaratmış, daha mükəmməl dövlət idarəçiliyi ənənələrinin əsasını qoymuşdur. Müstəqil və suveren dövlətin simvolu, siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi xalqımızın yaddaşında əbədi yaşayan Heydər Əliyevin uca şəxsiyyəti və həyat yolu onun davamçıları, ölkəmizin indiki və gələcək nəsilləri üçün ən dəyərli örnəkdir.

Ümummilli lider Heydər Əliyevin çox gənc yaşlarından dövlət hakimiyyətinin mühüm strukturlarından birində təhlükəsizlik orqanında xidmətə başlaması, burada çalışdığı uzun illər ərzində yüksək peşəkarlığa və təşkilatçılıq bacarığına yiyələnməsi onun həyat yolunu müəyyənləşdirən başlıca amil idi. Sovet hakimiyyəti dövründə özünün nadir istedadı və fenomenal xüsusiyyətləri sayəsində bu orqanda sıravi əməkdaşdan komitə sədri və general-mayor rütbəsinədək yüksəlmiş ilk azərbaycanlı kimi adını tarixə yazdıran Heydər Əliyev, həm də müstəqil Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının müəllifi və onun gerçəkləşməsini təmin edən səmərəli idarəçilik sisteminin yaradıcısı oldu.

Müasir dövrdə təhlükəsizlik orqanlarının vəzifəsi şəxsiyyətin, cəmiyyətin və dövlətin ən ümdə maraqlarını müdafiə etmək, ölkənin sabit inkişafına nail olmaq, xarici və daxili təhlükələrə qarşı mübarizə apar-

maqdır. Lakin sovet hakimiyyəti illərində bu orqanların fəaliyyəti tamamilə siyasiləşdirilmiş, hakim kommunist ideologiyasının tələb və prinsiplərinə tabe edilmişdi. Bu tələbləri yerinə yetirməklə yanaşı, həm də milli düşüncəyə, doğma xalqına məxsus mənəvi-əxlaqi dəyərlərə sadiq qalmaq xüsusi xidmət orqanı əməkdaşından böyük hünər və cəsarət tələb edirdi. Ulu Öndər Heydər Əliyev yalnız özünün fenomenal şəxsi keyfiyyətləri sayəsində bu çətin missiyanın öhdəsindən gəlməyi bacarmışdır.

Bir mühüm məqama da diqqət yetirmək vacibdir ki, Ulu Öndərin xüsusi xidmət orqanı əməkdaşı kimi iyerarxik yüksəlişinin başlandığı 1950-ci illərin ortalarından etibarən sovet təhlükəsizlik orqanlarının fəaliyyəti, əsasən, cəmiyyəti qorxu altında saxlayan qanunsuz repressiv metodlardan imtina edilməsi, keçmiş repressiya qurbanlarının reabilitasiyası ilə səciyyələnən yeni mərhələyə keçirdi. Belə bir faktı da unutmaq olmaz ki, repressiya illərində Azərbaycanın təhlükəsizlik orqanlarında milli kadrlar azlıq təşkil edir, xalqımızın dəyərli övladlarının məhv edilməsində mərkəzi siyasi hakimiyyətin iradəsini yerinə yetirən qeyri-azərbaycanlılar, ən çox da erməni millətindən olan kadrlar fəallıq göstərirdilər. Ulu Öndər Heydər Əliyev sonralar həmin dövr barədə danışarkən demişdir: "Azərbaycanın təhlükəsizlik orqanlarında milli kadrların yaranmasına imkan verilmirdi. Məhz 1950-ci illərdən, 1950-ci illərin ikinci yarısından başlayaraq bu imkan əldə edildi. Ancaq buna nail olmaq üçün təhlükəsizlik orqanlarında Azərbaycan xalqına zidd siyasətin həyata keçirilməsində fəallıq göstərənləri orqanlardan uzaqlaşdırmaq, kənarlaşdırmaq lazım idi. Mənim xatirimdədir, 1953-cü ildə Stalin vəfat edəndən sonra təhlükəsizlik orqanlarında müəyyən struktur dəyişiklikləri əmələ gəldi. Mən o vaxt Azərbaycanın Dövlət Təhlükəsizliyi Nazirliyinin, sonra komitəsinin Əks-Kəşfiyyat İdarəsinin rəisi idim. O dövrü bu gün də xatırlayanda dəhşətə gəlirəm ki, biz kimlərlə işləyirdik...".

Qeyd etmək yerinə düşər ki, həmin dövrdə Heydər Əliyev əks-kəşfiyyat sahəsinə cavabdehlik daşısa da, öz səlahiyyətləri çərçivəsində, repressiya qurbanı olan azərbaycanlıların reabilitasiyası ilə əlaqədar da bütün lazımi tədbirləri görmüşdü. Sonralar Azərbaycan SSR-ə rəhbərliyi dövründə Ulu Öndər siyasi repressiya qurbanı olmuş böyük ədibimiz Hüsey Cavidin nəşinin uzaq Sibirdən gətirilərək, ata-baba yurdu Naxçıvanda dəfn edilməsi kimi hədsiz cəsarət tələb edən bir təşəbbüsün də müəllifi və icraçısı olmuşdur. Bu da təbii sayılmalıdır ki, məhz Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi "Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" 15 mart 1996-cı il tarixli Qanunu imzalamış, sovet hakimiyyəti illərində amansız təqiblərə məruz qalan, güllələnən və sürgün edilən günahsız həmvətənlərimizin siyasi, sosial və vətəndaşlıq hüquqlarının bərpa olunmasını və mənəvi itkilərinin əvəzinin ödənilməsini təmin etmişdir. Ulu Öndər sonralar sovet repressiyaları haqqında böyük təəssüf hissi ilə danışaraq deyəcəkdi: "...Repressiya təkcə ondan ibarət olmamışdır ki, ayrı-ayrı insanları həbs ediblər, əsərlərini qadağan ediblər, insanları güllələyiblər, öldürüblər,

yaxud da sürgün ediblər, onlar həyatlarını orada itiriblər. Ümumiyyətlə, bütün xalqımız repressiyaya məruz qalıbdır. Xalqımızın repressiyaya məruz qalması 1920-ci illərdən başlayaraq, mərhələlərlə, 1950-ci illərin sonlarına qədər davam etmişdir".

...Ulu Öndərin dövlət təhlükəsizlik sistemindəki fəaliyyətinə nəzər saldıqda onun əks-kəşfiyyat sahəsindəki peşəkarlığı, əməliyyat işinin təşkilində və aparılmasındakı müqayisəedilməz səriştəliliyi diqqəti cəlb edir. Bütün bunları o, həm özünün fitri istedadı, həm də dövlət təhlükəsizliyi üzrə aldığı xüsusi təhsil və əməliyyat işində qazandığı təcrübə sayəsində əxz etmişdir. Məlum olduğu kimi, Heydər Əliyev 1949-1950-ci illərdə Leninqradda (indiki Sankt-Peterburqda) Dövlət Təhlükəsizlik Komitəsinin Ali Məktəbində təhsil almışdır. Məktəbi bitirərkən verilən xidməti xasiyyətnamədə baş leytenant Heydər Əliyevin özünü yalnız nümunəvi tərəfdən göstərdiyi, öyrənilən fənlər üzrə imtahan və məqbullardan əla qiymətlər aldığı, adının məktəbin "Şərəf lövhəsi"nə salındığı qeyd edilməklə yanaşı, bildirilirdi ki, o, operativ məsələlərin həllində ən mühüm olanı bacarıqla tapır, əməliyyat şəraitində həll yolunu sərbəst və düzgün seçir, doğru qərarlar qəbul edərək əməliyyat sənədlərini hərtərəfli və əsaslandırılmış şəkildə tərtib edir.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində Heydər Əliyevin əks-kəşfiyyat sahəsindəki peşəkarlığını əyani olaraq təsdiqləyən çoxsaylı sənədlər saxlanılır. Vaxtilə xarici xüsusi xidmət orqanlarının respublikamızda planlaşdırdığı və həyata keçiməyə çalışdığı kəşfiyyat-pozuculuq tədbirlərinin qarşısının alınması, agentura və casusluq fəaliyyətinin aşkar edilməsi məqsədilə onun iştirakı və rəhbərliyi ilə bır sıra uğurlu və mükəmməl əməliyyatlar həyata keçirilmiş, bu əməliyyatlarda əldə edilən təcrübə SSRİ-nin digər təhlükəsizlik orqanlarında öyrənilmiş və geniş tətbiq edilmişdir.

Bununla belə, Heydər Əliyevin 1950-1960-cı illərdə dövlət təhlükəsizliyi orqanlarında xidməti uğurları və milli mənafeləri qorumaq təşəbbüsləri ona heç də asanlıqla başa gəlməmiş, bəzən çox ciddi sınaqlara məruz qoymuşdur. Ulu Öndər xatırlayırdı ki, həmin dövrdə dövlət təhlükəsizliyi sistemində əsas rəhbər vəzifələrdə başqa millətlərə mənsub olan kadrlar işləyirdi, yerli kadrlar isə nəinki az idi, üstəlik də, onların bir çoxu yüksək savada, biliyə, yaxud keyfiyyətə malik deyildilər. Repressiya illərindən sistemdə qalmış, milli mənafelərə xilaf çıxmış belə kadrlar Heydər Əliyevin yerli kadr potensialını yeniləmək və gücləndirmək, say tərkibini yüksək mənəviyyatlı, millətini sevən gənclərin hesabına artırmaq təşəbbüslərinə hər vəchlə mane olmağa çalışıb, müəyyən fitnə-fəsadlara əl atsalar da, onun dəmir iradəsi və peşəkarlığı qarşısında aciz qalırdılar. Sonralar bu hadisələri xatırlayarkən Ulu Öndər demişdir: "Ancaq 1950-ci illərin ikinci yarısında, 1960-cı illərdə, sonra 1970-ci illərdə Azərbaycanın təhlükəsizlik təşkilatında ciddi dəyişikliklər həyata keçirmək mümkün oldu". Heydər Əliyevin Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyat idarəsinə rəhbərlik etdiyi 1956-65-ci illər ərzində, xüsusilə də komitə rəhbərliyinə irəli çəkildiyi 1965-ci ildən sonra bu orqana milli kadrların cəlb edilməsi, onların yetiş-

dirilib, həlledici iş sahələrində rəhbər vəzifələrə irəli çəkilməsi bu istiqamətdə mühüm addım olmuşdur. Məhz Ulu Öndərin səyi və birbaşa iştirakı ilə həmin dövrdən təhlükəsizlik orqanlarında azərbaycanlıların xüsusi çəkisi sürətlə artaraq, 1980-ci illərdə 70 faizə çatmış, bu proses dinamik, dönməz xarakter almışdır. Bu dövrdə Azərbaycan təhlükəsizlik orqanlarında formalaşmış yeni nəsil sonralar müstəqil Azərbaycanın milli təhlükəsizlik orqanlarının kadr potensialının özəyini təşkil etmişdir. Həmin dövrdə respublikanın təhlükəsizlik təşkilatının milliləşdirilməsini ən böyük nailiyyət kimi dəyərləndirən Heydər Əliyev bu addımın təşkilatın fəaliyyətini milli mənafelərə daha çox uyğunlaşdırmaq imkanı yaratdığını da vurğulayırdı.

Bu məqamla bağlı bir maraqlı faktı qeyd etmək yerinə düşərdi. Belə ki, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Böyük Vətən müharibəsi illərində partizan hərəkatında iştirakı və qəhrəmanlıqlar göstərməsi barədə həqiqətlərin üzə çıxarılmasında Heydər Əliyevin müstəsna xidməti olmuşdur. Heydər Əliyev əks-kəşfiyyatçı kimi hərbi əsir və legionerlərin işlərini araşdırarkən həmyerlimizin partizanlıq fəaliyyətini önə çəkərək, lazımi materiallar toplamış, onun qəhrəman kimi tanınması üçün yuxarı rəhbərlik qarşısında məsələ qaldırmışdır. Nəticədə Mehdi Hüseynzadəyə həm ali fəxri ad verilmiş, həm də onun haqqında əsər yazılıb, film çəkilmişdir. Respublikaya rəhbərlik etdiyi dövrdə isə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakıda məşhur azərbaycanlı partizanın adını və qəhrəmanlığını əbədiləşdirən abidə ucaldılmışdır.

Ümummilli Lider sovet hakimiyyəti illərində Dövlət Təhlükəsizliyi Komitəsində çalışdığı və ona rəhbərlik etdiyi dövrdə bu orqanın milli kadr potensialını artırmaqla, milliləşdirmə siyasəti aparmaqla yanaşı, həm də respublikada milli oyanışın, bu prosesin fəal iştirakçısı olan vətənpərvər zilalıların siyasi-ideoloji təqiblərdən qorunması, öz yaradıcılıqlarında xalqımızın tarixi-mənəvi dəyərlərini təbliğ etməsi üçün hətta əfsanələşmiş, yaddaşlarda əbədi yaşayan misilsiz fədakarlıqlar göstərmişdir. Azərbaycanın bir çox görkəmli ziyalılarını akademik Ziya Bünyadovu, Xəlil Rza Ulutürkü, Bəxtiyar Vahabzadəni, Anarı və digər ədiblərimizi milli düşüncələrinə görə təqibdən məhz Heydər Əliyev qorumuş, əslində, özünün yüksək karyerasını təhlükə altına atmaqla milli mənafelərin açıq-aşkar müdafiəsinə qalxmışdır. Sonralar Azərbaycana rəhbərlik etdiyi illərdə respublikada yaradıcı ziyalılar arasında siyasi dissidentlərin olmaması barədə danışarkən Ulu Öndər demişdir: "...Əgər axtarsaydıq, çox dissident çıxarmaq olardı. Amma biz axtarmırdıq. Bu nə deməkdir? Bu o deməkdir ki, həmin dissident sayılanların əsərlərini biz qəlbən qəbul edirdik və onların özünə yol tapması üçün imkanlar yaradırdıq. Beləliklə, həmin müəlliflərə öz həmrəyliyimizi bildirirdik".

Göründüyü kimi, mövzu və məzmunca mövcud ideoloji-siyasi istiqamətə zidd əsərləri qəlbən qəbul etmək, onları qələmə alan müəlliflərlə həmrəy olmaq sovet təhlükəsizlik orqanı rəhbərinin təkcə hünər və cəsarətindən, milli ideyalara sədaqətindən deyil, həm də özünün mənəvi gücünə və xarizmasına inamından, milliyyətçiliyi

dövlət mənafeyinə xəyanət hesab edən Mərkəzin qarşısında öz mövqeyini qoruya bilmək bacarığından xəbər verir. Məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində Azərbaycan cəmiyyətinə aşılanan özgürlük və milli dirçəliş ideyaları, ötən əsrin 80-90-cı illərinin qovuşuğunda xalqımızın yenidən baş qaldıran azadlıq və müstəqillik mübarizəsinin rüşeymini təşkil etmişdir.

Ulu öndər Heydər Əliyev istər dövlət təhlükəsizliyi sistemində çalışdığı, istərsə də respublikaya birinci dəfə rəhbərlik etdiyi dövrdə erməni millətçilərinin Azərbaycana qarşı torpaq iddialarının qarşısının alınması üçün əksər hallarda təkbaşına, yalnız öz təcrübəsi, siyasi bəsirəti və geniş intellektual imkanları hesabına davamlı olaraq qətiyyətlə mübarizə aparmışdır. Bu bir tarixi həqiqətdir ki, "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni millətçiləri, onların hərbi-terrorçu təşkilatları və siyasi ideoloqları ərazilərimizi ələ keçirmək üçün xalqımızın əleyhinə fasiləsiz şəkildə fitnəkar planlar qurur, açıq düşmənçilik fəaliyyəti göstərirlər. Ötən əsrin əvvəllərində Azərbaycan torpaqlarında erməni dövlətinin qurulmasından, sonrakı illərdə kommunist rejiminin himayəsi ilə yenidən respublikamızdan qoparılan ərazilər hesabına bu dövlətin sərhədlərinin genişlənməsindən başlamış, yüz minlələrlə soydaşımızın müxtəlif illərdə həmin sərhədlərin hüdudlarından, öz ata-baba yurdlarından qovulub çıxarılmasına, nəhayət, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün başlanan və bu gün də davam edən işğalçı hərbi təcavüzədək saysız-hesabsız erməni fitnəkarlığı tarixin yaddaşına əbədi yazılmışdır.

Bu tarixdə bir unudulmaz dövr var: Heydər Əliyevin şəxsi və siyasi iradəsi sayəsində ermənilərin çirkin niyyətlərinin puça çıxarılması dövrü. Ötən əsrin 60-cı illərində daşnak-millətçi ünsürlər torpaq iddialarını gerçəkləşdirmək üçün Dağlıq Qarabağda fəallaşmağa başladılar. Xüsusi xidmət orqanları bu bölgəni daim diqqətdə saxlasa da, təxribatçılar imkan tapıb 1967-ci ilin yayında indiki Xankəndi şəhərində milli zəmində qarşıdurma yarada, burada yaşayan azərbaycanlılar və ermənilər arasına ədavət sala bildilər. Nəticədə bir neçə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Baş vermiş hadisənin təfərrüatına varmadan deyək ki, məhz respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri kimi Heydər Əliyev birbaşa Xankəndinə gəlib, burada qalaraq hadisələrin əsl günahkarlarının azğınlaşmış ermənilərin ifşa edilməsinə və öz haqlı cəzalarını almasına, eləcə də bu hadisələrə laqeydlik göstərmiş vilayət rəhbərləri haqqında sərt tədbirlər görülməsinə nail oldu.

Çox təəssüf ki, keçmiş ittifaq dövlətinin rəhbərliyi Ermənistanın haqsız və ədalətsiz torpaq iddialarının qarşını almağa cəhd göstərmir, Azərbaycanın o vaxtkı siyasi rəhbərliyinin isə, sadəcə, bu iddialara tutarlı cavablar verməyə gücü çatmırdı. Sonralar Ulu Öndər 1968-1969-cu illərdə bununla bağlı baş vermiş hadisələr barədə tarixi faktlara istinadən demişdir: "...Mənim xatirimdədir, o vaxt mən respublikanın rəhbəri deyildim, amma rəhbər vəzifə tuturdum. Respublikanın o vaxtkı rəhbərləri Ermənistanın rəhbərləri ilə bir neçə dəfə görüşlər keçirdilər. 1968-ci ildə protokol da imzalanmışdı... 1969-cu ilin iyul ayında mən

Azərbaycanın o vaxtkı Mərkəzi Komitəsinin birinci katibi seçildim. Bir neçə gün idi ki, işləyirdim, bu məsələni gətirib mənim qarşıma çıxardılar. Moskvadan da çox böyük təzyiq edirdilər ki, qərar qəbul olunub, tez edin, icrasına sərəncam verin. Dedim, bilirsiniz, bu qərar mayda qəbul olunub, əgər iyul ayına qədər icra edilməyibsə, imkan verin, mən onu bir araşdırım. Şübhəsiz ki, mən araşdırandan sonra gördüm ki, buna razılıq verə bilmərəm. Mən razılıq vermədim. Bu da məlumdur. Nə qədər ki, mən Azərbaycanda işlədim, o qədər həyata keçmədi...”.

Təəssüf ki, Ulu Öndər Heydər Əliyevin, öz iradəsindən asılı olmayaraq, Azərbaycana rəhbərlikdən uzaq qaldığı bir zamanda erməni millətçiləri və separatçıları öz istəklərini gerçəkləşdirməyə, xalqımıza və dövlətimizə sağalması hələ də mümkün olmayan yaralar vurmağa imkan tapırdılar. Tarixin və taleyin hökmü ilə yenidən Azərbaycana rəhbərliyə qayıtdıqdan, müstəqil dövlətiçiliyi real olaraq bərpa etməyə, yeni, müasir dövlət idarəçiliyi sistemi qurmağa başladıqdan sonra Heydər Əliyev həm də Ermənistanın hərbi təcavüzkarlığının qarşısını almaq üçün zəruri addımlar atmalı oldu. 1993-cü ilin iyununda xalqın israrlı və təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndərin qətiyyəti və uzaqgörən siyasəti nəticəsində müstəqil dövlətçiliyimiz məhv olmaq təhlükəsindən qurtuldu, müstəqilliyimizin əbədiliyi və dönməzliyi təmin edildi.

Heydər Əliyevin hələ sovetlər dövründə Azərbaycanın gələcək müstəqilliyini düşünərək respublika həyatının bütün sahələrində misilsiz işlər gördüyü əbədi olaraq tarixin yaddaşına yazılmışdır və bugünki güclü Azərbaycan Respublikasının təməli də məhz Ulu Öndərimizin dövlət təhlükəsizlik orqanlarına və davamlı olaraq ölkəmizə rəhbərlik etdiyi vaxtlardan qoyulmuşdur. Həmin dövrdə yüzlərlə gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilmiş, milli hərbi kadrların hazırlanması məqsədi ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb açılmışdır. Bunun nəticəsidir ki, hazırda dövlətçiliyimizin möhkəmləndirilməsinə uğurla xidmət edən böyük ziyalı, alim, mühəndis, hərbçi və digər mütəxəssis nəsli vardır. Ulu Öndər Heydər Əliyev SSRİ-nin rəhbərlərindən olduğu vaxtda da gələcək müstəqil Azərbaycanın iqtisadi, elmi, texniki və hərbi imkanlarının formalaşdırılmasına böyük töhfələr vermişdir.

Ulu Öndər yeni ictimai-siyasi və hərbi situasiyada milli təhlükəsizlik orqanlarının səmərəli fəaliyyətinin təşkili məsələlərini də diqqətdə saxlayırdı. Sovet İttifaqının süqutu ərəfəsində və Azərbaycanda müstəqilliyin bərpasının ilk illərində bu orqanın üzləşdiyi çətin sınaqlar, xüsusən, kadr potensialının zəifləməsi və peşəkarlıq səviyyəsinin aşağı düşməsi kimi hallar baş vermişdi. Heydər Əliyev bu orqanlardakı mövcud nöqsanlarla, qüsurlarla yanaşı, vətənpərvər insanların, xüsusən azərbaycanlıların əksəriyyətinin öz xalqına, millətinə sədaqətlə xidmətinin də unudulmaz olduğunu bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyev özünün 23 mart 1997-ci il tarixli sərəncamı ilə ölkəmizdə təhlükəsizlik orqanlarının peşə bayramı gününü təsis etmiş, bu orqanların Azərbaycan Xalq

Cümhuriyyəti ilə bağlı tarixi varisliyinin təmin edilməsinə qərar vermişdir.

Ulu Öndər deyirdi: "...Dövlətimizin, xalqımızın təhlükəsizliyini təmin etmək peşəsinə sahib olmaq hər bir vətəndaş üçün şərəfli vəzifədir. Çünki təhlükəsizlik təşkilatının əməkdaşları cəmiyyətdə yüksək etimada, eyni zamanda yüksək səlahiyyətə malikdirlər. Gərək hər bir əməkdaş bunların müqabilində öz məsuliyyətini dərk edə bilsin və üzərinə düşən vəzifəni yerinə yetirə bilsin".

Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşı üçün Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş peşə və mənəviyyat meyarları yüksək biliyə malik olmaq, dövlətimizin daxili və xarici siyasətini, beynəlxalq vəziyyəti, qanunlarımızı yaxşı bilmək, xalqımıza və dövlətimizə sədaqətli olmaq, böyük şəxsi cəsarət, iradə, dönməzlik bütün bunlar daim siqlətini və əhəmiyyətini saxlayır. Müstəqil Azərbaycan Respublikasının mühüm dövlətçilik təsisatlarından olan təhlükəsizlik orqanları üçün xalqına və dövlətinə ləyaqətlə xidmət edən, onun təhlükəsizliyinin keşiyində dayanan, sədaqətli və vətənpərvər, yeni nəsil peşəkar və ixtisaslı kadrların hazırlanmasını həyata keçirən Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının yaradılması da bilavasitə Ulu Öndərin adı ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin həyata keçirdiyi ardıcıl və prinsipial daxili və xarici siyasət nəticəsində bu gün davamlı inkişafda olan Azərbaycan bölgənin lider dövləti kimi beynəlxalq münasibətlər və təhlükəsizlik sistemində öz layiqli yerini tutur, xalqımız rifah və sabitlik şəraitində yaşayır.

Bu gün Azərbaycanın xüsusi xidmət orqanları Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil dövlətimizin təhlükəsizliyinin, vətəndaşlarımızın hüquq və azadlıqlarının, ölkəmizin ərazi bütövlüyünün qorunması sahəsində üzərinə düşən məsul vəzifələri layiqincə davam etdirir. Hazırda ölkəmizin dövlət təhlükəsizliyi sistemində məqsədyönlü struktur islahatları həyata keçirilir. Dövlət başçısımız cənab İlham Əliyev xüsusi xidmət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaq və dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədilə Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti yaradılması haqqında 14 dekabr 2015-ci il tarixli Fərman imzalamışdır.

Həyata keçirilən islahatlar əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan dövlət təhlükəsizliyi məktəbinin ənənələrini yaşatmağa, bu ənənələri yeni dövrün tələblərinə və milli dövlətçilik prinsiplərinə uyğun şəkildə daha da zənginləşdirməyə imkan verəcəkdir. Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti dövlət və cəmiyyət qarşısında cavabdehliyini və məsuliyyətini dərk edir və bu sahədə üzərinə düşən bütün vəzifələri yüksək səviyyədə şərəflə yerinə yetirmək əzmindədir.

**Mədət QULİYEV,**
**Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant, Azərbaycanın Milli Qəhrəmanı.**

***Mənbə:*** **«Respublika» qəzeti,**
7 may 2016-cı il.

# *AZƏRBAYCANIN SOSİAL DÖVLƏT KONSEPSİYASI:* SOSİAL SABİTLİKDƏN MÜASİR İNNOVASİYALARA DOĞRU

**Dünya sosialist sisteminin çökməsi nəticəsində planetin siyasi xəritəsinin dəyişməsi ilə səciyyələnən 1980-ci illərin sonu və 90-cı illərin əvvəlləri eyni zamanda, postsovet ölkələrində işsizliyin və yoxsulluğun artması şəraitində ağır sosial böhranların yaranması ilə yadda qaldı. Həmin dövrdə planlı təsərrüfat sistemindən yeni iqtisadi münasibətlərə üz tutan digər ölkələrlə müqayisədə Azərbaycan təkcə transformasiya dövrünün gətirdiyi çətinliklərə görə deyil, həm də Ermənistanın işğalı nəticəsində ərazisinin 20 faizinin itirilməsi, milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi, müharibənin vurduğu böyük ziyanlar, separatçı meyillərin güclənməsi, vətəndaş qarşıdurması səbəbindən daha ağır sosial mənzərə ilə üzləşmişdi. O zaman ölkədə siyasi, iqtisadi və sosial təhlükəsizlik təminatı sahəsində vahid dövlət siyasətinin müəyyən edilməməsi, siyasi hərc-mərclik, xaos və anarxiyanın hökm sürməsi vəziyyəti son dərəcə təhlükəli həddə çatdırmışdı. Məhz belə bir vaxtda, 1993-cü ilin iyununda Azərbaycan xalqının iradəsi ilə dünya şöhrətli şəxsiyyət, ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı, onun siyasi müdrikliyindən irəli gələn islahatlar kursu ölkənin ağır tənəzzül dövrünün acı gerçəkliklərindən qurtularaq tədricən ictimai-siyasi və sosial-iqtisadi sabitlik dövrünə keçməsinə şərait yaratdı.**

Ayrı-ayrı ölkələrin dövlətçilik təcrübəsində dövlət quruculuğu prosesləri ilə paralel sosial müdafiə siyasətinin həyata keçirilməsi nadir hallarda özünü göstərib və əksər ölkələrdə əhalinin mövcud sosial durumundan asılı olmayaraq, ilk növbədə dövlətin qurulması mərhələsi başa çatdıqdan sonra sosial rifah məsələsinin həllinə başlanılıb. Heydər Əliyevin təkrarsız siyasi liderliyinin ilk növbədə xalqa bağlılığa istinad etməsinin nəticəsidir ki, ötən əsrin 90-cı illərində ulu öndər müstəqil dövlət quruculuğu kimi olduqca çətin, eyni zamanda, şərəfli tarixi vəzifəni yerinə yetirməklə bərabər, sosial tənəzzülün qarşısının alınması və xalqın rifahının yaxşılaşdırılması, aztəminatlı insanların sosial ehtiyaclarının ödənilməsi üçün bütün mümkün tədbirlərin həyata keçirilməsinə nail oldu. Azərbaycanın bir dövlət kimi yox olmaq təhlükəsindən və vətəndaş qarşıdurmasından, beynəlxalq təcriddən xilas olunması, separatçı meyillərin qarşısının alınması, ictimai-siyasi sabitliyə nail olunması və s. kimi taleyüklü problemlərin həlli ilə bərabər, sosial müdafiə sahəsinə ciddi diqqət və qayğı göstərilməsi məhz sosial rifah amilinin Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsinin ayrılmaz hissəsi olduğunu bir daha təsdiq etdi.

Yenicə dövlət müstəqilliyi əldə etmiş ölkədə yeni iqtisadi sistemə keçidin iqtisadi

inkişaf üçün vacibliyi prinsipini irəli sürən ulu öndər: "Biz yaxşı bilirik ki, aparılan iqtisadi siyasət, həyata keçirilən islahatlar iqtisadiyyatı ümumən inkişaf etdirməklə yanaşı, aztəminatlı təbəqənin vəziyyətinə müəyyən qədər mənfi təsir göstərir. Ona görə də biz islahatlarımızın sosial yönümünə xüsusi fikir veririk və bundan sonra da bu, bizim diqqət mərkəzimizdə olacaqdır" deyə vurğulayaraq, keçid prosesində əhalinin sosial maraqlarının nəzərə alınmasını və təmin edilməsini dövlət qarşısında strateji vəzifə kimi müəyyən etdi. Köklü iqtisadi islahatların əhalinin rifahına mənfi təsirinin azaldılması və etibarlı sosial müdafiə sisteminin qurulması ilə paralel şəkildə aparılmasını nəzərdə tutan bu strategiya müstəqil Azərbaycanda milli iqtisadiyyatın sosialyönümlülük prinsipi əsasında qurularaq inkişaf etməsinin əsaslarını formalaşdırmış oldu.

Həmin dövrdə yeni iqtisadi münasibətlərə uyğun sosial müdafiə sisteminin hələ ki, yoxluğunu, onun qurulması üçün müəyyən zaman tələb olunduğunu, bununla belə, əhalinin sosial müdafiəsi tədbirlərinin zəruriliyini diqqətdə saxlayan Heydər Əliyev bunun üçün əvvəllər mövcud olmuş dövlət sosial təminat sistemindən istifadənin keçid dövrü ərzində də davam etdirilməsi ilə xüsusən aztəminatlı əhalinin maddi ehtiyaclarının aradan qaldırılması prinsipini müəyyənləşdirdi. Bu tədbir ölkənin aztəminatlı vətəndaşlarının sovet dönəmindən qalmış sosial müdafiə sistemi ilə əhatə edilməklə, bazar iqtisadiyyatına keçidin çətinliklərindən müdafiəsində mühüm rol oynadı. İqtisadiyyatda bazar prinsiplərinin sürətlə formalaşdığı, yeni mülkiyyət formalarının yarandığı, sahibkarlığın sürətlə inkişaf etdirildiyi şəraitdə sosial cəhətdən həssas qruplardan olan insanların maraqlarının, aztəminatlı vətəndaşların mənafelərinin müdafiəsi də təmin edildi.

Digər tərəfdən, islahatların cəmiyyətə mənfi təsirlərinin qarşılanması üçün əhalinin sosial təminatının gücləndirilməsi, xüsusən də vətəndaşların pensiya təminatının yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atıldı. Hələ 1993-cü ilin 22 noyabrında Azərbaycan Respublikası Prezidentinin imzaladığı "İşləməyən pensiyaçılara kompensasiya verilməsi haqqında", "Çörəyin və çörək məmulatlarının qiymətlərinin tənzimlənməsi və əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanlar həmin dövrdə bazar iqtisadiyyatı prinsiplərinin diktə etdiyi qiymətlərin sərbəstləşdirilməsi barədə qərarların qəbul olunması qarşılığında adekvat sosial müdafiə tədbirləri oldu.

Ümummilli liderin təşəbbüsü əsasında 1990-cı ilin 20 Yanvar faciəsinə hüquqi qiymət verilməsi, "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi, bu faciədə şəhid olanların ailə üzvlərinin dövlət qayğısı ilə əhatə olunması, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" xüsusi qanunların qəbulu, İkinci Dünya müharibəsində iştirak etmiş veteranların sosial müdafiəsinin gücləndirilməsi, 1994-cü ildə 9 May gününün

Azərbaycanda yenidən Qələbə Günü kimi rəsmiləşdirilməsi təmin edildi. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinin maddi vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın Milli Qəhrəmanlarının və onlardan həlak olanların ailələrinə yardım edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin müxtəlif fərman və sərəncamları imzalandı.

Mühüm tədbirlərdən biri kimi, 1994-cü ildən əməyin ödənilməsinin minimum məbləğinin əhəmiyyətli şəkildə artırılması, pensiya, təqaüd və müavinətlərin məbləğinin bu məbləğə uyğun müəyyən edilməsi təmin olundu. Həmin ilin 1 dekabrından sosial və işləməyən pensiyaçıların, dövlət ali və orta ixtisas təhsili müəssisələrinin gündüz şöbələrində oxuyan tələbələrin, texniki peşə məktəblərinin şagirdlərinin, adambaşına aylıq gəliri minimum əməkhaqqının 2 mislindən az olan ailələrdəki 16 yaşınadək uşaqların yeni məbləğlərlə pul kompensasiyası ilə təmin edilməsinə başlanıldı. Büdcə vəsaitlərinin yetərincə olmadığı şəraitdə qeyd olunan təbəqələrin maddi çətinliklərdən müdafiəsinə yönələn bu tədbirlər ölkəmizdə bazar iqtisadiyyatının inkişafı üçün atılan addımların, eyni zamanda, ardıcıl sosial müdafiə siyasəti ilə müşayiət edildiyini, iqtisadi islahatlar prosesində aztəminatlı təbəqənin mənafeyinin mütləq nəzərə alındığını göstərirdi.

Heydər Əliyevin müdrik siyasi kursu, zəngin dövlətçilik təcrübəsi sayəsində artıq 1990-cı illərin ortalarına doğru respublikada ictimai-siyasi sabitliyin yaradılmasına nail olunması, 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ölkənin iqtisadi dirçəlişinə təkan verərək respublikanın iqtisadi dividendlərinin artmasına, bunun müqabilində sosial sahə ilə bağlı məqsədlərin uğurla reallaşmasına şərait yaratdı.

Ümummilli liderin sosial dövlət konsepsiyası onun təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında da əksini tapdı. Ölkənin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasını şərtləndirən bu ali sənəddə Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olduğu, Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qaldığı ən yüksək səviyyədə bəyan edildi. Konstitusiyamızda əksini tapan bu mühüm sosial normalar ölkədə müasir və hüquqi dövlət quruculuğu proseslərini sürətləndirməklə bərabər, bazar münasibətləri əsasında sosialyönümlü milli iqtisadiyyatın qurulmasını şərtləndirən fundamental normativ bazanın formalaşmasına güclü əsaslar yaratdı.

Bunun nəticəsi olaraq məhz 1995-ci il ölkə həyatının bütün sahələrində olduğu kimi, sosial müdafiə sahəsində də ciddi islahatlarla müşahidə edilən, sosial-iqtisadi tənəzzül proseslərinin qarşısının tam alınması və sabit inkişaf istiqamətində dönüşə nail olunduğu yeni inkişaf mərhələsi başlanğıc dövrü kimi səciyyələndirilməlidir.

Bu mərhələ etibarlı iqtisadi bazanın formalaşması şəraitində sosial müdafiə sisteminin yeni iqtisadi dövrün tələblərinə

uyğun şəkildə müasirləşdirilməsinə, aztəminatlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönələn məqsədlərin uğurla həyata keçirilməsi, əhalinin sosial müdafiəsinə istiqamətlənən dövlət vəsaitlərinin ölkənin ümumi inkişaf tempinə uyğun şəkildə mütəmadi artırılması, sosial cəhətdən həssas qrupların rifah halının yaxşılaşdırılması üçün yeni və mühüm sosial proqramlara başlanılması ilə xarakterikdir. Təkcə 1996-cı ildə respublikada pensiya və müavinətlərin ümumən 50 faiz artırılması qeydə alındı və sonrakı illərdə bu proses davamlı xarakter aldı. 1997-ci ilin avqust ayında əlilliyi olan şəxslərin, tənha ahıl vətəndaşların, sosial pensiyaçıların pensiyalarına əlavə müavinətlərin hesablanması, pensiyaçıların yarıdan çoxunun pensiya məbləğinin 2,2 dəfə, 1998-ci ilin avqust ayında şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin pensiya məbləğlərinin 2 dəfədən çox artırılması, 2000-ci ilin əvvəlindən pensiya və müavinətlərin ümumi məbləğinin minimum həddinin 50 min manata çatdırılması, həmin ilin noyabrından sosial pensiyaçıların pensiyalarına əlavə olaraq 10 min manat aylıq müavinətin müəyyən edilməsi təmin olundu.

Bu, eləcə də 2001-ci ilin əvvəlindən 20 Yanvar əlillərinin və ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə əlil olanların pensiyalarına hesablanan aylıq müavinətlərin orta hesabla 1,5 dəfə artırılması, aztəminatlı ailələrdə uşaq doğularkən verilən birdəfəlik müavinətin 1,4 dəfə, dəfn üçün müavinətin 1,5 dəfə, üç uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinətin orta hesabla 1,8 dəfə artırılması, ölkənin pensiya qanunvericiliyində pensiyaların məbləğlərinin artırılmasını nəzərdə tutan bir sıra dəyişikliklər edilməsi və digər tədbirlər ümummili lider Heydər Əliyevin sosial inkişaf kursuna uyğun olaraq, əhalinin sosial müdafiəsinin ildən-ilə gücləndirilməsi sahəsində artıq dövlətin məqsədyönlü siyasətə malik olduğunu göstərirdi. Aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə imzalanan fərman və sərəncamlar, habelə müvafiq qərarlarla əməkhaqlarının artırılması nəticəsində 1995-2003-cü illər ərzində pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə artmışdı. Həmçinin bu dövrdə muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqında 6 dəfədən çox artım özünü göstərmişdi. 1997-2005-ci illərdə büdcədən xərclənən vəsaitlərin orta hesabla 50 faizdən çoxu əməkhaqqı, pensiya və müavinətlərin ödənilməsinə yönəldilib. Ümumiyyətlə, ulu öndər tərəfindən imzalanan 60-dan artıq sənəd müstəqil ölkədə sosial inkişafın təmin olunmasına xidmət edib.

Bununla yanaşı, həmin dövrdə MDB məkanında ilk dəfə Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsi, məşğulluq və əmək miqrasiyası haqqında qanunlar, əlilliyin qarşısının alınması və reabilitasiyası üzrə ilk dövlət proqramı qəbul olundu, ölkənin Demoqrafik İnkişaf Konsepsiyası təsdiq edildi. Digər tərəfdən, ölkədə aqrar islahatların uğurla həyata keçirilməsi iqtisadi fəal əhalinin böyük hissəsini təşkil edən kənd əhalisinin səmərəli məşğulluğuna şə-

rait yaratdı. Heydər Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində müharibə əlillərinin, şəhid ailələrinin dövlət hesabına mənzillərlə, müharibə əlillərinin minik avtomobilləri ilə təminatına başlanıldı. Əlilliyi olan şəxslərin müxtəlif reabilitasiya vasitələri, bərpa-müalicə və protez xidməti ilə təminatı gücləndirildi.

2000-ci ilin sentyabrında Nyu-Yorkda BMT-nin Minilliyin sammitində 147 ölkənin qoşulduğu “Minilliyin Bəyannaməsi”ni ölkəmiz adından imzalayan ulu öndər bəyannamənin məqsədlərinin, o cümlədən ifrat yoxsulluq və aclıq içində yaşayan dünya əhalisinin sayının yarıyadək azaldılması məramının respublikamızda uğurlu icrasının təmin olunması üçün konkret və məqsədyönlü işlərin aparılmasını təmin etdi. Heydər Əliyevin 2003-cü il 20 fevral tarixli 854 nömrəli fərmanı ilə təsdiq olunmuş “2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” bu sahədə əhəmiyyətli nəticələrin əldə edilməsinə səbəb oldu.

Milli əmək və sosial müdafiə sisteminin qabaqcıl dünya təcrübəsinə uyğun müasir əsaslar üzərində qurulması ümummilli lider Heydər Əliyevin sosial inkişaf strategiyasında mühüm yer tuturdu. Bu yöndə aparılan islahatların mühüm bir istiqaməti kimi, ulu öndərin müvafiq sərəncamı ilə 2001-ci ilin iyul ayından icrasına başlanılan Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası sığorta münasibətlərinə əsaslanan pensiya sisteminin qurulmasına, sosial sığorta haqlarının fərdi uçotuna əsaslanan və ödənilən məcburi dövlət sosial sığorta haqqı ilə pensiya məbləği arasında qarşılıqlı əlaqəni nəzərdə tutan avtomatlaşdırılmış sığorta-pensiya sisteminin formalaşdırılmasına şərait yaratdı.

Ümumilikdə 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın özünəməxsus sosial inkişaf modelini formalaşdırmaqla, ölkənin ümumi tərəqqisi kontekstində onun getdikcə modern təcrübələr əsasında təkmilləşdirilməsini və respublikanın gələcək sosial firavanlığının təminatı üçün fundamental əsaslarının yaradılmasını təmin etdi.

Ümummili lider Heydər Əliyevin ölkənin hərtərəfli və uzunmüddətli tərəqqisinə yönələn müdrik strategiyasının 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qlobal məkanda gedən proseslərə və yeni çağırışlara uyğun şəkildə uğurla davam etdirilməsi respublikamızın yeni tərəqqi və modern islahatlar mərhələsinə daxil olmasını şərtləndirdi. Dövlət başçısının mükəmməl islahatlar kursu ölkənin ötən müddətdə 3,4 dəfə iqtisadi artıma nail olmasına, qeyri-neft sektorunun ÜDM-də payının 70%-i ötməsinə, əhalinin gəlirlərinin 7 dəfə və cari ilin ilk rübündə əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 9 faiz artmasına, orta aylıq əməkhaqqının 5,6 dəfədən çox və cari ilin yanvar-fevral aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faiz artaraq 472,2 manata çatmasına səbəb olub. Ümumilikdə son 12 ildə əhalinin real gəlirlərinin orta illik artım sürətinin iqtisadi artım sürətini orta hesabla 8,3 faiz üstələdiyi qeydə alınıb.

Sosial müdafiə sistemində mühüm yer

tutan pensiya təminatı da ildən-ilə gücləndirilir. Pensiyaların orta aylıq məbləği qeyd edilən dövrdə 10,3 dəfədən çox artaraq 18,4 manatdan 190 manata, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği 210,8 manata çatdırılıb.

Qeyri-neft iqtisadiyyatının genişləndirilməsi şəraitində 1,5 milyondan çox, cari ilin ilk rübündə 37 min yeni iş yerinin açıldığı ölkəmizdə əmək bazarında sabitliyə və işsizliyin 5 faizədək azalmasına nail olunub. Hazırda Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Azərbaycan Respublikasının Məşğulluq Konsepsiyası (2016-2025-ci illər)" layihəsi hazırlanır ki, bu Konsepsiyada əksini tapan fəaliyyət prioritetləri respublikada məşğulluq siyasətinin daha da güclənməsinə, əhalinin məşğulluq imkanlarının daha da artırılmasına istiqamətlənib.

Əhalinin həyat səviyyəsinin ildən-ilə yaxşılaşması yoxsulluğun kəskin şəkildə azalaraq 5 faizə qədər azalması ilə nəticələnib. Bu sahədə ölkəmizdə əldə olunan müsbət təcrübə Azərbaycanın BMT-nin Davamlı İnkişaf Məqsədlərinə dair milli məsləhətləşmələrin aparılması üçün seçilmiş ölkələr sırasına daxil edilməsini, bununla da ölkəmizin sosial inkişaf modelinin artıq beynəlxalq miqyasda bir nümunə kimi qəbul olunmasını şərtləndirib. BMT İnkişaf Proqramı tərəfindən 2015-ci ildə insan potensialının inkişafına dair hazırlanan "İnsan inkişafı naminə əmək" adlı məruzədə də Azərbaycan həyat səviyyəsinin yaxşılaşdırılması, sosial müdafiə sisteminin gücləndirilməsi, əhalinin sağlamlığı, təhsil, mədəni inkişaf və s. sahələrdə uğurlarına görə insan inkişafının yüksək səviyyədə olduğu ölkələr siyahısına daxil edilib. Dünya Bankının adambaşına düşən Ümumi Milli Gəlir təsnifatına görə "yuxarı orta gəlirli" ölkələr qrupunda, BMT İnkişaf Proqramının hesabatında isə "yüksək insan inkişafı" ölkələri qrupunda qərarlaşan Azərbaycan rəqabət qabiliyyətliliyinə görə MDB ölkələri arasında öz birinciliyini qoruyub saxlayır.

Təbii ki, dayanıqlı sosial-iqtisadi inkişaf respublikanın demoqrafik vəziyyətində də müsbət meyillərin davamlı xarakter almasına əsas yaradıb. Əhalinin 1,3 faizlik illik artımına görə Avropa məkanında ön cərgədə olan, doğulanların sayının ölənlərin sayını 3 dəfədən çox üstələdiyi Azərbaycanda əhalinin artımı davam edir və bu ilin əvvəlindən ölkə əhalisinin sayı daha 17,9 min nəfər və ya 0,2 faiz artaraq mart ayının 1-i vəziyyətinə 9723,5 min nəfərə çatıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan və 2025-ci ilədək dövr üçün nəzərdə tutulan "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı" layihəsində ölkəmizdə demoqrafiya və əhali sakinliyinin inkişafını stimullaşdıran tədbirlər əksini tapıb.

Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan siyasət hər bir ölkə vətəndaşının, eləcə də sosial cəhətdən həssas qruplardan olan insanların rifahına xidmət edir. Dövlətimizin başçısı Nazirlər Kabinetinin cari ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr

olunan iclasında sosial siyasətin həmişə prioritet olduğunu qeyd edərək: “Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Bütün iqtisadi islahatlar, bizim uğurlu neft-qaz siyasətimiz də bu məqsədi güdür ki, insanlar daha da yaxşı yaşasınlar” deyə vurğulayıb. Cari ilin əvvəllərində əhalinin, xüsusən də onun aztəminatlı təbəqəsinin alıcılıq qabiliyyətinin artırılması, milli valyutanın devalvasiyasının və qiymət artımının təsirlərinin azaldılması məqsədi ilə müxtəlif sosial ödənişlərin, o cümlədən əməkhaqlarının, pensiyaların, müavinətlərin, təqaüdlərin və kompensasiyaların artırılması barədə Prezident İlham Əliyevin 25-dən artıq fərman və sərəncam imzalaması da vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasının dövlət başçısı tərəfindən hər şeydən üstün tutulduğunu təsdiq edir. Bu sənədlər əsasında ölkədə ümumilikdə 3,6 milyon nəfərə və ya ölkə əhalisinin 38 faizinə yönələn bütün sosial ödənişlərin fevral ayının 1-dən orta hesabla 10 faiz artırılması təmin edilib.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan mühüm sosial proqramların, o cümlədən müharibə əlillərinin və şəhid ailələrinin mənzillə, müharibə əlillərinin və onlara bərabər tutulanların minik avtomobili ilə təminatı ildən-ilə gücləndirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 20 iyun tarixli sərəncamının icrası olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təkcə keçən il və cari ilin ötən dövründə 385 nəfər, o cümlədən 180 nəfər Qarabağ müharibəsi əlili, 205 şəhid ailəsi müasir tələblərə cavab verən yeni mənzillə təmin ediliblər. Ümumilikdə bu vaxta qədər nazirliyin xətti ilə 5336 nəfər əlil və şəhid ailəsinə mənzil verilib ki, onlardan 3515 nəfəri Qarabağ müharibəsi əlili, 1330-u şəhid ailəsi, digərləri Böyük Vətən müharibəsi əlilləri, Çernobıl AES əlilləri və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlar, gözdən əlillərdir. 2014-2015-ci illərdə 1933 nəfərə “Naz-LİFAN” markalı avtomobili verilməklə, 2014-cü ilədək növbəyə duranların hamısı, hətta 2014-cü il ərzində növbəyə dayananlardan bir qrupu avtomobillə təmin olunub. Ümumilikdə indiyədək ölkəmizdə dövlət tərəfindən 5750 nəfər müharibə əlili və onlara bərabər tutulan şəxsə minik avtomobili verilib.

Prezident cənab İlham Əliyevin ölkədə idarəçilik praktikasının və xidmətlər sisteminin yeni paradiqma və çağırışlara uyğun şəkildə müasir dünya təcrübəsinə uyğun qurulması ilə əlaqədar müəyyən etdiyi vəzifələrin icrası işləri son illərdə əmək və sosial müdafiə sistemini də geniş şəkildə əhatə edir.

Ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə 2001-ci ilin iyul ayından icrasına başlanılan Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası ilə nəzərdə tutulan müddəaların icrası 2005-ci ilin sonunadək yekunlaşdırılıb və artıq 2006-cı ilin əvvəlindən ölkədə beynəlxalq standartlara cavab verən müasir sığorta-pensiya sisteminin tətbiqinə başlanılıb. Bununla da sosial sığorta, fərdi uçot və pensiya təminatı sahəsində funksiyaların bir-birini tamamladığı vahid mexanizm formalaşdırılıb. Bu sistem hər kəsin ödəmiş olduğu sığorta haqlarına, yəni, sistemə

verdiyi paya uyğun pensiya təminatına malik olması prinsipini özündə ehtiva edən, buna görə də vətəndaşların gələcək pensiyaları ilə bağlı sistemdə fəal iştirakını stimullaşdıran, eyni zamanda, pensiyalar üçün maliyyə təminatının gücləndirilməsinə əsas yaradan mütərəqqi bir sosial müdafiə modelidir. Həmin sistemin tətbiqinin müsbət nəticəsi kimi 2006-cı illə müqayisədə sosial sığorta ödəyicisi olan sığortaolunanların sayı ötən dövrdə 2,5 dəfəyə yaxın artaraq 3 milyon 226 minə çatıb, əmək pensiyalarının orta aylıq məbləği isə 10,3 dəfədən çox artıb.

Ölkəmizin malik olduğu bu sığorta-pensiya sistemi hər bir vətəndaşın nazirliyin internet səhifəsində yaradılmış müştəri xidmətləri sisteminə daxil olaraq öz fərdi hesabı barədə məlumat almasına, pensiya kalkulyatoru vasitəsilə öz pensiyasını hesablaya bilməsinə imkan verir. Eləcə də pensiya yaşına çatmış şəxslər hər hansı sənəd toplamadan və vaxt itirmədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun "Çağrı mərkəzi"nə zəng vurmaqla real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdıra bilirlər. Bu sahədə islahatlarımız beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. 2010-cu ilin martında Varşavada keçirilən Avropa Sosial Təminat Forumunda Dövlət Sosial Müdafiə Fondu "Avropanın uğurlu təcrübəsi" müsabiqəsinin "İKT-nın tətbiqi ilə effektiv idarəetmə" nominasiyası üzrə Avropa qalibi elan edilib. Dünya Bankının Azərbaycan hökuməti ilə əməkdaşlığının 20 illiyi münasibətilə fond "Müasir kompüter texnologiyalarının imkanlarından istifadə etməklə köhnəlmiş iş metodlarından yeni iş metodlarına keçid" nominasiyası üzrə xüsusi sertifikatla mükafatlandırılıb.

Ötən ay isə Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) və İsveçin Pensiya Agentliyinin birgə təşkilatçılığı ilə Stokholm şəhərində (İsveç) keçirilən BSTA Avropa Regional Sosial Təminat Forumunda isə Azərbaycanın "Çağrı mərkəzi vasitəsilə avtomatlaşdırılmış pensiya təyinatı" adlı müsbət təcrübəsi müstəqil komissiya tərəfindən xüsusi sertifikata layiq görülüb və BSTA-nın Müsbət Təcrübələr məlumat bankına daxil edilib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 3 fevral tarixli fərmanına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2014-cü ilin iyulundan əmək münasibətlərinin elektron qeydiyyat sisteminin tətbiqinə başlanması da müvafiq sahədə idarəetmə sisteminin müasir meyarlara uyğunlaşdırılması, əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılması baxımından ümumən ölkəmiz üçün uğurlu bir təcrübəni formalaşdırdı. Artıq iki ilə yaxındır ki, əmək müqavilələri, bu müqavilələrə dəyişiklik edilməsi, yaxud xitam verilməsi müvafiq bildiriş formasında "Elektron hökumət" portalı üzərindən "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" elektron xidməti vasitəsilə elektron qaydada rəsmiləşdirilir. Bu sistem əmək bazarının, eləcə də işçi hüquqlarının təminatının dövlətin birbaşa nəzarətində saxlanılmasına, məşğulluğun dinamikasını, iş qüvvəsinin icarə şərtlərini, əməyin şərtlərini, işçi qüvvəsinin daha çox cəlb olunduğu fəaliyyət

sahələrini və yerdəyişməsini və s. dəqiq şəkildə izləməyə, işəgötürənlərlə işçilər arasında əmək münasibətlərinin dəqiq və əhatəli uçotunu aparmağa imkan verir. Cari ilin 1 may tarixinədək əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemindən 5 milyon 232 min dəfədən çox istifadə edilib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 23 fevral 2015-ci il tarixli fərmanı ilə ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) yaradılması müasir texnologiyaların tətbiqi şəraitində sosial müdafiə sisteminin təkmilləşdirilməsi və şəffaflaşdırılması tədbirlərinin uğurlu davamı oldu. 2016-cı ilin 15 fevralından işə salınan VEMTAS vasitəsilə dövlət sosial yardım sisteminin bütün prosedurları elektronlaşdırılıb. Hazırda sosial yardım üçün müraciətlərin edilməsi, onların qəbulu və müraciətlərə baxılaraq qərar verilməsi prosesi avtomatlaşdırılmış rejimdə aparılır. Nəticədə, bu sahədə məmur-vətəndaş təması mümkün olmayan, ümumiyyətlə, məmur amilinin rol oynamadığı və şəffaflığın tam təmin olunduğu bir sistem mövcuddur. Bu sistem digər tərəfdən vətəndaşları ünvanlı sosial yardım üçün rəsmi şəkildə müraciət etmək üçün müxtəlif qurumlardan sənədlər toplamaq çətinliyindən azad edib və indi onlar sadə formada, çevik və rahat şəkildə sosial yardım üçün müraciət edə bilirlər.

Əlillik təyinatı və reabilitasiya sisteminin də tam avtomatlaşdırılması təmin edilib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 14 sentyabr 2015-ci il tarixli fərmanına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində yaradılan Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi (TSERAS) əlilliyin qiymətləndirilməsi üçün vətəndaşlara elektron formada müraciət etmək imkanı verib. Artıq nazirliyin Tibbi-Sosial Ekspertiza Xidməti ilə aidiyyəti qurumlar arasında əlilliyə dair sənədlərin, göndəriş formalarının mübadiləsi elektron şəkildə həyata keçirilir. Bu da əlilliyin müəyyən olunmasında şəffaflığın təmin olunmasına, məmur-vətəndaş münasibətlərinin minimallaşdırılmasına səbəb olub. Əlillik müayinəsi üçün edilmiş müraciətlər, keçirilmiş müayinələr, qəbul olunmuş qərarlar barədə məlumatlar elektron formada real vaxt rejimində sistemə ötürülür. Həmin qərarlar barədə eyni rejimdə məlumat əldə edilməsi üçün müayinə olunan şəxslərin, işəgötürənlərin və bu məlumatdan istifadə edən dövlət orqanlarının "Elektron hökumət" portalı vasitəsilə sistemə çıxışı da təmin edilib.

Digər tərəfdən, sistem tərəfindən avtomatlaşdırılmış şəkildə əlillik müddəti başa çatmamış birinci dərəcə əlillik müddətsiz müəyyən olunmaqla, ikinci və üçüncü dərəcə əlilliklərin müddəti 5 ilə qədər uzadılıb. Yəni, hər il təkrar müayinə edilməli olan 200 minə yaxın vətəndaşın bu prosedurdan keçməsinə artıq ehtiyac qalmayıb ki, bu da məmur-vətəndaş təmaslarının xeyli dərəcədə azalmasına səbəb olub.

Nazirliyin fəaliyyət sahələrinin elektron texnologiyalar əsasında yenidən qurulması həmin sahələr üzrə əhaliyə göstərilən xidmətlərin də elektron müstəvidə təşkilini reallaşdırıb. Bu gün vətəndaşlar əmək münasibətləri, sosial yardım, əlillik müayinəsi və digər sahələrdə xidmətlərdən elektron

formada faydalanmaq imkanlarına malikdirlər.

“Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi”, “Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi”, “İş yerinə dair arayış”, “Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”, “Sığortaolunanın onlayn uçota alınması”, “Uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”, “Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”, “Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”, “Sığortaolunanlara məlumatların verilməsi”, “Sığortaedənin uçot nömrəsinin öyrənilməsi”, “Pensiya kalkulyatoru” və nazirliyin digər e-xidmətləri ən çox istifadə olunan e-xidmətlərdir. Bu e-xidmətlərdən istifadə statistikası da artmaqda davam edir. Məsələn, nazirliyin e-xidmətlərindən istifadə sayı aprel ayında əvvəlki ayla müqayisədə 21,5 faiz artaraq 637674-ə çatıb ki, bu da “E-hökumət” portalından ötən ay ərzində ümumi istifadənin 33 faizə qədəri deməkdir.

Təbii ki, ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi, əmək və sosial müdafiə sisteminin innovativ texnologiyalar əsasında təkmillləşdirilməsi istiqamətində atılan uğurlu addımlar ümummilli lider Heydər Əliyevin sosial ideyalarının uğurla reallaşmasına, Azərbaycan Prezidenti cənab İlham Əliyevin hər bir ölkə vətəndaşının etibarlı sosial müdafiəsinə yönələn sosial siyasətinin və dövlət orqanlarının xidmətlərinin müasir və şəffaf şəkildə qurulması barədə tapşırıqlarının yüksək səviyyədə icrasına xidmət edir.

Bu gün Azərbaycanın beynəlxalq standartlara tam cavab verən sığorta-pensiya modeli formalaşıb. Bu model müasir dünyada sığorta-pensiya sistemləri üzrə ən mühüm elementləri özündə birləşdirir. Azərbaycanın sığorta-pensiya modeli nüfuzlu beynəlxalq təşkilatlar və maliyyə institutları tərəfindən yüksək qiymətləndirilir, keçid dövrü ölkələri üçün bir örnək kimi tövsiyə olunur.

Müstəqillik dövründə ölkəmizdə Heydər Əliyev ideyalarının uğurla reallaşdırılması nəticəsində sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, əhalinin sosial təminatı sahəsində də effektiv və müasir avtomatlaşdırılmış idarəetmə sistemi formalaşmışdır. Dahi şəxsiyyətin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi inkişaf siyasətinin vaxtında və mövcud reallıqları nəzərə almaqla gerçəkləşdirilməsi Azərbaycan xalqının sosial rifahına xidmət edəcək bir sistemin qurulmasını təmin etmişdir və bu sistem son illər dünyanın üzləşdiyi maliyyə böhranı şəraitində belə əhalinin sosial müdafiəsinin etibarlı təminatına zəmanət verən bir model olduğunu tam sübuta yetirmişdir.

**Səlim MÜSLÜMOV,**
**əmək və əhalinin sosial müdafiəsi naziri, iqtisad elmləri doktoru, professor.**

***Mənbə:***
www.azerbaijan-news.az

# HEYDƏR ƏLİYEV YOL İNFRASTRUKTURUNUN İNKİŞAFINA QAYĞI İLƏ YANAŞIRDI

**Tarixin yaratdığı elə şəxsiyyətlər olur ki, onlar həyat və fəaliyyətləri ilə dövlətin inkişaf yolunu müəyyənləşdirir, mənsub olduğu xalqın, millətin tarixini yazırlar. Belə nadir şəxsiyyətlərdən biri də görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndər titanik fəaliyyəti, dərin zəkası və dövlətçilik sahəsindəki zəngin təcrübəsi ilə dünya səviyyəli nəhəng siyasət adamı kimi məşhurlaşmışdır. Məhz onun adı Azərbaycan xalqının rəmzinə çevrilmiş, keçdiyi şərəfli və mənalı ömür yolu nəsillərə örnək olmuşdur.**

Xalqımızın böyük oğlu, görkəmli siyasətçi respublika rəhbərliyinə gəlişi ilə Azərbaycanda milli intibahın, sosial tərəqqinin, mənəvi yüksəlişin əsasını müəyyənləşdirmişdir. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi respublikamızın tarixində yeni siyasi mərhələnin başlanğıcı olmuşdur. Ulu öndər ali kürsüyə yüksəldiyi ilk gündən bütün varlığı ilə sevdiyi xalqının intibahı və xoşbəxt gələcəyi naminə böyük fədakarlıqlar göstərmişdir. Təsadüfi deyil ki, ümummilli liderimiz çox-çox sonralar respublikamıza rəhbərlik etdiyi həmin illəri xatırlayaraq o zaman hər hansı bir işi görərkən məhz Azərbaycanın bugünkü müstəqilliyini düşündüyünü etiraf etmişdir.

Ümummilli lider Heydər Əliyevin respublikamıza ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər Azərbaycanın quruculuq salnaməsinin ən zəngin səhifələrini təşkil etmişdir. Həmin illər tariximizə siyasi, iqtisadi, mədəni və mənəvi yüksəliş dövrü kimi daxil olmuşdur. Dövlət həyatının bütün sahələrində misli görünməmiş canlanma baş vermiş, qısa müddət ərzində respublikamız əsrə bərabər inkişaf yolu keçmişdir. Bu mənada azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmağa başlanmışdır. Bütövlükdə isə 1969-1982-ci illər Azərbaycanda xalq təsərrüfatının sürətli inkişaf və tərəqqi dövrü kimi tarixə düşmüşdür. Məhz Heydər Əliyevin qətiyyəti sayəsində həmin illərdə Azərbaycan geridə qalmış aqrar respublikadan sürətlə inkişaf edən aqrar-sənaye respublikasına çevrilmişdir. Bununla yanaşı, sənayenin aparıcı istiqamətlərindən sayılan neft və kimya sahələrində əmtəə dövriyyəsi xeyli artmış, respublikamızda iri sənaye müəssisələri tikilib istifadəyə verilmişdir. Məhsuldar qüvvələrin düzgün yerləşdirilməsi, mövcud potensialdan səmərəli istifadə edilməsi nəticəsində Azərbaycanda iqtisadi fəallıq xeyli artmış, respublikamız bir sıra məhsulların istehsalına görə Sovet İttifaqında qabaqcıl yerlərə çıxmışdır. Dahi liderin səyləri nəticəsində Azərbaycan, eyni zamanda, keçmiş İttifaq miqyasında mühüm kənd təsərrüfatı respublikası, qabaqcıl pambıqçılıq və üzümçülük diyarı kimi məşhurlaşmışdır. Sənaye obyektlərinin sayı

artırılmış, məhsul istehsalının həcmi yüksəldilmiş, kənd təsərrüfatı sahəsində sürətli inkişaf əldə edilmişdir. Bütün bunlar, heç şübhəsiz, mövcud avtomobil yolları şəbəkəsinin genişləndirilməsi, bərpa edilməsi və yenidən qurulması zərurətini yaratmışdır. Xatırladaq ki, həmin müddətdə respublikada yolların uzunluğunun 1,2 dəfə artması ilə yanaşı, yük gərginliyi 1,5, hərəkətin intensivliyi isə 2 dəfə çoxalmışdır.

1974-cü ildə Azərbaycanda mövcud Şose Yolları Baş İdarəsi əsasında Avtomobil Yolları Tikinti və İstismar Nazirliyi yaradıldı. Yeri gəlmişkən, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk on il ərzində respublikada yolların təmirinə və təminatına ayrılan vəsait 3,5 dəfə, kapital qoyuluşu isə 2,5 dəfə artdı. 1980-ci ilə qədər bütün dövlət əhəmiyyətli yollara asfalt-beton örtüyünün döşənməsinə başlanıldı. Respublikanın yol təsərrüfatında yüksək göstəricilərə nail olmaq üçün yeni sənaye sahələri yaradıldı. Yol texnikasının təmiri ilə məşğul olan təcrübi-eksperimental "Dortexnika" zavodu, Qazax rayonunda karxana çınqılı, yuyulmuş qum istehsal edən Poylu çınqıl zavodu tikilib istifadəyə verildi. Yevlax dəmir-beton tikinti zavodunun uğurlu fəaliyyəti isə yol infrastrukturunun əsaslı şəkildə yenidən qurulmasını, yeni avtomobil yollarının tikintisini sürətlə və keyfiyyətlə aparmağa imkan yaradırdı. Həmin illərdə qəbul olunmuş "Azərbaycan SSR-in avtomobil yollarının tikintisi, təmiri və təminatını yaxşıllaşdırmaq üçün gələcək tədbirlər haqqında" qətnamə respublikamızda avtomobil yolları şəbəkəsinin genişləndirilməsinə, yol infrastrukturunun yenidən qurulmasına imkan yaratdı. Məhz həmin sənədə əsasən, yolların keyfiyyətini Ümumittifaq səviyyəsinə qaldırmaq üçün yol infrastrukturunun inkişafına yönəldilən kapital qoyuluşunun həcmi xeyli artırıldı.

Ötən əsrin sonlarında müstəqilliyini yenidən bərpa edən Azərbaycanın çətin günlərində xalqımız müdrik qərar qəbul edərək yenidən Heydər Əliyevi ali siyasət kürsüsünə dəvət etdi. Azərbaycanı üzləşdiyi siyasi xaosdan, dərin iqtisadi böhrandan xilas etmək kimi son dərəcə çətin və şərəfli missiyanı üzərinə götürən ümummilli lider Bakıya qayıtdı. Ulu öndərin rəhbərliyi ilə həyata keçirilən köklü iqtisadi dəyişikliklər nəticəsində həyatın bütün sahələrində olduğu kimi, yol təsərrüfatının fəaliyyətində də tənəzzülə son qoyuldu. Ümummilli lider bu sahənin ölkə iqtisadiyyatındakı rolunu düzgün dəyərləndirərək islahatların aparılmasını daim diqqətdə saxlayırdı. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində bu sektorun inkişafı məqsədilə struktur dəyişiklikləri aparıldı, 1998-ci il avqustun 5-də Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi təsis edildi, 2003-cü il iyun ayının 23-də isə nazirliyin tabeliyində "Yolnəqliyyatservis" Departamenti yaradıldı. Respublika və yerli əhəmiyyətli avtomobil yolları adıçəkilən departamentin balansına götürüldü, onun tabeliyinə verilən yol istismar idarələrinin fəaliyyəti genişləndirildi. Beləliklə, yol təsərrüfatının inkişafında yeni mərhələ başlandı.

Ümummilli lider Heydər Əliyevin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" fikri Azərbaycanın dövlət baş-

çısının yol təsərrüfatının inkişafına nə qədər böyük önəm verdiyini bir daha təsdiqləyir. Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən TRASECA proqramı çərçivəsində Qərb-Şərq nəqliyyat dəhlizinin Azərbaycanın ərazisindən keçməsində ulu öndərin gərgin fəaliyyəti və qətiyyəti əvəzsiz rol oynamışdır. 1998-ci ilin sentyabr ayında Heydər Əliyevin təşəbbüsü ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxaq konfransın məhz Bakıda keçirilməsi də bunun bariz nümunəsidir. Yeri gəlmişkən, 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndələrinin iştirak etdikləri konfransda Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çox mühüm sənədin imzalanması əlverişli geosiyasi mövqedə yerləşən Azərbaycanın regionda etibarlı tərəfdaş kimi mövqeyini daha da artırdı. 2001-ci il iyulun 4-də "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı imzalandı. Məhz həmin fərmana əsasən, ölkəmizdə respublika və yerli əhəmiyyətli avtomobil yollarının təmiri və tikintisinə bilavasitə cavabdehlik daşıyan təşkilatlar və onların üzərinə düşən vəzifələr müəyyənləşdirildi.

Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə respublikamızın həyatında, xalqımızın taleyində elə bir əzəmətli rol oynamışdır ki, bu, əsrlər boyu unudulmayacaqdır. İndi müstəqil Azərbaycanda həyatın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin gərgin əməyinin, parlaq zəkasının izləri hiss olunmasın.

Hazırda Azərbaycan özünün sosial-iqtisadi inkişafının yeni yüksəliş dövrünü yaşayır. Ölkə həyatının bütün sahələrində yüksək tərəqqi, sürətli inkişaf nəzərə çarpır. Bu da təsadüfi deyil. Ölkə başçısı cənab İlham Əliyevin son illər həyata keçirdiyi uğurlu islahatlar ölkəmizin iqtisadi yüksəlişində, beynəlxalq müstəvidə siyasi dayaqlarımızın daha da möhkəmlənməsində, ölkədaxili sabitliyin qorunmasında, eləcə də regionların inkişafında müstəsna rol oynamışdır. Bu gün müstəqil Azərbaycan sürətli və dinamik inkişaf yolunda inamla irəliləyərək regionun lider dövlətinə çevrilmiş, həm də dünya miqyasında böyük nüfuz qazanmış, qlobal iqtisadi layihələrin təşəbbüsçüsü və iştirakçısı kimi tanınmış, xüsusən, Avropanın enerji təhlükəsizliyinin təminatçıları sırasında öz yerini tutmuşdur. Ölkə həyatının bütün sahələrini əhatə edən yeniləşmə və müasirləşmə prosesi getdikcə dərinləşir, dövlətin gücünün və qüdrətinin artırılmasına, xalqın rifahının durmadan yüksəldilməsinə xidmət edən quruculuq proqramları böyük uğurla icra edilir. Son on il ərzində Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır ki, bu da analoqu olmayan inkişaf tempi kimi bütün dünyanın diqqətini cəlb etmişdir.

Azərbaycanın müstəqil dövlət quruculuğunda, ölkənin sosial-iqtisadi inkişafında əldə etdiyi bütün nailiyyətlərin təməlində, heç şübhəsiz, ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, onun layiqli davamçısı Prezident İlham Əliyevin müasir dövrün reallıqlarına uyğun qətiyyət və ardıcıllıqla gerçəkləşdirdiyi mükəmməl strategiya, uğurlu xarici və daxili siyasət da-

yanır. Ölkənin sosial-iqtisadi inkişafını şərtləndirən mühüm amillərdən sayılan avtomobil yolları təsərrüfatında baş vermiş köklü dəyişikliklər və misilsiz nailiyyətlər də bu strategiyadan, bu siyasətdən qaynaqlanır. Ulu öndərin inkişaf strategiyasını yeni dövrün çağırışlarına uyğun olaraq uğurla davam etdirən, onu daha zənginləşdirən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində, həyatın bütün sahələri ilə yanaşı, yol təsərrüfatında da sistemli və kompleks tədbirlərin həyata keçirilməsi dinamik xarakter almışdır. Məhz bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlərin nəticəsidir ki, son illər paytaxt Bakıda, eləcə də regionlarda vəziyyət kökündən dəyişmiş, dövlət başçısının imzaladığı sərəncamlardan irəli gələn vəzifələrin icrası istiqamətində reallaşdırılan tədbirlər sözügedən sahənin yeniləşdirilməsi üçün möhkəm zəmin yaratmışdır.

Hazırda Prezident İlham Əliyev yol təsərrüfatına xüsusi diqqət ayırır, avtomobil yollarının tikintisi və bərpası ilə bağlı sərəncamlar imzalayır. Ölkə Prezidentinin 28 dekabr 2015-ci il tarixli sərəncamı bu baxımdan mühüm əhəmiyyətə malikdir. Həmin sənədə əsasən, ölkənin avtomobil yolları şəbəkəsinin və yol infrastrukturunun bərpası və yenidən qurulması istiqamətində görülən işlərin səmərəliliyinin artırılması, habelə nəqliyyat-yol kompleksində idarəetmənin təkmilləşdirilməsi məqsədilə "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarıldı. Dövlət başçısının 9 mart 2016-cı il tarixli fərmanı ilə "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti adlandırıldı.

Əvvəlki illərlə müqayisədə yol infrastrukturu, demək olar ki, çox dəyişib. Bu sahənin hərtərəfli inkişafı üçün çox böyük işlər görülüb və hazırda da uğurla davam etdirilir. Ölkə başçısı aparılan işlərə xüsusi əhəmiyyət verərək mütəmadi olaraq həyata keçirilən işlərin gedişatı ilə maraqlanır, açılış mərasimlərində şəxsən iştirak edir. Yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü və sistemli tədbirlərin nəticəsi olaraq avtomobil yollarının tikintisi, yenidən qurulması, təmiri üzrə işlərin həcmi ildən-ilə artır. Elə statistik rəqəmlər də son 12 ildə yol təsərrüfatında müsbət dəyişikliklərin baş verdiyini bir daha təsdiqləyir. Ölkənin ümumi istifadədə olan avtomobil yollarının uzunluğu 2003-cü ildə 18754 kilometr təşkil edirdisə, 2013-cü ildə 19000 kilometrə çatdırılmışdır. Bunun da 17529 kilometri "Azəravtoyol" ASC-nin balansındadır. Son 12 ildə avtomobil yollarının tikintisində və təmirində istifadə olunan 3014 müxtəlif təyinatlı nəqliyyat vasitəsi, yol tikinti maşınları, avadanlıq və qurğular alınmış, ümumi gücü saatda 2240 tondan çox olan 33 asfalt-beton zavodu işə salınmışdır. 2004-2016-cı illərdə respublikada yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yolların uzunluğu 8332 kilometrə çatmış, 222 yeni körpü və yol ötürücüsü tikilmişdir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən dünya əhəmiyyətli İpək Yolu layihəsinin Azərbaycan ərazisi boyunca Bakıdan Gürcüstan sərhədinədək 513 kilometrlik hissəsində işlər

uğurla davam etdirilib. Möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəmizə rəhbərliyə başladığı vaxtdan etibarən sözügedən magistralın texniki vəziyyətinin öyrənilməsi və yenidən qurulması üçün tələb olunan maliyyə mənbələri həll olunub, eyni zamanda, 2-ci texniki dərəcəli, iki hərəkət zolaqlı hissələrinin 1-ci texniki dərəcəli yolun parametrlərinə uyğunlaşdırılması işlərinin çox hissəsi yerinə yetirilib. Artıq magistral yolun 312,5 kilometrlik 2-ci texniki dərəcəli və 209 kilometrlik 1-ci texniki dərəcəli hissələri yenidən qurularaq istifadəyə verilib. Hazırda Hacıqabul–Kürdəmir, Kürdəmir–Ucar–Yevlax hissələrinin əlavə iki hərəkət zolağı tikilməklə yolun 1-ci texniki dərəcəyə çatdırılması istiqamətində işlər davam etdirilir.

Şimal–Cənub avtonəqliyyat dəhlizinin bir hissəsi olan Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolu ölkənin yol təsərrüfatı sistemində mühüm yer tutur və hərəkətin intensivliyi ilə seçilir. Uzunluğu 208 kilometr olan magistralın 6-16 kilometrlik hissəsi asfalt-beton, 16-134 kilometrlik hissəsi sement-beton örtüklü olmaqla yenidən qurulmuş, eyni zamanda, Sumqayıt dairəvi, Gəndob–Quba hissələrinin 11-ci və 16-cı kilometrlərində yol qovşaqlarının, Masazır dairəsində yol ötürücüsünün və Dəvəçi çayı üzərində körpünün tikintisi başa çatdırılmışdır. Yolun Gəndob–Rusiya Federasiyası ilə dövlət sərhədi hissəsinin (59,6 kilometr) tikintisi isə davam etdirilir.

Digər strateji əhəmiyyətli arterial avtonəqliyyat dəhlizi olan Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi yolunun 41,6 kilometrlik hissəsi, Bakı–Şamaxı–Yevlax avtomobil yolunun Muğanlıyadək və 115 kilometrlik Muğanlı–Yevlax hissələri, Hacıqabul–Bəhrəmtəpə–Mincivan avtomobil yolunun Hacıqabul–Bulaqlı hissələri istifadəyə verilmişdir.

Bundan əlavə, Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi, Bakı–Ələt–Qazax–Gürcüstan sərhədi avtomobil yollarını əlaqələndirən və tranzit daşımaları üçün müstəsna əhəmiyyət kəsb edən H.Z.Tağıyev qəsəbəsi – Sahil avtomobil yolunun yenidən qurulması üzrə də lazımi işlər görülmüşdür. Uzunluğu 41,4 kilometr olan bu yol respublikanın cənub və qərb istiqamətindən gələn nəqliyyat vasitələrinin Bakı şəhərinə daxil olmadan Bakı–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 36-cı kilometrinə çıxışını təmin edir və hər iki istiqamətdə məsafəni 100 kilometrədək qısaltmışdır.

Ölkə regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq edilərkən qarşıya qoyulan başlıca hədəflər arasında yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara çatdırılması xüsusi yer tutmuşdur. Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafı proqramının uğurla yerinə yetirilməsində, ilk növbədə, müasir tələblərə cavab verən yolların mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq demişdir: "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil". Buna nail olmaq məqsədilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış mən-

təqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilmişdir.

Prezident İlham Əliyev bölgələrə, demək olar ki, bütün səfərləri zamanı respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, hətta ucqar dağ kəndlərinə yeni yolların çəkilməsi ilə bağlı konkret tapşırıqlar verir. Bunun nəticəsi olaraq Biləsuvar-İran sərhədi, Lənkəran-Lerik, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Quba-İspik-Xınalıq, Şamaxı-Pirqulu, Tovuz-Əlibəyli, Şəmkir-Gədəbəy, İsmayıllı-Qəbələ, Xaldan-Mingəçevir, Ağdaş-Ləki, Quba-Qəçrəş-Qımılqazma, Qusar-Əniğ-Ləzə, Qazaxbəyli-Aşağı Salahlı, Qəbələ-Ağdaş, Oğuz-Qəbələ, Quba-Qusar, Şəki-Qax, Ağstafa-Poylu-Gürcüstan sərhədi, Yevlax-Bərdə və digər avtomobil yolları yenidən qurulmuş, ölkədaxili yol infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Hazırda regionlar üzrə daxili investisiya hesabına ümumi uzunluğu 381 kilometr təşkil edən avtomobil yollarının və 14 ədəd körpünün tikintisi uğurla davam etdirilir.

Getdikcə müasirləşən, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Bakıda nəqliyyatın intensivliyinin artması küçə və yollarda kəskin tıxacların yaranmasına gətirib çıxarırdı. Təbii ki, bu ciddi problem də Prezident İlham Əliyevin diqqətindən yayınmadı. Dövlətimizin başçısı nəqliyyat tıxaclarının ən çox yarandığı yerlərdə vəziyyətlə tanış olduqdan sonra bu sahədə kompleks tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə geniş proqram hazırlanması barədə tapşırıq verdi. Beləliklə, Prezidentin Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi ilə bağlı 2006-2007-ci və 2008-2013-cü illər üzrə Tədbirlər Planının təsdiq edilməsi haqqında sərəncamları qısa müddətdə paytaxtda irimiqyaslı layihələrin həyata keçirilməsinə yol açdı. Dövlətimizin başçısının Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi ilə bağlı müvafiq sərəncamlarına əsasən, yeraltı və yerüstü piyada keçidlərinin tikintisi də geniş vüsət almışdır. Son bir neçə ildə Bakı şəhərindəki mövcud 10 piyada keçidi əsaslı təmir olunmuş, 60-a yaxın yeni yeraltı və yerüstü piyada keçidi inşa edilmişdir. Xüsusi zövqlə və dizaynla inşa edilən keçidlər piyadaların təhlükəsizliyini təmin etməklə yanaşı, memarlıq tərtibatı baxımından da maraq doğurur. Bu istiqamətdə görülən işlər paytaxtın mərkəzi hissəsi ilə yanaşı, Bakının ətraf qəsəbələrini də əhatə edir. Bakı şəhərinin və onun qəsəbələrinin nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər planının, müvafiq dövlət proqramlarının icrası nəticəsində paytaxtın yol infrastrukturundakı problemlərin böyük hissəsi öz həllini tapmışdır. Bu istiqamətdə tədbirlər hazırda da davam etdirilir.

Yeri gəlmişkən, hazırda “Azəravtoyol” ASC tərəfindən Bakı şəhərində xidmət göstərilən yolların, prospekt və küçələrin ümumi uzunluğu 1525 kilometrdir. Təkcə 2015-ci ildə 144,1 kilometr uzunluğunda avtomobil yolu, prospekt və küçə tikilmiş, yenidən qurulmuş, təmir olunmuş, üç ədəd yol ötürücüsü, iki ədəd tunel, doqquz ədəd piyada keçidi istismara verilmişdir. Ümumi uzunluğu 112,1 kilometr təşkil edən

42 adda küçə və prospektdə təqribən 440 min kvadratmetr sahədə əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bakı şəhəri ərazisində daxili investisiya hesabına tikintisi davam etdirilən layihələrə Həsən Əliyev küçəsindən Ziya Bünyadov küçəsinə paralel olaraq "Koroğlu" metro stansiyasına qədər yol ( II mərhələ), Ağ şəhərə gedən avtomobil yolları, Bilgəh–Novxanı–Sumqayıt–M4 (18 kilometr) avtomobil yolu (14–42 kilometr hissəsi), Qala–Pirallahı avtomobil yolu, Pirallahı qəsəbəsini sahillə birləşdirən avtomobil körpüsü, Zığ–Hövsan avtomobil yolu və s. aiddir.

Ölkə rəhbəri kənd yollarının yenidən qurulmasını da diqqətdə saxlayır. Son illər Prezident İlham Əliyev kəndlərarası avtomobil yollarının tikintisi ilə əlaqədar 50-dən artıq sərəncam imzalayıb. Kənd yollarının təmiri və bərpası ilə bağlı işlərin yerinə yetirilməsi yol təmir-tikintisi üzrə ixtisaslaşmış və 2016-cı ildən müstəqil qurum kimi fəaliyyət göstərməyə başlayan "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə həvalə edilib. Bu, yol inşaatçılarının üzərinə əlavə məsuliyyət qoyur. Yeri gəlmişkən, "Azəravtoyol" ASC "Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı" və "2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı" dövlət proqramlarında avtomobil yollarının tikintisini vaxtında icra etmək, eləcə də işsizliyin aradan qaldırılması istiqamətində ölkə rəhbərinin həyata keçirdiyi layihələrə dəstək olmaq məqsədilə iki mindən artıq vətəndaşı müvafiq işlə təmin edib. Prezidentin yerli istehsalın daha da genişləndirilməsi istiqamətində verdiyi tövsiyə və tapşırıqlarına əsasən, "Azəravtoyol" ASC yolların tikintisi, yenidən qurulması və təmiri zamanı yalnız yerli tikinti materiallarıdan istifadə edir.

Bir sözlə, bütün bunlar onu göstərir ki, zəngin potensiala mailk olan Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu daxili siyasəti sayəsində qazanılan nailiyyətlərin sırasında bu sahənin inkişafı önəmli yer tutur. "Azərbaycanda ən müasir nəqliyyat-yol infrastrukturu yaradılacaq", – deyən ölkə başçısı İlham Əliyev ötən illərdə avtomobil yollarının, yol qurğularının açılışı ilə bağlı çoxsaylı mərasimlərdə iştirakı zamanı bu sahəhin inkişafı üçün öz dəyərli tapşırıq və tövsiyələrini verib. Dövlət başçısının 20 fevral 2008-ci il tarixli sərəncamı ilə fevralın 22-nin Azərbaycan Respublikası avtomobil yolları işçilərinin peşə bayramı günü kimi təsis edilməsi taleyini bu vacib və gərəkli sahəyə bağlamış insanların zəhmətinə verilən dəyərin bariz ifadəsidir. Yol təsərrüfatı işçiləri də ölkə rəhbərinin sonsuz diqqət və qayğısına cavab olaraq ölkəmizin avtomobil yolları şəbəkəsinin genişləndirilməsi istiqamətində mühüm və məqsədyönlü tədbirlərin həyata keçirilməsində bundan sonra da fəal iştirak edəcəklər.

**Saleh MƏMMƏDOV,**
**"Azəravtoyol" ASC-nin sədri.**
***Mənbə:***
www.xalqqazeti.com

# KONSTİTUSİYAYA DƏYİŞİKLİKLƏR BEYNƏLXALQ HÜQUQA UYĞUNDUR

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə hazırlanmış «Azərbaycan –Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» Referendum Aktı layihəsi bu gün cəmiyyətimizdə ən çox müzakirə edilən mühüm sənəddir və bu da təbiidir. Çünki cəmiyyət həyatının bütün sahələrində strateji xətti müəyyənləşdirən Konstitusiya hər birimizin həyatı ilə yanaşı, həm də ölkədə sabitliyin qorunmasına, demokratik hüquqların genişləndirilməsinə təminat yaradır. Bir hüquqşünas olaraq edilən təklifləri tamamilə müsbət qiymətləndirir və bəzi maddələrlə əlaqədar, xüsusilə də insan və vətəndaş hüquqları ilə əlaqədar fikirlərimi oxucularla paylaşmaq istərdim.**

İlk növbədə 24-cü maddə ilə əlaqədar layihədə göstərilir ki, maddənin I və II hissələri, müvafiq olaraq II və III hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda I hissə əlavə edilsin:

«I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir».

Hesab edirəm ki, bu əlavə vacibdir. Azərbaycan Respublikası Vətəndaşlıq və Siyasi Hüquqlar haqqında Pakta qoşulmuşdur. Bu sənədin bir neçə hissəsində insan ləyaqəti ilə bağlı müddəalar öz əksini tapmışdır. Belə ki, Vətəndaşlıq və Siyasi Hüquqlar haqqında Paktın ( bu pakt Mülki və Siyasi Hüquqlar haqqında Pakt kimi də adlandırılır) və həmçinin İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Paktın preambulalarında (hər ikisində mətn eynidir) insan ləyaqəti anlayışı xüsusi vurğulanır (Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində bəyan edilən prinsiplərə uyğun olaraq, bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqətləri və onların bərabər və alınmaz hüquqlarını qəbul etməyin azadlığın, ədalətin və ümumi sülhün təməli olduğunu nəzərə alaraq, bu hüquqların insan şəxsiyyətinə xas olan ləyaqətdən irəli gəldiyini etiraf edərək...). Bununla bərabər, Vətəndaşlıq və Siyasi Hüquqlar haqqında Paktın 7-ci maddəsində qeyd olunur ki, heç kim işgəncələrə və ya ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır. Bundan əlavə, Vətəndaşlıq və Siyasi Hüquqlar haqqında Paktın 10-cu maddəsində birbaşa vurğulanır ki, azadlıqdan məhrum edilən bütün şəxslər insani rəftar və insan şəxsiyyətinə xas olan ləyaqətlərə hörmət hüququna malikdirlər. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Paktın 13-cü maddəsində də xüsusi qeyd olunur ki, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin təhsil hüququnu tanıyırlar. Onlar razılaşırlar ki, təhsil insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilməli, insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir.

Azərbaycan Respublikası 21 iyul 1992-ci ildə bu paktların hər ikisinə qoşulmuşdur. Hər iki pakt öz hüquqi qüvvəsinə görə beynəlxalq müqavilədir və bizim ölkə üçün müəyyən öhdəliklər yaradır. Həmin paktlara müvafiq olaraq Azərbaycan Respublikası

bu sənədlərdə əksini tapmış hüquq və əsas azadlıqların öz milli qanunvericiliyində əks olunmasına dair öhdəlik götürmüşdür. «İnsan ləyaqəti qorunur və ona hörmət edilir» müddəası, həm onu Konstitusiya maddəsi səviyyəsinə qaldırır, həmçinin bu sahədə Azərbaycan Respublikasının qanunvericiliyinin beynəlxalq hüquq normaları və standartlarına uyğünlaşdırılması məqsədini güdür.

Layihənin 25-ci maddəsində qeyd edilir ki, III hissənin birinci cümləsində «milliyyətindən» sözü «etnik mənsubiyyətindən» sözləri ilə, ikinci cümləsində «milli» sözü «etnik» sözü ilə əvəz edilsin.

İlk baxışda belə dəyişmə texniki xarakter daşıması fikrini yarada bilər. Lakin fikrimcə, söhbət, həmçinin həmin terminlərin məzmunundan getməlidir. «Milli» termini, «milliyyət» termini ilə eyniköklüdür. Lakin dünya miqyasında milliyyətlərlə yanaşı, çoxlu sayda müxtəlif etnik qurumlara və etnik azlıqlara mənsub insanlar da yaşayırlar. Yəni, «etnik mənsubiyyət» anlayışı «milliyyət» anlayışından, «etnik» anlayışı isə «milli» anlayışdan daha genişdir. Bu səbəbdən «etnik mənsubiyyət» və «etnik» terminlərindən istifadə etmək daha dəqiq olardı.

Onu da qeyd etmək lazımdır ki, daha əvvəl qəbul olunmuş beynəlxalq-hüquqi sənədlərdə «milli», «milliyyət» ifadələrindən istifadə olunmuşdur. Məsələn, 10 dekabr 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 2-ci maddəsində qeyd olunur ki, «Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə gorə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır». Bu Bəyannamənin 16-cı maddəsində isə nəzərdə tutulur ki, «yetkinlik yaşına çatmıs kişilər və qadınlar, irqi, milli və ya dini əlamətlərinə gorə heç bir məhdudiyyət qoyulmadan nikah bağlamaq və ailə qurmaq hüququna malikdirlər».

Vətəndaşlıq və Siyasi Hüquqlar haqqında Paktın 2-ci maddəsinin 1-ci hissəsi nəzərdə tutulur ki, «hazırkı Paktda iştirak edən hər bir dövlət, onun ərazisi hüdudlarında və onun yurisdiksiyası altında olan bütün şəxslərin hazırkı Paktda qəbul edilən hüquqlarına, irqi, dərisinin rəngi, cinsi, dini, dili, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və digər halları ilə bağlı əlamətlərinə heç bir fərq qoymadan hörmət etməyi onların bu hüquqlarını təmin etməyi öhdəsinə götürür». Bununla yanaşı, «milli» ifadəsi bu paktın 20-ci, 24-cü və 26-cı maddələrində də istifadə olunur. Həmçinin «etnik» terminınə paktın 27-ci maddəsində də rast gəlinir. Doğrudur, burada «etnik azlığı» anlayışından istifadə olunur. Yəni «etnik» anlayışının geniş yox, dar mənasında istifadə olunur. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Paktın 2-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulur ki, «bu Paktda iştirak edən dövlətlər bu Paktda bəyan edilmiş hüquqların irqi, dərinin rəngi, dil, din, siyasi və digər əqidə, milli və sosial mənşə, əmlak vəziyyəti, doğum və s. fərqlər əsasında ayrı-seçkiliyə yol vermədən həyata keçirilməsini öhdələrinə götürürlər».

BMT Baş Məclisi tərəfindən 18 dekabr 1992-ci ildə qəbul olunmuş «Milli və ya etnik, dini və dil azlıqlarına mənsub olan

şəxslərin hüquqları haqqında» Bəyannamədə həm «milli azlıq», həm də «etnik azlıq» terminlərindən istifadə olunur.

Lakin daha sonra qəbul edilmiş beynəlxalq-hüquqi sənədlərdə və aktlarda «etnik», «etnik mənsubiyyət» terminlərindən istifadə edilir. Məsələn, 1 fevral 1995-ci il tarixli Avropa Şurası tərəfindən qəbul olunmuş «Milli azlıqların qorunması haqqında «Çərçivə Konvensiyasının preambulasında artıq «milli» ifadəsindən yox, «etnik» ifadəsindən istifadə olunur. Bununla yanaşı, həmin konvensiyanın 6-cı və 17-ci maddələrində də «etnik» ifadəsindən istifadə edilir.

Müasir dövrdə bir çox hallarda «xalq», «millət», «əhali», «etnik qrup», «etnik azlıq» kimi terminləri birləşdirən «etnos» ifadəsindən ümumləşdirən bir termin kimi istifadə edilməsi tendensiyası həm də beynəlxalq qanunvericilikdə müşahidə olunur.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, III hissənin birinci cümləsində «milliyyətindən» sözü «etnik mənsubiyyətindən» sözləri ilə, ikinci cümləsində «milli» sözü «etnik» sözü ilə əvəz edilməsi məqsədəmüvafiqdir.

Layihənin 26-cı maddəsi ilə əlaqədar tövsiyə edilir ki, aşağıdakı məzmunda $110^1$-cu maddə əlavə edilsin:

**«Maddə $110^1$. Dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnun verilməsi**

Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu vitse-prezidentə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin üzvlərinə və Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi digər şəxslərə verə bilər».

Fikrimcə, bu maddə həm nəzəri, həm də praktiki cəhətdən əsaslıdır, çünki bu sahədə olan boşluqları aradan qaldırır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndində (Maddə 109. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri) qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələri bağlayır. Bu hüquq Azərbaycan Respublikasının Prezidentinin müstəsna hüququdur. Bununla bərabər, müasir dövrdə dövlətlərarası münasibətlər get-gedə daha da sürətlənir va daha çevik hal alır. Hər il dünyada minlərlə müxtəlif növlü beynəlxalq müqavilələr bağlanır, çoxsaylı sammit, konfrans və forumlar keçirilir. Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində siyasi, iqtisadi, mədəni və s. getdikcə daha önəmli yer tutur və bu tendensiya artmaqdadır. Belə olan halda Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu digər şəxslərə həvalə etmə hüququna malik olması təbiidir və hüquqi cəhətdən əsaslıdır. Konstitusiyaya əlavə edilən maddə isə belə şəxslərin dairəsini dəqiq müəyyən edir.

Bununla bərabər, qeyd etmək zəruridir ki, 109-cu maddənin 17-ci bəndinə əsasən Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir; təsdiqnamələri imzalayır. Qeyd etmək lazımdır ki, bu klauzulaya əsasən, hətta

Azərbaycan Respublikasının Prezidentinın qərarına əsasən dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququna malik olan şəxslər tərəfindən bağlanan dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi, belə dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiqlənəndən sonra təsdiqnamələrin imzalanması müstəsna olaraq yalnız Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aiddir.

Beləliklə, Azərbaycan Respublikası Prezidenti dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələr ilə bağlı olan bütün mərhələlər üzərində səlahiyyətlərə malikdir. Yəni Azərbaycan Respublikasının Prezidentinin qərarında göstərilən şəxslərin bağladıqları dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməyə bilər və ya hətta dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etdiyi və Azərbaycan Respublikasının Milli Məclisi belə dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələri təsdiqlədiyi halda, Azərbaycan Respublikasının Prezidenti belə təsdiqnamələri imzalamamaq səlahiyyətinə malikdir.

Bununla yanaşı, 1101-cu, 23 may 1969-cu il tarixli «Beynəlxalq müqavilələr hüququ haqqında» Vyana Konvensiyasının müddəalarına uyğundur. Belə ki, 23 may 1969-cu il tarixli «Beynəlxalq müqavilələr hüququ haqqında» Vyana Konvensiyasının 7-ci (səlahiyyətlər) maddəsinin a) paraqrafına əsasən müqavilənin mətnini qəbul etmək və ya müqavilənin autentik olunmasını müəyyən etmək məqsədləri ilə və ya dövlət tərəfindən müqavilənin onun üçün məcburi olmasına razılıq verməsini ifadə etmək məqsədləri ilə şəxs müvafiq səlahiyyətlərini təqdim etdikdən sonra dövləti təmsil edən sayılır. Bu maddənin 2-ci bəndinə əsasən müqavilənin bağlanmasına aid olan aktların edilməsi məqsədi yalnız dövlət başçıları, hökumət başçıları və xarici işlər nazirləri öz funksiyaların gücünə və səlahiyyətlərinin təqdimatı zərurəti olmadan öz dövlətinin təmsilçisi sayılırlar. Belə olan halda digər şəxslər dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq məqsədi ilə müvafiq səlahiyyətlərə malik olmalıdırlar. Buna müvafiq olaraq 1101-cu maddə belə səlahiyyətlərin verilmə qaydasını müəyyən edir və Konstitusiyada öz ifadəsini tapır.

**Rauf Qarayev,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Koordinasiya Şurasının üzvü, hüquq üzrə fəlsəfə doktoru.**

***Mənbə:***
www.xalqqazeti.com

# ЭКОНОМИЧЕСКОГО ФАКТОРА ГЕОПОЛИТИКИ РОССИИ НА СЕВЕРНОМ КАВКАЗЕ

**Маремкулов А.Н.,**
**профессор кафедры теории государства и права КБГУ, доктор юридических наук, кандидат исторических наук.**

*Предметом исследования является – экономический фактор геополитики России на Северном Кавказе в XVIII веке. Автор рассматривает такие аспекты темы как: обусловленность экономического фактора геополитики России на Северном Кавказе, торгово-экономические связи горских народов с русским населением, создание меновых дворов способствовавших товарообмену горских народов, конкретные механизмы воздействия, применяемые царской администрацией, которые позволяют говорить о целенаправленном характере осуществляемой экономической политики.*

**Ключевые слова:** геополитическое пространство, экономический фактор геополитики, торгово-экономические связи, товарообмен, меновые дворы.

Как известно, Северный Кавказ является уникальным регионом по своей истории, самобытной культуре, полиэтничности и полирелигиозности, традициям, природно-климатическим условиям, географическому, стратегическому положению. Он всегда был естественным мостом между Европой и Азией, контактной зоной исламской и христианской цивилизаций, что делало его объектом столкновения интересов великих держав, каждая из которых с учетом конкретных исторических условий стремилась разработать и реализовать собственную политическую стратегию в регионе.

Россия с давних пор проводила активную деятельность, направленную на освоение Северного Кавказа, стремилась включить этот важный регион в сферу своих экономических интересов. Особый размах проводимая политика приобрела в XVIII в., когда, в основном, были достигнуты ее стратегические интересы и Северный Кавказ стал территориальной частью России.

Этот период характеризуется не только активными военными дейст-виями и дипломатическими усилиями, но и серьезной разработкой целого комплекса мер, посредством которых реально проявлялась и проводилась в жизнь экономическая политика российской самодержавной власти.

Возрастание значимости экономического фактора, не могло не оказать влияния на геополитические устремления

России. Рассматривая в комплексе факторы геополитики России на Северном Кавказе, можно отметить, что много точек соприкосновения имеют пространственно-территориальный и экономический факторы.

В XVIII в. Россия стала испытывать своего рода давление, под воздействием которого возрастала необходимость освоения новых территорий. Во многом борьба за захват новых территорий была борьбой за экономическое лидерство. С точки зрения геополитики России, Северный Кавказ, расположенный на стыке Европы и Азии, был выгодным долгосрочным приобретением, имеющим важное жизненное геополитическое пространство. Любой захват территории в условиях экономического подъема говорил, прежде всего, о дееспособности державы.

Традиционно перспектива использования дополнительных ресурсов в России проходила, как правило, скорее вширь, нежели вглубь. По мнению исследователей, к началу XVIII в. в завоеваниях и территориальных приобретениях Российской империи особое место занимает западный тип уклада, развитие которого нуждалось в новых территориях для приложения предпринимательских сил, приобретения рынков сбыта, источников сырья.

Экономический фактор геополитики России на Северном Кавказе был обусловлен также быстрым темпом развития и укрепления международного положения Российского государства, для поддержания которого необходимы были как завоеванные территории, так и торговые отношения. Все это приводило к тому, что, помимо традиционного военного контроля, Россия должна была учитывать и складывающиеся в мире экономические отношения.

Экономические интересы геополитики России, Турции и Ирана, как государств-соперников, были настолько противоречивы, что в принципе вся-кий раздел Кавказа, а в частности Северного Кавказа, на сферы влияния был практически невозможен. Каждая из сторон не удовлетвори-лась бы лишь косвенным влиянием на Кавказе, так как вынашивала далеко идущие планы. Россия стремилась нейтрализовать Иран и Турцию, зах-ватить господство на Каспийском море и побережье Черного моря и этим «обезопасить южные границы от нашествий и удовлетворить потребности своего экономического развития»[1].

При всей противоречивости планов весьма четко, на наш взгляд, вырисовывалось положение, которое говорило о том, что народы Северного Кавказа стали объектом геополитических притязаний.

Конкретные механизмы воздействия, применяемые царской администрацией, позволяют нам говорить о целенаправленном характере осуществления экономической политики. В самом начале XVIII века Россия осуществляла действия, которые больше носили разведывательный характер. Предпринимались всевозможные попытки углублен-

ного изучения Кавказского края в целях его рентабельной эксплуатации (разведка майора Гербера, давшего описание этих областей от Астрахани до реки Куры, а также разведка майора Вольфа 1730-х годов).

Вторая четверть XVIII века ознаменовалась укреплением торговых связей народов Северного Кавказа и России. Особой вехой экономического влияния России на Северном Кавказе можно считать создание нового форпоста – Кизляра (1736 г.). Кизляр, основанный на важной сухопутной магистрали, связующей Европу через Россию со странами Востока, стал политическим и военно-административным центром, призванный сыграть особою роль в развитии экономики народов всего Северо-Восточ. Кавказа. Буквально за десятилетие Кизляр стал своего рода узловым пунктом, где сосредоточились русско-кавказские экономические и политические связи.

Во второй половине XVIII в. происходит характерный сдвиг в политике России на Северном Кавказе. Это, прежде всего, выражалось в более активной фазе освоения Кавказа. Потребности развивающейся экономики России требовали более решительного проведения политики самодержавия.

Не последнее место занимало и то обстоятельство, что активность внешней политики России совпала с социально-политическим кризисом самого главного соперника – Турции. Кризис в Турции «проявлялся в значительном усилении центробежных сил, представленных, прежде всего, крупными провинциальными землевладельцами – аянами, в существенном ослаблении центральной власти, в оскудении казны, что делало невозможным проведение военных и иных реформ, которые помогли бы ликвидировать все более заметное отставание Османской империи от ушедших вперед европейских государств» [2].

Изменение курса внешней политики повлияло, так же, как и другие факторы геополитики России, на судьбы народов Северного Кавказа, которые во многом стали определяться «экономическими, социально-политическими сдвигами, происходившими в России»[3].

С целью более прочного укрепления своих позиций на Северном Кавказе, Россия старалась поддерживать русско-кавказские отношения и мирными торгово-экономическими связями. Горские народы с охотой принимали эти предложения, так как в силу объективных причин явно тяготели к торговле с Россией, нежели с Турцией [4]. Объяснялось это тем, что торгово-экономические отношения в России в основной своей массе были направлены на народы Северного Кавказа, а не на отдельных представителей социальных верхов, как это было в Турции.

К примеру, если из Турции, Ирана и других стран поступали в основном предметы роскоши (шелк, золото, серебро, драгоценные камни, богато отделанное оружие и посуда, пряности), которые были доступны только феодальной верхушке, то из России посту-

пали «хлопчатобумажные ткани и холст, железо, чугунные котлы, жестяные кувшины, ковши, иголки, мыло, т. е. предметы широкого потребления»[5].

Между тем свободной торговле мешало введение разного рода пошлин. Так глава Осетинской духовной миссии, организованной правительством в 1746-1769 гг. в Осетии для христианизации горских народов, архимандрит Пахомий докладывал в Сенат, что «торговля нарушена», указывая не столько на экономические трудности, которые испытывали осетины с введением пошлин, сколько на «политический ущерб, наносимый России этим нововведением» [6].

Особого внимания заслуживает создание на Северном Кавказе меновых дворов, которые должны были оживить торговлю. Анализ архивных материалов позволяет проследить практическую реализацию этих мер. Царские чиновники, высказывая свое мнение по поводу учреждения на Кавказской линии меновых торгов с горскими народами, отмечали: «Учреждение меновых торгов полагаю удобным для народов Кабардинского в селении Прохладном, ... из которого распоряжений моему кабардинцы довольствуются солью, для мирных чеченцев в Низре, где нужно будет устроить карантин, для горских чеченцев в Лащурине, для закубанских народов в Канстиногорске, Прочноокопе и в Устлабе, в Канстиногорске есть карантинные заставы, которые нужно увеличить и на местах сих положительно меновые дворы» [7].

В развитие этого тезиса следовало положение, которое уже детально регламентировало правила торговли: «... всем торгующим товары свои привозить на меновые дворы, как то посредством карантинных предосторожностей при покупке хлеба и соли горцами на деньги и помину в казну не брать для поощрения сего рода торговли (выделено нами. – А. М.) и для оказания им Высочайшего Императорского величества и предоставить торгующим свободу сторон на собственную их волю и иметь только наблюдения со стороны пристава, чтобы не было обмана в торговле, в чем оказавшиеся российскими подданными должны быть отправлены к суду, а горцы отправлены к их обществу для наказания по их обычаям» [8].

Подводя краткий итог можно отметить, что экономический фактор являлся составным элементом в системе геополитики России на Северном Кавказе. Помимо территориальных притязаний, освоение региона имело и экономические основания. На протяжении XVIII в. можно проследить процесс трансформации экономического фактора геополитики России на Северном Кавказе, где на смену идеи «экономической безопасности» страны, которая была обусловлена напряженностью русско-турецко-иранских отношений и неопределенностью статуса южной границы Российской империи, приходит экономическая политика с расширением торгово-экономических связей.

**СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ**

1. Семенникова Л.И. Россия в мировом сообществе цивилизаций. Брянск, 1995.- С.201.
2. Сотавов Н.А. Северный Кавказ в русско-иранских и русско-турецких отношениях в XVIII. М., 1991. - С.38.
3. Сотавов Н.А. Указ. соч. С.123.
4. Бижев А.Х. Заселение кубанской области русскими и развитие русско-адыгских торговых связей (XVIII – перв. Половине XIX веках) // Вопросы истории и историографии Северного Кавказа. Нальчик, 1989. - С.103.
5. Там же. С.103.
6. Мамбетов Г.Х. Из истории экономического развития народов Северного Кавказа в XVIII веке. // Вопросы истории и историографии Северного Кавказа. Нальчик, 1989. – С. 63-64.
7. Якубова И.И. Таможенная политика России на Центральном Кавказе в 50-60 гг. XVIII веке. // Актуальные проблемы феодальной Кабарды и Балкарии. Нальчик, 1992. – С.93.
8. Государственный Архив Ставропольского края Ф. 444, оп.1, ед.хр. 52, Л. 6.


## ON THE ISSUE OF ARETROSPECTIVE STUDY OF THE ECONOMIC FACTOR RUSSIAN GEOPOLITICS IN THE NORTH CAUCASUS

**Maremkulov A.N.**

The subject of this study is – an economic factor of geopolitics Russia in the North Caucasus in the XVIII century. The author examines in detail aspects such topics as: the conditionality of the economic factor Russian geopolitics in the North Caucasus, trade and economic relations of Mountain Peoples of the Russian population, creation of exchange courtyards contributing to barter mountain peoples, specific mechanisms of action, used the royal administration, which allows us to talk about targeted implemented policy.

**Keywords:** *geopolitical space, the economic factor of geopolitics, trade and economic relations, barter, exchange yard.*

## ŞİMALİ QAFQAZDA RUSİYA SİYASƏTİNİN İQTİSADİ FAKTORUNUN RETROSPEKTİV ÖYRƏNİLMƏSİ MƏSƏLƏSİNƏ DAİR

**Maremkulov A.N.**

Məqalədə müəllif tərəfindən Şimali Qafqazda Rusiya siyasətinin iqtisadi faktorunun retrospektiv öyrənilməsi barədə məsələ nəzərdən keçirilir.

# KABOTAJ QAYDASI ƏSASINDA SUBORBİTAL KOSMİK UÇUŞ HÜQUQU – ONUNCU "HAVA AZADLIĞI" KİMİ

**Xəlilov Zafiq Zakir oğlu,**
**Milli Aviasiya Akademiyasının**
**hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: zafiq@mail.ru

*Məqalədə hava və kosmos hüququnun qovşağında nəzərdən keçirilən kosmik turizm marşrutunun onuncu "hava azadlığı" kimi təsbit olunması, bu azadlığa anlayış verilməsi və "hava azadlıqları"nın hüquqi təsnifatında yeni azadlığın yerinin müəyyən edilməsi məsələləri təhlil edilmiş və müvafiq təkliflər verilmişdir.*

**Əsas sözlər:** kosmik turizm, hava azadlıqları, hava və kosmos hüququ, onuncu hava azadlığı.

Beynəlxalq səviyyədə kosmik turizmin aktuallığının artması, insanların turizmin bu yeni növündən istifadəyə geniş marağının olması, bəzi bu xidmətləri təklif edən şirkətlərə müraciətlərin çoxalması istər-istəməz bu kosmik səfər marşrutunun hüquqi tənzimlənməsi və beynəlxalq hüquqda yerinin müəyyən olunması perspektivlərini gündəmə gətirir. Kosmik turizmin müasir praktik əhəmiyyəti onuncu "hava azadlığı"nın yaranması üçün əsas faktor kimi çıxış edərək bütövlükdə beynəlxalq hüququn ən aktual mövzularından birinə çevrilmişdir.

Məqalənin məqsədi hava və kosmos hüququ çərçivəsində kosmik turizm reallığı nəzərə alınmaqla 9 növdə göstərilən "hava azadlıqları"nın yeni növünün – onuncu azadlığın mövcudluğunu əsaslandırmaqdır.

Bu məqsədə nail olmaq üçün aşağıda göstərilən məsələlərin həlli xüsusilə vacibdir:

– "hava azadlıqları"nın anlayışı və təsnifatı barədə ümumnəzəri müddəaları qeyd edərək bu azadlıqların yeni növü barədə bəzi iddiaların şərhi;

– hava və kosmos hüququnun qovşağında nəzərdən keçirilən kosmik turizm marşrutunun onuncu "hava azadlığı" kimi təsbiti;

– onuncu "hava azadlığı"nın kabotaj qaydasını ehtiva etməsinin hüquqauyğunluğunun aydınlaşdırılması;

– onuncu "hava azadlığı"na anlayış verilməsi və hava azadlıqları ilə bağlı təsbit edilən yeni hüquqi təsnifatda bu azadlığın yerinin müəyyən edilməsi.

İlk öncə "hava azadlıqları"nın mahiyyətini və sayını açıqlamaqla ümumnəzəri müddəaları və müasir yanaşmaları şərh etməyə çalışacağıq. "Hava azadlığı" hava məkanında müəyyən olunmuş marşrut əsasında sərnişin, yük və poçtun daşınmasını ehtiva edir. Başqa cür desək: "hava azadlığı" hava məkanında uçuş üçün müəyyən olunan azadlıq deməkdir. Uçuş üçün müəyyən olunan azadlıq uçuş hüququnu yaradır. Uçuş hüququ da, öz növbəsində hava daşımalarının həyata keçirilməsini şərtləndirərək hava hüququnda daşıma hüququnu ortaya çıxarır. Məhz dövlətlərin bir-biri

ilə hava əlaqələri haqqında saziş vasitəsilə mübadilə etdiyi bu daşıma hüququ sayəsində sərnişinlərin, yükün və poçtun daşınması həyata keçirilir. Brayn Havel və Qabriel Sançez kimi hüquqşünas alimlərin də, qeyd etdikləri kimi, bu azadlıqlar hava əlaqələri ilə bağlı dövlətlər arasında aparılan müvafiq danışıqlarda əsas müzakirə elementi olaraq çıxış edir. [5] Qeyd olunanları nəzərə alaraq hesab edirik ki, "hava azadlıqları"nın daha məqsədəuyğun tərifi bu qaydada olmalıdır: "Hava azadlığı" – dövlətlər arasında hava əlaqələri haqqında hökumətlərarası sazişlər əsasında təsbit edilən sərnişin, baqaj və yük daşımalarını həyata keçirmək hüququnu müəyyən edərək aviaşirkətlərin kommersiya fəaliyyəti ilə məşğul olmaq razılığı hesab olunur".

Hava hüququnda məhz neçə "hava azadlığı"nın bu gün mövcudluğu məsələsinə də hər bir hüquqşünas alim özünəməxsus formada yanaşır. Y.D.İlin və s. dörd, A.X.Sayidov, V.İ.Baronov, V.A.Batır, V.İ.Lipunov, N.A.Uşakov, V.Q.Vitsum, A.Sorgucu və s. beş, P.N.Bryukov və s. altı, Q.P.Jukov, Q.M.Velyaminov, V.N.Qreçuxa, A.A.Batalov, D.Andriotis, L.Sin, F.F.Ələkbərova, R.F.Məmmədov, L.H.Hüseynov, E.Ə.Əliyev, G.Z.Bəşirova və s. yeddi, Y.N.Maleyev, A.P.Movçan, V.E.Brusilovskiy və s. səkkiz, V.D.Bordunov, P.M.Leon, B.Xavel, Q.Sançez, P.S.Dempsi, M.Milde, Y.Öztürk, R.V.Günel, Nazlı Can, E.M.Nəcəfov, X.Ə.Axundov, S.İ.Əliyev və s. isə doqquz "hava azadlığı"nın mövcudluğunu qeyd edirlər. [1] Qeyd etməliyik ki, biz hələ 2008-ci ildə nəşr olunan elmi məqalədə beynəlxalq hava hüququ nəzəriyyəsində 9 "hava azadlığı"nın mövcudluğunu təsbit etmişik. Məlum olduğu kimi, vaxtilə bir çox hüquqşünaslar "hava azadlıqları"nın yeddi və ya səkkiz saydan ibarət olduğunu israrla sübut etməyə çalışırdılar. 2004-cü ildə Monrealda qəbul edilmiş "Dövlətlərarası hava nəqliyyatının tənzimlənməsi haqqında Təlimat" bu məsələyə əsaslı münasibəti ifadə edərək 9 "hava azadlığı"nın mövcudluğunu konkret şəkildə təsbit etdi. Zənnimizcə, "hava azadlığı"nın yeddi və ya səkkiz saydan ibarət olduğunu qeyd edən alimlər səkkizinci və doqquzuncu hava azadlıqlarının (yəni kabotaj azadlıqlarının) dövlətin xüsusi səlahiyyəti olması və dövlətin daxili hüdudları ilə məhdudlaşması fikrini əsas tutaraq onları beynəlxalq hava əlaqələri çərçivəsində xarakterizə etmirdilər. Ancaq mütləq şəkildə vurğulamalıyıq ki, səkkizinci və doqquzuncu "hava azadlıqları" digər azadlıqlar kimi hökumətlərarası hava əlaqələri haqqında sazişlərlə müəyyən edilərək hava əlaqələrinə aid bütün əsas şərtləri özündə birləşdirir.

Təbii ki, müasir beynəlxalq hava hüququnun inkişaf tendensiyaları "hava azadlıqları"nın yeni növlərini ortaya çıxara bilər. "Hava azadlıqları"nın bugünədək ədəbiyyatlarda 9 növdə göstərilməsi o demək deyil ki, daimi olaraq qeyd olunan sayda dəyişiklik olmayacaqdır. Bununla bağlı beynəlxalq praktikada aviasiyanın müasir inkişaf prioritetləri və müntəzəm uçuş imkanlarının kosmik məkan səviyyəsində olması mühüm və önəmli faktorlar kimi çıxış edə bilər. Çin alimi Bin Çenq hələ 1962-ci ildə nəşr olunan "Beynəlxalq hava nəqliyyatı hüququ" adlı kitabında perspektiv

üçün hava və kosmos hüququ kontekstində "hava azadlığı"nın yeni növünün – onuncu azadlığın reallaşa biləcəyini qeyd etmişdi. [4] O zamanlar bir çoxlarına bu nə dərəcədə qeyri-real görünsə də, hazırda bu azadlığın praktikada mümkünlüyü öz əsaslı təsdiqini tapmaqdadır. Onu qeyd edək ki, hələ 2007-ci ildə ABŞ-ın Federal Mülki Aviasiya İdarəsinin Menecerlər Assossiasiyasının jurnalında 10 "hava azadlığı"nın mövcudluğu qeyd edilmişdi. [3] Bu gün artıq bəzi hüquqşünas alimlər onuncu "hava azadlığı"nın mövcudluğu barəsində fərziyyələrini irəli sürərək yaxın perspektivdə bu azadlığın reallaşması imkanlarından bəhs edirlər. Bir qisim alimlər iddia edirlər ki, beynəlxalq ticarətin liberallaşdırılmasının inkişaf etdirilməsi baxımından yeddinci, səkkizinci, doqquzuncu və onuncu "hava azadlıqları"nın istifadəsinin böyük əhəmiyyəti vardır. [6] Göründüyü kimi, əksər alimlər onuncu "hava azadlığı"nın adını çəksələr də, bu yeni daşıma hüququnun necə və hansı marşrut əsasında həyata keçirilə biləcəyini qeyd etmirlər. Onuncu "hava azadlığı" barəsində daha anlaşılıqlı fikirləri professor Pablo Mendes de Leon və Con Balfourun mülahizələrindən başa düşmək olar. Con Balfour 2011-ci ilin noyabr ayında Leyden Universitetində hava əlaqələri haqqında sazişlərdə əks olunan "hava azadlıqları"nın natamam interpretasiyasını qeyd edərək onuncu "hava azadlığı"nı özündə birləşdirən elmi-tədqiqat işinin yazılması ilə bağlı təklif irəli sürmüşdü. O, bu azadlığın kabotaj qaydasına əsaslandığını ifadə edərək suborbital kosmik uçuşlara imkan verə biləcəyini xüsusi olaraq bildirirdi. Pablo Mendes de Leon bu məsələni öz kitabında işıqlandıraraq onuncu azadlıqla bağlı belə bir nümunəni qeyd etmişdi: Britaniya əsilli Riçard Brensona məxsus "Virgin Galactic" şirkətinin digər bir ölkədə – ABŞ-ın Arizona ştatındakı buraxılış məntəqəsindən uçuşa başlaması və eyni yerə qayıtması. P.M.Leon bununla bağlı hazırda geniş vüsət almış kosmik turizm planlarına istinad edirdi. [7]

Həqiqətən də, müasir dövrdə kosmik turizm Yer orbitinə səyahət etmə imkanı verən ən bahalı və ekstremal turizmin ən ekzotik növü kimi qəbul olunur. Turizmin bu növü kosmosa və ya yerətrafı orbitə uçuş və ya elmi-tədqiqat məqsədi daşıya bilər. Kosmik turizm sayəsində insanların müəyyən maddi imkanlar çərçivəsində orbital kosmik stansiyanı səyahət etməsi tamamilə mümkündür. Bununla əlaqədar bir çox dövlətlərdə fəaliyyətdə olan ayrı-ayrı kosmik turizm agentlikləri müştərilərə kosmik səyahət üzrə birbaşa və ya dolayı səfərlərlə bağlı təkliflər irəli sürür. [10] Bu praktika vətəndaş Dennis Titonun 2001-ci ildə Rusiyanın Soyuz kosmik gəmisində həyata keçirdiyi səyahətdən sonra başlamışdır. O vaxtdan etibarən suborbital kosmik səyahətlərə tələbat artmış və bu sahədə yeni inkişaf planları ortaya qoyulmuşdur. Müasir dövrdə belə səyahətin qiyməti 87.000-175.000 ABŞ dolları arasında dəyişir. Bəzi şirkətlərin yaratdıqları kosmik nəqliyyat vasitələri sayəsində yaxın gələcəkdə insanlar hazırkı qiymətin bir hissəsi qarşılığında kosmosa səyahət imkanı əldə edə biləcək. [8] Bu gün ictimaiyyətin kosmik turizmə böyük maraq göstərməsi və

bununla bağlı təklif edilən qiymətlərin getdikcə azalması nəticədə bu sahənin inkişafını daha da, sürətləndirmişdir. Bu baxımdan da, hava və kosmos hüququ ədəbiyyatlarında müasir yanaşmalar nəzərə alınmaqla kosmik turizm reallığı əsasında bu növ marşrutlar da, nəzərə alınmalı və "hava azadlıqları" sırasında göstərilməlidir. Yaxın 1-2 il ərzində kosmik turizm marşrutu ilə mütəmadi qaydada kosmosa daşımalar həyata keçiriləcəkdir. Təbii ki, burada müntəzəmlik və sistematik fəaliyyət məsələsi ön plana çıxır. Bu baxımdan da, kosmik turizm məqsədi ilə həyata keçirilən uçuşları qismən beynəlxalq hava əlaqələri kontekstində nəzərdən keçirə bilərik. Çünki beynəlxalq hava əlaqəsinin məqsədi beynəlxalq hava daşımalarının həyata keçirilməsidir. Gələcək perspektivdə məhz kosmik turizm səfərləri də, müasir uçuş reyslərində olduğu kimi ümumi istifadəyə açıq olan şəkildə dərc olunmuş cədvələ uyğun ardıcıllıqla həyata keçiriləcəkdir. Məhz bu xüsusiyyət də, kosmik turizmi müntəzəm beynəlxalq hava əlaqələrinə aid edərək yeni "hava azadlığı"nın mövcudluğu üçün mühüm bir əsas yaradır. Digər tərəfdən onu da, vurğulamalıyıq ki, kosmik turizm səfərləri də sərnişin, baqaj və yükün daşınmasını ehtiva edəcək. Bu cür marşrut əsasında reallaşdırılan uçuşlarda yaxın gələcək üçün yalnız poçt göndərişləri istisna ola bilər. Bununla yanaşı, yuxarıda da, qeyd etdiyimiz kimi, kosmik turizm məqsədi ilə reallaşdırılan uçuşlar tam mənada beynəlxalq hava hüququ çərçivəsinə daxil deyildir. Bu nöqteyi-nəzərdən də, biz kosmik turizm səfərlərini qismən müntəzəm beynəlxalq hava əlaqələrinə aid edirik. Çünki bu cür uçuşlar tam şəkildə hava məkanı daxilində həyata keçirilmir. Sözügedən uçuşlar hava və kosmik məkanı əhatə edir. Buradan da, bu qənaətə gəlmək olar ki, yeni "hava azadlığı" hava və kosmos hüququnun qovşağında təhlil olunmalıdır. Bu məsələni də, beynəlxalq hüququn hələ də, həllini tapmayan mühüm problemi ilə əlaqələndirmək lazımdır. XX əsrin 50-ci illərindən bu günə qədər hava və kosmik məkanın hüquqi sərhədinin müəyyən olunması məsələsi vacib hüquqi problemlərdən biri olaraq qalmaqdadır. Bu məsələdə bir tərəfdən dövlətlərin onların hava məkanı üzərində tam və müstəsna suverenliyi prinsipini, digər tərəfdən isə kosmik məkanın və səma cisimlərinin dinc istifadə azadlığını və tədqiqatını təmin etmək lazımdır. Hava və kosmik məkanın sərhədinin müəyyənləşdirilməsi problemi beynəlxaq birlik tərəfindən müvafiq müqaviləli normanın qəbul olunmasından sonra tam olaraq öz həllini tapa bilər. Onu da vurğulamalıyıq ki, dövlət üzərindəki hava məkanından fərqli olaraq kosmosda suverenlik məcburi qaydada müəyyənləşdirilmir. Burada uçuş azadlığı qüvvədədir. Hava və kosmik məkanın sərhədinin müəyyən olunmasında önəmli rol oynayan məsələlərdən biri hava və kosmik gəmilərdir. Bu gün beynəlxalq hüquq ədəbiyyatında ingiliscə "aerospace objekt" adlandırılan hava və kosmik məkan üçün nəzərdə tutulan gəmilərin tərifində də dəqiqlik yoxdur. Texniki nöqteyi nəzərdən hava gəmiləri də kosmik gəmilər kimi uçuş qabiliyyətinə malikdirlər. Bu növ gə-

milər beynəlxalq hüquq ədəbiyyatında daha çox suborbital kosmik nəqliyyat vasitəsi kimi xarakterizə olunur. Bununla əlaqədar təfərrüatlı məqalə yazan türk hüquqşünas alim Əli Balın fikrincə, hər hansı ayrı-seçkiliyə yol vermədən hava və kosmik gəmilərin hamısına vahid bir hüquqi rejimin tətbiq olunması daha məqsədəmüvafiqdir. [2] Almaniyanın Köln Universitetinin Hava və Kosmos Hüququ İnstitutunun direktoru, professor Stefan Hobe isə məqaləsində qeyd edir ki, gələcəkdə həyata keçiriləcək qısamüddətli suborbital uçuşlar hava və kosmik məkanın hüquqi rejimi ilə bağlı mühüm problemlər yarada bilər. Buna görə də hava və kosmos hüququnun mühüm konsepsiyalarını əhatə edən razılaşdırılmış qərar olmalıdır. Bununla yanaşı, o qeyd edir ki, hava və kosmik gəmilərin qeydiyyatı üçün hava və kosmos hüququnun ortaq ünsürlərinin birləşdirilməsi məqsədəuyğundur. [9] Əslində bu qeyd olunanlardan bir daha aydın olur ki, mövcud problemin əsas həlli yolu hava və kosmik məkanın sərhədinin müəyyən edilməsinin zəruriliyidir. Təbii ki, beynəlxalq hava hüququ və beynəlxalq kosmos hüququ beynəlxalq hüquq daxilində ayrı-ayrı hüquq sahələri olub, bu qaydada formalaşıb müasir mərhələyə çıxa bilmişlər. Lakin yuxarıda şərh edilən müəyyənləşdirilməmiş bir çox məsələlərlə əlaqədar olaraq bu gün adıçəkilən hüquq sahələri beynəlxalq təcrübədə əlaqəli və bir-birinə bağlı surətdə araşdırılır və tədqiq edilir. Kosmik turizm səfərləri də, qeyd olunan hüquqi problemlərin əhatəsində hava və kosmos hüququnun bir daha sıx bağlılığını ortaya qoyur. Bu baxımdan da, hesab edirik ki, onuncu "hava azadlığı"nın yaranması real sayılmaqla bərabər həm də, hava və kosmos hüququnun qovşağında araşdırılmalı və tədqiq edilməlidir. Eyni zamanda onuncu "hava azadlığı" özündən əvvəlki azadlıqlarla əlaqəliliyi və ardıcıllığı da, saxlamalıdır. Bu yeni azadlıq müəyyən mənada doqquzuncu "hava azadlığı"nın təsirini ehtiva etməlidir. Məlum olduğu kimi, hava hüququnda doqquzuncu "hava azadlığı" kabotaj termini çərçivəsində nəzərdən keçirilir. Buna həm də, kabotaj qaydası deyilir. Beynəlxalq hava hüququnda kabotaj dedikdə digər dövlətin sərhədləri daxilində fəaliyyət nəzərdə tutulur. Aviasiya sahəsində kabotaj qaydası aviaşirkətin öz ölkəsi ilə əlaqə yaratmadan digər dövlətin hava məkanı daxilində daşımalar həyata keçirməsini ehtiva edir. Biz hava hüququ çərçivəsində təhlil edilən kabotaj terminine bu şəkildə anlayış verməyi daha məqsədəuyğun hesab edirik: Kabotaj – xarici dövlətdə qeydiyyatdan keçmiş hava gəmisinin digər dövlətin hava limanları arasında sərnişin, baqaj və yükləri, habelə poçt göndərişlərini daşıması deməkdir. Kabotaja nümunə kimi xarici hava yolları şirkətinin Böyük Britaniyanın London və Qlazqo şəhərləri arasında daşımalar həyata keçirməsini qeyd edə bilərik. Bununla onu qeyd etmək istəyirik ki, onuncu "hava azadlığı" doqquzuncu "hava azadlığı"nı təsbit edən kabotaj qaydasını özündə birləşdirə bilər. Yeni "hava azadlığı" kabotaj qaydasına əsasən digər dövlətin ərazisində fəaliyyəti ehtiva edərək hava məkanı hüdudlarından kənara çıxır. Daha dəqiq desək, xaricdə qeydiyyatdan keçmiş müəssisə di-

gər dövlətin ərazisindən uçuşa başlayaraq öz mülkiyyətində olan suborbital kosmik nəqliyyat vasitəsi ilə kosmosa turizm məqsədli səfərlər edir. Yəni yaxın 1-2 il ərzində reallaşdırılmalı olan kosmik turizm səfərlərinin hər birinə biz onuncu "hava azadlığı" kimi baxa bilmərik. Əgər dövlətin özünə aid olan müəssisə tərəfindən öz ərazisindən başlamaq şərti ilə kosmik turizm səfərləri həyata keçirilirsə bu onuncu "hava azadlığı" deyildir. Onuncu "hava azadlğın"da yuxarıda da, vurğuladığımız kimi, kabotaj qaydası öz əksini tapmalıdır. Bu azadlığın reallaşdırılması zamanı xarici müəssisə digər dövlətin ərazisindən kosmosa buraxdığı suborbital kosmik nəqliyyat vasitəsini eynilə həmin dövlətin ərazisində yerə endirməlidir. Bu halda enmə məntəqəsi buraxılış məntəqəsi ilə eyni olmaya da, bilər. Burada əsas məqam enmə məntəqəsinin məhz həmin dövlətin ərazisində olmasıdır. Hazırda kosmik turizm planlarının reallaşdırılması çərçivəsində bu məsələlər nəzərə alınaraq kosmosa buraxılış və enmə üçün müvafiq dövlətlərin ərazisində (məsələn, ABŞ) bütün zəruri imkanlar yaradılmışdır. Fikrimizcə, hava və kosmos hüququ nəzəriyyəsində onuncu azadlığın "hava azadlıqları"nın yeni növü kimi təsbit edilməsi xüsusilə vacibdir. Hesab edirik ki, şərh olunanlar əsasında onuncu "hava azadlığı"na aşağıdakı kimi tərif vermək daha məqsədəmüvafiq sayıla bilər: "Xarici müəssisənin suborbital kosmik nəqliyyat vasitəsini kabotaj qaydasına uyğun olan marşrut əsasında digər dövlətin ərazisindən kosmosa buraxması və həmin dövlətin ərazisi daxilində yerə endirməsi onuncu "hava azadlığı" hesab edilir." Beləliklə, kosmik turzim səfərləri ilə "hava azadlıqları"nın təsnifatında yeni era başlamış oldu. Bu nöqteyi-nəzərdən hesab edirik ki, on "hava azadlığı"nın dörd qrupa ayrılaraq qruplaşdırılması müasir beynəlxalq hüquq nəzəriyyəsinin tələblərinə tam şəkildə uyğun olan hüquqi təsnifat modelidir: köməkçi "hava azadlıqları" (birinci və ikinci "hava azadlığı"), əsas "hava azadlıqları" (üçüncü və dördüncü "hava azadlığı"), ikinci dərəcəli "hava azadlıqları" (beşinci, altıncı və yeddinci "hava azadlığı"), "kabotaj "hava azadlıqları" (səkkizinci, doqquzuncu və onuncu "hava azadlığı").

## ƏDƏBİYYAT


1. Əliyev E.Ə. Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, 2013, 614 s.
2. Xəlilov Z.Z. Beynəlxalq hava hüququnda "hava azadlıqları"nın hüquqi təsnifatı adlı məqalə – "Nəqliyyat hüququ" elmi-nəzəri, təcrübi jurnal, № 1, 2013, 17-27 s.
3. Arş. Gör. Dr. Ali Bal "Hava-uzay araçlarının (aerospacecraft) hukuki rejimi" http://webb.deu.edu.tr/hukuk/dergiler/dergimiz-15-ozel/3-kamu/8-alibal.pdf]
4. 10 freedoms of the air: Commercial Aviation Rights Granted by One Nation to Commercial Air Carriers of another Nation By Paul V. Mifsud, Vice President of Government and Legal Affairs, USA, KLM Royal Dutch Airlines - A Journal of the Federal Aviation Administration Managers Association, May/June 2007: Vol. 5 No. 3 http://www.faama.org/wp-content/uploads/2011/01/MTS0507.pdf
5. Bin Cheng, The Law of International Air Transport. 491 page – 1962 (93 page);
6. By Brian F. Havel and Gabriel S. Sanchez "The Principles and Practice of International Aviation Law" Publisher: Cambridge University

Press (City/Country Cambridge, United Kingdom) Print Publication Year: 2014, Format Paperback: 464 pages (76 page)
7. “Creativity and Innovation in Aviation” – Vivek Pattanayak, former Director of the Bureau of Administration and Services, İnternational Civil Aviation Organization (ICAO) - www.iffaadindia.org/images/article/
8. From Lowlands to High Skies: A Multilevel Jurisdictional Approach Towards Air Law: Essays in Honour of John Balfour, Pablo Mendes de Leon, M. Nijhoff, 2013, (284 page) Publisher: Brill - Nijhoff (November 8, 2013), 3 page
9. “Space Tourism and Commercial Space Travel” (Paramount Business Jets) www.paramountbusinessjets.com/space_tourism.php accessed 19 April 2016
10. Stephan Hobe, Legal Aspects of Space Tourism, 86 Neb. L. Rev. (2007) Available at: http://digitalcommons.unl.edu/nlr/vol86/iss2/6
11. Yanal Abul Failat. “Space Tourism: A Synopsis on its Legal Challenges” http://irishlawjournal.com/wp-content/uploads/2013/05/Space-Tourism-A-Synopsis-on-its-Legal-Challenges.pdf - accessed 15 April 2016.

## ПРАВО СУБОРБИТАЛЬНОГО КОСМИЧЕСКОГО ПОЛЕТА НА ОСНОВЕ КАБОТАЖНОГО ПРАВИЛА КАК ДЕСЯТОЙ “СВОБОДЫ ВОЗДУХА”

**З.З.Халилов.**

В статье проанализированы вопросы утверждения маршрута космического туризма как десятой “свободы воздуха”, рассматриваемого на стыке воздушного и космического права, определение понятия этой свободы и места новой свободы в правовой классификации “свободы воздуха”, а также даны соответствующие предложения.

**Ключевые слова:** *космический туризм, свободы воздуха, воздушное и космическое право, десятая свобода воздуха.*

## SUBORBITAL SPACEFLIGHT RIGHT BASED ON THE RULE OF CABOTAGE – AS TENTH FREEDOM OF THE AIR

**Z.Z.Khalilov.**

İn the article, issues such as the definition of space tourism route considered in the junction of air and space law as the tenth freedom of the air, specification of this freedom, and the determination of the place of the new freedom in the legal classification of freedoms of the air were analyzed and relevant proposals were presented in this regard.

**Key words:** *space tourism, freedoms of the air, air and space law tenth freedom of the air.*

# İMKANLARIN BƏRABƏRLİYİ VƏ MÜYƏSSƏRLİK PRİNSİPLƏRİ ƏLİLLƏRİN HÜQUQLARININ MÜDAFİƏSİNƏ TƏSİRİN MÜHÜM ELEMENTLƏRİ KİMİ

*Əlillərin hüquqlarının qorunması və müdafiəsində xüsusi prinsiplər mühüm rol oynayır. Həmin prinsiplər beynəlxalq hüququn ümumi prinsiplərinə əsaslanmaqla, əlillərin hüquqlarının qorunmasına dair dövlətdaxili rəhbər başlanğıclarının formalaşdırılmasında baza hesab olunur. Şübhəsiz ki, "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının 3-cü maddəsində ehtiva olunmuş prinsiplər digər müxtəlif aidiyyəti beynəlxalq sənədlərdə nəzərdə tutulan prinsiplərlə qarşılıqlı əlaqədə təhlil olunmalıdır. Əlillər üçün bərabər imkanların təmin edilməsi üçün milli, regional və beynəlxalq səviyyələrdə strategiyaların, planların, proqramların və tədbirlərin həvəsləndirilməsi, hazırlanması və qiymətləndirilməsi davam etdirilməlidir. Eyni zamanda, müvafiq sabit inkişaf strategiyalarının tərkib hissəsi kimi əlillik problemlərinin aktuallaşmasının vacibliyi xüsusilə vurğulanmalı, eləcə də əlillik əlamətinə görə istənilən şəxsə qarşı ayrı-seçkilik insan şəxsiyyətinə xas olan ləyaqətin və dəyərlərin alçaldılması kimi tanınmalıdır. Bununla yanaşı, əlillərin strategiya və proqramlara, o cümlədən bilavasitə onlara aid olan strategiya və proqramlara dair qərarların qəbulu prosesinə fəal cəlb olunması imkanlarının vacibliyi də nəzərə alınmalıdır. Buna görə də dövlətlər üzərlərinə qoyulmuş öhdəlikləri vicdanla icra etməlidirlər. Bundan əlavə, əlillərə qarşı ayrı-seçkiliyin qarşısının alınmasında və ləğvində qeyri-hökumət təşkilatları və digər vətəndaş cəmiyyəti institutları fəal iştirak etməlidirlər. Eyni zamanda, əlillərə qarşı ayrı-seçkilikdən müdafiə üzrə beynəlxalq məhkəmə qurumlarının təcrübəsinin nəzərə alınması məqsədəmüvafiqdir. Həmçinin, əlillərin reabilitasiyası və cəmiyyətin onlara adekvat münasibəti də normal həddə çatdırılmalıdır. Bununla belə, Azərbaycan qanunvericiliyi "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasına uyğunlaşdırılmalı, əlillərin hüquqlarına dair xüsusi prinsiplər müəyyən edilməlidir.*

**SƏBİNƏ ƏLİYEVA,**
**BDU-nun dissertantı.**
e-mail: raliyeva@yahoo.com

**Açar sözlər:** əlil, məşğulluq, təhsil, səhiyyə, müyəssərlik, bərabər imkanlar, imkanların bərabərliyi, maneə, inteqrasiya, reabilitasiya, adaptasiya, dövlət siyasəti, dövlət orqanları, müyəssər turizm, informasiya və kommunikasiya müyəssərliyi, realizə mexanizmi.

1945-ci il BMT Nizamnaməsi, 1970-ci il tarixli "BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında" Bəyannamə, habelə ATƏM-in (indiki ATƏT-in) 1975-ci il

Helsinki Yekun Aktında öz əksini tapmış beynəlxalq hüququn ümumtanınmış və əsas prinsiplərinə [2, s. 27-42] əsaslanmaqla, 2006-cı il Konvensiyası əlillərin hüquqları ilə spesifik prinsipləri müəəyyən edir. Bununla belə, bir məsələyə də diqqət yetirmək lazımdır ki, həmin rəhbər başlanğıcların müvafiq beynəlxalq-hüquqi sənəddə təsbit olunması və bunun sadəcə onların adının qeyd olunması kifayət etmir. Çünki istənilən rəhbər başlanğıc, o cümlədən 2006-cı il Konvensiyasının 3-cü maddəsində təsbit olunmuş prinsiplər öz-özlüyündə kompleks mahiyyət və məzmuna malikdir. Bu prinsiplərin mahiyyət və məzmunu isə təkcə ümumi və xüsusi hüquq normalarına deyil, həm də bu sahədə elmi-nəzəri araşdırmalara əsaslanır. Eyni zamanda, istənilən prinsip digərləri ilə bu və ya digər dərəcədə qarşılıqlı əlaqəyə malikdir. Yəni, əlillərin hüquqlarının qorunmasına dair hər hansı prinsipi fərdi qaydada və təcrid olunmuş şəkildə deyil, əksinə, kompleks şəkildə nəzərdən keçirmək lazımdır. Nümunə qismində ayrı-seçkiliyə yol verilməməsi prinsipinin digərləri (cəmiyyətə tam və səmərəli cəlb olunma və daxil olma; əlillərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması; imkanların bərabərliyi; əlil uşaqların inkişaf edən qabiliyyətinə hörmət və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət) ilə qarşılıqlı əlaqəsini göstərmək olar. Bununla yanaşı, bir məsələyə də toxunmaq lazımdır ki, əlillərin hüquqlarının qorunmasına dair prinsipləri təkcə 2006-cı il Konvensiyasının 3-cü maddəsi deyil, eləcə də digər beynəlxalq-hüquqi sənədlərin bir sıra normaları əsasında kompleks təhlil etmək daha düzgün olardı. Belə ki, Beynəlxalq Əmək Təşkilatının "Əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli Konvensiyasının II hissəsi bu sahədə mövcud olan rəhbər başlanğıcların təsbitinə yönəlmişdir. Həmin prinsiplərə aşağıdakıları aid etmək olar:

1) Milli şərait, təcrübə və imkanlara uyğun olaraq, hər bir dövlətin əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu məsələlərinə dair milli siyasəti formalaşdırması, yerinə yetirməsi və mütəmadi şəkildə dövri olaraq nəzərdən keçirməsi (mad. 2);

2) Müvafiq peşə reabilitasiyası tədbirlərinin bütün kateqoriya əlillərə şamil edilməsinin təmini, habelə açıq əmək bazarında əlillər üçün məşğuliyyət imkanlarının təşviqinə dair siyasətin yürüdülməsi (mad. 3);

3) Əlillərin peşə reabilitasiyası və məşğulluğuna dair siyasətin bütövlükdə əlil-işçilərlə digər işçilər arasında imkanların bərabərliyi prinsipinə əsaslanması (mad. 4);

4) İşəgötürənlərin və işçilərin nümayəndəli təşkilatlarının, habelə əlillər təşkilatları və əlillərlə bağlı struktur tərkib hissələrin müvafiq siyasət, habelə peşə reabilitasiyası fəaliyyəti ilə bağlı dövlət və özəl qurumlar arasında əməkdaşlığı və əlaqələndirməni təşviq edəcək tədbirlər barədə məsləhətləşmələr aparmasının zəruriliyi (mad. 5) [10, s. 4].

Bundan əlavə, 1994-cü il tarixli "Avropada xəstələrin hüquqlarının qorunması haqqında Bəyannamə"nin rəhbər başlanğıclara

aid olan müddəaları da əlillərin mənafelərinə aid normalardan sayılır.

Lakin bütövlükdə götürdükdə, əlillərin hüquqlarının qorunması və müdafiəsinə dair əsas rəhbər başlanğıclar 2006-cı il Konvensiyasının 3-cü maddəsində təsbit olunmuş prinsiplər sayılır. Çünki bu prinsiplər baza müddəalar sayılmaqla, müvafiq kateqoriya şəxslərin qorunmasının əsasını təşkil edir. Şübhəsiz ki, hər bir prinsip də öz növbəsində digər beynəlxalq sənədlərdə ehtiva olunmuş analoji normalarla qarşılıqlı əlaqədə götürülməlidir.

Ümumi yanaşmadan başqa, 2006-cı il BMT Konvensiyasında təsbit olunmuş ayrı-ayrı prinsiplərin təhlili də zəruri şərtlərdən biridir. Məhz bu baxımdan, elmi-nəzəri müddəalar və hüquq normaları əsasında imkanların bərabərliyi və müyəssərlik prinsiplərinə toxunmaq yerinə düşərdi.

İmkanların bərabərliyi prinsipi ilə bağlı, ilk növbədə, qeyd etmək lazımdır ki, istər beynəlxxalq hüquqda, istərsə də dövlətdaxili qanunvericilikdə bərabərlik müxtəlif aspektlərdən qiymətləndirilir. Məhz bu baxımdan, bərabərlik termini üç mənada ifadə olunur: 1) formal və ya hüquqi bərabərlik; 2) nəticə bərabərliyi; 3) imkanların bərabərliyi və ya struktur bərabərlik [6, s. 182-183].

Hüquqi bərabərlik birbaşa şəkildə ayrıseçkiliyi qadağan etməklə, irqi, gender, əlillik və ya cinsi mənsubiyyət baxımından potensial fərqləndirmənin qarşısının alınmasına yönəlmişdir. Bu anlayış daha çox əlillərin hüquqlarının müdafiəsi ilə məşğul olan, eləcə də əlilliyin tibbi modelinin aradan qaldırılmasına çalışan təşkilat və şəxslərin tələblərinə cavab verir. Yəni, bu anlayış öz-özlüyündə əlillliyin problem olmadığını ehtiva edir. Ayrı-ayrı cəmiyyətlərin bütün üzvlərinə əmtəə, xidmət və vasitələrə bərabər çıxış imkanlarının verilməsi həmin üzvlər arasında mövcud olan fərqlərin öncədən nəzərdən keçirilməsini tələb edir. Nəticə bərabərliyi əlilliyin və onun nəticəsinin birgə təhlilini şərtləndirir. Məşğulluq sahəsində və iş yerlərində nəticə bərabərliyinin pozulması halları özünü daha qabarıq şəkildə büruzə verir. Belə ki, əlilliyi olan şəxsə və sağlam insana eyni məbləğdə əmək haqqının verilməsi əslində insana verilən bərabər dəyər və ləyaqətin bərabər qiymətləndirilməsi kimi nəzərdən keçirilsə də, nəticə etibarilə bərabərlik pozulur. Çünki verilən əmək haqqının məbləğinin bərabərliyinə baxmayaraq, onun əlilliyi olan şəxsin ehtiyaclarını tam ödəməsi mümkünsüz və qeyri-realdır. Əlil-şagird və əlil-tələbənin adi orta və ya ali məktəbdə təhsil alması da nəticə bərabərliyinin pozulmasına gətirib çıxarır. Eyni zamanda, nəticə bərabərliyi bir sıra problemlərin də mövcudluğunu ortaya qoyur. Onlardan ən ümdəsi məsuliyyət məsələsi və dövlətin ümumi rifah halının düzgün dəyərləndirilməsidir. Digər iki anlamdan fərqli olaraq, imkanların bərabərliyi nəticəni nəzərə almadan yalnız şans bərabərliyini əsas götürür və müasir qlobal iqtisadi model kimi bazar iqtisadiyyatı ilə vəhdətdə nəzərdən keçirilir. Başqa sözlə, bərabər imkan cəmiyyətə daxil olma və inteqrasiyaya maneə törədən stereotip və struktur maneələri kimi başa düşülür. Həmin stereotip fəaliyyətin əsası qismində çıxış etdiyi təqdirdə, bundan im-

tina olunması normal haldır. Bununla belə, cəmiyyətə real çıxış və daxil olma imkanlarını ifadə edən ətraf mühitin, yaxud sosial həyatın dəyişməsini də nəzərə almaq lazımdır.

Əlillərin hüquqlarının qorunması və müdafiəsi ilə bağlı beynəlxalq təşkilatların fəaliyyətində də bu kateqoriyadan olan şəxslər üçün bərabərliyin təmin olunmasına xüsusi diqqət yetirilməklə, sonuncunun təfsiri, xüsusilə onun mahiyyət və məzmunun dəqiqləşdirilməsinə də önəm verilməkdədir. BMT Baş Məclisi qəbul etdiyi və 1983-1992-ci illəri əhatə edən "Əlilliyi olan şəxslər üçün BMT Onilliyi", habelə "Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı"nın vəzifələrinin icrası bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Belə ki, Fəaliyyət Proqramında nəzərdə tutulan əsas vəzifələr qismində profilaktika, reabilitasiya və imkanların bərabərliyini xüsusilə qeyd etmək lazımdır. Çünki dinamik anlayış olan bərabərlik ümumi sosial inkişafa uyğun olaraq çevik şəkildə inkişaf edir. İmkanların bərabərliyi isə cəmiyyətdə mövcud olan sistemlərə əlillərin müyəssərliyinin təşviqi prosesini özündə ehtiva edir [12, s. 36-37].

Onu da qeyd etmək lazımdır ki, imkanların bərabərliyi kontekstində xüsusi tədbirlərin qəbulunun digər insanların hüquqlarının pozulması və onlara qarşı ayrı-seçkiliyə yol verilməsi kimi qiymətləndirilməsi düzgün addım deyildir. Bu müddəa beynəlxalq-hüquqi sənədlərdə təsbit olunmuş normaların tələbindən irəli gəlir. Belə ki, BƏT-in "Əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli Konvensiyasının 4-cü maddəsinə uyğun olaraq, əlil-işçilərlə digər işçilər arasında imkan və rəftarın effektiv bərabərliyinə yönəlmiş xüsusi müsbət tədbirlərin görülməsi digər işçilərə qarşı ayrı-seçkilik kimi qiymətləndirilə bilməz.

Digər tərəfdən, əlillərin bərabərliyinin təmin edilməsinə dair əsas standartlar qismində ayrı-seçkiliyə yol verilməməsi, insan ləyaqətinə hörmət olunması, bərabərlik və özünəməxsusluq (sərbəstlik) kimi prinsiplər çıxış edir. Lakin T.A.Lıxinanın fikrincə, əlillərlə bağlı bərabərlik prinsipi imkanların bərabərliyinin təmin olunması baxımından nəzərdən keçirilməlidir. Eyni zamanda, beynəlxalq hüququn hüquq-müdafiə xarakterli səciyyəvi rəhbər başlanğıcı sayılan özünəməxsusluq prinsipi əlillər tərəfindən müxtəlif subyektiv imkanların həyata keçirilməsi zamanı onların mümkün müstəqilliyinin maksimum səviyyədə təmin olunmasını ehtiva edir [5, s. 16]. Bu fikirlə razılaşmaq qeyri-mümkündür. Çünki imkanların bərabərliyi prinsipi əlillərlə cəmiyyətin digər üzvləri arasında fərqlərin və maneələri aradan qaldırılması, istənilən sahədə (məsələn, təhsil, məşğulluq, cəmiyyətdə qərarların qəbulunda iştirak, nəqliyyat vasitələrindən maneəsiz istifadə və s.) bərabər imkanların təmin edilməsini şərtləndirir. Bu bərabərlik təmin edildikdən sonra, şübhəsiz ki, şəxsin sərbəstliyi də meydana çıxır. Yəni, imkanların bərabərliyi prinsipinin təmin edilməsində, ilk növbədə, müvafiq hüquq normalarının qəbulu və onların realizəsi üçün lazımi şəraitin yaradılması, eləcə də bu sahədə maarifləndirmə işinin

gücləndirilməsi və səlahiyyətli dövlət qurumları ilə vətəndaş cəmiyyətinin aidiyyəti institutlarının qarşılıqlı əlaqəsinin düzgün qurulmasına diqqət yetirmək lazımdır.

İnsan hüquqlarının müdafiəsinə dair ümumi və universal beynəlxalq-hüquqi sənədlərdə bərabərlik və ayrı-seçkiliyə yol verilməməsinin sintezini özündə ehtiva edən və kompleks müddəa kimi qiymətləndirilən eyniadlı rəhbər başlanğıc öz əksini tapmışdır. Nümunə qismində "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Paktı göstərmək olar ki, həmin beynəlxalq-hüquqi sənədin 2-3 və 26-cı maddələri bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin beş əsas elementini müəyyən etmişdir. Həmin elementlərə hüquqlardan bərabər istifadə edilməsi prinsipi, kişi və qadının bərabərliyi prinsipindən irəli gələn ümumi bərabərlik prinsipi, hüquq norması və məhkəmə qarşısında bərabərlik prinsipi, qanun tərəfindən bərabər müdafiə prinsipi, eləcə də ayrı-seçkiliyə yol verilməməsi prinsipi aiddir [1, s. 74].

Bir sıra beynəlxalq sənədlərdə isə imkanların bərabərliyi ayrı-seçkiliyin qadağan olunması kontekstində nəzərdən keçirilir. Müvafiq hala Beynəlxalq Əmək Təşkilatının 1964-cü il tarixli 122 nömrəli "Məşğulluq siyasəti haqqında" Konvensiyasında dolayısı ilə rast gəlmək mümkündür. Belə ki, həmin sənəddə əlillik məsələsinə toxunulmasa da, onun irqi, rəng, cinsi, dini, siyasi fikir, milli mənsubiyyət və ya sosial mənşəyinə görə məşğulluq sahəsində seçim azadlığı və bərabər imkanlara tətbiq edilmədiyi göstərilmişdir [9, s. 409-410].

Dövlətdaxili qanunvericilik aktlarına gəldikdə, imkanların bərabərliyi əlillərə qarşı ayrı-seçkiliyin qadağan edilməsi və bərabərliyin təmininə dair müddəalar əsasında nəzərdən keçirilir. Bu, həm ayrı-seçkiliyin bütövlükdə və ümumi olaraq qadağan edilməsi kontekstində əlillərin digər insanlarla bərabərliyinin təmin olunması, həm də spesifik olaraq əlillərə qarşı ayrı-seçkilik hallarının yolverilməzliyinə dair normaları ehtiva edən qanunvericilik aktlarına da aiddir. Müasir dövrdə sonuncu kateqoriyaya aid edilə bilən qanunvericilik aktları özünəməxsus kəmiyyət və keyfiyyət göstəricilərinə malikdir ki, bu da əlillərin müdafiəsi və qorunmasının dövlətlər qarşısında duran prioritet məsələ olduğunu göstərir. Belə ki, Konstitusiyanın 25-ci maddəsində təsbit olunan hər bir kəsin qanun və məhkəmə qarşısında bərabərliyini, habelə insan və vətəndaş hüquqlarının və azadlıqlarının irqi, milli, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmasının qadağan olunmasını əsas konstitusion norma kimi rəhbər tutan 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanunun 1-ci maddəsinə əsasən, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar barəsində ayrı-seçkiliyin qadağan olunması və bu halın qanunla təqib olunması nəzərdə tutulur.

Azərbaycan Respublikasının digər qanunvericilik aktları da əlillərə qarşı ayrı-seçkiliyin yolverilməzliyini nəzərdə tutur.

Belə ki, işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzim edən, eləcə də fiziki şəxslərin əmək hüquqlarının və bu hüquqların həyata keçirilməsini təmin edən qaydaların minimum normalarını müəyyənləşdirən Əmək Məcəlləsi müvafiq kateqoriya şəxslərlə bağlı bir sıra müddəaları ehtiva edir. Məsələn, əlillərin və 18 yaşınadək sağlamlıq imkanları məhdud olan işçilərin reabilitasiyası problemləri sahəsində dövlət siyasətinin həyata keçirilməsi (maddə 14); qadınlara, əlillərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsinin ayrı-seçkilik hesab edilməməsi (maddə 16); əlillərin və 18 yaşınadək sağlamlıq imkanları məhdud olan işçilərin, gənclərin (yeniyetmələrin) əməyindən istifadə etməklə əlavə iş yerləri yaradan müəssisələrə güzəştlərin müəyyən olunmasına dair kollektiv sazişlərə öhdəliklərin daxil edilməsi (maddə 38); 1-ci və 2-ci qrup əlil olan işçilər üçün, həftəlik iş saatının 36 saatdan artıq olmaması (maddə 91); əlilliyin qrupundan, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlillərə və sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə əmək məzuniyyətinin 42 təqvim günündən az olmayaraq verilməsi (maddə 119) və s.

Lakin bir məsələni qeyd etmək lazımdır ki, Azərbaycan qanunvericiliyində əlillərlə bağlı olaraq "imkanların bərabərliyi" terminindən deyil, "bərabər imkanlar" anlayışından istifadə olunur. Sonuncu isə rəhbər başlanğıc deyil, sadəcə sosial reabilitasiya, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi kontekstində nəzərdən keçirilir. Bunu Azərbaycan Respublikasının "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" 25 avqust 1992-ci il tarixli Qanununun 1-ci maddəsi də sübut edir. Digər tərəfdən, sözügedən qanunvericilik aktında təsbit olunmuş "bərabər imkanlar" termini yuxarıda qeyd etdiyimiz imkanların bərabərliyi yaxud nəticə bərabərliyi mənasında deyil, əlillərin digər vətəndaşlarla bərabər imkan alması baxımından nəzərdən keçirilir. Bu isə sadəcə formal bərabərliyin təminini özündə ehtiva edir. İmkanların bərabərliyi çərçivəsində əlillər üçün əlavə güzəşt və imtiyazların nəzərdə tutulması, eləcə də bir sıra sahələrdə (məsələn, məşğulluq və s.) bərabər şəraitlə yanaşı, müəyyən istisna və güzəştlərin formalaşdırılması isə qanunvericilik baxımından mütləq şəkildə nəzərə alınmalıdır. Yəni, əlillərin hüquqlarının müdafiəsinə dair sahəvi beynəlxalq-hüquqi sənədin əsasında yeni standartların müəyyən olunması müəyyən fəaliyyət tədbirlərinin həyata keçirilməsini tələb edir. Belə ki, hökumət, qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar 2006-cı il Konvensiyasının müddəalarının realizəsi, əlillərin ehtiyaclarını ödəmək üçün dövlət büdcəsindən adekvat maliyyə vəsaitinin ayrılması və insan resurslarının təmini məqsədilə gərgin çalışmalıdır [4, s. 29]. Məhz bu baxımdan, bir sıra ədəbiyyatlarda ifadə olunan "bərabər imkanlar"ın təmin olunması (xidmət, fəa-

liyyət növləri, informasiya və sosial infrastruktur kimi cəmiyyətin müxtəlif sistemlərini və ətraf mühiti hər bir kəs, o cümlədən əlilliyi olan şəxslər üçün müyəssər edən proses [3, s. 28]) heç də "imkanların bərabərliyi" kateqoriyasını ehtiva etmir.

Müyəssərlik prinsipi ilə bağlı müddəa isə beynəlxalq-hüquqi baxımdan ilk dəfə olaraq 2006-cı il Konvensiyasında hərtərəfli və kompleks şəkildə öz əksini tapmışdır. Onu da qeyd etmək lazımdır ki, müyəssərlik təkcə sözügedən beynəlxalq-hüquqi sənədlə bağlı sahə qismində deyil, eyni zamanda həmin aktda ehtiva olunan əsas prinsip və başlıca normativ istiqamətlərdən biri kimi nəzərdən keçirilməlidir. Məhz bu baxımdan, müyəssərlik prinsipi onu ifadə edir ki, əlilliyi olan şəxslər, digər insanlarla bərabər şəkildə və əsaslarla, nəqliyyat, informasiya-kommunikasiya (o cümlədən informasiya-kommunikasiya texnologiyaları və sistemləri), şəhər və kənd yerlərində ictimaiyyət üçün nəzərdə tutulan və əldə edilməsi imkanları açıq olan istənilən digər vasitə və xidmətlərə çıxış hüququna malikdirlər [7, s. 74].

BMT Baş Məclisinin qəbul etdiyi "Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı"nda müyəssərliyin əsas və fundamental elementi kimi qərarların qəbulu prosesində əlillərin hərtərəfli iştirakına kömək göstərilməsi qeyd olunmuşdur. Buna isə həyatları ilə bilavasitə əlaqəli olan, dövlət siyasətinə təsir etmək iqtidarında olan əlillərin özünə yardım qruplarının həvəsləndirilməsi yolu ilə nail olmaq olar [12, s. 36-37].

Bundan əlavə, BMT-nin Baş Məclisinin 1994-cü ildə keçirilən 48-ci sessiyasında qəbul olunmuş "Əlillər üçün imkanların bərabərləşdirilməsinə dair Standart Qaydalar"ın 5-ci qaydasında cəmiyyətin bütün sahələrində imkanların bərabərləşdirilməsi prosesində müyəssərliyin ümumi əhəmiyyətinin tanınması xüsusi qeyd edilir. Bu hal özünü iki istiqamətdə büruzə verir:

1) fiziki mühitə müyəssərliyin təmin olunması üçün fəaliyyət proqramlarının təqdim olunması;

2) informasiya və kommunikasiya müyəssərliyi təmin olunması üçün lazımi tədbirlərin görülməsi.

Onların hər biri isə özünün müxtəlif istiqamətlərinə malikdir. Belə ki, fiziki mühitə müyəssərliyə bu mühitdə iştirakla bağlı maneələrin aradan qaldırılması üçün tədbirlərin görülməsi, maddi və ya fiziki mühitin layihələndirilməsi və qurulması işlərinə cəlb olunan peşəkar memar və mühəndis-inşaatçıların əlillərə dair siyasət və müyəssərliyə nail olunması tədbirləri ilə yaxından tanış edilməsi, müyəssərliyə dair tələblərin layihələndirilmə prosesinin başlanğıcında dizayn və tikinti məsələlərinə daxil edilməsi, müyəssərliklə bağlı norma və standartların işlənib hazırlanması zamanı əlil təşkilatı ilə məsləhətləşmələrin həyata keçirilməsi kimi məsələlər aiddir.

İnformasiya və kommunikasiyaya müyəssərlik isə özünəməxsus elementləri ifadə edir. Məsələn, əlillərin, eləcə də onların ailələrinin və qanuni nümayəndələrinin bütün mərhələlərdə həmin şəxslərin diaqnozu və hüquqları, o cümlədən müvafiq xidmət və proqramları barədə məlumatlara malik olmaları; informasiya xidmətləri və sənədlərin əlillərin müxtəlif qrupları üçün

əlyetərliliyinin təmin edilməsinə dair dövlətlər tərəfindən strategiyanın işlənib hazırlanması; kar uşaqların təhsilində, onların ailələri və cəmiyyətlərində dil işarələrindən istifadəyə diqqət yetirilməsi; əlilliyi olan şəxslərin digər kommunikasiya ilə bağlı ehtiyaclarının nəzərə alınması; xidmətlərinin əlyetərliliyinin təmini üçün kütləvi informasiya vasitələri, xüsusilə, televiziya, radio və qəzetlərin dövlət tərəfdindən təşviq olunması; geniş ictimaiyyətə təqdim olunan yeni kompüterləşdirilmiş informasiya və xidmət sistemlərinin əlillər üçün müyəssərlik tələblərinə uyğunlaşdırılması; informasiya xidmətlərinin əlyetərliliyinin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi zamanı əlil təşkilatları ilə məsləhətləşmələrin aparılması və s.

Bunların hər biri də özünəməxsus tərkib elementlərinə malikdir. Məsələn, fiziki mühitdə iştirakla bağlı maneələrin aradan qaldırılması cəmiyyətin bütün sahələrində, o cümlədən mənzil və binalara daxil olma, ictimai və nəqliyyatın digər növlərinin xidmətlərindən yararlanma, küçə və digər bayır mühitindən istifadə ilə bağlı fiziki maneələrin ləğvini nəzərdə tutur. Bu hal həm zəruri qanunvericilik aktlarının və standartların qəbulu, həm də onların icrası üçün praktiki tədbirlərin görülməsi kimi hərəkətləri əhatə edir. Bundan əlavə, informasiya xidmətləri və sənədlərin əlillərin müxtəlif qrupları üçün əlyetərliliyinin təmin edilməsinə dair dövlətlər tərəfindən strategiyanın işlənib hazırlanması vəzifəsi tələb edir ki, Brayl əlifbası, audio vasitələr, irihəcmli çap üsulları və digər müvafiq texnologiyalar görmə qüsurlu şəxslərin yazılı informasiya və sənədlərə çıxışının təmini üçün istifadə edilməlidir. Şübhəsiz ki, eşitmə qüsurlu və ya çətin qavrayan şəxslər üçün səsli informasiyaya çıxışın təmini üçün də analoji qaydalar nəzərdə tutulur. Kar uşaqların təhsilində, onların ailələri və cəmiyyətlərində dil işarələrindən istifadəyə diqqət yetirilməsi isə ifadə edir ki, dil işarələrinin tərcüməsinə dair xidmətlərdən digər insanlar arasında ünsiyyətin daha da asanlaşdırılması məqsədilə istifadə edilməlidir.

Bununla yanaşı, müyəssərlik prinsipi digər beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. Belə ki, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının 2009-cu il tarixli "Asiya və Sakit okean hövzəsində hamı üçün cəmiyyətlərin inkişafı haqqında" Takayama Bəyannaməsi müyəssərliyi əlillərin və əlilliyi olmayan şəxslərin bərabər şəkildə məhsul və xidmətlərdən istifadə meyarlarının dərəcəsi baxımından müəyyən edir. Bəyannaməyə əsasən, müyəssərlik əlillərə sərbəst və müstəqil şəkildə yaşamaq imkanı verməli, eləcə də həyatın bütün aspektlərində hərtərəfli şəkildə iştirakına şərait yaratmalıdır. Yəni, əlilliyi olan şəxslər digər insanlarla birgə fiziki mühit, nəqliyyat, informasiya və rabitə vasitələri (o cümlədən informasiya və kommunikasiya texnologiyaları), həmçinin, şəhər və kənd yerlərində yaşayan əhali üçün əlyetərli olan imkan və xidmətlərdən bərabər şəkildə istifadə imkanlarına malik olmalıdır. Bundan əlavə, müvafiq beynəlxalq sənəddə müyəssərlik elementlərini özündə əks etdirən və əlillərin konkret hüquqlarının realizəsinə şərait ya-

radan terminlərə də rast gəlmək mümkündür. Nümunə qismində Bəyannamədə ehtiva olunmuş "müyəssər turizm" anlayışını göstərmək olar [11, s. 76].

Azərbaycan Respublikasının "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" 25 avqust 1992-ci il tarixli Qanununda müyəssərlik prinsipinə dair müddəaya rast gəlinməsə də, Qanunun "Sosial infrastrukturun əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara maneəsiz müyəssər olması üçün şərait yaradılması" adlı V Bölməsi müyəssərliyin bir sıra elementlərini özündə ehtiva edir. Məsələn, sosial infrastruktur obyektlərinin layihələşdirilməsi və tikintisi zamanı əlillərin və sağlamlıq imkanları məhdud uşaqların tələbatının nəzərə alınması, istifadədə olan sosial infrastruktur obyektlərinin əlillərin və sağlamlıq imkanları məhdud uşaqların istifadəsi üçün uyğunlaşdırılması, yaşayış binalarının əlillərin, sağlamlıq imkanları məhdud uşaqların müyəssər olması və istifadə etməsi üçün uyğunlaşdırılması, mədəni-tamaşa müəssisələrinin və idman qurğularının əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara müyəssər olmasının təmin edilməsi, əlillərin, sağlamlıq imkanları məhdud uşağın ailələrinin rabitə vasitələri ilə təmin edilməsi və s.

Lakin bir məsələni də unutmaq lazım deyildir ki, müyəssərlik prinsipi ilə yanaşı, ona maneə törədən hallar da adekvat şəkildə qiymətləndirilməlidir. Bu maneələr isə daha çox fiziki, informasiya, institusional və digər şəxslərin əlillərə münasibətləri ilə bağlı meydana çıxan müəyyən əngəllər kontekstində dəyərləndirilir [8, s. 37-38]. Bütövlükdə götürdükdə, həm müyəssərlik və imkanların bərabərliyi prinsipləri, həm də qeyd olunan müddəalar dövlətlərin öhdəlikləri kontekstində nəzərdən keçirilməlidir. Hətta bununla bağlı BMT tərəfindən həyata keçirilən təhlillərə uyğun olaraq, digər rəhbər başlanğıclarla qarşılıqlı əlaqə kontekstində imkanların bərabərliyi və müyəssərlik prinsipləri öz-özlüyündə müəyyən elementləri birləşdirir:

a) əlilliyi olan şəxslərin cəmiyyətdə tam şəkildə iştirak hüququnun təmin olunması, habelə onların cəmiyyətə inteqrasiyası məqsədilə bərabər sosial iştirak qismində dəyərləndirilməsi;

b) həmin kateqoriyadan olan şəxslərin ehtiyaclarının "xüsusi" mənada deyil, sosial və iqtisadi məqsədlərin ayrılmaz tərkib hissəsi kimi anlaşılması, eləcə də tam inteqrasiya, əldə etmə imkanlarının mümkünlüyü, maneəsiz fiziki və sosial mühitin formalaşdırılması zərurliyinin nəzərə alınması (məsələn, seçki prosesində əlverişli səsvermə yerlərinin və seçki hüququnun həyata keçirilməsi üçün lazımi şəraitlə, habelə asan başa düşülən və istifadə edilən formatda prosedur və materiallarla təmin edilmə və s.);

c) mövcud fərqlərə və qüsurlara hörmətlə yanaşma, qadın, kişi, qız və oğlan uşaqlarının bərabər şəraitdə tam şəkildə iştirakının təmin olunma tərzini özündə birləşdirən ictimai mühitin yaradılması;

d) digər şəxslərlə bərabər şəkildə hüquq qabiliyyətinin təmin olunması həyata ke-

çirilməsi və qərar qəbul olunması prosesində iştirak imkanlarının təmin olunması üçün psixisosial və ya əqli qüsurlara malik şəxslərə yardım göstərilməsi üçün zəruri hallarda əlavə tədbirlərin görülməsi;

e) digərləri ilə bərabər əsaslarla və insan hüquq və əsas azadlıqlarına hörmət olunmaqla əlilliyi olan şəxslər tərəfindən hər hansı fəaliyyətin həyata keçirilməsi və ya bu fəaliyyətin tanınması ilə bağlı fərqlərə, istisnalara və ya inkar etmələrə yol verilməsi (məsələn, idarə etməsinin qeyri-mümkünlüyü əsas gətirilməklə, əlil qadının bank hesabı açmasına qadağa qoyulması, həyati fəaliyyəti və iş rejimi üçün vacib olan hər hansı bədən üzvündə (göz, ayaq və s.) qüsurların mövcudluğu əsas gətirilərək, onun işlə təminatından imtina olunması və s.)

f) əlillərin şəxsi sərbəstliyinə hörmətin onların müəyyən məsələlərdə (həyatda müvafiq seçim imkanı, şəxsi həyatda müdaxilələrin minimuma endirilməsi, şəxsi qərarların qəbul olunması və s.) digərləri ilə bərabər əsaslarla iştirakının təminatında öz ifadəsini tapması;

g) əlilliyi olan şəxslərin ləyaqətinin müdafiəsi zamanı, fiziki, psixoloji və ya emosional ziyan təhdidi olmadan onların təcrübə və fikirlərinin formalaşdırılması və qiymətləndirilməsinin vacibliyi;

h) işəgötürən tərəfindən hər hansı işçinin ləyaqət və şəxsiyyətinin alçaldılması (məsələn, əmək prosesində görmə qüsuru olan şəxslərin “korlar üçün” yazılmış formadan istifadəyə məcbur etmə və s.) yolu ilə ləyaqətə hörmət vəzifəsindən imtinanın yolverilməzliyi;

i) fərqlər nəticəsində meydana çıxan müxtəlifliyə olan hörmətin qarşılıqlı anlaşma kontekstində digər insan tərəfindən qəbul olunması ilə şərtlənməsinin vacibliyi, eləcə də əlilliyin insan müxtəlifliyi və humanizm prinsipləri əsasında qəbul edilməsinin zəruriliyi;

j) bədbəxt hadisələrin qarşısının alınması ilə bağlı halların, o cümlədən sağlam uşaq doğumunun və analığın mühafiəsinin ictimai təhlükəsizlik və səhiyyə ilə adekvat şəkildə təmin edilməsi [13, s. 17-23].

Qeyd olunanları nəzərə alaraq, aşağıdakı müddəaları özündə ehtiva edən nəticələrə gəlmək olar:

1) Hər iki prinsip əlillərin hüquqlarına dair digər rəhbər başlanğıclarla qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Yəni, onların kompleks qiymətləndirilməsi və təmini əlillərin hüquqlarının qorunması və müdafiəsi üçün geniş zəmin yarada bilər.

2) Azərbaycan Respublikasının milli qanunvericiliyində əlillərin hüquqlarına dair prinsiplərin öz əksini tapmasına diqqət yetirilməlidir. Çünki əlillərin hüquqların qorunmasına yönəlmiş sahəvi milli qanunvericilik aktı sayılan “Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında” 25 avqust 1992-ci il tarixli Qanun bir sıra müddəalar, o cümlədən prinsiplərin ehtiva olunmaması baxımından 2006-cı il Konvensiyası ilə uyğunsuzluq təşkil edir. Doğrudur, müyəssərlik prinsipinin bir sıra elementlərinin təsbit olunması heç də prinsipin bütövlükdə

qanunvericilik baxımından əhatə olunması demək deyildir. Digər tərəfdən, Konvensiyada təsbit olunan digər rəhbər başlanğıcların bəzisinə isə qanunda rast gəmək qeyri-mümkündür. Şübhəsiz ki, Qanunun və Konvensiyanın qəbul tarixləri arasında fərq nisbəti də nəzərə alınmalıdır. Lakin hüququn dinamiklik funksiyası imkan verir ki, yeni qanunvericilik aktı qəbul olunmaqla, dəyişən ictimai münasibətləri tənzimləsin.

3) Yuxarıda araşdırılan imkanların bərabərliyi və müyəssərlik prinsiplərinin təkcə qanunvericilik baxımından nəzərdə tutulması məsələnin yalnız bir tərəfidir. Onun əsasını isə həmin müddəaların praktiki baxımdan realizəsi təşkil edir. Çünki dövrünün ictimai münasibətlərini tənzimləməyən hüquq normalarının "yalançı normaya" çevrilmə ehtimalı daha yüksəkdir. Eyni zamanda, mütərəqqi normanın yalnız norma olaraq qalması və onun həyata keçirilməməsi həmin normanın subyekti olan şəxslərin (o cümlədən, əlillərin) hüquqlarının pozulmasına təkan verir. Yəni, insan hüquqlarının qorunmasına dair müddəa və prinsiplərin həm normativ məzmunu, həm də onun real praktiki tətbiqi qarşılıqlı əlaqədə zəncirvari şəkildə sıx bağlılığa malik olmalıdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:**


1. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 506 s.
2. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı: "Qanun" nəşriyyatı, 2012, 368 s.
3. Rəcəbli H.M. Milli qanunvericilik bazasının əlillərin hüquqlarının təmini və müdafiəsi baxımından təkmilləşdirilməsi / Avropa Əlilliyi olan İnsanların Hüquqlarının Müdafiəsi Gününə həsr olunmuş "Əlillərin hüquqlarının müdafiəsində əlaqələndirmə və monitorinq mexanizmlərinin rolu" mövzusunda "Dəyirmi masa"nın materialları (27 aprel 2010). Bakı: 2010, s. 26-32
4. Singer H. Əlilliyi olan uşaqlar: reallıq, çətinliklər və ümidlər / "Əlilliyi olan insanlar üçün bərabər hüquqlar və bərabər imkanlar" mövzusunda keçirilmiş beynəlxalq Konfransın materialları (31 yanvar 2008-ci il). Bakı: 2008, s. 27-30
5. Лыхина Т.А. Права инвалидов: проблемы международно-правового регулирования и международные обязательства Российской Федерации. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. СПб.: 2011, 28 с.
6. Degener Th. International Disability Law – A New Legal Subject on the Rise: The Interregional Experts' Meeting in Hong Kong, December 13-17, 1999 // Berkeley Journal of International Law, 2000, Vol. 18, Issue 1, pp. 180-195
7. Halvorsen R. Introduction to the symposium: digital freedom and disability – lessons from Europe and the United States // European Yearbook of Disability Law, 2010 Vol. 2, pp. 73-76
8. Human Rights. YES! Action and Advocacy on the Rights of Persons with Disabilities. Edited by Janet E. Lord, Katherine N. Guernsey, Joelle M. Balfe & Valerie L. Karr Nancy Flowers. Human right education series. Topic Book 6. Minneapolis: Human Rights Resource Center, University of Minnesota, 2007, 308 p.
9. Fritsch C. Right to Work? A Comparative Look at China and Japan's Labor Rights for Disabled Persons // Loyola University Chicago International Law Review, 2009, Volume 6, Issue 2, pp. 403-420
10. ILO Vocational Rehabilitation and Employment (Disabled Persons) Convention (No. 159) and Recommendation (No. 168). United Nations Convention on the Rights of Persons with Disabilities. Geneva: ILO, 2008, 72 p.
11. Khoo S., Walsh C. Review 2: Scuba diving

for people with disabilities. In: Scuba Diving Tourism. Edited by Gh.Musa, K.Dimmack. London: Routledge, 2013, pp. 76-80
12. Nagata K.K. Key issues at global and regional levels in the process towards the international Convention on the rights of persons with disabilities // Asia Pacific Disability Rehabilitation Journal, Vol. 15, No. 1, 2004, pp. 36-44
13. United Nations Office of the High Commissioner for Human Rights. Monitoring the Convention on the Rights of Persons with Disabilities. New-York&Geneva: 2010, 68 p.

## ПРИНЦИПЫ РАВЕНСТВА ВОЗМОЖНОСТЕЙ И ДОСТУПНОСТИ КАК ВАЖНЫЙ ЭЛЕМЕНТ ЗАЩИТЫ ПРАВ ИНВАЛИДОВ

**САБИНА АЛИЕВА,**
**диссертант БГУ.**
e-mail: raliyeva@yahoo.com

В защите прав людей с ограниченными возможностями есть важные принципы. Эти принципы, основанные на основных принципах международного права, считаются базовыми для формирования внутригосударственной политики защиты прав людей с ограниченными возможностями. Без сомнения, принципы, изложенные в третьей статье Конвенции ООН «О правах инвалидов» 2006 года, должны быть проанализированы и учтены в других международных документах. Для обеспечение равных прав лицам с ограниченными возможностями на национальном, региональном и международных уровнях должна быть разработка и оценивание стратегий, планов, программ и просветительских мероприятий. В тоже время, нужно отдельно подчеркнуть важность проблемы инвалидности, как части соответствующей стратегии стабильного развития, а также отношение к дискриминации по признаку инвалидности, как к унижению чести и достоинства человека. Наряду с этим, должно быть учтено, что лица с ограниченными возможностями должны активно участвовать в разработке стратегий и программ по инвалидности. Поэтому государства должны добросовестно выполнять взятые на себя обязательства. В дополнение к этому, в защите прав лиц с ограниченными возможностями должны активно принимать участие неправительственные организации и другие институты гражданского общества. В тоже время, целесообразно учитывать опыт международных правовых организаций для предотвращения случаев дискриминации лиц с ограниченными возможностями. К тому же, должен быть улучшен уровень реабилитации инвалидов, и установление в обществе адекватного к ним отношения. Наряду с этим, законодательство Азербайджанской Республики должно быть приведено в соответствие с принципами Конвенции ООН «О правах инвалидов» 2006 года.

**Ключевые слова:** *инвалид, занятость, образование, медицина, доступность, равные возможности, препятствия, интеграция, реаби-*

*литация, адаптация, государственная политика, государственные органы, доступный туризм, доступность информации и коммуникации, механизм реализации.*

## PRINCIPLES OF EQUAL OPPORTUNITIES AND AVAILABILITY AS IMPORTANT ELEMENT OF PROTECTION OF THE RIGHTS OF DISABLED PEOPLE

**SABINA ALIYEVA,**
**Candidate for degree, BSU.**
e-mail: raliyeva@yahoo.com

There are important principles in protection of the rights of disabled people. These principles based on the important principles of international law are considered as basic for formation of interstate policy of protection of the rights of disabled people. Undoubtedly, the principles stated in the Article 3 of the UN Convention “Rights of persons with disabilities” of 2006 have to be analyzed and considered in other international documents. For ensuring of equal rights to disabled people on national, regional and the international levels there has to be a development and estimation of strategy, plans, programs and educational actions. At the same time, it is necessary to separately emphasize the importance of a problem of disability as parts of the corresponding strategy of stable development, and also the relation to discrimination on the basis of disability as to humiliation of honor and dignity of the person. Along with it, it has to be considered that disabled persons have to actively participate in development of strategy and programs for disability. Therefore, the states have to fulfill honestly undertaken obligations. In addition, also the non-governmental organizations and other institutes of civil society have to actively participate in protection of the rights of disabled persons. At the same time, it may be appropriate to consider experience of the international courts for prevention of cases of discrimination of disabled persons. Besides, the level of rehabilitation of disabled people and establishment in the society of the adequate relation to them has to be improved. Along with it, the legislation of the Republic of Azerbaijan has to be brought to conformity with the principles of the UN Convention “Rights of persons with disabilities”.

**Key words:** *disabled people, employment, education, medicine, availability, equal opportunities, obstacles, integration, rehabilitation, adaptation, state policy, government bodies, available tourism, availability of information and communication, realization mechanism.*

# İNSAN HÜQUQLARİNİN VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA AVROPA KONVENSİYASININ 5-ci MADDƏSİNİN 1-ci BƏNDİNİN MƏQSƏDLƏRİ ÜCÜN «QANUNİLİK», «HÜQUQİ MÜƏYYƏNLİK» VƏ "ƏSASLI ŞÜBHƏ" ŞƏRTLƏRİ

**Qarayeva M.C.,**
**Baki şəhər Sabunçu Rayon Məhkəməsinin hakimi.**
e-mail: meqiqar@yandex.com

*Məqalədə müəllif tərəfindən İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 5-ci maddəsinin 1-ci bəndinin məqsədləri üçün "qanunilik", "hüquqi müəyyənlik" və "əsasli şübhə" şərtləri mövzusuna dair məsələ nəzərdən kecirilir.*

**Əsas sözlər:** insan hüquqları, əsas azadlıqlar, qanunilik, hüquqi müəyyənlik, əsaslı şübhə, məhkəmə, cinayət, qanunvericilik.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qeyd edir ki, Konvensiyanın 5-ci maddəsi əsas hüququ, konkret olaraq şəxsin dövlətin onun hüquq və ya azadlığına qanunsuz müdaxiləsindən qorunmasını təsbit edir. 5-ci maddənin 1-ci bəndi "azadlıq hüququnu" təsbit etməklə şəxsin fiziki azadlığını ehtiva edir. Onun məqsədi heç kəsin qanunsuz olaraq azadlıqdan məhrum edilməməsini təmin etməkdir. Bu norma hərəkət azadlığının adi məhdudlaşdırılması hallarına tətbiq edilmir. Belə məhdudiyyətlərə 4 saylı Protokolun 2-ci maddəsi tətbiq olunur (1, 2).

Məhkəmə bildirir ki, 5-ci maddə təməl insan hüququnu, yəni şəxsin azadlıq hüququna dövlətin əsassız müdaxiləsinə qarşı şəxsin müdafiəsini təsbit edir (3). 5-ci maddənin 1-ci bəndinin (a)-(f) yarımbəndlərində şəxsin azadlıqdan məhrum edilməsinə imkan verən əsasların tam siyahısı verilir və bu əsasların siyahısına düşməyən azadlıqdan məhrumetmə qanuni deyil (4).

Lakin Konvensiya anlamında azadlıqdan məhrum etmə tutulma və ya ittiham hökmündən sonra həbslə nəticələnən klassik hallarla məhdudlaşmır və digər formalara malik ola bilər (5).

Azadlıqdan məhrumetmə faktının baş verib-vermədiyini müəyyənləşdirmək üçün başlanğıc məsələ kimi müvafiq şəxsin konkret vəziyyəti götürülməli və konkret işdə ortaya çıxan bütün amillər, sözügedən tədbirin növü, müddəti, nəticələri və tətbiqi qaydası nəzərə alınmalıdır.

Məhkəmə bütövlükdə vətəndaşlar üçün qoyulan və 5-ci maddənin tətbiq edilmədiyi ümumi məhdudiyyətlərlə konkret fərd üçün qoyulan və 5-ci maddənin tətbiq edildiyi məhdudiyyətləri fərqləndirir. Şəxslərin yaşayış yerlərini hakimiyyət orqanlarında qeydiyyata aldırmaları, yol hərəkəti qaydalarına əməl etmələri barədə tələblər və s. 5-ci maddənin qüvvəsi altına düşməyən

ümumi xarakterli məhdudiyyətlərin tərkib hissəsidir. Azadlığa qoyulan bəzi ümumi məhdudiyyətlər, məsələn, fövqəladə vəziyyət şəraitində tətbiq edilən komendant saatı da bu kateqoriyaya aiddir. Həbsxana daxilində tətbiq edilən həbs şəraitinə təsir edən intizam tədbirləri də azadlıqdan məhrum edilmə hesab edilmir. Normal hallarda belə tədbirlərə qanuni həbs şəraitinin dəyişdirilməsi kimi baxılmalıdır və bu, Konvensiyanın 5 § 1-ci maddəsinin tətbiq dairəsinə aid deyil *(Bollan Birləşmiş Krallığa qarşı).*

Bununla yanaşı, hakimiyyət orqanları şəxsi həbsxanada, polis kamerasında və ya başqa yerdə saxlayarkən və onu məhdud fiziki məkanda qalmağa məcbur edərkən Məhkəmə bu halda 5-ci maddəni tətbiq edir. Bu cür məhdudiyyətlər Konvensiya baxımından azadlıqdan məhrumetməni bildirsə də, tutulmanın qanuniliyi qiymətləndirilərkən ilk növbədə yol verilən əsaslar və prosessual hərəkətlər nəzərə alınır.

Məsələn, Enelin işində (6) ərizəçilər, yüngül həbs və ağırlaşdırıcı həbs şəraiti daxil olmaqla, hərbi intizam cəzasına məruz qalmışlar, lakin həmin şərait ərizəçilərin adi hərbi borclarını yerinə yetirmələrinə mane olmurdu. Məhkəmə qərara gəldi ki, bütövlükdə hərbi qulluq və ərizəçilərə təyin edilən cəza onların hərəkət azadlığını məhdudlaşdırsa da, bu məhdudiyyətlər 5-ci maddə baxımından azadlıqdan məhrumetmə sayılmaq üçün o qədər də sərt deyildi. Lakin ciddi həbs təyin edilməsinə gəldikdə, Məhkəmə qərara gəldi ki, azadlıqdan məhrumetmə 5-ci maddənin tələbi baxımından kifayət qədər sərt olub.

Bir çox hallarda Məhkəmə 5-ci maddəni konkret faktlar toplusuna tətbiq etməyin mümkünlüyü ilə razılaşmır. Nilsenin işi (7) on iki yaşlı oğlanın, öz iradəsi əleyhinə, anasının xahişilə psixiatriya şöbəsinə salınmasına aid idi. Komissiya bu nəticəyə gəldi ki, ərizəçinin həmin şöbədə öz otağı olsa da və ona qısa müddətdə evdə olmağa və məktəbə getməyə icazə verilsə də, ərizəçinin iradəsinin əleyhinə olaraq şöbəyə yerləşdirilməsi istər saxlanmaya haqq qazandırmaq üçün gətirilən mühüm əsaslar baxımından, istərsə də ərizəçinin bu cür saxlanmaya etiraz etməsinin mümkünsüzlüyü baxımından Konvensiya ilə qadağan edilən azadlıqdan məhrumetmə idi. Lakin Məhkəmə bu nəticəyə gəldi ki, uşağın xəstəxanaya yerləşdirilməsi "uşağın maraqları naminə onun anası tərəfindən qəyyumluq hüquqlarının məsuliyyət daşımaqla həyata keçirilməsi" oldugundan 5-ci maddə tətbiq edilə bilməz.

Nəzərə almaq lazımdır ki, azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması arasındakı fərq mahiyyətlə deyil, sadəcə intensivlik dərəcəsi ilə bağlı məsələdir (7, 8, 9, 10).

Belə ki, Bloxin Rusiyaya qarşı (11) iş üzrə ərizəçinin otuz gün müddətində qapalı olan həbs müəssisəsinə yerləşdirilməsi və icazə olmadan oranı tərk etməməsi üçün nəzarətdə saxlanılması, orada nəzarət buraxılış məntəqəsinin və məhbusların qaçmasının qarşısının alınması üçün həyacan siqnalının olması, məhbusların çox ciddi, demək olar daimi nəzarət altında olması, daxil olanda onların ciddi axtarışa məruz qalması və onların bütün əşyalarının mü-

sadirə edilməsi, intizam növbə qrupları tərəfindən təmin edilməsi və pozuntuların intizam sanksiyaları ilə cəzalandırılması kimi elementləri müəyyən etmiş Avropa Məhkəməsi azadlıqdan məhrum etmənin açıq göstərdiyini qeyd etdi.

Məhkəmə qeyd edir ki, zahiri görüntülərin arxasına nəzər salınmalı və barəsində şikayət edilən vəziyyətin reallıqları araşdırılmalıdır. (12).

Belə ki, Fərhad Əliyev (Farhad Aliyev) Azərbaycana qarşı (13) işdə Məhkəmə qeyd etdi ki, şikayətçi MTN-in binasında daxil olduqdan sonra onun əlləri qandallanmasa da, o, bağlı kameraya salınmasa da, yaxud hərəkətləri fiziki cəhətdən hər hansı digər formada məhdudlaşdırılmasa da, orada onu MTN-in yüksək vəzifəli iki əməkdaşı müşayiət edirdi və içəriyə daxil olduqdan sonra oranı tərk etməkdə daha sərbəst deyildi. Bundan başqa, şikayətçinin ailəsini onun həbsi barədə məlumatlandıran məktub onun həbsi barədə rəsmi protokolun tərtib edilməsindən bir neçə saat əvvəl göndərilmişdi. O, MTN-in binasına gətirildikdən sonra bir neçə saat ərzində dindirilməmişdi və buna görə də, iddia etmək olmazdı ki, həmin müddətdə onun orada olmasını şahid qismində dindirilmək üçün gəlmək vəzifəsi tələb edirdi (14). Hökumət şikayətçinin faktiki həbsinin vaxtını şübhə altına alsa da, görünür, şikayətçinin MTN-in binasına daxil olduğu andan faktiki olaraq azadlıqdan məhrum edildiyini qəbul edib, yaxud istənilən halda, buna açıq etirazını bildirməyib. Məhkəmə hesab etdi ki, 19 oktyabr 2005-ci ildə təxminən saat 14-dən başlayaraq dövlət orqanları açıq-aydın şikayətçini həbsə alınmış şəxs hesab ediblər və o, 5-ci maddənin 1-ci bəndində nəzərdə tutulan mənada "azadlıqdan məhrum edilib".

Məhkəmə hesab edir ki, hətta şəxs özü həbsxanaya salınmasını istədikdə belə, azadlıq hüququ onun 5-ci maddənin təmin etdiyi müdafiədən yararlanmaqdan məhrum edilməsinə yol verməyəcək dərəcədə vacib hüquqdur (15).

Belə ki, [Eldar] Salayev (Salayev) Azərbaycana qarşı (16) işdə Məhkəmə qeyd etdi ki, şikayətçi dindirilmək üçün könüllü gəlmişdi. Şikayətçinin MTN-in binasına gəlişindən sonra baş vermiş hadisələrə gəldikdə, şikayətçinin dindirilməsi və üzləşdirilməsi barədə hər hansı protokol olmadığına, yaxud onun MTN-in binasına gəlişindən sonra hər hansı prosessual hərəkətlər həyata keçirilmədiyinə görə bu hadisələrin dəqiq hallarını müəyyən etmək çətindir. Məhkəmə daha sonra qeyd etdi ki, şikayətçinin qolları qandallanmasa da, o, qapalı kameraya salınmasa da və ya hər hansı başqa formada fiziki məhdudiyyətlərə məruz qalmasa da, görünür, ailə üzvləri ilə və ya özünün seçdiyi vəkillə əlaqə yaratmaq imkanına malik olmayıb. Bu məsələ ilə bağlı Məhkəmə Hökumətin belə bir arqumentini qəbul edə bilmədi ki, şikayətçi şahid otağında yerləşdirilib və həmin otaqda telefon xətti olub. Hadisələrin bu fərziyəsi şikayətçinin dövlət tərəfindən təyin olunmuş vəkillə təmin olunması faktına və onun vəziyyəti ilə bağlı həmin vəkilin qeydlərinə ziddir. Hökumət həm də öz arqumentini təsdiqləyən hər hansı sübut təqdim etməmişdi. Məhkəmə həmçinin bu arqumenti

də qeyri-real hesab etdi ki, şikayətçinin şübhəli şəxs qismində qırx səkkiz saat müddətinə həbsə alınması barədə protokol tərtib edilənə qədər şikayətçi MTN-in binasını tərk etməkdə sərbəst olub. Konkret olaraq, şikayətçi MTN-in binasını tərk etməkdə həqiqətən sərbəst idisə, şikayətçinin hər hansı səbəb olmadan nəyə görə saat 14.30-dan 17.10-dək (dindirmənin başa çatdığı vaxtdan üzləşdirmənin-başlandığı vaxtadək olan dövr) MTN-in binasında qaldığına dair ağlabatan izahat təqdim edilməmişdi. Buna görə, Məhkəmə hesab etdi ki, 27 oktyabr 2005-ci ildə təxminən saat 10-dan şikayətçi 5-ci maddənin 1-ci bəndində nəzərdə tutulan mənada "azadlıqdan məhrum edilib".

Məhkəmə qeyd edir ki, 5-ci maddənin 1-ci bəndi ərizəçilərin üzərində çox qısa, otuz dəqiqədən artıq olmayan müddətdə axtarış aparılması (17) və ya qırx beş dəqiqədən artıq olmayaraq polis şöbəsində saxlanılması (18) ilə bağlı olan azadlıqdan məhrumetmə hallarına da tətbiq oluna bilər.

Bununla əlaqədar olaraq Məhkəmə göstərir ki, hərəkətin hansı kontekstdə edilməsi nəzərə alınmalı olan mühüm amildir. Belə ki, müasir cəmiyyətdə insanların ümumi maraqlar naminə hərəkət və ya azadlığının məhdudlaşdırılmasına dözməyə dəvət olunduqları hallara tez-tez rast gəlinir (bax: yuxarıda qeyd edilmiş "Ostin və Digərləri" işi). Bu baxımdan sərnişin təyyarə ilə səfər etməyi seçən zaman bir sıra təhlükəsizlik məqsədilə yoxlamaların aparılmasına razılığını vermiş olur. Bu təhlükəsizlik yoxlamaları xüsusilə şəxsiyyəti təsdiq edən sənədlərin yoxlanılmasını və ya baqajda axtarış aparılmasını, həmçinin şəxsiyyətinin müəyyən edilməsi üçün əlavə yoxlamanın aparılması və ya uçuşa təhlükə yaratmadığını müəyyən edilməsi üçün gözləməni əhatə edə bilər. Məhkəmə bu baxımdan qəbul edir ki, sərnişin vəziyyətin aydınlaşdırılması üçün sərhəd xidmətinin əməkdaşları tərəfindən aeroportda sərhəd nəzarətindən keçən zaman saxlanıldıqda və bu saxlama sırf müvafiq formallıqların başa çatdırılması üçün zəruri olan müddətdən artıq deyildirsə, Konvensiyanın 5-ci maddəsi ilə bağlı məsələ ortaya çıxmır. Buna görə də, Məhkəmə hər bir oxşar işdə ərizəçinin aeroportda saxlanmasının sırf vəziyyətin aydınlaşdırılması ilə bağlı müvafiq formallıqların başa çatdırılması üçün zərurı olan müddətdən artıq olub-olmadığını müəyyənləşdirmək üçün ərizəçinin saxlanma şəraitini araşdırır.

Belə ki, Adil Soltan oğlu Qəhrəmanov Azərbaycana qarşı (19) işdə ərizəçi sərhəd nəzarətindən keçən zaman adı Dövlət Sərhəd Xidmətinin (DSX) məlumat bazasında "saxla" statusu altında olduğundan saxlanılmış, onun ölkəni tərk etməsinə icazə verilməmiş və o, vəziyyətin aydınlaşdırılması üçün xidməti otağa aparılmışdır. Ərizəçinin dövlət sərhədindən keçməsinin qarşısının alınması barədə protokol tərtib edilmiş və onun baqajı DSX-nin əməkdaşları tərəfindən yoxlanılmışdır. Onu əlləri qandallanmamış və xüsusi saxlama kamerasına salınmamışdır. Lakin ərizəçinin DSX-nin xidməti otağında olan zaman otaqdan sərbəst çıxa bilmək imkanının olmadığı barədə tərəflər arasında mübahisə

yoxdur. Tərəflər eyni zamanda mübahisə etmirlər ki, vəziyyətin aydınlaşdırılmasından sonra ərizəçi dərhal DSX-nin xidməti otağından buraxılmışdır və o, bundan sonra aeroportu sərbəst tərk edə bilərdi. Ərizəçinin DSX-nin xidməti otağında ümumi qalma müddəti dəqiq olaraq məlum olmasa da, ərizəçinin saxlanmanın təxminən dörd saat, Hökumətin isə yalnız təxminən iki saat davam etməsi barədə məlumatlarından belə aydın olur ki, o, bir neçə saatdan artıq çəkməmişdir.

Hətta ərizəçinin dediklərinin düzgün olduğu güman edilsə belə, Məhkəmə qət etdi ki, heç nə ərizəçinin DSX-nin xidməti otağında saxlanmasının onun baqajının yoxlanılması və vəziyyətin aydınlaşdırılması məqsədilə müvafiq inzibati formallıqların yerinə yetirilməsi üçün sırf zəruri olan müddətdən artıq davam etdiyini sübut etmir.

Məhkəmə bununla bağlı qeyd etdi ki, hazırkı işdə DSX-nin əməkdaşı ərizəçini saxlayan zaman əsaslı olaraq inanmışdır ki, ərizəçinin şəxsiyyətı ilə bağlı əlavə yoxlama aparılmasma ehtiyac vardır. Belə ki, inzibati səhv nəticəsində olsa da, ərizəçinin adı DSX-nin məlumat bazasında "saxla" statusu altında yerləşdirilmişdir. Müəyyən edilmişdir ki, DSX ərizəçini yalnız əlavə yoxlamanın aparılması üçün zəruri olan müddətə saxlamışdır. Axtarış aparıldıqdan və vəziyyəti araşdırıldıqdan sonra o, aeroportu sərbəst tərk edə bilərdi. Xüsusilə ərizəçinin sırf axtarışların aparılması və müvafiq inzibati formallıqlara əməl olunması üçün zəruri olan vaxtdan artıq müddətə DSX-nin xidməti otağında qalmağa məcbur edildiyi sübuta yetirilməmişdir (20).

Məhkəmə daha sonra qeyd etdi ki, sərhəd nəzarətindən sonra ərizəçinin Rusiya ərazisinə girməsindən imtina edildiyi, Şeremetyevo aeroportunda tranzit zonasında olan otağa salındığı və burada gecələdiyi Nolan və K.Rusiyaya qarşı (21) işindən fərqli olaraq hazırkı işdə ərizəçi vəziyyətinin aydınlaşdırılmasından sonra dərhal aeroportu sərbəst şəkildə tərk edə bilərdi. Buna görə də Məhkəmə hesab etdi ki, sərhəd xidmətinin ölkəni tərk etməyə icazə verməməsindən sonra ərizəçinin DSX-nin xidməti otağında saxlanması Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin mənasında azadlıqdan məhrumetmə hesab olunmur.

Bu işdən fərqli olaraq Riad və İdiab Belçikaya qarşı (22) iş üzrə ərizəçilər fələstinli vətəndaşları Belçikanın Brüssel Milli hava limanına enmislər. Onlar bildirmişlər ki, həyatları təhlükədə olan Livandan gəliblər. Vizanın olmamasını nəzərə alaraq, onlara Belçikaya daxil olmaq icazəsi verilməmiş və onlar dərhal hava limanının daxilində olan tranzit mərkəzə yerləşdirilmişlər. Onlar sığınacaq üçün ərizə vermişlər və 2003-cü ilin yanvarın sonlarında qeyri-müəyyən vəziyyətdə olan əcnəbilər üçün qapalı mərkəzə köçürülmüşlər. Bu zaman maraqlı şəxslərin vəkili məhkəmənin təmin etdiyi azadlığa buraxılma barədə ərizə vermişdir. Buna baxmayaraq, həmin gün onlar çıxarılmalarının gözlənilməsi ilə Brüssel Milli hava limanının tranzit zonasına köçürülmüşlər. Ərizəçilər tranzit zonasında saxlandıqları şəraiti izah edirlər: orada hər hansı otaq və yataq yeri olmayıb və onlar

orada yerləşən məciddə qalıblar; onlar bir neçə gün yemədən və içmədən və yalnız xidmətçi personaldan və ya hava limanını idarə edənlərdən yemək almaqla orada qalıblar; onların tualetə getmək və ya paltarlarını yumaq imkanı olmayıb; onlar çox vaxt hava limanının polisinin nəzarəti altında olublar, bir neçə dəfə tək nəfərli kameralara yerləşdiriliblər və öz arzuları ilə ölkədən çıxarılmanı qəbul etdirmək məqsədi ilə bir neçə saat yemək və içmək verilmədən saxlanılıblar, sonradan tranzit zonasına veriliblər. Ərizəçilərlə bağlı 14 fevral 2003-cü ildə Məhkəmə Belçika Dövlətinə tapşırıb ki, ərizəçiləri azad buraxsın və tranzit zonanı məhdudlaşdırmadan hər saata görə cərimə olaraq 1.000 € müəyyən edib. Ertəsi gün maraqlı şəxslər bu yerləri tərk etmişlər, lakin, şəxsiyyəti yoxlayandan sonra onlar ərazini tərk etmək qaydası barədə məlumatlandırılıb və dərhal qeyri-müəyyən vəziyyətdə olan əcnəbilər üçün başqa mərkəzə yerləşdirilmişlər. 2003-cü ilin mart ayının əvvəlində ərizəçilər polislərin müşayiəti altında Beyrut reysi ilə ölkədən çıxarılmışlar.

Məhkəmə göstərdi ki, ərizəçilərin tranzit zonasında saxlanılması onların ölkəyə daxil olmalarına aid deyildir, lakin, bir aydan artıq müddətdən sonra, o, açıq-aydın şəkildə onların azadlığa buraxılmasına dair qanuni qüvvəyə minmiş qərarlardan sonra davam edib. Bundan başqa, qeyri-müəyyən müddətə qərara alınan saxlanılma müvafiq olaraq iki həftə və on bir gün müddətində davam edib. Faktiki olaraq bu saxlanılma azadlıqdan məhrumetməyə bərabər olub. Ərizəçilər üçün öz arzuları ilə ölkəni tərk etmək imkanı özlüyündə azadlıqlarına müdaxiləni istisna edə bilməzdi. Daxili məhkəmə bu vəziyyəti qanunsuz və hüquqi dövlətə zidd hesab edib.

Məhkəmənin presedent hüququna görə, bir tərəfdən, azadlıqdan məhrum olunması üçün istinad olunan əsasla, digər tərəfdən, saxlanılmanın yeri və rejimi ilə əlaqə mövcud olmalıdır. Beləliklə, ərizəçilər, hər hansı humanitar və sosial müşayiət olmadan qalmaq üçün zəruri şəraiti olmayan həmin transit zonasında saxlanılmışlar. Bu mənada, həmçinin, nəzərə alınmalıdır ki, saxlanılmanın bu tədbirləri ölkədə olmaqla bağlı olmayan digər hallardan irəli gələn hüquq pozuntularına görə əcnəbi vətəndaşlara tətbiq edilirdi. Hökumət izah edə bilmədi ki, tranzit zonaya keçirilmə və orada saxlanılma hansı qanuna əsaslanırdı.

Məhkəmə qeyd etdi ki, konkret qanun müddəasına və ya qüvvədə olan məhkəmə qərarına və əlaqənin çətinliklərini görən konkret hüquqi müşayiətə icazə verən məhdudlaşdırılmış məhkəmə nəzarətinə əsaslanmadan nəzərdə tutulmamış və qeyri-müəyyən müddət ərzində fərdin «saxlanılması» faktı hüquqi təminat prinsipinə ziddir. Beləliklə də iş üzrə Konvensiyanın müddəaları pozulmuşdur.

Məhkəmə bildirir ki, Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndindəki "qanuni" və "qanunla müəyyən olunmuş qaydada" ifadələri mahiyyətcə milli qanunvericiliyə istinadı bildirir və oradakı maddi-hüquqi və prosessual normalara riayət etmək öhdəliyini bəyan edir. Daxili qanunvericiliyi şərh və tətbiq etmək ilk növbədə dövlət orqanlarının, xüsusən məhkəmələrin işi olsa da, həmin qanunvericiliyə riayət edil-

məməsi Konvensiyanın pozuntusuna səbəb olduğu hallarda, Məhkəmə milli qanunvericiliyə riayət edilib-edilmədiyini yoxlamaq üçün müəyyən səlahiyyətlərini tətbiq edə bilər (23).

Bununla yanaşı, «qanunilik» şərti təkcə milli qanunvericiliyin maddi və prosessual hüquq normalarının uyğunluğunu deyil, bütövlükdə 5-ci maddədə nəzərdə tutulmuş və şəxsi özbaşınalıqdan müdafiə edən məhdudiyyətlərin məqsədəuyğunluğunu nəzərdə tutur (24, 25, 26).

Həbsdə saxlanmanın müddəti məhkəmə qərarına əsaslanırsa, prinsipcə, “qanuni” hesab edilir (27).

Məhkəmə vurğulayır ki, söhbət azadlıqdan məhrumetmədən gedirsə, ümumi prinsip olan hüquqi müəyyənlik prinsipinə riayət edilməsi xüsusilə vacibdir. Buna görə də, azadlıqdan məhrumetmənin Konvensiyada nəzərdə tutulan qanunilik standartına cavab verməsi üçün daxili qanunvericilikdə nəzərdə tutulmuş azadlıqdan məhrumetmə şərtlərinin aydın müəyyən edilməsi və qanunun tətbiqinin nəticələrini öncədən görməyin mümkün olması önəmlidir. Həmin standart tələb edir ki, bütün qanunlar şəxsin hər hansı konkret hərəkətin doğuracağı nəticələri mövcud şəraitdə ağlabatan dərəcədə öncədən görə bilməsinə imkan yarada bilmək üçün kifayət qədər aydın olmalıdır (28).

Məhkəmə hesab edir ki, daxili qanunvericiliyə uyğunluq özlüyündə yetərli deyil: 5-ci maddənin 1-ci bəndi tələb edir ki, bununla yanaşı, azadlıqdan məhrumetmə həm də 5-ci maddənin məqsədinə, yəni fərdləri özbaşınalıqdan müdafiə etmək məqsədinə uyğun olsun. Burada önəmli olan təkcə "şəxsin azadlıq hüququ deyil", həm də "toxunulmazlıq hüququ"dur (29, 30). Bu bir təməl prinsipdir ki, heç bir əsassız həbs 5-ci maddənin 1-ci bəndinə uyğun ola bilməz və 5-ci maddənin 1 -ci bəndində nəzərdə tutulan əsassız həbs anlayışı həbsin milli qanunvericiliyə uyğun olmaması anlayışının hüdudlarından кənara çıxır, belə ki, azadlıqdan məhrumetmə daxili qanunvericilik baxımından qanuni olsa belə, əsassız ola və deməli, Konvensiyaya zidd ola bilər (31, 32).

Bununla bağlı Məhkəmə ümumi prinsiplərə istinad edərək bildirir ki, adətən şəxsi azadlıqdan məhrum etmək səlahiyyətinə malik olan dövlət orqanlarından gözlənilir ki, onunla davranışlarında vicdanla hərəkət edəcəklər. Belə ki, fərdi onun fiziki azadlığından məhrum etmək və ya buna hər hansı digər şəkildə təsir göstərmək niyyəti hadisələrin normal axarında dövlət orqanları tərəfindən gizlədilməməlidir və ehtiyac olduqda həmin fərdin ixtiyarında dövlət orqanlarının hərəkətlərinə etiraz etməyə və öz azadlığını qorumağa yönələn qanuni hüquqi müdafiə vasitələri olmalıdır (33, 34, 35).

Hətta şəxsin faktiki həbsə alınması ilə onun həbsə alınmış şəxs qismində statusunun rəsmiləşdirilməsi arasında qısa müddətli fasilənin mümkünluyünü (36) və işdə şəxsə qarşı əsaslı şübhənin olduğunu fərz etsək belə, Məhkəmə bir faktı nəzərdən qaçıra bilmir ki, şəxs onun həbsə alınmış şəxs qismində statusunu təsdiqləyən rəsmi qərar olmadan bir neçə saat azadlıqdan məhrum edilib, açıq-aydın vəkil yardımı

ala bilməyib, ailəsinə dərhal məlumat vermək imkanından məhrum olub, yaxud şəxsi azadlığı və toxunulmazlığı ilə bağlı onda hər hansı müəyyənlik hissi olmayıb (bununla bağlı CPM-in 90, 91 və 153.2-ci maddələrinin tələblərinə bax). Bu mülahizələri nəzərə alaraq, Məhkəmə hesab edir ki, şəxsin həbsinin halları və həbsdə saxlanıldığı ilk saatlar əsassız həbsə alma əlamətlərinə aiddir.

Məhkəmə qeyd edir ki, şəxsin cinayət törətdiyinə dair əsaslı şübhə olduqda daxili qanunvericilik hüquq-mühafizə orqanlarına məhkəmə qərarı olmadan şübhəli və ya təqsirləndirilən şəxsi tutaraq həbsə almaq, ona qarşı cinayət işinə başlamaq və onu həbsdə saxlanmanın davam etdirilməsi barədə qərar çıxarmaq səlahiyyətinə malik olan hakimin yanina gətirmək səlahiyyəti verir.

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ İQTİBASLARİN SİYAHISI


1. Creanga v. Romania, § 92; www.coe.int
2. Engel and Others v. the Netherlands, § 58, www.coe.int
3. Aksoyun işi üzrə qərar, 76-cı bənd, www.coe.int
4. Saadi Birləşmiş Krallığa qarşı [Böyük Palatanın qərarı], ərizə № 13229/03, 43-cü bənd, AİHM 2008-..
5. Quzzardi İtaliyaya qarşı, § 95, www.coe.int
6. www.coe.int
7. Nilsenin işi, www.coe.int
8. Quzzardi İtaliyaya qarşı iş (Guzzardi v. Italy, 6 November 1980, § 92, Series A no. 39).
9. Ostin və digərləri Birləşmiş Krallığa qarşı (Austin and Others v. The United Kingdom [GC], nos. 39692/09, 40713/09 and 41008/09, § 57, ECHR 2012).

10 Adil Soltan oğlu Qəhrəmanov Azərbaycana qarşı, 26291/06 nömrəli ərizə, Qərardad, 2013-cü il 15 oktyabr.

11. Bloxin Rusiyaya qarşı (14.11.2013-cü il tarixli Qərar (I Bölmə), Blokhin v. Russia, no. 47152/06, İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin Bülleteni, 9/2013).
12. Van Droogenbrok (Van Droogenbroeck) Belçikaya qarşı, 24 iyun 1982-ci il, 38-ci bənd, A Seriyaları, № 50.
13. Fərhad Əliyev (Farhad Aliyev) Azərbaycana qarşı (Şikayət 37138/06, qərar, 9 noyabr 2010-cu il).
14. İliya Stefanov (Iliya Stefanov) Bolqarstana qarşı, № 65755/01, 71-75-ci bəndlər, 22 may 2008-ci il.
15. De Vilde, Ooms və Versip (De Wilde, Ooms and Versyp) Belçikaya qarşı, 18 iyun 1971-ci il, 65-ci bənd, A Seriyaları, № 12.
16. Salayev (Salayev) Azərbaycana qarşı (Şikayət № 40900/05, Qərar, 9 noyabr 2010-cu il).
17. Qillan və Kinton Birləşmiş Krallığa qarşı (Gillan and Quinton v. the United Kingdom, no. 4158/05. § 57, ECHR 2010.
18. Şimovolos Rusiyaya qarşı Şimovolos Rusiyaya qarşı (Shimovolos v. Russia, no. 30194/09. §§ 48-50, 21 June 2011).
19. Adil Soltan oğlu Qəhrəmanov Azərbaycana qarşı işdə (Qərardad, 26291/06 nömrəli ərizə, 2013-cü il 15 oktyabr, Insan Hüquqları Üzrə Avropa Məhkəməsinin Bülleteni, 9/2013).
20. Foka Türkiyəyə qarşı (Foka v. Turkey), no. 28940/95, § 77, 24 June 2008.
21. Nolan və K. Rusiyaya qarşı (Nolan and K. v. Russia), no. 2512/04, §§ 20-26, 12 February 2009.
22. Riad və İdiab Belçikaya qarşı (24.01.2008-ci il tarixli Qərar (I Bölmə), Riad and İdiab v. Belgium, № 29787/03, 29810/03, İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin Bülleteni, 3/2008).
23. Duiyeb (Douiyeb) Niderlanda qarşı [Böyük Palatanın qərarı], № 31464/96, 44-45-ci bəndlər, 4 avqust 1999-cu il.
24. Vinterverp Niderlanda qarşı, 24 oktyabr 1979-cu il tarixli qərar.
25. Bumar Belçikaya qarşı qərar.
26. Lobanov Rusiya Federasiyasına qarşı (Şikayət № 16159/03, qərar, 16 oktyabr 2008-ci il).
27. Benhem (Benham) Birləşmiş Krallığa qarşı,

10 iyun 1996-cı il, 42-ci və sonrakı bəndlər, Qərar və Qərardadlar Toplusu, 1996-III.
28 Baranovski (Baranowski) Polşaya qarşı, № 28358/95, 51-52-ci bəndlər, AİHM 2000-III, əlavə istinadlarla.
29. Botsano (Bozano) Fransaya qarşı, 18 dekabr 1986-cı il. 54-cü bənd, A Seriyaları, № 111.
30. Vassink (Wassink) Niderlanda qarşı, 27 sentyabr 1990-cı il, 24-cü bənd, A Seriyaları, № 185-A.
31. Saadi (Saadi) Birləşmiş Krallığa qarşı [Böyük Palatanın qərarı], № 13229/03, 67-ci bənd, AİHM 2008.
32. Fərhad Əliyev (Farhad Aliyev) Azərbaycana qarşı, şikayət 37138/06, qərar, 9 noyabr 2010-cu il.
33. mutatis mutandis, Копка (Сопка) Belçikaya qarşı, № 51564/99, 41-42-ci bəndlər, AİHM 2002-1 Botsanonun (Bozano) işi üzrə yuxanda adı çəkilən qərar, 55-ci bənd
34. Botsanonun (Bozano) işi üzrə yuxanda adı çəkilən qərar, 55-ci bənd
35. mutatis mutandis, Giorgi Nikolaişvili (Giorgi Nikolaishvili) Gürcüstana qarşı № 37048/04, 53-cü bənd, AIHM 2009-Əlavə istinadlarla)
36. müqayisə et, mutatis mutandis: I.I. (I.I.) Bolqarıstana qarşı, № 44082/98, 90-cı bənd, 9 iyun 2005-ci il.

## УСЛОВИЯ «ЗАКОННОСТЬ» , «ПРАВОВАЯ ОПРЕДЕЛЁННОСТЬ» И «ОСНОВАТЕЛЬНОГО СОМНЕНИЯ» ДЛЯ ЦЕЛЕЙ ПУНКТА 1-го 5-ой СТАТЬИ ЕВРОПЕЙСКОЙ КОНВЕНЦИИ О ЗАЩИТЕ ПРАВ И ОСНОВНЫХ СВОБОД ЧЕЛОВЕКА

**Гараева М.Дж.,**
**судья Сабунчинского Районного Суда города Баку.**
e-mail: meqiqar@yandex.com

В статье автором рассматривается вопрос об условиях «законности», «правовой определённости» и «основательного сомнения» для целей пункта 1 статьи 5 Европейской Конвенции о Защите Прав и Основных Свобод Человека.

**Основные слова:** *права человека, основные свободы, законность, правовая определённость, основательные сомнения, суд, преступление , законодательство.*

## CONDITIONS OF THE"LEGALITY", "RIGHT OF DEFINITION" AND "SUBSTANTIAL DOUBT" FOR THE PURPOSES OF 1ST PARAGRAPH OF THE 5THARTICLE OF THE EUROPEAN CONVENTION FOR THE PROTECTION OF HUMAN RIGHTS AND FUNDAMENTAL FREEDOMS

**Qarayeva M.J.,**
**Judge of the Sabunchu district court of Baku.**
e-mail: meqiqar@yandex.com

In the article the author is considered the question conditions of "legality", "right of definition" and of "substantial doubt" for the purposes of 1ST paragraph of 5TH article of the European Convention for the Protection of Human Rights and Fundamental Freedoms.

**Key words:** *human rights, fundamental freedoms, legality, right of definition, substantial doubt, court, crime, legislation.*

# DİNİ QURUMLARIN MÜLKİ HÜQUQ QABİLİYYƏTİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

**SİMRAN HƏSƏNOV,**
**hüquq üzrə fəlsəfə doktoru, AMEA Fəlsəfə və Hüquq İnstitutunun doktorantı, Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri.**
e-mail: simran.hasanov@hotmail.com.

*Məqalədə dini qurumların mülki hüquq qabiliyyətinin bəzi özünəməxsus xüsusiyyətləri, o cümlədən onun hüquqi əsasları və məzmunu ilə bağlı nəzəri problemlərə toxunulur. Hüquq qabiliyyətinin müəyyən edilməsində təsis sənədlərinin əhəmiyyəti qeyd olunsa da bu zaman qanunvericilik aktlarının göstərişlərinin nəzərə alınmasının vacibliyi də bildirilir. Dini qurumların hüquq qabiliyyəti ilə bağlı hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi üçün qanunvericilik aktlarina bəzi dəyişiklik və əlavələr də təklif edilir.*

**Açar sözlər:** dini qurumlar, hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti, qeyri-kommersiya təşkilatları, təsis sənədləri.

Mülki hüququ nəzəriyyəsində və hüquqtətbiq təcrübəsində dini qurumların mülki hüquq qabiliyyəti ilə bağlı mütəmadi olaraq diskussiyalar yaranır. Bu, ilk növbədə bütövlükdə hüquqi şəxslərin, o cümlədən dini qurumların hüquq qabiliyyətinin anlayışının leqal konturlarının qanunvericiliklə dəqiq müəyyən edilməməsi, hüquq qabiliyyəti və fəaliyyət qabiliyyətinin məzmunu, ayrı-ayrı təşkilati-hüquqi formaya malik olan hüquq subyektlərinin hüquq qabiliyyətinin xarakterik cəhətləri, həmin qabiliyyətin yaranması və ona xitam verilməsi, xüsusi, ümumi (universal), müstəsna və məqsədli hüquq qabiliyyəti ilə bağlı hüquq normalarının sistemsiz və qeyri-ardıcıl xarakter daşıması və bu sahədə elmi araşdırmaların kəsadlığı ilə əlaqədardır. Bu yazıda, sayı və cəmiyyət həyatındakı iştirakının xüsusi çəkisi dayanmadan artan dini təşkilatların mülki-hüquqi statusunun müəyyən edilməsində böyük önəm daşıyan hüquqsubyektliliyi ilə bağlı bəzi problemlərə toxunulur.

Yuxarıda deyilənlər fikrimizcə, ilk növbədə bütün hüquqi şəxslərin, o cümlədən dini qurumların hüquq qabiliyyətinin sərhədlərini (hüdudlarını) təsbit edən ümumi normanın müəyyən edilməsini və onun Azərbaycan Respublikası Mülki Məcəlləsinin 44-cü maddəsinə əlavə olunmasını zəruri edir (1). Bunun üçün, Rusiya Federasiyasının (RF) mülki qanunvericilik təcrübəsindən yararlanmaq yerinə düşərdi. Belə ki, ölkəmizin MM-nin hüquqi şəxslərlə

bağlı müddəalarının əksəriyyəti RF-nın analoji aktının (1994-cü ildə qəbul edilmişdir) (2) müvafiq normalarının oxşarıdır. Araşdırdığımiz məsələ ilə bağlı həmin sənədin 49-cu maddəsində deyilir: ”Hüquqi şəxs, onun təsis sənədlərində göstərilən fəaliyyət məqsədlərinə müvafiq olan mülki hüquqlara malik ola bilər və bu fəaliyyətlə əlaqədar olan vəzifələr daşıya bilər”. Bu anlayışın, fikrimizcə, çatışmazlığı bununla bağlıdır ki, burada qanunverici hüquqi şəxsin hüquq qabiliyyətini haqlı olaraq onun fəaliyyət məqsədlərindən asılı olduğunu müəyyən etsə də, fəaliyyət məqsədlərini səhvən yalnız təsisçilərin (iştirakçıların) iradəsinə bağlı olduğunu təsbit edir. Halbuki, əksər hallarda qanunvericilik aktları hüquqi şəxslərin fəaliyyət məqsədləri barədə iriləşdirilmiş şəkildə olsa da çərçivələr müəyyən edirlər. Məsələn, elə milli qanunvericiliyimizdəki hüquqi şəxslərin ən böyük təşkilatı-hüquqi təsnifatı məhz fəaliyyət məqsədlərinə söykənir. Belə ki, MM-in 43.5-ci maddəsi bütün hüquq şəxsləri 3 yerə bölərək onların əsas məqsədlərinin mənfəət götürməkdən (kommersiya hüquqi şəxsləri), mənfəət götürməməkdən (qeyri-kommersiya hüquqi şəxsləri) və ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olmaqdan (publik hüquqi şəxslər) ibarət olduğunu müəyyən edir.

Əksər nəzəri yanaşmalarda da, haqlı olaraq hüquqi şəxsin hüquq qabiliyyətinin müəyyən edilməsində qanunvericilik aktların rolu ayrıca vurğulanır: “Hüquqi şəxsin hüquq qabiliyyəti (hüquqsubyektliliyi) deyildikdə qanunla təyin edilmiş və təsis sənədləri ilə müəyyən edilmiş, təşkilatın mülki hüquqi münasibətlərinin iştirakçısı kimi statusunu müəyyən edən hüquqi xüsusiyyətlərinin məcmusu başa düşülür” (3).

Dini qurumların da hüquq qabiliyyətinin çərçivələrinin müəyyən edilməsində həm MM-in, həm də xüsusi akt hesab edilən “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun (DEAHQ) müddəaları əhəmiyyətli rol oynayır. Məsələn, hüquqi şəxslərin “əsas qanunu” olan MM-in klassik qeyri-kommersiya təşkilatları hesab edilən dini qurumlara da şamil olunan aşağıdakı normaları bu qəbildəndir:

a) qeyri-kommersiya hüquqi şəxslərin fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət deyildir (MM-in 43.5 maddəsi); Həqiqətən də DEAHQ-un dini qurumların 7-ci maddəsinin I hissəsində sadalanan mövcud növlərinin heç birisinin qarşısına bu cür məqsəd qoyulmur və bu məqsədə çatmaq üçün hüquq və vəzifələr də müəyyən edilmir (4). Bununla belə, qanun həmin qurumların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququnu da istisna etmir. Bu şərtlə ki, MM-in 43.6-cı maddəsinin tələbinə görə bu fəaliyyət onların yaradılması zamanı qarşılarına qoyulmuş məqsədlərə nail olmağa xidmət etməli və bu məqsədlərə uyğun gəlməlidir. MM ilə qeyri-kommersiya təşkilatlarına, o cümlədən dini qurumlara verilmiş bu imkan iki üsulla, həm onların özlərinin birbaşa sahibkarlıqla məşğul olması for-

masında, həm də hüquqi şəxs statuslu sahibkarlıq subyektləri yaratmaqla gerçəkləşdirilə bilər. DEAHQ-un 19-cu maddəsi dini qurumların məhz ikinci formada sahibkarlıq fəaliyyəti ilə bağlı hüquqlarını təsbit edərkən qeyd şərt qoyur: onlar “qanunvericiliyə və öz nizamnamələrinə müvafiq surətdə” hərəkət etməlidirlər. Digər tərəfdən dini qurumların təsis edilə bildikləri hüquqi şəxslərin maddədə verilmiş açıq və təxmini siyahısından (nəşriyyat, poliqrafiya, istehsal, bərpa-tikinti müəssisələri, yetimxanalar, internatlar, xəstəxanalar və sair) da göründüyü kimi onlar yalnız dini qurumların qarşısına qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan fəaliyyət növləri ilə məşğul ola bilərlər (5, s.199).

Dini qurumlar özləri bilavasitə sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda kommersiya qurumları üçün xarakterik olan leqal parametrlərə malik olmaları da məqsədə müvafiq olardı. Məsələn, kreditorların mənafelərini təmin etmək məqsədi ilə dini qurumların da bir sıra xarici ölkələrdə, o cümlədən Rusiya Federasiyasında olduğu kimi minimum nizamnamə fonduna malik olmaları, biznes fəaliyyəti barədə müvafiq məlumatın yayılması yerinə düşərdi (RF Mülki Məcəlləsinin 66.2-ci maddəsinin 1-ci bəndi).

b) qeyri-kommersiya hüquqi şəxslərinin nizamnaməsində onların fəaliyyətinin predmeti və məqsədləri müəyyənləşdirilir (MM-in 47.2-ci maddəsi). Xüsusilə xüsusi hüquq qabiliyyətinə malik olan hüquqi şəxslərin hüquq qabiliyyətinin müəyyən edilməsində təsisçilərin iradəsinin əhəmiyyətli rolunu mülki hüquq nəzəriyyəçiləri də etiraf edirlər: ”Xüsusi hüquq qabiliyyəti hüquqi şəxsin təsisçilərinin sərbəst iradə ifadəsinə əsaslanır. Onlar müvafiq subyekti yaradarkən onun gələcək fəaliyyətinin məqsəd və vəzifələrini özləri müəyyən edirlər” (6). Bu göstəriş bütün digər qeyri-kommersiya təşkilatları ilə müqayisədə ən çox məhz dini qurumlara tətbiq edilə bilər. Çünki onlar həm də konstitusion nisbi sərbəstlik (“muxtariyyət”) hüququndan istifadə edirlər. Təsadüfi deyildir ki, DEAHQ dini qurumların hüquqsubyektliliyinə bilavasitə və həlledici təsir göstərən onun məqsəd və vəzifələrinin, habelə fəaliyyətinin əsas formalarının məhz qurumun nizamnaməsi ilə, başqa sözlə təsisçilər tərəfindən müəyyən edilməsini nəzərdə tutur (11-ci maddənin II hissəsinin 3-cü bəndi).

Bununla belə, həm MM-də, həm də xüsusi qanun hesab edilən DEAHQ-da da bu “məqsəd və vəzifələrə” çatmaq üçün dini qurumların malik ola biləcəkləri konkret hüquqlar və daşımalı olduqları vəzifələr öz əksini tapmışdır. Bu isə öz növbəsində dini qurumların hüquq qabiliyyətinin, başqa sözlə “mülki hüquq münasibətlərinin iştirakçısı kimi onun statusunun” (3) müəyyən edilməsinə birbaşa təsir göstərir.

Nəzərə almaq lazımdır ki, hüquqi şəxsin hüquq qabiliyyətinin məzmunu, xarakteri və həcmi də onun daxil olduğu hüquqi münasibətlərin xarakteri ilə birbaşa bağlıdır. “Hüquqsubyektliliyi şəxsin qüvvədə olan

hüquqa uyğun olaraq subyekt kimi çıxış edə bildiyi münasibətlərin necəliyindən asılı olaraq geniş və dar ola bilər" (7, c.101). Bu baxımdan dini qurumların nisbi müstəqilliyinin ("muxtariyyəti") onların hüquq qabiliyyətinə təsiri də təəccüblü görünməməlidir.

DEAHQ dini qurumların ayrı-ayrı növlərinin qarşısında duran məqsədləri və onların fəaliyyət predmetini müəyyən etməklə onların hüquq qabiliyyətinə təsir göstərən amilləri təsbit etmiş olur. Məsələn, onların ən geniş yayılmış ilkin həlqələri olan "dini icmalar dinə birlikdə ibadət etmək və digər dini tələbatı ödəmək məqsədilə könüllülük əsasında birləşmiş yetkinlik yaşına çatmış dindar şəxslərin yerli dini qurumudur". Digər qrupa aid olan dini təhsil müəssisələri "din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlanması" məqsədi ilə yaradılır. Bu normada göstərilən məqsədlərə çatmaq üçün qanunverici həmin hüquqi şəxslərin hüquq qabiliyyətinin məzmununun əhəmiyyətli hissəsini təşkil edən hüquq və vəzifələr müəyyən edir. Bu müddəalara zidd olmamaq şərti ilə adı çəkilən hüquqi şəxslərin nizamnaməsinə əlavə hüquq və vəzifələr daxil edə bilərlər.

Milli qanunvericiliyimizlə dini qurumların üçüncü növü hesab edilən dini mərkəz və idarələrin (DEAHQ-nun 7-ci maddəsinin I hissəsi) əsas məqsəd və fəaliyyət predmetləri birbaşa müəyyənləşdirilməmişdir. Lakin DEAHQ-nun bəzi normalarının sistemli şərhi göstərir ki, həmin qurumlar digər dini təşkilatları özündə birləşdirməklə onların mərkəzi (yuxarı) qurumu funksiyasını yerinə yetirirlər. Bunu onların DEAHQ-a uyğun olaraq malik olduqları hüquqlar və daşıdıqları vəzifələr də sübut edir. Belə ki, dini mərkəz və idarələr dini qurumlar tərəfindən gənclərin və yaşlıların müqəddəs kitabları öyrənmə kursları (qrupları) yaratmağa icazə verir (6-cı maddənin Y hissəsi), dini icmaları təmsil edir (7-ci maddəsinin I hissəsi), ibadətgahlar və dini təhsil müəssisələri yaradır (9-cu maddənin IY hissəsi), dini qurumlara din xadimi təyin edir (12-ci maddənin I-ci hissəsi), dini icmaların qeydiyyatı üçün müvafiq icra hakimiyyəti orqanına təqdimat göndərir (12-ci maddənin II hissəsi), dini qurumun məhkəmə qaydasında ləğvi üçün əsaslar barədə məlumatlara malik olduqda, həmin dini icmaların təsisçilərinin tərkibinin dəyişdirilməsinin və ya icmanın ləğvinin zəruriliyi barədə müvafiq icra hakimiyyəti orqanının qarşısında vəsatət qaldırır (12-1-ci maddə), vətəndaşların dini təhsil müəssisələrində təhsil almaq üçün xaricə göndərilməsi və din xadimlərinin mübadiləsini müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla həyata keçirirlər (24-cü maddənin II hissəsi).

Azərbaycan Respublikasındakı islam dini qurumlarının tarixi mərkəzi sayılan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) hüquqsubyektliliyinin bir sıra vacib parametrləri də birbaşa DEAHQ-la müəyyən edilir. Belə ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən islam dini qurumları bu İdarədə birləşirlər, öz fəaliyyətləri haqqında

ona hesabat təqdim edirlər, təşkilat məsələlərində ona tabedirlər, islam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə bu İdarə tərəfindən təyin edilir (Qanunun 9-cu maddəsinin I hissəsi, 7-ci maddəsinin 3-cü hissəsi), 8-ci maddəsinin II və III hissələri).

Qanunvericilik aktlarında bütün hüquqi şəxslərin hüquq qabiliyyətini məhdudlaşdıran və yaxud müəyyən şərtlərlə bağlayan bəzi normalar da müəyyən edilmişdir. Belə ki, MM-in 6.3-cü maddəsinin tələbi nəzərə alınarsa "dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin sağlamlığının və mənəviyyatının qorunması, digər şəxslərin hüquq və azadlıqlarının, şərəfinin və təmiz adının müdafiəsi üçün zəruri olduqda mülki hüquqlar... qanunla məhdudlaşdırıla bilər". "Hüquqi şəxsin hüquqları yalnız qanunla nəzərdə tutulan hallarda və qaydada məhdudlaşdırıla bilər" (M.44.3). Bu məhdudiyyətlər ümumi xarakter daşıdıqları üçün dini qurumlara da şamil edilir. Bununla belə, dini qurumların bu və ya digər növdən olan bəzi hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) olması da birbaşa qanunvericilik aktları ilə istisna edilir. Məsələn, "Banklar haqqında" Qanunun 19.2-ci maddəsinə görə dini qurumlar bankların səhmdarı (8), "Maliyyə-sənaye qrupları haqqında" Qanunun (23.04.1997-ci ildə qəbul edilmişdir) 3-cü maddəsinə görə maliyyə-sənaye qruplarının (9), "Əmtəə birjası haqqında" Qanunun (25.05.1994-cü ildə qəbul edilmişdir) 11-ci maddəsinə (10) görə isə birjanın üzvü ola bilməzlər.

Mülki qanunvericiliyin müəyyən etdiyi normaya ("Hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır" – MM-in 44.1-ci maddəsi) və mülki doktrinanın qəbul etdiyi ümumi qaydaya görə hüquqi şəxslərin hüquq qabiliyyəti ilə fəaliyyət qabiliyyəti eyni vaxtda yaranır. "Bu, hüquqi şəxslərə "yetkinlik dərəcəsi"nin tətbiq edilməsinin qeyri-mümkünlüyü ilə bağlıdır" (3). Lakin DEAHQ-un dini qurumlarla bağlı müəyyən etdiyi imperativ norma bu cür yanaşma ilə uzlaşmır. Belə ki, həmin Qanunun 12-ci maddəsinin I hissəsinin 2-ci cümləsi bütün dini qurumların fəaliyyətə başlaması üçün əlavə şərt müəyyən edir: "Dini qurumlar yalnız dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatlarda hüquqi ünvan kimi göstərilən ibadət yerlərində həmin dini qurumlara dini mərkəz və idarələr tərəfindən din xadimi təyin edildikdən sonra fəaliyyət göstərə bilərlər". Lakin nəzərə almaq lazımdır ki, bu xüsusiyyət dini qurumlardan yalnız dini icmalara aid edilə bilər. Çünki din xadimləri ancaq bu qurumlara təyin edilə bilər.http://e-qanun.az/files/framework/data/7/c_f_7649.ht m-_edn31

Hüquqi şəxslərin hüquq və fəaliyyət qabiliyyətinin yaranması anlarının üst-üstə düşməməsi təkcə göstərdiyimiz halla bitmir. Belə ki, MM nəzərdə tutur ki, "siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər" (m 44.2). Sonuncu

norma əksəriyyət sivilistlərin qəbul etdikləri hüquqi şəxslərin hüquq qabiliyyəti ilə fəaliyyət qabiliyyətinin eyni vaxtda yaranması haqda rəyin də bəzi müəlliflər tərəfindən şübhə altına alınmasına gətirib çıxarmışdır. Məsələn, V.V. Dolinskayanın haqlı olaraq qeyd etdiyi kimi "... yalnız xüsusi icazə (lisenziya ) əsasında mümkün olan fəaliyyət hüququ bu cür icazə (lisenziya) alındığı andan, yaxud orada göstərilən müddətdən başlayır" (11). Bu cür hüquq qabiliyyəti hüquq ədəbiyyatında "lisenziyalaşdırılmış hüquq qabiliyyəti " də adlandırılır və xüsusi hüquq qabiliyyətinin bir növü hesab edilir (12). DEAHQ-nun 10-cu maddəsinin II hissəsinin tələbinə görə yalnız xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərə bilən və dini qurum hesab edilən dini tədris müəssisələrinin də məhz bu cür hüquq qabiliyyətinə malik olduğunu söyləyə bilərik.

Yuxarıda deyilənləri nəzərə alaraq qeyd edə bilərik ki, hüquqi şəxslərin, o cümlədən dini qurumların hüquq qabiliyyəti ilə bağlı məsələlərin xeyli hissəsi təsis sənədləri ilə tənzimlənsə də, burada qanunvericilik aktları da önəmli rol oynayır. Eyni zamanda dini təşkilatların xüsusi hüquq qabiliyyəti, həm bütün kommersiya qurumlarının, həm də qeyri-kommersiya hüquqi şəxslərinin digər növlərinin eyni göstəricisindən bir sıra xarakterik xüsusiyyətləri ilə fərqlənir. Əlavə edək ki, araşdırılan məsələ ilə bağlı milli qanunvericiliyimizin bəzi normalarının təkmilləşdirilməsinə də ehtiyac hiss olunur.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan Respublikası Mülki Məcəlləsi – Azərbaycan Respublikasının 28.12.1999-cu il tarixli Qanunu ilə təsdiq edilmişdir. /e-qanun.gov.az/.
2. Гражданский Кодекс Российской Федерации // Консултант Плюс-WWW. Consultant.ru.
3. Серова О.А. Понятие и виды правоспособности юридического лица// Вестник Самарской гуманитарной академии, серия «Право», 2010, № 1, (7), с. 72-87.
4. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu -20.08.1992-ci ildə qəbul edilmişdir. /e-qanun.gov.az/.
5. Həsənov S. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı, "Elm və təhsil", 2014-cü il, 271 s..
6. Прошин С.Н. Некоторые вопросы специальной правоспособности юридических лиц// Юридическая наука, 2011, №2 с. 44-46.
7. Яковлев В.Ф. Гражданско-правовой метод регулирования общественных отношений. 2-е изд., доп. М., 2006. с.231.
8. "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu.16.01.2004-cü ildə qəbul edilmişdir. // e-qanun.gov.az.
9. "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikası Qanunu-23.04.1997-ci ildə qəbul edilmişdir. // e-qanun.gov.az.
10. "Əmtəə birjası haqqında" Azərbaycan Respublikası Qanunu- 25.05.1994-cü ildə qəbul edilmişdir. // e-qanun.gov.az.
11. Долинская В.В. Общая характеристика и правосубьектность юридических лиц: новеллы гражданского законодательства// Вести Волгоградского государственного университета, серия 5, Юриспруденция, 2015 № 2 (27) с.46-52.
12. Вах: Емелин А.В. Проблемы классификации видов правоспособности и дееспособности юридических лиц в российском гражданском праве // Юрист, 2000 № 3, с. 9-10.

## НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ГРАЖДАНСКОЙ ПРАВОСПОСОБНОСТИ РЕЛИГИОЗНЫХ УЧРЕЖДЕНИЙ

**СИМРАН ГАСАНОВ,**
**доктор философии по праву,**
**докторант Института Философии и Права НАНА,**
**руководитель аппарата Управления Мусульман Кавказа.**
e-mail: simran.hasanov@hotmail.com

В статье рассматриваются некоторые характерные особенности гражданской правоспособности религиозных образований, в том числе теоретические проблемы ее правовых основ и содержаний. Отмечая значения учредительных документов в определении правоспособности, автор также указывает на важность учета требований законодательных актов. С целью усовершенствования правового регулирования вопросов связанных с правоспособностью религиозных образований предлагается конкретные изменения и дополнения к соответствующим законодательным актам.

**Ключевые слова:** *религиозные образования, правоспособность, дееспособность, некоммерческие организации, учредительные документы.*

## SOME FEATURES OF CIVIL LEGAL CAPACITY OF RELIGIOUS INSTITUTIONS

**SIMRAN HASANOV,**
**PhD in Law,**
**doctoral candidate of the Institute of Philosophy and Law ANAS,**
**head of the administration Caucasus Muslim Board.**
e-mail: simran.hasanov@hotmail.com

The article is rating various characteristic features of the civil legal competence (capacity) of the religious entities, including theoretical issues of their legal grounds and contents. Pointing out the importance of constituent documents in determination of the legal competence (capacity), the author also underlines the sense of consideration of the legislative requirements. In order to improve legal regulations of the issues related to the legal competence of the faith organizations, the author proposes particular amendments to relevant legislation.

**Key words:** *religious organizations, legal capacity, legal responsible, non-profit organizations, constituent documents.*

# AİLƏNİN STATUSU

**Həsənzadə Səidə Bəhram qızı,**
**AMEA Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsinin aparıcı elmi işçisi, h.ü.f.d., dosent.**
e-mail: saidahasan@gmail.com

*Məqalədə müəllif tərəfindən ailənin statusu haqqında məsələ nəzərdən kecirlir. Qeyd olunur ki, "Ailə hüququ" dedikdə hüquq elminin mühüm bir sahəsini təşkil edən və ailə və ailə münasibətlərinin elmi-nəzəri tədqiqini öyrənən hüquqi qurum başa düşülür. "Ailə hüquqları" və ya "ailənin hüquqları" dedikdə isə, sosial-hüquqi təsisat, institut, birlik, ittifaq kimi səciyyələndirilən ailənin hüquqları, vəzifələri və öhdəlikləri, bir sözlə ailənin statusu başa düşülməlidir.*

**Əsas sözlər:** ailə, ailənin statusu, ailə hüququ, ailə münasibətləri, nigah, ailə tərkibi.

Cəmiyyətdə son dərəcə mühüm əhəmiyyət kəsb edən bir təsisat, bir konstitusiya institutu kimi, kişinin və qadının könüllü razılığına müvafiq olaraq, ailə qurmaq məqsədilə nikah əsasında rəsmiləşdirilən ittifaq olaraq ailənin statusunun hüquqi baxımdan müəyyən edilməsi müasir hüquq elmində, xüsusilə konstitusiya və ailə hüququ elmləri sahəsində bir boşluq kimi qalmaqdadır. "Ailə hüququ" və "ailənin hüquqları" istilahları, söz birləşməsi və termin olaraq elmi ədəbiyyatda oxşar səciyyə daşısalar da, onların biri-birindən fərqləndirilməsinə müəyyən zərurət vardır və onlar ailənin statusunu ehtiva etmir. "Ailə hüququ" dedikdə, hüquq elmlərinin mühüm bir sahəsini təşkil edən və bir elm sahəsi olaraq ailə və ailə münasibətlərinin elmi-nəzəri tədqiqini öyrənən sahəvi hüquq elmi başa düşülür. "Ailə hüquqları" və ya "ailənin hüquqları" dedikdə isə, sosial-hüquqi təsisat, institut, birlik, ittifaq kimi səciyyələndirilən ailənin hüquqları, vəzifələri və öhdəlikləri, bir sözlə ailənin statusu başa düşülməlidir. Konstitusiya hüququ və ailə hüququ baxımından ailənin statusunun qanunvericilik yolu ilə müəyyən edilməsi, çox təəssüf ki, indiyə kimi müəyyən edilməmişdir. Ailənin struktur tərkibində təmsil olunan ailə üzvlərinin, valideynlərin – qadının, kişinin, atanın, ananın, övladın, uşağın hüquqları, vəzifələri və öhdəlikləri barədə beynəlxalq və milli hüquq sistemində kifayət qədər mükəmməl normalar müəyyən edilmişdir. BMT-nin 10 dekabr 1948-ci il "İnsan hüquqları haqqında Ümumdünya" Bəyannaməsində, "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasında, eləcə də Azərbaycan Respublikası Konstitusiyasında bu normalar geniş təsbit edilmişdir. Konstitusiyanın ikinci bölməsinin üçüncü fəsli "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlandırılmaqla, cinsindən, yaşından, milliyyətindən və digər demoqrafik göstəricilərindən asılı olmayaraq, orada insanın

və vətəndaşın hüquqları və azadlıqları mükəmməl təsbit edilmişdir. Bu baxımdan ailə hüququnun hər bir subyekti yetkinlik yaşına çatdıqdan sonra müstəqil olmaqla yanaşı, həm də ailə adlanan birliyin, ittifaqın hər bir üzvü biri-biri ilə bu və ya digər şəkildə sıx bağlıdır, əlaqəlidir və biri-digərini tamamlamaqdadır. Lakin bu subyektlərin hər birinin statusunun mükəmməlliyi real olaraq təmin edilməsinə baxmayaraq, onların heç də hər biri və ya ümumilikdə ailənin statusunu müəyyən edə bilməz. Çünki ailə özü bir ittifaq, bir birlik olaraq, müxtəlif yaşlı və müxtəlif cinsli insanların könüllü birliyini ehtiva edən təsisatdır. Bu baxımdan Azərbaycan Konstitusiyası hüquqi dövlət quran ölkənin Konstitusiyası olmaqla, ümumi formal bərabərlik prinsipi əsasında təsbit olunmuşdur. Ümumi formal bərabərlik prinsipindən doğan bərabərlik iki üsulla: hüquqi icazə və hüquqi qadağalar yolu ilə həyata keçirilir. Hüquqi icazə üsulu vasitəsilə həyata keçirilən hüquqi tənzim etmədə icazə verilən azadlığın məzmunu və həddi qanunda dəqiq müəyyən edilir. Hüquqi qadağa üsulunda isə insan hərəkətlərində və münasibətlərində ictimai təhlükəli anlar qadağan edilir. Deməli, qanunla qadağan edilməyən hər bir şey müsbət hesab edilərək müdafiə olunur [20, 38-39]. Bu da onu göstərir ki, insan birliyinin klassik forması, ittifaqı kimi səciyyələndirilən ailə, qanunvericiliklə qadağan edilməyən bütün hüquqlara və azadlıqlara sahibdir. Lakin bu bir qədər abstrakt səciyyə daşıyır. Buna görə də müasir Azərbaycan ailəsinin hüquqlarının və vəzifələrinin məcmusunu ehtiva edən ailənin statusunun müstəqil norma kimi qanunvericilikdə təsbit edilməsi kifayət qədər aktual və vacibdir. Bu da onu göstərir ki, ailənin statusunun qanunla müəyyən edilməsi olduqca vacibdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində göstərilir ki, "cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir" [2, 28]. İnsanın və cəmiyyətin fundamental dəyərlər sisteminin əsasında dayanan bir təsisat, bir institut olaraq "ailə"nin statusu bir sıra ölkələrin Konstitusiyalarında nəzərdə tutulmasa da, lakin İtaliya, Almaniya, Rusiya, Türkiyə və s. bu kimi inkişaf etmiş ölkələrin konstitusiyalarında müstəqil norma kimi təsbit edilmişdir. Müxtəlif tarixi dövrlərdə və müxtəlif müəlliflər tərəfindən ailəyə müxtəlif anlayışlar, definisiyalar, izahlar və təriflər verilmişdir. Bəziləri hesab edirlər ki, ailə-nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik sosial qrupdur. Ailə üzvləri biri-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlı olan sabit ictimai birlikdir [7, 187]. Eyni fikir «Fəlsəfə ensiklopedik lüğəti»ndə də əks olunmuşdur [18, 602]. Demoqrafik ensiklopediyanın müəllifləri ilə fikri üst-üstə düşən filosoflar ailəni – biri-biri ilə məişət birliyi və qarşılıqlı məsuliyyətlə bağlı olan adamların nikah və ya qan qohumluğuna əsaslanan birliyi, ittifaqı kimi səciyyələndirirlər [16, 395]. Professor Q.Manayev hesab edir ki, ailə – nikaha və ya qohumluğa əsaslanan, dövlət qayğısı ilə əhatə edilən və cəmiyyətin özəyini təşkil edən qadın və kişi birliyidir, ittifaqıdır [12, 18]. Gender terminləri adlı lüğətdə ailənin – nikah, qan qohumluğu, yaxud

övladlığa götürülməyə əsaslanan, üzvlərinin biri-biri ilə eyni məişət, qarşılıqlı kömək və cavabdehlik əlaqələri əsasında formalaşan kiçik qrup olduğu göstərilmişdir [11, 5]. Prof. M.Dəmirçiyeva isə ailəni – nikahla və ya qohumluqla bağlı olan, bir-biri ilə və birlikdə yaşayan şəxslər qrupu kimi səciyyələndirmişdir [9, 6]. Bütün bunlara baxmayaraq, çoxsaylı müəlliflərin ailəyə verdiyi tərifləri ümumiləşdirərkən belə bir yekun nəticəyə gəlmək mümkündür ki, ailə – cəmiyyətin əsas özəyi, nüvəsi hesab olunan kiçik sosial qrup, şəxsi məişəti təşkil etməyin mühüm forması hesab olunmalıdır. Bu ər-arvadlıq ittifaqına və qohumluq əlaqələrinə, yəni bir yerdə yaşayan və ümumi təsərrüfatı birgə idarə edən ər və arvad, valideynlər və uşaqlar, qardaşlar və bacılar, digər qohumlar arasındakı çoxtərəfli münasibətlərə əsaslanan birlik kimi səciyyəvi xüsusiyyətləri ehtiva edir.

Apardığımız tədqiqatlar zamanı yekun olaraq belə bir nəticəyə gəlmək olar ki, "ailə" dedikdə, yetkinlik yaşına çatmış kişinin və qadının öz arzularına və istəklərinə müvafiq olaraq, fizioloji və bioloji tələbatlarını təmin etmək, sevgiyə, məişət və təsərrüfat ümumiliyinə əsaslanan, kişi və qadın birliyi kimi ailə yaratmaq, dünyaya uşaq gətirmək, övlad sahibi olmaq məqsədilə tərəflərin könüllü razılığı və bərabərliyi əsasında təsis edilən, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin özəyini təşkil edən və dövlət tərəfindən müəyyən edilmiş prosedur qaydalara əməl etməklə, müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən nikah əsasında yaranan kişi-qadın birliyi, ittifaqı başa düşülür [19, 60-67]. "Azərbaycan dilinin izahlı lüğəti"nə görə "ittifaq" və ya "birlik" sözləri biri-birinə çox yaxın və oxşar istilahlar olmaqla, onlar insan və ya insan qruplarının müəyyən bir məqsəd üçün birgə hərəkət etməsi, səylərini birləşdirməsi, bir olması, bütövlük, müttəfiqlik, bölünməzlik, vəhdət, sıx əlaqə, həmrəylik, ümumilik və s. bu kimi məna çalarlarını ehtiva etdiyi aydın olur [1, 320, 613]. Ailə isə yuxarıda qeyd edildiyi kimi yetkinlik yaşına çatmış kişinin və qadının ailə qurmaq niyyətilə yaratdığı ittifaq, birlik hesab olunur. Onun hüquqi əsasında nikah əqdi dayanır. Ailə qurmaq məqsədilə kişinin və qadının könüllü razılığı əsasında bağlanmış nikahın müvafiq orqanlarda rəsmiləşdirilməsi vaxtından etibarən ailə əslində, hüquqi cəhətdən yaranmış hesab edilir. Ailə institutunun yaranması üçün nikahın mühüm hüquqi nəticə kimi qiymətləndirilməsinə baxmayaraq, "nikah" və ya "kəbin" kimi əqdlər olmamışdan çox-çox əvvəl, qadın və kişi birliyi, mahiyyət etibarilə bu günkü ailəyə çox oxşar olan bir ittifaq – ailə səciyyəsini daşıyan birlik kimi tarixən mövcud olmuşdur. Ailə institutunun tərkibinə daxil olan ayrı-ayrı subyektlər – ər, arvad, uşaq və s. hər biri fiziki şəxs statusuna malikdirlər. Mülki Məcəllənin 24-cü maddəsinə görə fiziki şəxs dedikdə hüquq münasibətlərində öz adından iştirak edən insan fərdi nəzərdə tutulur [5, 12]. Nikah isə iki fərdi fiziki şəxsin – kişinin və qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanlarında qeydə alınan könüllü ittifaqı hesab edilir [6, 6] və hüquqi şəxs elementlərini özündə ehtiva edir. Qanunun

mənasına görə ailə həmişə ən azı iki fiziki və fərdi şəxsin, qadının və kişinin birliyinə əsaslanır, nikah isə yalnız müvafiq dövlət orqanlarında qeydə alındığı hallarda hüquqi nəticələr doğurur. Ailənin tərkibinə daxil olan iki fərdin və fiziki şəxsin – kişinin və qadının ailə qurmaq məqsədilə yaratdıqları ittifaqın – ailənin, bu gün hüquq münasibətlərinin subyekti olması faktı heç bir mübahisə doğurmur [17]. Bununla belə ailənin – kişinin və qadının könüllü razılığı əsasında yaratdığı ailə birliyinin, ittifaqının, həm də hüquqi şəxs olub-olmaması məsələsinə müəyyən yanaşmalar tələb edir. Belə ki, Mülki Məcəllənin 43-cü maddəsində göstərilən şərtlər – hüquqi şəxsin dövlət qeydiyyatı əsasında yaranması, ayrıca əmlakı olması, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək imkanlarına, müstəqil balansa sahib olması, məhkəmədə iddiaçı və cavabdeh kimi iştirak etməsi və digər bu kimi elementlər (bütün bu xüsusiyyətlər bu və ya digər dərəcədə ailədə də vardır) hüquqi şəxsin statusu üçün zəruri elementlər hesab olunduğundan, ailədə də buna oxşar elementləri görməmək mümkün deyildir. Kişi və qadının nikaha daxil olmasında, yəni ailə ittifaqının yaranmasında məqsəd ailə yaratmağa xidmət edir. Hüquqi şəxsin yaradılması isə daha çox insan birliyinin konkret fəaliyyətlə məşğul olmasına, nizamnaməsində və ya əsasnaməsində nəzərdə tutulan məqsədlərə və vəzifələrə çatmağı təmin edən təşkilat, idarə və müəssisə yaratmaqla həyata keçirilir. Nikah mahiyyət etibarilə mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitam edilməsinə yönəldilmiş ikitərəfli iradə ifadəsinin təcəssümü olan əqd hesab edilir, tərəflər üçün hüquqlar və vəzifələr yaradır və yalnız o vaxt hüquqi nəticələr doğurur ki, o qanunvericiliklə müəyyən edilmiş qaydada dövlətin xüsusi orqanlarında qeydiyyata alınmış olsun. Beləliklə, ailə institutu fiziki şəxslərin könüllü birliyi olmaqla, həm də hüquqi şəxsə oxşar elementləri özündə ehtiva edir. Lakin o hüquqi şəxs hesab oluna bilməz. Çünki ər-arvad ittifaqı nizamnamə və ya əsasnamə əsasında yaradılmasa da, lakin bağlanılan nikah tərəflər üçün müəyyən hüquqi nəticələr doğurmaqla yanaşı, o həm də ailənin hüquqi əsasını təşkil edir və hüquqi şəxsə oxşar səciyyə daşıyır. Bu da onu göstərir ki, iki tərəfin – ərin və arvadın könüllü ittifaqını ehtiva edən ailə, hüquq münasibətlərinin birmənalı şəkildə subyekti hesab edilməlidir [17]. Buna görə də hüquqi və fiziki şəxslərə aid olan bütün hüquqlar, vəzifələr və öhdəliklər bütünlüklə, həm də ailəyə aid edilə bilər.

Ailə cəmiyyətin və dövlətin özəyini təşkil edir. Ailə kiçik dövlətdir, dövlət isə ailələr birliyinin məcmusunu ehtiva edir. Ailələr ittifaqı kimi səciyyələndirilə bilən dövlətin yaranması haqqında nəzəriyyələrdən bu baxışa tez-tez istinad edilir [13, 6-17]. Ailə – insan, cəmiyyət və dövlət üçün olduqca mühüm dəyər təşkil edir. Elə buna görə də son illərdə demokratik, hüquqi və dünyəvi meyarlara cavab verən Konstitusiyaların mətnlərində “ailə” institutunun mükəmməl təsbit edilməsi ənənəsi yaranmaqdadır. Ailə – bəşər cəmiyyətinin və dövlətin təbii və əsas özəyi, bünövrəsi və təməli hesab olunur. Ailələr nikah, kə-

bin münasibətləri əsasında qurulur, qan qohumluğu prinsipi ilə formalaşır, ailə üzvləri arasında qarşılıqlı cavabdehlik, məsuliyyət və köməklik kimi ənənəvi münasibətlər sistemi ilə möhkəmləndirilir. O cəmiyyətin əsas xüsusiyyətlərini özündə ehtiva etməklə, nikaha, qan qohumluğuna, məişət, birgə yaşayış və təsərrüfat birliyinə əsaslanaraq, ailə və qohumluğu səciyyələndirən bitkin münasibətlər sistemindən ibarətdir. Ailə – sosiomədəni və biososial fenomendir. Ailə, Azərbaycan Respublikasının milli maraqlarının və mənafelərinin, fundamental dəyərlərinin və sərvətlərinin, dövlətin və millətin taleyüklü vəzifələrinin vaxtında və uğurlu həllinin, insanın, cəmiyyətin və dövlətin tərəqqisinin, xalqın vahidliyinin, mədəni-tarixi irsinin, ümumbəşəri və milli mənəvi dəyərlərinin, dilinin, özünüdərkinin, milli iftixarının, vətənpərvərliyinin, intellektual potensialının, demokratik və hüquqi dövlət quruculuğunun, peşəkar milli kadr hazırlığının, iqtisadi, sosial və siyasi tərəqqinin, davamlı insan inkişafının, təhsilin və elmin, texnologiyaların, iqtisadi uğurların, cəmiyyətdə firavanlığın, ləyaqətin, milli tolerantlığın, barışın və sülhün təşəkkülündə və inkişafında misilsiz rol oynayan və heç nə ilə əvəz edilə bilməyən tarixi təsisat, sosial və hüquqi institutdur. Cəmiyyətin və dövlətin həyatında ailəni əvəz edəcək başqa bir birlik, başqa bir institut, başqa bir təsisat ola bilməz. Ailə – təsərrüfat, məişət, iqtisadiyyat, siyasət, din, cəmiyyət və dövlət münasibətlərinin yaradıcısı və insan birliyinin müasir forması hesab oluna bilər. O cəmiyyətin ilkin özəyi, insanların sosial qarşılıqlı təsirinin bir forması kimi zaman-zaman inkişaf etmişdir. Ailənin yaranmasında insan-cəmiyyət, insan-təbiət, insan-dövlət, insan-din münasibətlərinin və əlaqələrinin müstəsna rolu olmuşdur. Ailə fenomenal insan birliyinin özəyi olmaqla, o nikah və qohumluq münasibətləri əsasında yaranan insan birliyinin ən geniş yayılmış tipik nümunəsidir. Ailəsiz cəmiyyətin və dövlətin mövcudluğu istisna edilir. Ailə – cəmiyyətin və dövlətin ictimai inkişafını təşkil və təmin edən, onun maddi-mənəvi və iqtisadi yüksəlişinin əsasında dayanan sosial-siyasi və hüquq institutu olaraq onun alternativi yoxdur. Ailə – kiçik, qüdrətli və fenomen bir dövlət olmaqla, həyatın özü və cəmiyyətin əsasıdır. Sosioloqlar belə hesab edirlər ki, bir institut olaraq "ailə" – kişinin və qadının ailə yaratmaq və nəsil artırmaq məqsədilə yaratdıqları və birgə həyatın cəmiyyət tərəfindən qəbul olunmuş sosial formasını, hüquqi məzmununu ifadə edir. Mənəvi baxımdan, onun struktur tərkibinə ailədaxili qarşılıqlı münasibətləri tənzim edən adətlər, ənənələr, vərdişlər, sonralar isə hüquq normaları, ailə qurmağın qaydaları, tərəflərin öz rolu ilə bağlı statusu – öhdəlikləri, hüquqları və vəzifələri, habelə həyatın bu sahəsində cəmiyyətin təsdiq etdiyi və formalaşdırdığı simvollar sistemi təşkil edir [15, 168].

Ailənin hüquqi statusu Konstitusiya səviyyəsində tariximizdə ilk dəfə olaraq Ulu Öndərimiz Heydər Əliyev tərəfindən hazırlanmış, müzakirəyə çıxarılaraq qəbul edilmiş Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyasının 51-ci maddəsində təsbit edilmişdir. Orada göstərilmişdir ki,

ailə dövlət tərəfindən müdafiə olunur. Nikah qadın və kişinin könüllü razılığına əsaslanır: ər və arvad ailə münasibətlərində hüquqca tamamilə bərabərdirlər [8]. Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri nəticəsində hazırlanmış müstəqillik dövrünün ilk ana qanununun layihəsi – Azərbaycan Respublikasının Konstitusiya layihəsi 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edildi. Sonralar – 2002 və 2009-cu illərdə keçirilən referendumlarla Konstitusiyanın müxtəlif maddələrinin daha da təkmilləşdirilməsi təmin olundu [14]. Konstitusiyanın 17-ci maddəsində "Ailə, uşaqlar və dövlət", 34-cü maddəsi "Nikah hüququ"na müstəqil yer ayrıldı. Bu institutların konstitusiya hüquqi təsbiti təmin edildi. Eləcə də Konstitusiyanın 25-ci maddəsində kişi ilə qadının hüquq bərabərliyi, 38-ci maddəsində ailə başçısının itirilməsinə görə sosial təminat hüququ, ana dilindən istifadə etmək hüququ, 66-cı maddəsində hər kəsin özünə, arvadına (ərinə), bir sözlə yaxın qohumlarına qarşı ifadə verməyə məcbur etmənin yolverilməzliyi, 94-cü maddənin 14-cü bəndi ailə münasibətlərinə dair ümumi qaydaların Milli Məclis tərəfindən müəyyən edilməsi, 109-cu maddənin 20-ci bəndi vətəndaşlıq məsələlərinin həllinin ölkə prezidentinin səlahiyyətlərinə aid edilməsi müddəaları nəzərdə tutulmuşdur [3].

Konstitusiyada kişi ilə qadının eyni hüquqları və azadlıqları olduğu bəyan olunmuşdur. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağan olunmuşdur. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ olduğu təsbit edilmişdir. Konstitusiyanın 34-cü maddəsinə görə hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ tanınmışdır. Nikah könüllü razılığa əsaslanmaqla, heç kəsin zorla evləndirilə və ya ərə verilə bilməzliyi konkretləşdirilmişdir. Belə ki, nikah və ailə dövlətin himayəsində olmaqla analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çox uşaqlı ailələrə yardım göstərməyi öz üzərinə götürmüşdür. İnsanın və cəmiyyətin fundamental dəyərlər sisteminin əsasında dayanan bir təsisat, bir institut olaraq "ailə"nin statusu bir sıra ölkələrin Konstitusiyalarında nəzərdə tutulmasa da, lakin İtaliya, Almaniya, Rusiya, Türkiyə, Fransa, Azərbaycan və s. bu kimi inkişaf etmiş ölkələrin konstitusiyalarında müstəqil norma kimi təsbit edilmişdir.

Məlumdur ki, demokratik-hüquqi dövlətlərdə Konstitusiyalar dövlətin struktur elementlərini təcəssüm etdirir. O xalqın dövlətçilik iradəsini, suverenliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunun əsaslarını, insanın və vətəndaşın hüquqlarını və azadlıqlarını, hakimiyyətin ictimai-siyasi institutlarını, xalqın özünüidarə təsisatlarının statusunu, cəmiyyətin, dövlətin və insanın formalaşmasının və inkişafının hüquqi əsaslarını müəyyən edir. Konstitusiya cəmiyyətin və dövlətin mikromodeli kimi özünü göstərir. Konstitusiya ən yüksək hüquqi akt olmaqla, o ölkədəki digər aktlardan üstün səciyyə daşıyır. Ölkənin digər qanunları Konstitusiyaya müvafiq olaraq və onun şərtləri nəzərə alınmaqla hazırlanır və qəbul edilir. Bu baxımdan "ailə" institutunun Azərbaycan Respublikasının Kons-

titusiyasında təsbit edilməsi cəmiyyətə, ailəyə verilən böyük dəyərin nəticəsi kimi birləşdirilə bilər.

Ailənin həyatı müxtəlif maddi-bioloji, fizioloji, təsərrüfat, mənəvi, əxlaqi, hüquqi, psixoloji, estetik proseslərin vəhdətini əks etdirir. Ailənin sosial rolu insanın özünün təkrar istehsalında, bəşər nəslinin davam etdirilməsində, onun bilavasitə iştirakı ilə müəyyən edilir [10, 19]. Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin 14-cü bəndinə əsasən ailə münasibətlərinə dair ümumi qaydalar Azərbaycan Respublikası Milli Məclisinin, vətəndaşlıq məsələləri, bu məsələlərin həll edilməsi isə ölkə prezidentinin səlahiyyətlərindədir. Bu ailə və ailə münasibətlərinin tənzimlənməsinə olan böyük diqqətin nəticəsidir. Konstitusiyaya referendum yolu ilə edilmiş əhəmiyyətli dəyişikliklər, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Mülki Məcəllədə, Mülki-Prosessual Məcəllədə və digər zəruri normativ-hüquqi aktlarda müvafiq dəyişikliklərin aparılması ilə nəticələnmişdir [4].

Ailənin hüquqi cəhətdən yaranmasında yetkinlik yaşına çatmış qadın və kişi arasında könüllü ittifaqın bağlanmasının vacib hüquqi şərtlərindən biri, bu əqdin xüsusi orqanlarda qeyd edilməsi ilə bağlıdır. Buna görə də Azərbaycan Respublikasının Konstitusiyasının 34-cü maddəsində nikah, onun hüquqi statusu, elementləri, şərtləri, tərəflərin hüquq və öhdəlikləri bu normada fundamental dəyərlər kimi özünün konstitusion-hüquqi təsbitini tapmışdır. Nikaha daxil olarkən və ailə münasibətlərində milli, dini, irqi, sosial, dil və s. əsaslara görə ayrı-seçkilik və məhdudlaşdırmalar yolverilməzdir. Ailə və ailə münasibətlərinin tənzimlənməsi və onun definisiyası, Azərbaycan Respublikası Konstitusiyasından sonra, ən mükəmməl olaraq Azərbaycan Respublikasının Ailə Məcəlləsində ifadə edilmişdir. Bu Məcəllə 28 dekabr 1999-cu il tarixli qanunla qəbul edilməklə nikahın bağlanması, nikaha xitam verilməsi və onun etubarsız sayılması qaydaları və şərtlərini müəyyən edir. Ailə üzvləri arasında, qanunvericilikdə nəzərdə tutulmuş hallarda, həm də başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, valideyn himayəsindən məhrum olan uşaqların tərbiyə götürməsinin qaydalarını müəyyən etmişdir [6, 5]. Lakin bu Məcəllədə əsassız boşanmaların, ailənin dağılmasının qarşısını almaq üçün zəruri tədbirlər sistemini həyata keçirmək, ailənin və uşaqların sosial rifahını yüksəltmək, ailə idarəçiliyində ananın və atanın hər birinin rolunu konkretləşdirmək və s. bu kimi istiqamətdə dəyişikliklərin aparılmasına böyük zərurət yaranmışdır. Ölkəmiz uşaqların hüquq və azadlıqları ilə bağlı, nikahdan kənar doğulan uşaqların hüquqi statusu haqqında, ölkələrarası övladlığa götürmə haqqında, uşaq alverinə, uşaq fahişəliyinə, uşaq pornoqrafiyasına, uşaqların silahlı münaqişələrə cəlb edilməsi haqqında, uşaq əməyinin mühafizəsi haqqında və onlarla digər beynəlxalq hüquqi sənədlər Azərbaycan Respublikasında ratifikasiya edilmiş və milli qanunlar bu beynəlxalq normalara uyğunlaşdırılmışdır. Bununla belə Ailə Məcəlləsində ailənin idarə olunmasında tərəflərin – ərin və arvadın

hüquq və vəzifələri konkretləşdirilməmişdir. Ailədaxili zorakılıq ildən-ilə artmasına baxmayaraq, onun konstitusion təminatları konkret müəyyənləşdirilməmişdir. Halbuki Braziliya, Kolumbiya, Efiopiya, Vyetnam, Hindistan, Niderland, Latviya, Fransa, Banqladeş, İsrail və bir sıra digər ölkələrin konstitusiyalarında ailə zorakılığı bu və ya digər şəkildə qadağan edilmişdir. Bu mənada Azərbaycan Respublikası Konstitusiyasında da zamanın tələblərindən irəli gələn müvafiq dəyişikliklərin aparılması vaxtı çatmışdır.

Ailənin mühüm bir əhəmiyyəti, ər-arvad, valideynlər və uşaqlar arasında tarixən formalaşmış konkret, qarşılıqlı münasibətlər sisteminin məcmusu olması ilə səciyyəvidir. Azərbaycan Respublikasının ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə, onun qanunlarına tabe olan, Azərbaycan xalqının xüsusi sosial-mədəni və milli kodu kimi təcəssüm edən, milli, mənəvi və əxlaqi dəyərlərə, dil, mədəniyyət, məişət, ərazi, həyat tərzi, adətlər, ənənələr, milli iqtisadiyyat və millətin vahid bütövlüyünü təcəssüm etdirən, üzvləri arasında hüquqi cəhətdən bağlanmış nikaha, övladlıq və qohumluq münasibətlərinə əsaslanan, şəxsi və əmlak hüquqlarının və vəzifələrinin yaranmasına səbəb olan, uşaqların doğulması və tərbiyəsi kimi məqsədlərə yönələn, ailə yaratmağa xidmət edən, dövlətin və cəmiyyətin kiçik sosial qrupu, insan birliyi – Azərbaycan ailəsi hesab edilir. Ailə konstitusiya hüququnun müstəqil və kompleks institutudur. Bu da ailə münasibətlərinin müstəqil, eynicinsli konstitusiya-hüquqi tənzimlənməsi ilə izah oluna bilər. Bu institutun xüsusi hüquqları, vəzifələri və öhdəlikləri vardır. Onun mühüm və sistemaltı elementi hesab olunan atalıq, analıq, uşaqlıq institutları da altsistemləri təşkil edir, onların hər birinin ailə münasibətlərində səciyyəvi cəhətləri, analıq hüququnun müdafiəsi, atalığın müdafiəsi və uşaqlara münasibətdə onların hüquqlarının qorunması kimi elementləri əhatə edir. Ailə konstitusiya hüquqi mənada öz üzvlərinin – ərin, arvadın, uşaqların, qan qohumlarının və yaxud da övladlığa götürülənlərin hüquqlarını, vəzifələrini və öhdəliklərini müəyyən edir. Bu mənada ailə dövlətin sosial siyasətinin nəinki obyekti, habelə müstəqil subyekti hesab oluna bilər. Qanunvericiliklə müəyyən edilmiş qaydada, ailə qarşısında duran vəzifələrin və öhdəliklərin həyata keçirilməsini təmin edən kompleks fəaliyyətin məcmusu – ailənin idarəçiliyi hesab olunur. Təəsüflə qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Konstitusiyasında, Ailə Məcəlləsində, eləcə də digər normativ-hüquqi aktlarda insanın, qadının, kişinin, uşağın hüquqları və azadlıqları haqqında kifayət qədər normalar təsbit edilməsinə baxmayaraq, bir ittifaq, təsisat, birlik, institut olaraq ailənin hüquqları müstəqil norma, müstəqil tərkib kimi nəzərdə tutulmamışdır. Əgər Mülki Məcəllədə fiziki şəxsin, hüquqi şəxsin, ayrı-ayrı ittifaq və birliklərin, səhmdar cəmiyyətlərin, digər təsisatların statusu, hüquqları, vəzifələri, öhdəlikləri və məsuliyyəti kifayət qədər mükəmməl tənzim edilmişdirsə də, lakin sosial təsisat, institut, birlik, ittifaq olaraq ailənin hüquqları müstəqil norma və ya müstəqil tərkib kimi indiyə qədər müəyyən edilməmişdir. Bu ba-

xımdan Azərbaycan ailəsinin bir institut, bir insan birliyi, bir ittifaq kimi bir sıra hüquqları, azadlıqları və vəzifələri olması müxtəlif hüquq normalarında, bu və ya digər dərəcədə təsbit edilməsi, mükəmməl əks olunması insan hüquq və azadlıqlarının təsbiti baxımından diqqətə layiqdir. Azərbaycan Respublikası Konstitusiyasında insanın və vətəndaşın hüquqları və azadlıqları siyahısında ayrı-ayrı şəxslər üçün nəzərdə tutulmuş müxtəlif hüquqların, həm də ailənin istisnasız olaraq hüququ kimi qəbul etmək tamamilə məntiqi olardı. Digər tərəfdən hüquqi dövlət baxımından, qanunla qadağan edilməyən hər bir şeyin, hər bir hərəkətin ailə tərəfindən edilməsi prinsipi, ailənin hüquqlarının və azadlıqlarının həcmi və dairəsi haqqında müəyyən nəticələr çıxartmağa imkan verir. Bütün bu təhlillərdən sonra müasir Azərbaycan Respublikası Konstitusiyasının müddəaları nəzərə alınaraq birmənalı şəkildə qeyd etmək olar ki, Azərbaycan ailəsinin yaşamaq hüququ (mad.27), azadlıq hüququ (mad.28), mülkiyyət hüququ (mad.29), təhlükəsiz yaşamaq hüququ (mad.31), şəxsi toxunulmazlıq hüququ (mad.32), mənzil toxunulmazlığı hüququ (mad.33), valideynlərin öz uşaqlarını saxlamaq borcu, valideynlər, həmçinin əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlarını saxlamaq, yetkinlik yaşına çatmlış övladların isə maddi yardıma ehtiyacı olan, əmək qabiliyyəti olmayan valideynlərini saxlamaq və onlara qayğı göstərmək borcu (mad.34), istirahət hüququ (mad.37), sosial təminat hüququ (mad.38), sağlam əteraf mühitdə yaşamaq hüququ (mad.39), mədəniyyət hüququ (mad.40), sağlamlığın qorunması hüququ (mad.41), mənzil hüququ (mad.43), ailənin şərəf və ləyaqətinin müdafiəsi hüququ (mad.46), ailə üzvlərin birinin digərinə – özünə, arvadına (ərinə), bir sözlə yaxın qohumlarına qarşı ifadə verməyə məcbur etmənin yolverilməzliyi (mad.66), uşaqların qayğısına qalmaq, onları sağlam böyütmək, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etmək, müstəqil həyata hazırlamaq hüququ (mad.17) [2, 35-80], eləcə də Ailə Məcəlləsində nəzərdə tutulmuş uşaqların ailə tərbiyəsinə üstünlük vermək, onların rifahına və inkişafına qayğı göstərmək, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquqlarının və mənafelərinin müdafiəsini təmin etmək (Ailə Məcəlləsi, mad.2), ailədə uşaqların ictimai tərbiyəsi ilə üzvi surətdə əlaqədar olan Vətənə sədaqət və məhəbbət ruhunda tərbiyə etmək (AM, mad.3.0.3), ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi və hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi (AM, mad.3.0.4), ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması (AM, mad.3.0.5), uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsi (AM, mad.3.0.6) [6, 4-9] və digər bu kimi hüquqları və vəzifələri vardır. Beynəlxalq hüquq normalarında isə həm də ailənin azad sahibkarlıq, vətəndaşlıq, milli mənsubiyyət, ana dilindən istifadə, müraciət etmək, təhsil, mədəniyyət, birləşmək, tətil, bərabərlik, hüquqi yardım almaq, hüquq və azadlıqların məhkəmə təminatı, vicdan azadlığı, ətraf mühitin qorunması, qanunazidd hərəkətlərin icrasına yol verilmə-

məsi, ətraf mühitin qorunması, dövlət rəmzlərinə hörmət edilməsi və digər bu kimi hüquqlar və azadlıqlar nəzərdə tutulmuşdur. Göründüyü kimi ailənin hər bir üzvünün hüquqları, azadlıqları və vəzifələri Konstitusiyada geniş şəkildə təsbit edildiyi halda, bir institut, bir insan birliyi kimi ailənin hüquqları və vəzifələri indiyə kimi konkret normada təsbit edilməmiş və bunları yalnız tədqiqat zamanı müxtəlif hüquq normalarının tədqiqi zamanı müşahidə və təsəvvür etmək mümkündür. Bu baxımdan Ailə Məcəlləsinin 6.2 maddəsində göstərildiyinə müvafiq olaraq ailənin hər bir üzvü öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin və ümumiyyətlə digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmağa haqlı hesab edilə bilməzlər [6, 8]. Göstərilənlər tam təsdiq edir ki, bir institut, bir insan birliyi, bir ittifaq kimi ailənin hüquqlarının qanunvericilikdə müstəqil norma kimi təsbit edilməsinə böyük zərurət vardır. Bu təkliflərin nəzərə alınması, ailənin hüquqlarının və vəzifələrinin Konstitusiyada və Ailə Məcəlləsində müstəqil norma kimi təsbit edilməsi, ailənin hüquqi statusunun dəqiq müəyyən edilməsi və tətbiqi üçün mühüm əhəmiyyət kəsb edəcəkdir.

***Rəyçilər:***

**Habil Qurbanov,**
**AMEA-nın Hüquq İnstitutunun "Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses" şöbəsinin müdiri, h.e.d., prof.**

**Əli Rzayev,**
**AMEA-nın Hüquq İnstitutunun "Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses" şöbəsinin baş elmi işçisi, h.e.d., prof.**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Azərbaycan dilinin izahlı lüğəti. I-II cild, 2006.
2. Azərbaycan Respublikasının Konstitusiyası (dərslik). B., 2010.
3. Azərbaycan Respublikasının Konstitusiyası. B., 2014.
4. Azərbaycan Respublikasının qanunvericilik toplusu. Milli Məclisin nəşri. B., 2003-2010.
5. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. B., 2013.
6. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., 2014.
7. Azərbaycan Sovet Ensiklopediyası. B., 1976. I cild.
8. Azərbaycan SSR-nin Konstitusiyası. 1979-cu il.
9. Dəmirçiyeva M. Azərbaycan Respublikasının ailə hüququ. B., 2008.
10. Fəlsəfə ensiklopedik lüğət. B., 1997.
11. Gender terminləri izahlı lüğəti. B., 2005.
12. Manayev Q.I. Sovet ailə hüququ. B., 1989.
13. Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları. B., 2013.
14. Mərkəzi Seçki Komissiyasının 18 mart 2009-cu il tarixli referendumla bağlı xüsusi bülleteni, Bakı, 2009.
15. Vahidov F., Ağayev T. Sosiologiya. B., 2013.
16. Демографическая энциклопедия. М., 1985.
17. Королев Ю.А. Семья как субъект права // Журнал российского права, 2000 / http://www.juristlib.ru/book_1562.html
18. Философская энциклопедия. М., 1983.
19. Hasanzadeh S.B. The constitutional and legal status of the institution of family // International Journal of Economics & Society. Volume 1, issue 4. December 2015.
20. İsmayılov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər. B., 1999.

## СТАТУС СЕМЬИ

**Гасанзаде Саида Бахрам гызы,**
**ведущий научный сотрудник «отдела международных отношений и международного права» Института Права НАНА, доктор философии по праву, доц.**
saidahasan@gmail.com

В жизни общества, в определении правого статуса его фундаментальных ценностей, для каждого государства, строящего демократическое и правовое государство, Конституция играет важную роль. Она образует базу законодательства и определения статуса институтов и учреждений, играющих существенную и основную роль в общественно-политической и правовой жизни страны. С этой точки зрения, Конституция Азербайджанской Республики, принятая 12 ноября 1995 года путем референдума в годы независимости, регулирует основные и самые важные стороны, ядро особо важных общественных отношений и ценностей для общества, государства и личности. Регулирование остальных отношений осуществляется путем принятия других нормативно-правовых актов. В жизни страны нет другого более важного нормативно-правового акта, чем Конституция. В этом смысле Конституция считается нормативно-правовым актом, регулирующим основы государства, организации общества, правового статуса личности, местного самоуправления. Конституция обеспечила конституционное регулирование одного из самых важных учреждений-институтов народа, нации и государства, а именно института семьи. В статье было проведено исследование конституционного статуса азербайджанской семьи, и ей дана идеальная дефиниция.

## FAMILY STATUS

**Hassanzadeh Saida Bahram gizi,**
**PhD in Law, associate professor, leading researcher of the department of “International relations and international law” Institute of Philosophy and Law National Academy of Sciences.**
saidahasan@gmail.com

The Constitution of every country, establishing a democratic and legal state, has an important role in the life of society, in determining the legal status of its fundamental values. It stands on the basis of determining the status of the institutions which play an important and key role in the socio-political and legal life of the country, and of the legal framework.

In this regard, the Constitution of the Republic of Azerbaijan adopted in the years of independence, on November 12, 1995, by referendum regulates the basic and most important aspects, the core of social relations and values which are important for a society, state and every person. The regulation of the rest relations is implemented by the adoption of normative -legislative acts. There is no more important normative -legislative act in the life of the country than the Constitution. In this sense, the Constitution is considered as a normative- legislative act regulating the basis of the state, the organization of society, a person's legal status, act of local self-government. Our Constitution provides the constitutional regulation one of the most important institutions of the people, nation and the state – the family institute. In the article is investigated the constitutional status of the Azerbaijani family, and is given the perfect definition of it.

# TƏRƏFLƏRƏ MƏXSUS OLMAYAN SİLAHLI QÜVVƏLƏRİN MÖVCUD OLMAMASI XƏZƏR DƏNİZİNDƏ HƏRBİ FƏALİYYƏTİN PRİNSİPİ KİMİ

(BEYNƏLXALQ-HÜQUQİ ASPEKT)

**Vaqif Hüseyn,**
**AMEA Hüquq İnstitutunun doktorantı.**

*Məqalədə Xəzəryanı ölkələrə məxsus olmayan silahlı qüvvələrin Xəzər dənizində mövcud olmaması prinsipi beynəlxalq hüquqi aspektdən tədqiq edilir. Müəllif qeyd edir ki, Xəzər dənizində üçüncü ölkələrin silahlı qüvvələrinin mövcud olmaması prinsipi hazırda təqdim olunan şəkildə Xəzər dənizinin müqavilə -hüquq praktikasında formal-hüquqi baxımdan yeni normadır, hərbi mövcudluq, ,silahlı qüvvələrin rmövcudluğu, hərbi-dəniz mövcudluğu və hərbi gəmi mövcudluğu anlayışları və onlar arasında əlaqələrə dair klassik hüquq doktrinası və qüvvədə olan beynəlxalq hüququn konsepsiya və anlayışlarından kəskin şəkildə fərqlənir və həmin konsepsiya və anlayışlarla ziddiyyət təşkil edir. Problem bir tərəfdən Rusiya və İran digər tərəfdən ABŞ, Türkiyə, NATO arasında qlobal və regional, o cümlədən Xəzər regionu səviyyəsində hərbi- siyasi rəqabəti, Azərbaycan, Qazaxıstan və Türkmənistanın milli təhlükəsizlik, o cümlədən hərbi-dəniz təhlükəsizliyi maraqlarını təmin etməklə bağlı hərəkətləri ilə aktuallaşır, bu səbəbdən eyni zamanda hüquqi və geosiyasi, hərbi-strateji təbiətə malikdir və beynəlxalq münasibətlər və xarici siyasətlə, dövlətlərarası hərbi əməkdaşlıq məsələləri ilə əlaqəlidir.*

**Açar sözlər:** Xəzər dənizi, xəzərsahili dövlətlər, Həştərxan bəyannaməsi, Sovet-İran müqavilələri, hərbi mövcudluq, silahlı qüvvələr, hərbi gəmilər, Türkmənçay müqaviləsi, üçüncü dövlətlər, beynəlxalq təhlükəsizlik, konvensiya.

Xəzərsahili dövlətlərin qəbul etdikləri ikitərəfli və çoxtərəfli rəsmi aktlarda “tərəflərin Xəzər dənizində hərbi fəaliyyətinin prinsipləri” anlayışı konkret termin olaraq yoxdur. Bu anlayış razılaşdırılan rəsmi sənəddə ilk dəfə olaraq, o da konkret termin kimi yox, məzmunca Xəzəryanı ölkə dövlət başçılarının 2014-cü il oktyabr ayında Həştərxanda keçirilən IV sammitinin yekunlarına dair Siyasi Bəyannamədə “tərəflərin Xəzər dənizində fəaliyyətləri onlar arasında razılaşdırılmış prinsiplər əsasında həyata keçiriləcək” şəklində ifadə edilib.(4)

“Xəzərsahili dövlətlərin Xəzər dənizində fəaliyyətlərinin onlar arasında razılaşdırılmış

prinsiplər əsasında həyata keçirilməsi" müstəqil norma kimi dənizdə fəaliyyəti dövlətlərarası münasibətlər səviyyəsində tənzimləyən ümumi prinsiplər kateqoriyasına daxildir. Lakin konkret halda Həştərxan Bəyannaməsində göstərilən müddəadan dərhal sonra "o cümlədən" yazılaraq konkret prinsiplər sadalanır (4) ki, bu da mətndə həmin ifadənin ümumi prinsip mənasında deyil sadalananların ümumiləşdirici adı kimi istifadə olunduğunu göstərir.

Sənəddə sadalanan prinsiplər 19 bənddə verilir ki, onlardan bir qismi eyni zamanda dənizdə fəaliyyətin bütün növlərinə aid olduğuna görə (dövlətlərin suverenliyi, ərazi bütövlüyü, müstəqilliyi və suveren bərabərliyi; güc tətbiq etməmə və ya güclə hədələməmə; qarşılıqlı hörmət və əməkdaşlıq; Xəzər dənizindən sülh məqsədləri üçün istifadə etmə, onun sülh, mehriban qonşuluq və əməkdaşlıq zonasına çevrilməsi; Xəzər dənizi ilə bağlı bütün məsələlərin sülh yolu ilə həll edilməsi; Xəzər regionunda təhlükəsizlik və stabilliyin təmin edilməsi və s.) onların həm də hərbi fəaliyyətdə əsas götürüləcəyi özü –özlüyündə nəzərdə tutulur. Lakin Həştərxan Bəyannaməsi prinsipləri içərisində yalnız və konkret olaraq hərbi fəaliyyətə aid məsələlər yer alır ki, bu da onların ümumi sıradan ayrılaraq "hərbi fəaliyyətin prinsipləri" kimi təhlil və şərh edilməsinə imkan verir.

Sənəddə aşağıdakı "xalis" hərbi fəaliyyət prinsiplərini ayırmaq mümkündür. 1. Xəzər dənizində Tərəflərin stabil silahlar balansının təmin edilməsi, Hərbi quruculuğun bütün tərəflərin maraqlarını nəzərə alan ağlabatan kifayətlilik hüdudları daxilində həyata keçirilməsi, biri-birlərinin təhlükəsizliklərinə zərər vurulmaması. (4-cü bənd) 2. Regional təhlükəsizlik və stabilliyin möhkəmləndirilməsi üzrə birgə səylərə müvafiq olaraq hərbi fəaliyyət sahəsində razılaşdırılmış etimad tədbirlərinə öncədən məlumluq və şəffaflıq ruhunda əməl edilməsi.(5-ci bənd) 3. Xəzər dənizində Tərəflərə məxsus olmayan silahlı qüvvələrin mövcud olmaması. (6-cı bənd) 4. Milli suverenitet altında olan dəniz məkanı hüdudları xaricində hər bir tərəfin gəmiçilik azadlığı (8-ci bənd) 5.Xəzər dənizində üzmənin, ona girişin və çıxışın müstəsna olaraq sahilyanı dövlətlərin bayrağı altında olan gəmilər tərəfindən həyata keçirilməsi.

Bir cəhəti göstərmək lazım gəlir ki, Həştərxan Bəyannaməsində göstərilən prinsiplər tərəflərin Xəzər dənizindəki fəaliyyətlərində, o cümlədən, hərbi fəaliyyətlərində əsas götürülən bütün prinsipləri yox, artıq razılaşdırıldığı bəyan edilənləri əhatə edir. Odur ki, bu prinsiplərin əhatəsinin hazırda müzakirəsi davam etdirilən, və ya gələcəkdə müzakirə çıxarılacaq yeniləri ilə tamamlanacağı istisna edilmir. Məsələn, Bəyannamənin 11-ci bəndindən belə görünür ki, Xəzər dənizindən digər dənizlərə, dünya okeanına və geriyə azad çıxış hüququnun olması və ya olmaması məsələsi hərbi gəmilərə münasibətdə razılaşdırıl-

mayıb və ya açıq saxlanılıb. Belə ki, həmin bənddə tərəflərin gəmilərinin Xəzər dənizindən digər dənizlərə, dünya okeanına və geriyə azad çıxış hüququ "tərəflərin ticarət və iqtisadi inkişaf məqsədilə qanuni tranzit maraqları nəzərə alınaraq", şərti çərçivəsində təsbit edilir ki, bu da indiki mərhələdə bu hüququn yalnız mülki gəmilərə aid olduğunu anlamına gəlir. Sənədin 19-cu bəndində mülki gəmilərin ICAO (International Civil Aviation Organization) qaydalarına müvafiq uçuş azadlığı nəzərdə tutulur və beləliklə Xəzər dənizinin hava məkanının istər sahilyanı, istərsə də üçüncü ölkələrin hərbi hava qüvvələri təyyarələrinə münasibətdə rejimi qeyri-müəyyən qalır. Xəzər akvatoriyasının ümumi su məkanı üzərindəki hava məkanının statusu və da açıq qalıb.

Sənədin mətnində göstərilən hərbi fəaliyyət prinsipləri okean, dəniz və göllərdə hərbi mövcudluqla bağlı, habelə hərbi təhlükəsizliklə əlaqədar müxtəlif saziş və müqavilələrdən və yaxud beynəlxalq təhlükəsizlik hüquq doktrinasından götürülən anlayış və terminlərdən ibarətdir ki, onların əksəriyyəti məcəlləşdirilmədiyinə və odur ki, Xəzərə münasibətdə heç bir məcburi hüquqi əhəmiyyətə malik olmadıqlarına görə müxtəlif cür tövsif və şərh olunur və praktikada tətbiqi ətrafında çoxlu sayda mübahisələr mövcuddur. Həştərxan sammitindən sonra verilən şərhlər əsasən bu məsələlərin dövlət başçıları səviyyəsində artıq razılaşdırıldığı və yerdə qalan işin onların (həmin prinsiplərin) Xəzərin hüquqi statusuna dair Konvensiyaya daxil edilməsi ilə bağlı texniki xarakterli məsələlər kimi izah edilir. (6) Lakin real praktika "texniki xarakterli" işin heç də sadə problem olmadığını ortaya qoyur.Xəzər hüququna dair qəbul edilən digər sənədlərin təcrübəsi göstərir ki, Xəzərin təkmilləşdirilmiş beynəlxalq hüquqi statusunu təsbit etməli olan Konvensiya qəbul edilsə belə onun bir çox müddəaları, o cümlədən və xüsusən dənizdə hərbi fəaliyyətin əsasına qoyulan prinsiplər barədəki müddəalar faktiki olaraq çərçivə xarakterli olacaq və bunun nəticəsində də həmin müddəaların tətbiqi və şərhi ilə bağlı fikir ayrılıqları, müxtəlif rəylər, diskussiyalar saxlanacaq və onların ətrafında permanent olaraq beynəlxalq mübahisələr yaranacaqdır. Hətta bu normalara dair konkret sənədlərin qəbul edilməsi belə məsələni birdən birə tam həll edə bilməz və etməyəcəkdir. Belə ki, dəyişən geopolitik situasiyaların yeni maraqlar toqquşması yaradacağı bunun da öz növbəsində yeni mübahisələr doğuracağı, və bu səbəbdən beynəlxalq təhlükəsiziliyin qorunub saxlanması zərurətinin bu məsələləri daim aktual saxlayacağı şübhə doğurmur. Bu baxımdan istər artıq razılaşdırıldığı bildirilən, istərsə də müzakirə mərhələsində olan və ya potensial olaraq müzakirə ediləcəyi güman edilən prinsiplərin hər birinin beynəlxalq hüquq elminin bazasına əsaslanaraq təhlili və şərhi həm hazırda müzakirə edilən Konvensiya layihəsi üzərində

işə kömək göstərilməsi, həm də Konvensiyanın qəbul edilib qüvvəyə minməsindən sonrakı dövrdə regional və qlobal təhlükəsizliyin təminatı baxımından ciddi nəzəri və praktik aktuallıq kəsb edir.

Bu məqalədə qeyd olunan problem Xəzər dənizində "tərəflərə məxsus olmayan silahlı qüvvələrin mövcud olmaması" prinsipi nümunəsində göstərilir və araşdırılır.

Hesab edirik ki, araşdırmanı "tərəflərə mənsub olmayan silahlı qüvvələrin Xəzər dənizində mövcud olmaması prinsipi" formal hüquqi baxımdan Xəzərə dair "müqavilə praktikasında təklif olunan yeni normadır" tezisinin təhlilindən başlamaq mümkündür. Bu tezisin irəli sürülməsinin əsası olaraq aşağıdakı dəlillər göstərilə bilər. Birincisi,doktinada özü-özlüyündə məlum məsələ kimi qəbul edilir ki, Xəzər dənizində hərbi və ya digər mövcudluğun qaydalarını müəyyən edən qüvvədə olan beynəlxalq-hüquqi sənədlər 1921-ci il 26 fevral tarixli RSFSR – Persiya müqaviləsi və SSRİ və İran arasında 25 mart 1940-cı il tarixli Ticarət və Dənizçilik haqqında müqavilələrdir və bu müqavilələr də üçüncü ölkələrin bu gölün akvatoriyasında hərbi mövcudluğunu qadağan edir. Lakin, geniş yayılmış təsəvvürlərin əksinə olaraq 1921-ci il RSFSR və Persiya arasındakı müqavilə mətnində Xəzər dənizində üçüncü ölkələrin hərbi mövcudluğunu, o cümlədən üçüncü ölkələrin bayrağı altındakı gəmilərin (həm hərbi, həm də kommersiya gəmilərinin) üzməsini qadağan müddəalar ümumiyyətlə yoxdur. 1921-ci il müqaviləsinin 1828-ci il Türkmənçay müqaviləsinin və müvafiq olaraq həmin müqavilənin Xəzər dənizində hərbi dəniz gəmiçiliyinə aid, olan və İranı Xəzərdə hərbi donanma saxlamaq hüququndan məhrum edən 8–ci maddəsinin ləğv olunduğu elan edilən 11-ci maddəsi də müqavilə tərəflərinin hər birinin, bərabər şəkildə, o cümlədən İranın Xəzər dənizində öz bayraqları altında azad üzmə hüququ təsbit edilir. (2) 1921-ci il Sovet – İran müqaviləsinin təhlükəsizlik məsələlərini tənzimləyən 5-7-ci, habelə cəmi 26 olan bütün digər maddələrində də Xəzər dənizində üçüncü dövlətlərin hərbi mövcudluğunu, o cümlədən hərbi gəmilərinin üzməsini qadağan edən hər hansı müddəa əks olunmayıb. Müqayisə üçün, Türkmənçay müqaviləsinin 8-ci maddəsində İrana Xəzərdə donanma saxlamaq hüququndan məhrum edən müddəa "hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilərlər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz" (9) şəklində yazılıb. 1921-ci il müqaviləsinin 5-ci maddəsinin 3-cü bəndi tərəflərin ərazilərində üçüncü dövlətlərin qoşunları və silahlı qüvvələrinin olmasına yol verilməməsi müddəası var, lakin müqavilə bir tərəfdən bu digər müqavilə tərəfinin sərhədləri, maraqları və təhlükəsizliyi üçün təhdid yarandığı hal, digər tərəfdən isə "öz ərazilərində" qeyd-şərtləri ilə məhdudlaşdırıb.

Müqavilənin təhlükəsizliklə bağlı 6-cı maddəsinin Xəzər dənizinə tətbiqinə xüsusi olaraq ayrıca 7-ci maddənin həsr olunması göstərir ki, Xəzər dənizi akvatoriyası müqavilə bağlanan dövrdə tərəflərin əraziləri kimi baxılmırdı, və odur ki, 5-ci maddənin 3-cü bəndi Xəzər dənizinə şamil edilə bilməz. 1921-ci il müqaviləsində Xəzər dənizində təhlükəsizlik məsələlərinin əlahiddə xarakteri müqavilənin 6-cı maddəsinin tətbiqi ilə ilə bağlı məsələnin İran donanması gəmiləri ekipajı tərkibində olmalarından Rusiyaya qarşı dost olmayan məqsədlərlə istifadə edən üçüncü dövlət vətəndaşlarının olması şəklində ifadə edilməsi və bu vəziyyətdə Rusiyanın hərəkətinin yalnız onları İran donanması gəmisi heyətindən uzaqlaşdırılmasını tələb etmək hüququna malik olması ilə məhdudlaşdırılmasında da ifadəsini tapıb.

Xəzər dənizində müstəsna olaraq SSRİ və İran bayrağı altında üzən gəmilərin ola bilməsi qaydası və beləliklə Türkmənçay müqaviləsi ləğv edildikdən sonra üçüncü dövlətlərin bayraqları altında gəmilərin, o cümlədən hərbi gəmilərinin üzməsini qadağan edən müddəa 1931-ci 27 oktyabr tarixli SSRİ və İran arasında Məskunlaşma, ticarət və dənizçilik haqqında Konvensiyanın XVI maddəsində təsbit edilib (3) və daha sonra 27 avqust 1935-ci il tarixli ticarət və dənizçilik müqaviləsinin (8) XIV və hazırda qüvvədə olduğu bildirilən 25 mart 1940-cı il tarixli Ticarət və dənizçilik haqqında müqavilənin 13-cü maddəsində (7) əks olunub.–"Razılığa gələn tərəflər şərtləşir ki, Rusiya Sosialist Federativ Sovet Respublikası və Persiyaarasnda 26 fevral 1921-ci il tarixli Müqavilədə elan edilmiş prinsiplərə uyğun olaraq Xəzər dənizinin bütün ərazisində yalnız Sovet Sosialist Respublikaları İttifaqına və İrana və ya Razılığa gələn Tərəflərin vətəndaşlarına, ticarət və nəqliyyat təşkilatlarına məxsus olan və müvafiq olaraq Sovet Sosialist Respublikaları İttifaqı və ya İranın bayraqları altında üzən gəmilər ola bilər."

1940-cı il müqaviləsində dolayısı da olsa Xəzərsahili olmayan dövlətlərin gəmilərinin öz bayraqları altında Xəzər akvatoriyasında üzməsini qadağan edən qayda üçüncü dövlətlərin silahlı qüvvələrinin mövcud olmaması prinsipinin forması sayıla bilməzmi? Hesab edirik ki, konkret hüquqi və hüquqi siyasi mətnlər çərçivəsində və hallarda işləndiklərinə görə sayıla bilməz. Belə ki, Həştərxan sammiti Bəyannaməsində" Xəzər dənizində tərəflərə məxsus olmayan silahlı qüvvələrin mövcud olmaması" və "Xəzər dənizində üzmənin, ondan/ona keçmənin müstəsna olaraq Tərəflərdən birinin bayrağı altında olan gəmilər tərəfindən həyata keçirilməsi" müstəqil prinsiplər kimi fərqli , müvafiq olaraq 6-cı və 10-cu bəndlərdə verilib.

Sənədlərin öyrənilməsi göstərir ki, 2014-cü ildə Həştərxan sammitində razılaşdırıldığı bəyan edilən prinsiplərin əksəriyyəti hələ 2003-cü ilin fevralından əvvəllərindən müzakirəyə təqdim edilib. 2001-ci ildə Rusiya

Federasiyası tərəfindən hazırlanıb təqdim olunan və Xəzərə dair danışıqlar üzrə və Xüsusi İşçi qrup tərəfindən rəsmən müzakirəyə qəbul edilmiş Xəzərin hüquqi statusuna dair Konvensiya layihəsində yuxarıda göstərilən prinsiplər (Xəzərsahili dövlətlərə məxsus olmayan gəmilərin Xəzər dənizində mövcud olmaması və Xəzərsahili dövlətlərə məxsus olmayan silahlı qüvvələrin Xəzər dənizində mövcud olmaması – V. H.) ayrı-ayrı müstəqil anlayışlar kimi müvafiq maddənin müxtəliv bəndələrində verilib. Bu materialları ilk dəfə olaraq elmi dövriyyəyə daxil etmiş Azərbaycan alimi R.Məmmədov yazır ki, layihənin "mövcud Konvensiyada tərəf olmayan dövlətlərin bayrağı altında üzən gəmilərə (hərbi, həm də mülki gəmilər nəzərdə tutulur – R. M.) Xəzər dənizinə giriş-çıxış hüququ verilməməsi barədə 3-cü maddəsinin 8-ci bəndi ilə bağlı danışıq aparan tərəflər arasında fikir ayrılığı yaranmadı və bu maddə razılaşdırıldı. (5) Lakin həmin maddənin " Tərəflərin Xəzər dənizində fəaliyyəti Tərəflərə məxsus olmayan silahlı qüvvələrin mövcudluğuna yol verilməməsi prinsipi əsasında həyata keçiriləcəkdir" (3-cü maddənin 2-ci bəndi) müddəsı ətrafında dərhal fikir ayrılığı meydana çıxdı. Məsələnin bu cür qoyuluşu ilə dərhal üç Xəzəryanı dövlətlər: İran, Rusiya və Türkmənistan müsbət mövqedən çıxış etdilər.Maraqlıdır ki, Qazaxıstan bütövlükdə bu punkt barədə öz mövqeyini sonraya saxladı, Azərbaycan isə onun Konvensiya layihəsinə daxil edilməsinə etiraz etdi. (5)

Xəzər dənizində sahilyanı olmayan dövlətlərin silahlı qüvvələrinin mövcud olmaması prinsipinin Xəzərin müqavilə praktikasında formal hüquqi baxımdan yeni müddəa kimi baxılması onun geniş və sərbəst formal məntiqi şərhinə imkan verir ki, bu da qüvvəyə minmiş müqavilə mətninə daxil olma və rəsmi tövsiflərə qədərki mərhələdə tərəflərin mövqelərinin əsaslandırmaq və ya əsassız olduğunu göstərmək üçün istifadə oluna bilər. Mücərrəd görünən yuxarıdakı mülahizənin mənasını və əhəmiyyətini göstərmək üçün hüquq doktrinasında hərbi mövcudluq, hərbi dəniz mövcudluğu və silahlı qüvvələrin mövcudluğu anlayışları arasında əlaqələrlə bağlı qərarlaşmış təriflərə və onların Xəzər dənizində sahilyanı olmayan dövlətlərin silahlı qüvvələrin mövcud olmaması prinsipinə proyeksiyasına baxaq. Q.S.Qorşko və Q.M.Melkova görə "Hərbi dəniz mövcudluğu hərbi mövcudluğun, yəni xarici silahlı qüvvələr kontingentinin (quru qoşunları, hərbi-hava qüvvələri, hərbi-dəniz qüvvələri) başqa dövlətlərin ərazilərində və dünya okeanı rayonlarında olmasının tərkib hissəsidir. (1) Göründüyü kimi müəlliflər hərbi mövcudluğu silahlı qüvvələr kontingentinin (quru qoşunları, hərbi-hava qüvvələri, hərbi-dəniz qüvvələri) xarici dövlət ərazisi və dünya okeanı rayonlarında olması kimi izah edirlər və hərbi mövcudluq və silahlı qüvvələr mövcudluğu terminlərini sinonimlər kimi işlədilirlər. Bu baxımdan su hövzələrinə (göl, dəniz, dünya okeanı ra-

yonları) nəzərən hərbi mövcudluq hərbi-dəniz mövcudluğu, hərbi-dəniz mövcudluğu isə öz növbəsində hərbi gəmilərin xarici dövlətlərin daxili-ərazi sularında və ya beynəlxalq sularda olması və praktik fəaliyyət göstərmələri kimi başa düşülür. Bu baxışdan çıxış edilsə Xəzər dənizində tərəf olmayan sulahlı qüvvələrinin mövcud olmaması prinsipi Xəzər dənizində tərəf olmayan dövlətlərin bayrağı altında üzən hərbi gəmilərin mövcud olmaması anlamına gəlir və bu məna çərçivəsində qəbul edilməlidir.

Lakin, Xəzərdə hərbi fəaliyyətin hüquqi normativ bazasına dair müzakirə edilən sənədlər bir sıra Xəzəryanı dövlətlərin, konkret olaraq Rusiya və İranın Xəzərə münasibətdə digər sahələrdə olduğu kimi hərbi mövcudluq məsələlərində də müasir beynəlxalq hüquq və hüquq doktrinasından tamamilə fərqli düşüncə və anlayışlar ortaya qoyduqlarını göstərir.Hazırda əsas götürülən Xəzərin hüquqi statusuna dair Konvensiya layihəsində tərəf olmayan ölkələin silahlı qüvvələrinin olmaması prinsipinin təsir dairəsinə Xəzər akvatoriyası üzərindəki hava məkanının da daxil edilməsi bunun təzahürlərindən biridir.

Xəzər dənizində üçüncü ölkələrin silahlı qüvvələrinin mövcud olmaması prinsipinin ifrat genişləndirilmiş qavrayışı və təqdimi İranın 2003-cü ildə təklif etdiyi və Rusiya tərəfindən müdafiə edilən "Xəzər dənizində etimad və stabillik tədbirləri haqqında Saziş" layihəsinin altı bənddən ibarət 5-ci maddəsində ifadə edilib.5.1 bəndində göstərilir ki, "Xəzər dənizində üçüncü dövlətlərin hər hansı şəkildə hərbi-mövcudluğu qadağan edilir." Sazişin digər bəndlərində İrana görə "hər hansı formada hərbi mövcudluq" ifadəsinin nə demək olduğu konkretləşdirilir: Xəzəryanı dövlətlər "Xəzər dənizində öz gəmilərində və digər hərbi və qeyri-hərbi vasitələrində qeyri –Xəzər dövlətlərinin hərbi personalından istifadədən çəkinməlidirlər" (5.2.); "Xəzəryanı dövlətlərin bayrağı altında naviqasiyaya malik hər hansı üzən vasitə hərbi obyekt sayılacaqdır."(5.3.); "Tərəflər Xəzər dənizində sahilyanı olmayan ölkələrlə birlikdə manevr və hərbi təlimlər keçirməkdən çəkinəcəklər."(5.4.) (10)

Beləliklə məlum olur ki, İranın və Rusiyanın mövqeyinə görə qeyri Xəzəryanı dövlətlərin Xəzəryanı dövlətlərlə Xəzər dənizini də əhatə edən hər hansı hərbi əməkdaşlığı həmin qeyri Xəzər dövlətinin və ya dövlətlər qrupunun Xəzər dənizində hərbi mövcudluğu anlamına gəlir.

İranın və Rusiyanın bu mövqeyi 2000-ci illərin əvvəllərindən Xəzər hövzəsinə hərbi nüfuz etmək istəyən ABŞ və NATO-ya qarşı, yönəlib və Xəzər hövzəsinə üçüncü qüvvələrin , o cümlədən ABŞ, Türkiyə, NATO qüvvələrinin gəlməsinin qarşısını almaq niyyəti daşıyır. Lakin, Rusiya və İranın bu mövqeyi Xəzər dənizindəki neft və qaz mənafelərini, milli təhlükəsizlik, o cümlədən dənini təhlükəsizliyini müdafiə etmək istəyən və bunun üçün qərb dövlət-

ləri, Türkiyə və NATO ilə beynəlxalq hüquqa və daxili qanunvericiliklərinə müvafiq surətdə hərbi əməkdaşlıqda maraqlı Azərbaycan Respublikası, Qazaxıstan və Türkmənistanın mövqeləri ilə üst – üstə düşmür. İran və Rusiyanın təqdim etdiyi mənada qəbul edilirsə Xəzər dənizində tərəflərə məxsus olmayan silahlı qüvvələrin mövcud olmaması prinsipi faktiki olaraq digər üç Xəzəryanı dövlətlərin suveren hərbi fəaliyyət hüquqlarını məhdudlaşdırır, həmin dövlətlərin o cümlədən Azərbaycan Respublikasının qeyri-Xəzər dövlətləri və hərbi bloklarla ikitərəfli və çoxtərfli hərbi əməkdaşlıqları qanunsuz vəziyyətə salır və onlara qarşı müdaxilə mexanizminə çevrilir. Odur ki,konkret məsələ ilə bağlı axırıncı üç dövlətin mövqeyinin ən azı tərəflərə məxsus olmayan silahlı qüvvələrin Xəzər dənizində mövcud olmaması prinsipininin tərəflərə məxsus olmayan dövlətlərin bayrağı altında üzən hərbi gəmilərin Xəzər dənizində mövcud olmaması şəklində təsbit edilməsinə və ya şərh edilməsinə nail olmaqdan ibarət olması məqsədəuyğun olardı. Həm qüvvədə olan beynəlxalq hüquq, həmim doktrina, həm də qüvvədə olduğu bildirilən 1921 və 1940-cı illər sovet – iran müqavilələri belə mövqe əsaslandırılmasına imkan verir. Yekun olaraq, Xəzər dənizində tərəflərə məxsus olmayan silahlı qüvvələrin mövcud olmaması prinsipi ətrafında diplomatik və hüquqi mübarizənin hələ uzun müddət davam edəcəyini proqnozlaşdırmaq olar.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Горшков Г. С., Мелков Г.М. Военное мореплавание и стратегическое равновесие: международно–правовые аспекты. М.,1986, С.56-58.
2. Документы внешней политики СССР. Т. III. М., 1959. С. 536-544
3. Документы внешней политики СССР. Т. XIV. М., 1968. С. 595-606
4. Заявление президентов Азербайджанской Республики, Исламской Республики Иран, РеспубликиКазахстан, Российской Федерации и Туркменистана //http://kremlin.ru/supplement/4754Заявления глав государств-участников IV Каспийского саммита для прессы // URL: www.kremlin.ru/events/president/transcripts/46689
5. Конвенция о правовом статусе Каспийского моря //Архив МИД Азербайджанской Республики // Мамедов (Маммадов) Р. Ф.Международно правовой статус Каспийского моря: вчера, сегодня, зафтра. Монография. Баку, Азернешр, 2006. С. 370
6. Микерин. Д. Каспийский узел: миссия выполнима. https//interaffairs.ru/ printable/ 14153
7. Сборник действующих договоров, соглашений и конвенций, заключенных СССР с иностранными государствами. Вып.Х. М., 1955С. 56-71
8. Собрание законов и распоряжений Рабоче-Крестьянского Правительства Союза Социалистических Республик. Отд. II, №7. 13 февраля 1937 г. С. 108-130
9. Советско-Иранские отношения. М., 1946, с.29-35
10. Соглашение о мерах по созданию доверия и стабильности на Каспийском море. Проект Исламской Республики Иран //Архив МИД Азербайджанской Республики // Мамедов Р. Военно-политическая активность в акватории Каспийского моря в постсоветский период (международно-правовые аспекты) // Центпальная Азия и Кавказ, № 4(52), 2007, с 93-94

## ПРИНЦИП НЕПРИСУТСТВИЯ НА КАСПИИ ВООРУЖЕННЫХ СИЛ, ПРИНАДЛЕЖАЩИХ НЕПРИКАСПИЙСКИМ ГОСУДАРСТВАМ

**Вагиф Гусейн**

В статье докторанта Института права Национальной академии наук Азербайджана Гусейна Вагифа Панах оглу с международного правового аспекта исследуется принцип неприсутствия на Каспии вооруженных сил, принадлежащих неприкаспийским государствам; автор отмечает, что принцип неприсутствия на Каспии вооруженных сил третьих стран в представленной ныне форме является новой нормой с формально-правовой точки зрения в контрактной правовой практике Каспийского моря, понятия военного присутствия, присутствия вооруженных сил, военно-морского присутствия и присутствия военных кораблей и классическая правовая доктрина о связях между ними резко отличаются от действующей концепции международного права и понятий, а также противоречат этой концепции и понятиям. Проблема актуализируется в связи с соперничеством с одной стороны России и Ирана, с другой стороны США, Турции и НАТО на мировом и региональном уровне, в том числе на уровне Каспийского региона, а также в связи с действиями Азербайджана, Казахстана и Туркменистана по обеспечению национальной безопасности, в том числе по обеспечению морской безопасности; по этой причине она одновременно обладает юридической, геополитической и военно-стратегической природой и связана с международными отношениями и внешней политикой, а также с вопросами межгосударственного военного сотрудничества.

**Ключевые слова:** *Каспийское море, прикаспийские страны, Астраханская декларация, Советско-иранские договоры, военное присутствие, вооруженные силы, военные корабли, Туркменчайский договор, третьи государства, международная безопасность, конвенция.*

## THE NON-PRESENCE PRINCIPLE OF ARMED FORCES OF NON-LITTORAL STATES IN THE CASPIAN SEA

**Vaqif Quseyn**

It is researched the non-presence principle of armed forces of non-littoral states in the Caspian Sea from international law aspect in the article. The author points out that the introduced way of non-existence principle of the third states' armed forced in the Caspian Sea is the new rule as regards the agreement-law practice of the Caspian Sea. The conceptions as military presence, the presence of the armed forces, naval presence and the presence of warships and the classical law doctrine regarding them quite differ from the conceptions and percepts that is in force and contradict with those ones. The problem becomes actual because of the global and regional competition between Iran and Russia and US, Turkey, NATO, including the competition of military-political at level of the Caspian region, moreover, because of the acts done by Azerbaijan, Kazakhistan and Turkmenistan regarding their interest to provide their national security and naval security.

**Key words:** *Caspian Sea, Caspian States, Astrakhan declaration, Soviet-Iranian treaties, military presence, armed forces, warships, Treaty of Turkmenchay, the third states, international security, convention.*

*UOT 343.61*

# CİNAYƏTKAR QRUP HALINDA TÖRƏDİLƏN QƏSDƏN ADAM ÖLDÜRMƏ CİNAYƏTLƏRİNƏ GÖRƏ CƏZA TƏYİNİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Əliyev Nazim Kazım oğlu,**
**AMEA Hüquq İnstitutunun «Cinayət hüququ və cinayət prosesi» şöbəsinin aparıcı elmi işçisi, hüquq üzrə fəlsəfə doktoru, dosent.**

e-mail: valiev.i@rambler.ru

*Məqalədə məhkəmə təcrübəsinin materialları əsasında cinayətkar qrup halında törədilən qəsdən adam öldürmə cinayətlərinə görə cəza təyininin bəzi məsələləri nəzərdən keçirilir. Bu növ cinayətlərə görə cəza təyini zamanı yol verilən səhvlər müəyyən edilir, bu zaman CM-nin bəzi müddəalarının, o cümlədən 62 və 70-ci maddələrinin tətbiqinin mümkün olub olmamasına dair aydınlıq gətirilir, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər irəli sürülür.*

**Əsas sözlər:** qəsdən adam öldürmə, cinayətkar qrup, cəzanın təyini, cəzanı yüngülləşdirən hallar, cəzanı ağırlaşdıran hallar, şərti məhkum etmə.

Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli qanunu ilə təsdiq edilən və hazırda qüvvədə olan Cinayət Məcəlləsində (CM) rolların sadə bölgüsünün olduğu iştirakçılıqdan fərqli olaraq, qrup tərəfindən törədilən cinayətlərin daha yüksək ictimai təhlükəliliyə malik olması təsbit olunmuşdur. Belə ki, CM-nin 34.8-ci maddəsində iştirakçılığın formaları sayılan bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədilən əməllərin cinayət qanununda nəzərdə tutulan əsaslara və hədlərə uyğun olaraq daha ciddi cəzalara səbəb olması müəyyən olunmuşdur. Cinayətin iştirakçılığın qabaqcadan əlbir olmayan bir qrup şəxs forması istisna olmaqla, qalan bütün formaları ilə törədilməsi həmçinin cəzanı ağırlaşdıran halların siyahısında nəzərdə tutulmuşdur (CM-nin 61.1.3-cü maddəsi). Bundan əlavə, CM-nin Xüsusi hissəsinin xeyli normalarında iştirakçılığın formaları məsuliyyəti ağırlaşdıran hallar qismində təsbit olunmuşdur.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Qəsdən adam öldürmə işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2002-ci il 12 dekabr tarixli 3 saylı qərarının 18-ci bəndinə əsasən qəsdən adam öldürmə cinayətində CM-nin 120.2-ci maddəsinin bir neçə tövsifedici əlaməti olduqda, əməl bu əlamətlərin hamısı ilə tövsif edilməli,

cəza isə hər bir tövsifedici əlaməti nəzərdə tutan maddələrlə ayrı-ayrılıqda bir neçə dəfə deyil, əlamətlərin hamısı sadalanmaqla bir dəfə təyin edilməlidir (6, s. 225). Məhkəmələr tərəfindən bu qaydaya, ümumən, riayət olunduğunu deyə bilərik.

Misal gətirək. S.R. və İ.R. qabaqcadan əlbir olaraq qrup şəklində A.N.-i qəsdən xüsusi amansızlıqla öldürməyə və talama məqsədi olmadan külli miqdarda ziyan vurmaqla qanunsuz olaraq zərərçəkmişin icarəyə götürdüyü maşını ələ keçirməyə görə məhkum edilmişlər. Belə ki, İ.R. 2008-ci ilin sentyabr ayında İ.M. ilə faktiki olaraq ər-arvad kimi yaşamağa başladıqdan sonra, əvvəllər yaxın münasibətdə olduğu qonşusu A.N. ilə intim əlaqədə olmaqdan imtina etmişdir. İ.R. A.N.-in ondan əl çəkmədiyini və onu narahat etdiyini qardaşı S.R.-a bildirmişdir. Bacısının A.N.-lə yaxın münasibətdə olmasından əvvəllər də şübhələnən S.R. A.N.-i öldürmək qərarına gəlmiş, fikrini bacısına deyərək bu barədə onunla razılaşmışdır. Əvvəlcədən razılaşdıqları kimi, 16 dekabr 2008-ci ildə S.R. saat 23 radələrində İ.R. ilə birlikdə “Azsamand” markalı 90 AC-578 dövlət nömrə nişanlı avtomaşını taksi kimi işlədən A.N.-in həmişə sərnişin gözlədiyi “20 Yanvar” metro stansiyasının yaxınlığında yerləşən “Ailə-Sağlamlıq” mərkəzinin qarşısındakı dayanacağa gəlmiş və A.N.-ə bağa getmək istədiklərini bildirmişlər. S.R. qabaq oturacaqda sürücünün yanında, İ.R. isə arxa oturacaqda sağ tərəfdə əyləşmişdir. Onlar avtomaşınını Binəqədi rayonu, Fatmayi bağlar massivindəki dəniz ətrafı sahədə hər üç tərəfi daş hasarla əhatə edilmiş yarımçıq bağ evləri olan dalan tipli sakit əraziyə sürdürmüşlər. Maşının salonunda S.R. A.N.-dən bacısı İ.R. ilə intim münasibətdə olduğunu soruşduqda, sonuncu bunun yalan olduğunu demişdir. İ.R. A.N.-nin onunla zor tətbiq etməklə cinsi əlaqədə olduğunu bildirdikdə, S.R. əvvəlcədən götürdüyü bıçaqla A.N.-in sol döş nahiyəsindən və bədəninin digər nahiyələrindən zərbələr endirmişdir. A.N. maşından düşüb qaçmaq istəyərkən S.R. onun qarın altı nahiyəsindən təpiklə vuraraq yerə yıxmış, bıçaqla döş qəfəsi nahiyəsinə zərbələr endirmiş, İ.R isə mişar daşı parçası ilə ona müxtəlif bədən xəsarətləri yetirmiş və onu birlikdə qəsdən xüsusi amansızlıqla öldürmüşlər. Törətdikləri cinayətin izini itirmək məqsədilə S.R. və İ.R. A.N.-in meyitini hasarın dibinə sürümüş və üzərini müxtəlif məişət tullantıları ilə örtmüşlər. Bundan sonra onlar talama məqsədi olmadan zərərçəkmiş şəxsə külli miqdarda ziyan vurmaqla qanunsuz olaraq A.N-in icarəyə götürdüyü 13.000 manat dəyərində olan “Azsamand RX” markalı 90-AC-578 dövlət nömrə nişanlı avtomaşını ələ keçirmiş və onu idarə edib Bakı şəhəri, Biləcəri qəsəbəsində magistral yolun kənarında yerləşən maşın təmiri sexinin qarşısında saxlayaraq hadisə yerindən getmişlər.

Keçmiş Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 12 noyabr 2009-cu il tarixli hökmünə əsasən S.R. (1981-ci ildə anadan olmuş, ailəli, himayəsində 2 azyaşlı uşağı olan, orta təhsilli, əvvəllər məhkum olunmuş, işləməyən) Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.4, 185.3.2-ci maddələri ilə təqsirli

bilinib CM-nin 120.2.1, 120.2.4-cü maddələri ilə 14 il müddətinə, 185.3.2-ci maddəsi ilə 8 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, CM-nin 66.3-cü maddəsinə əsasən təyin olunmuş cəzalar qismən toplanılma yolu ilə birləşdirilməklə üzərində 15 il müddətinə azadlıqdan məhrum etmə cəzası, İ.R. (1979-cu ildə anadan olmuş, boşanmış, orta təhsilli, əvvəllər məhkum olunmamış, işləməyən) Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.4 və 185.3.2-ci maddələri ilə təqsirli bilinərək 120.2.1, 120.2.4-cü maddələri ilə 12 il müddətinə, 185.3.2-ci maddəsi ilə 6 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, CM-nin 66.3-cü maddəsinə əsasən təyin olunmuş cəzaların qismən toplanılması yolu ilə üzərində 13 il müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır (3).

Azərbaycan Respublikası CM-nin 57.2-ci maddəsinə əsasən cinayət törədərkən on səkkiz yaşı tamam olmamış şəxslərə ömürlük azadlıqdan məhrum etmə cəzası təyin edilmir. CM-nin 85.5-ci maddəsinə əsasən isə azadlıqdan məhrum etmə yetkinlik yaşına çatmayan məhkumlara on ildən çox olmayan müddətə təyin edilir. Məhkəmə təcrübəsində yetkinlik yaşına çatmamış şəxslər tərəfindən ağırlaşdırıcı hallarda, o cümlədən qrup halında törədilən qəsdən adam öldürmə cinayətlərinə görə bir qayda olaraq onlar üçün müəyyən olunmuş maksimum həddə cəza təyin edilir.

Misal gətirək. Gəncə Ağır Cinayətlər Məhkəməsinin 27 mart 2013-cü il tarixli hökmü ilə S.Z.E. qızı (29 mart 1997-ci ildə Gəncə şəhərində anadan olmuş, natamam orta təhsilli, subay, işsiz) Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.4, 120.2.9, 120.2.11 və 181.3.3-cü maddələri ilə təqsirli bilinib, CM-nin 120.2.1, 120.2.4, 120.2.9 və 120.2.11-ci maddələri ilə 10 il müddətinə, 181.3.3-cü maddəsi ilə 10 il müddətinə azadlıqdan məhrumetmə cəzalarına məhkum edilmiş, CM-nin 66.3 və 85.5-ci maddələrinə əsasən təyin edilmiş cəzaları qismən toplamaq yolu ilə cəzasını ümumi rejimli tərbiyə müəssisəsində çəkməklə 10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir. Həmin hökmlə həmçinin N.A.Q. qızı təqsirli bilinib məhkum edilmişdir.

Məhkəmənin hökmünə əsasən 24 avqust 1995-ci ildə anadan olmuş N.A.Q. qızı qonşusu Gəncə şəhəri, 3-cü mikrorayon, bina 2, mənzil 42 ünvanında yaşayan və yataq xəstəsi olan 08 aprel 1939-cu il təvəllüdlü M.Z.Ə. qızına köməklik etmək üçün həmin mənzildə müvəqqəti qalan yetkinlik yaşına çatmamış – 29 mart 1997-ci il təvəllüdlü, M.Z.Ə.-nın nəvəsi S.Z.E. qızı ilə 10 iyul 2012-ci il tarixdə saat 17 radələrində M.Z.Ə. qızının mənzilində görüşüb gələcək həyatlarını qurmaq üçün Bakı şəhərinə getmək qərarına gəlmiş və bu planı həyata keçirmək üçün M.Z.Ə.-nin pul və qızıl-zinət əşyalarını ələ keçirmək barədə razılaşmışlar. N.A.Q. sonuncuya yuxu dərmanı verib yatızdıraraq onun əmlakını gizli yolla ələ keçirməyi təklif etdikdə, Z.S.E. nənəsinin yuxudan oyandıqdan sonra pullarının oğurlanmasını bilib onları tutduracağını bildirərək buna etiraz etmişdir. Ona görə də onlar M.Z.Ə.-yə qarşı quldurluq, yəni onun mənzilindən

pul və qızıl zinət əşyalarını ələ keçirmək məqsədilə zərərçəkmişin həyatı və sağlamlığı üçün təhlükəli zorakılıqla basqın edib sonuncunu quldurluqla əlaqədar qəsdən öldürmək qərarına gəlmişlər. Bu məqsədlə S.Z.E. 11 iyul 2012-ci il tarixdə saat 05 radələrində N.A.Q. qızı ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında uzun müddət yataq xəstəsi və onlar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan, heç bir müqavimət göstərmək iqtidarında olmayan M.Z.Ə.-ni qəsdən öldürmək məqsədilə N.A.Q. yastığı sonuncunun üzünə sıxmış, bu zamanm əvvəlcədən götürdüyü bıçaq döşəmə üzərinə düşdüyündən Z.S.E. həmin bıçağı götürüb M.Z.E-nin qarın nahiyəsinə bir neçə zərbə endirmiş, bıçağın tiyəsi əyilmiş, bu vaxt M.Z.E-nin onu öldürməmək barədə yalvarışlarına məhəl qoymadan, sonuncuya əzab və iztirab verərək Z.S.E. mətbəxdəki masanın üzərində olan iki ədəd mətbəx bıçağını götürmüş, onlardan birini N.A.Q-ya vermiş, digəri ilə isə nənəsinin qarın nahiyəsinə yenidən bir neçə zərbə endirmiş, N.A.Q. Z.S.E.-nin əlindəki bıçağın tiyəsinin M.Z.E.-nin bədəninə tam girmədiyini gördükdə əlindəki bıçaqla M.Z.E-yə zərbə endirərək ona qarının ön səthində sağda dörd ədəd daxilə keçməklə qaraciyərin zədələnməsi, sağ said nahiyəsində bir ədəd, sağ döş vəzində və qarında çoxsaylı səthi deşilmiş yaralarla müşayiət olunan, yetirildiyi anda həyat üçün təhlükəli olub sağlamlığa ağır zərər vurmaya aid ağır bədən xəsarətləri yetirməklə aşkar surətdə köməksiz vəziyyətdə olan M.Z.E.-ni xüsusi amansızlıqla, quldurluqla əlaqədar qəsdən öldürərək həyatdan məhrum etmiş, daha sonra cinayət əməllərini davam etdirərək M.Z.E.-nın yatdığı döşəyin altındakı qara rəngli pul qabını və onun içindəki 650 manat məbləğində pulunu, sağ əl barmağındakı 76 manat dəyərində bir ədəd üzüyünü və qulağındakı 183 manat dəyərində bir cüt 583/585 əyyarlı 5,73 qram çəkidə qızıl sırğasını çıxararaq ələ keçirmişlər. Z.S.E.-nin müdafiəçisi cəzanın ağırlığından apellyasiya şikayəti versə də, Gəncə Apellyasiya Məhkəməsinin cinayət kollegiyası 20 iyun 2013-cü il tarixli qərarı ilə həmin hökmü dəyişdirməyərək öz qüvvəsində saxlamışdır (5).

Qrup tərəfindən törədilən qəsdən adam öldürmə cinayətlərində təqsirli olan şəxslərə CM-nin 62-ci maddəsi tətbiq edilə bilərmi? Fikrimizcə, CM-nin 62.1-ci maddəsi bu suala müsbət cavab verməyə imkan verir. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında» 2003-cü il 25 iyun tarixli 4 saylı qərarının 8-ci bəndinə əsasən CM-nin Xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş aşağı həddən də az cəza təyin edilməsi şəxs tərəfindən törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsini əhəmiyyətli surətdə azaldan müstəsna hallar mövcud olduqda, yaxud qrup halında törədilmiş cinayətin açılmasına fəal gömək göstərdikdə mümkündür. Bu zaman nəinki cinayətin məqsədi və motivi, habelə təqsirkarın cinayətin törədilməsində rolu, cinayəti törədərkən və ondan sonrakı davranışı nəzərə alınmalıdır (6, s. 233).

CM-nin 62-ci maddəsində istifadə olunan «müstəsna hallar» ifadəsi ilə bağlı vahid mövqe yoxdur. Bəzi müəlliflərə görə müstəsna hallar həm qanunda göstərilən cəzanı yüngülləşdirən hallar, həm də qanunda göstərilməyən, lakin cinayətin ictimai təhlükəliliyini azaldan hallar ola bilər (12, s. 111-112). Digər müəlliflərə görə isə sanksiyada nəzərdə tutulduğundan da yüngül cəza təyin etməyə əsas olan müstəsna hallar cəzanı yüngülləşdirən halların siyahısında nəzərdə tutulmamışdır (13, s. 227). Fikrimizcə, müstəsna hallar həm CM-nin 59-cu maddəsində nəzərdə tutulan, həm də qanunda göstərilməsə də, məzmununa görə məsuliyyəti yüngülləşdirə bilən hallardır. Eyni zamanda nəzərə almaq lazımdır ki, məhkəmə sanksiyada göstərilən cəzanın aşağı həddindən də az cəza təyin edərkən, sanksiyada alternativ qaydada təsbit olunmuş cəzalardan ağır növü seçməkdə haqlı deyildir. Məhkəmə əmələ görə sanksiyada göstərilməyən başqa yüngül cəza növünü də seçə bilər. Bu, adətən, sanksiyada ancaq bir əsas cəza növü nəzərdə tutulan normalar üzrə yol verilir.

CM-nin 62-ci maddəsində müstəsna hallardan biri kimi nəzərdə tutulmuş iştirakçılıqla törədilmiş cinayətin iştirakçısının həmin cinayətin açılmasına fəal kömək etməsi əlaməti CM-nin cəzanı yüngülləşdirən halları nəzərdə tutan 59.1.9-cu maddəsində də öz əksini tapmışdır. CM-nin 60-cı maddəsinə əsasən isə əməldə CM-nin 59.1.9 və 59.1.10-cü maddələrində göstərilən cəzanı yüngülləşdirən hallar mövcud olduqda və cəzanı ağırlaşdıran hallar olmadıqda, təqsirli şəxsə sanksiya hüdudunda maksimal həddə cəza təyin edilə bilməz. Beləliklə, qeyd edilən hal eyni zamanda həm cəzanı yüngülləşdirən, həm də müstəsna hal sayılır. O, birinci keyfiyyətində cəzanın yuxarı həddini, ikinci keyfiyyətində isə aşağı həddini korrektə edir. Hesab edirik ki, bu hal həm iştirakçılıqla və onun müxtəlif təzahür formaları ilə törədilən cinayətlərin açılması işinə, həm də cəza təyini zamanı məhkəmənin seçim imkanlarının genişlənməsinə kömək edir.

I instansiya məhkəməsinin 2007-ci il 19 yanvar tarixli hökmünə əsasən R.T.A. CM-nin 177.2.1, 120.2.1 və 120.2.6-cı maddələri ilə təqsirli bilinib 14 il müddətinə azadlıqdan məhrum etmə cəzasına, N.Y.C. CM-nin 120.2.1 və 120.2.6-cı maddələri ilə təqsirli bilinərək 13 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişlər. Belə ki, R.T.A. Ş.Ş.Ə. ilə cinayət əlaqəsinə girib, 2006-cı ilin dekabr ayında sürücü işlədiyi zavodun həyətində Z.İ.Q.-ya məxsus «Kamaz» markalı avtomaşından 200 AZM manat dəyərində olan stateri gizli olaraq talamışlar. R.T.A. bu cinayəti gizlətmək məqsədi ilə N.Y.C. ilə əlaqəyə girərək qabaqcadan əlbir olan bir qrup şəxs halında 13 dekabr 2006-cı ildə saat 23 radələrində Ş.Ş.Ə.-vi yenə də ehtiyat hissəsi oğurlamaq adı ilə həmin zavodun ərazisinə gətirmişlər. Burada R.T.A. çəkiclə Ş.Ş.Ə.-vin başından vurub onu yerə yıxmış, sonra çəkici N.Y.C.-va vermiş və hər ikisi çəkiclə Ş.Ş.Ə.-vin baş və digər nahiyələrinə həyat üçün təhlükəli olan xəsarətlər yetirərək

onu qəsdən həyatdan məhrum etmişlər.

R.T.A.-vin müdafiəçisi hökmdən apellyasiya şikayəti verərək göstərmişdir ki, öldürülən Ş.Ş.Ə. oğurluğu R.T.A. ilə birgə törətsə də, əlavə pul qazanmaq məqsədi ilə onu daim şantaj etmiş, bununla da R.T.A.-vi cıxılmaz vəziyyətə salmış və onu öldürməyə vadar etmişdir. R.T.A. etdiyi hərəkətlərdən peşmançılıq çəkmiş, məhkəmə istintaqının tam və hərtərəfli araşdırılmasına kömək etmiş, gənc, evli olmaqla, himayəsində heç bir yerdə işləməyən arvadı və 1 nəfər azyaşlı uşağı vardır, ailədə yeganə qazanc gətirən şəxsdir. Müdafiəçi buna görə hökmün dəyişdirilməsini, R.T.A. barəsində CM-nin 62-ci maddəsinin tətbiq edilməsini xahiş etmişdir. Bakı Apellyasiya Məhkəməsi 18 oktyabr 2007-ci il tarixli qərarla apellyasiya şikayətini təmin etməmişdir (9).

Bəzi hallarda isə məhkəmələr əsaslı olaraq bu növ cinayətlər üzrə CM-nin 62-ci maddəsini tətbiq edirlər. I instansiya məhkəməsinin 10 iyul 2009-cu il tarixli hökmü ilə H.Ə.E. (1987-ci ildə Rusiya Federasiyasının Volqoqrad şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, orta təhsilli, subay, əvvəllər məhkum olunmamış, işləməyən) Azərbaycan Respublikası CM-nin 120.2.1-ci maddəsi ilə təqsirli bilinib, barəsində CM-in 62-ci maddəsi tətbiq edilərək 10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdur. Həmin hökmlə həmçinin F.C.Ə. (1987-ci ildə Siyəzən şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, 7-ci sinif təhsilli, subay, əvvəllər məhkum olunmamış, işləməyən) Azərbaycan Respublikası CM-nin 120.2.1-ci maddəsi ilə təqsirli bilinib, barəsində CM-nin 62-ci maddəsi tətbiq edilərək 10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdur.

Məhkəmənin hökmünə əsasən H.Ə.E. və F.C.Ə. bir qrup şəxs halında digər şəxsi qəsdən öldürmüşlər. Belə ki, H.Ə.E. 14 dekabr 2008-ci il tarixdə saat 17 radələrində tanışı M.H.Ş. ilə sonuncunun kirayədə yaşadığı Xırdalan şəhəri, Quşçuluq yaşayış massivindəki həyət evində birlikdə cörək yedikdən sonra, M.H.Ş. biçaqla onu hədələyib şalvarını soyunmasını tələb edərək onunla cinsi əlaqədə olacağını (uşaqbazlıq) bildirdikdə, H.Ə.E. onun bu tələbindən imtina etmis və M.H.Ş.-in otaq yoldaşlarının evə gəlməsindən istifadə edərək oradan çıxıb Xırdalan şəhəri, Füzuli küçəsi 9 №-li evə gələrək M.H.Ş.-in ona qarşı etmək istədiyi hərəkətlər barədə kirayədə bir evdə qaldığı dostu F.C.Ə.-yə danışmışdır. M.H.Ş.-dən qisas almaq məqsədi ilə sonuncu ilə həmin günü saat 22 radələrində yaşadığı evlərinin yaxınlığında, 100 metr aralıda yerləşən çirkli su hövzəsinin yanında görüşmüşlər. Sərxoş halda olan M.H.Ş. əvvəllər də kişi cinsli şəxslərlə cinsi əlaqədə olduğunu deyib, onlarla da cinsi əlaqədə olmaq istədiyini bildirdikdə, onlar qisas məqsədi ilə bir qrup şəxs halında, əvvəlcə F.C.Ə., sonra isə H.Ə.E. arxadan M.H.Ş.-i əlləri ilə qucaqlayıb qaldıraraq başı üstə yerə çırpmış və hər ikisi yerə yıxılmış vəziyyətdə olan M.H.Ş.-in həyat üçün vacib orqanı olan başından və bədəninin digər

yerlərindən ayaqları və əlləri ilə zərbələr vurub, ona başın sağ alın və sol qaş nahiyyəsinin əzilmiş cırılmış yaraları, başın yumşaq toxumasının iç səthinə, beyin qişaları altına, beyin toxumasına, beyin mədəciklərinə, döş qəfəsinin sağ yarısının ön səthinin yumşaq toxumalarına qansızmalarla, həmçinin sağ tərəfli 2-ci qabırğanın sınığı ilə müşayiət olunan, həyat üçün təhlükəli, sağlamlığına ağır zərər vuran xəsarətlər yetirərək onu qəsdən öldürmüs və meyiti yaxınlıqdakı çirkli su hövzəsinə atıb getmişlər.

Sumqayıt Apellyasiya Məhkəməsinin 18 noyabr 2009-cu il tarixli qərarı ilə I instansiya məhkəməsinin H.Ə.E. oğlunun və F.C.Ə. oğlunun Azərbaycan Respublikası CM-nin 120.2.1-ci maddəsi ilə təqsirli bilinib məhkum edilmələrinə dair 10 iyul 2009-cu il tarixli hökmü dəyişdirilmiş, hökmün əsaslandırıcı hissəsindən birinci instansiya məhkəməsi tərəfindən cəzanı yüngülləşdirən hal kimi nəzərə alınmış "təqsirləndirilən şəxslərin cinayətin açılmasına fəal kömək etmələri barədə" müddəa xaric edilmişdir. Zərərçəkmiş şəxsin hüquqi varisi kassasiya şikayətində həmin qərarın dəyişdirilməsini, H.Ə.E. və F.C.Ə. barəsində CM-nin 120.2.1-ci maddəsinin sanksiyası həddində cəza təyin olunmasını xahiş etmişdir. O, kassasiya şikayətinin dəlillərini məhkumların qəsdi, qabaqcadan M.H.Ş-vi öldürmək məqsədlərinin olması ilə əsaslandırmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsi 27 aprel 2010-cu il tarixli qərarı ilə hesab etmişdir ki, məhkum F.C.Ə.-nin əməli Azərbaycan Respublikası CM-nin 120.2.1-ci maddəsi ilə düzgün tövsif edilmişdir. Həmin maddə ilə məhkəmə F.C.Ə. oğluna cəza təyin edərkən Azərbaycan Respublikası CM-nin 8-ci və 58.3-cü maddələrinin tələblərinə riayət edərək, onun barəsində CM-nin 62-ci maddəsini tətbiq etməklə təqsirli bilindiyi CM-nin 120.2.1-ci maddəsinin sanksiyasında nəzərdə tutulan azadlıqdan məhrumetmə cəzasının aşağı həddindən də aşağı cəza təyin etmiş və bu cəza ədalətli cəzadır (2).

Başqa misal gətirək. Keçmiş Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin 16 oktyabr 2009-cu il tarixli hökmünə əsasən A.A. CM-in 29, 120.2.1, 29, 120.2.2 və 29, 120.2.4-cü maddələri ilə təqsirli bilinərək 11 il 3 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir. Həmin hökmlə həmçinin R.A. CM-in 29, 120.2.1, 29, 120.2.2 və 29, 120.2.4-cü maddələri ilə təqsirli bilinmiş, barəsində CM-in 62.1-ci maddəsi tətbiq olunmaqla 7 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilmişdir. A.A. və R.A. qardaşları ona görə məhkum edilmişlər ki, 11 may 2009-cu il tarixdə saat 22 radələrində yaşadıqları binada B.T.-nın ölüm ayağında olmasını bilmələrinə baxmayaraq, binanın qarşısında yüksək səslə danışıb güldüklərinə, söyüş söydüklərinə, qızlara sataşdıqlarına, yəni birgəyaşayış qaydalarına riayət etmədiklərinə görə qonşuları X.İ.-nin onlara irad tutmasından əsəbiləşərək yaşadıqları Gəncə şəhəri, 1-ci mikrorayon, 2 saylı yaşayış binasının qarşısında X.İ.-vi nalayiq sözlərlə söymüş, daha sonra bir-birləri ilə əlbir

olaraq hər ikisi yaşadıqları mənzildən bıçaq götürmüş, binanın girişinin qarşısında əsaslı səbəb olmadan 61 yaşlı ahıl şəxs X.İ.-və birlikdə hücum etmiş, xuliqanlıq niyyəti ilə xüsusi amansızlıqla öldürmək məqsədi ilə bıçaqla ona həyat üçün təhlükəli olub sağlamlığa ağır zərər vurmaya aid edilən xəsarət yetirərək sonuncunu qəsdən öldürmək istəmiş, lakin zərərçəkmiş şəxsin arvadı və qonşuları mane olduqlarından, habelə X.İ. vaxtında xəstəxanaya çatdırıldığından, iradələrindən asılı olmayan səbəblərə görə bu niyyətlərini başa çatdıra bilməmişlər. Gəncə Apellyasiya Məhkəməsinin 15 dekabr 2009-cu il tarixli, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının 31 mart 2010-cu il tarixli qərarları ilə həmin hökm dəyişdirilmədən saxlanılmışdır (4).

Bəs qrup halında qəsdən adam öldürmə cinayətlərini törətmiş şəxslərə məhkəmə şərti məhkum etmə tətbiq edə bilərmi? Fikrimizcə, CM-nin 70.1 və 70.2-ci maddələri bu suala da müsbət cavab verməyə imkan verir. Həmin maddələrə əsasən məhkəmə şərti məhkum etmə təyin edərkən törədilmiş cinayətin xarakterini, ictimai təhlükəlilik dərəcəsini, məhkumun şəxsiyyətini, habelə cəzanı yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almalıdır. Bir sıra cəza növləri, o cümlədən müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edən məhkəmə, məhkumun cəza çəkmədən islah olunmasını mümkün sayırsa, həmin cəzanın şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxara bilər.

I instansiya məhkəməsinin 16 mart 2006-cı il tarixli hökmü ilə 1984-cü il aprelin 7-də anadan olmuş, subay, natamam orta təhsilli, işləməyən, məhkum olunmamış A.A.T. Azərbaycan Respublikası CM-nin 120.2.1-ci maddəsilə təqsirli bilinib 13 il müddətinə, 1967-ci il martın 1-də anadan olmuş, ailəli, orta ixtisas təhsilli, işləməyən, məhkum olunmamış M.B.T. CM-nin 120.2.1-ci maddəsilə təqsirli bilinib 12 il müddətinə, 1955-ci il noyabrın 11-də anadan olmuş, ailəli, orta ixtisas təhsilli, işləməyən, məhkum olunmamış N.M.T. CM-nin 32.4, 120.2.1-ci maddəsilə təqsirli bilinib CM-nin 62-ci maddəsi tətbiq edilməklə 7 il müddətinə azadlıqdan məhrum edilmiş, N.M.T.-ya eyni zamanda CM-nin 70-ci maddəsi tətbiq edilməklə təyin edilmiş cəza 5 il sınaq müddəti ilə şərti hesab edilmişdir.

Məhkəmənin hökmü ilə müəyyən edilmişdir ki, A.A.T. 2005-ci il iyul ayının 10-da saat 18 radələrində Yevlax rayonunun Marzılı kəndində böyük qardaşı A.T.-vin dalaşma zamanı döyüldüyünü və bibisinin evinə aparıldığını eşidib onun yanına getmiş, qardaşının Varvara kənd sakini R.İ.S. tərəfindən döyüldüyünü öyrəndiyindən ondan qisas almaq üçün Varvara kəndində çayxananın qarşısında R.S.-vu tapıb onunla dalaşmağa başlamış, dalaşma zamanı A.T.-vin əmisi M.T., daha sonra anası N.T. hadisə yerinə gəlmiş, M.T. və A.T. birlikdə R.S.-vu döyməyə başlamış, ona alın nahiyəsinə şişkinlik və sıyrıq, sol aşağı ətraflarına sıyrıqlarla nəticələnən xəsarətlər yetirmiş, müqavimətini qırıb özünü müdafiə imkanını aradan qaldırmış, N.T. isə qışqıra-

qışqıra R.S. tərəfindən oğlu A.T.-vin döyülməsi, başının sümüklərinin qoparılmasını deyərək əlində mətbəx bıçağı olan A.T. və R.S.-vu nəzərdə tutaraq «ə, vur öldür köpək oğlunu, uzaq başı 3 il yatıb çıxarsan» deyə onu öldürməyə təhrik etmişdir. A.T. bu zaman M.T. ilə dalaşan R.S.-vun arxa hissəsinin ona tərəf olduğunu görüb, əmisinin R.S.-vun əllərini tutduğunu onu qəsdən öldürmək üçün əlverişli şəraitin yarandığını yəqin edərək, özündə olan mətbəx bıçağı ilə ona ağ ciyərin zədələnməsi ilə döş boşluğuna dəlib keçən, qara ciyərin və dalağın zədələnməsilə qarın boşluğuna dəlib keçən xəsarət yetirməklə onu bir qrup şəxs halında qəsdən öldürmüşlər.

Zərərçəkmişin hökmdən verdiyi şikayətdə göstərilmişdir ki, N.T.-ya yüngül cəza təyin edilmiş və CM-nin 62 və 70-ci maddələri əsassız tətbiq edilmişdir. Apellyasiya Məhkəməsi A.A.T., M.B.T. və N.M.T.-ya təyin edilmiş cəzanı cinayətlərinin xarakterinə, ictimai təhlükəlilik dərəcəsinə və şəxsiyyətlərinə uyğun hesab edərək, 12 iyul 2006-cı il tarixli qərarla I instansiya məhkəməsinin hökmünü qüvvəsində saxlamışdır (8).

Qəsdən adam öldürməyə dair olan cinayət işləri üzrə məhkəmə təcrübəsinin öyrənilməsi göstərir ki, məhkəmələr bəzən qrup tərəfindən törədilən bu növ cinayət işlərində maddi və prosessual hüquq normalarını düzgün tətbiq etmir, qanunun tələblərinə uyğun olmayan qərarlar qəbul edirlər. İştirakçılıqla törədilmiş cinayətlərə görə cəza təyini zamanı CM-nin 64-cü maddəsinin müddəaları hər bir halda nəzərə alınmalı olduğu halda, bəzən yalnız CM-nin 58-ci maddəsinin tələbləri rəhbər tutulur. F.Y.Səməndərov haqlı olaraq göstərir ki, təyin edilən cəza o halda ədalətli ola bilər ki, konkret iş üzrə cəza təyin edilərkən cəza təyininə dair bütün müddəalar nəzərə alınmış olsun (11, s. 208). CM-nin 59.1.9-cu maddəsində göstərilən hallar çox vaxt bir-birini tamamlasa da, əslində onların hər biri cəzanın yüngülləşdirilməsi üçün mühüm əhəmiyyətə malikdir (14, s. 124). Bu mövqe ilə razılaşırıq ki, cinayət törətmiş şəxsin belə davranışı həmişə iştirakçının islah olunmasının və ictimai təhlükəliliyinin azalmasının əsası kimi çıxış edə bilməz. Təqsirli şəxs bəzən törədilən əmələ görə fərdi məsuliyyətini azaltmaq məqsədi ilə digər iştirakçıları ifşa edə bilər (15, s. 126.).

Cinayət qanununda cəzanı yüngülləşdirən hallar mövcud olduqda cəzanın təyin edilməsi qaydasını nəzərdə tutan normanın təsbit olunmasını düzgün mövqe sayırıq. Qanunvericinin burada məqsədi iştirakçılıqla törədilən cinayətlərin açılmasının yüngülləşdirilməsinə nail olmaqdır. Lakin məhkəmə təcrübəsində CM-nin 60-cı maddəsi bəzən düzgün tətbiq edilmir. I instansiya məhkəməsinin 12 may 2009-cu il tarixli hökmünə əsasən P.O. və E.K. Azərbaycan Respublikası CM-in 29, 120.2.1 və 29, 120.2.2-ci maddələri ilə nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinərək ayrılıqda hər biri 11 il 3 ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişlər. Hökmdən məhkumların müdafiəçiləri apellyasiya şikayətləri vermiş,

Şəki Apellyasiya Məhkəməsinin 12 avqust 2009-cu il tarixli qərarı ilə P.O. və E.K. barəsində I instansiya məhkəməsinin hökmü dəyişdirilmiş, P.O. və E.K.-nin əməli Azərbaycan Respublikası CM-in 29, 120.1 və 29, 120.2.2-ci maddələri ilə tövsif edilərək, onlara təyin edilmiş azadlıqdan məhrumetmə cəzasının müddəti 8 il 5 ay 7 günə endirilmişdir. Apellyasiya məhkəməsinin qərarından verilmiş kassasiya protestində qərarın ləğv edilməsi və işin yeni apellyasiya baxışına qaytarılması xahiş olunmuşdur. Dövlət ittihamçısının mövqeyinə görə apellyasiya instansiya məhkəməsi birinci instansiya məhkəməsi tərəfindən təyin edilmiş ədalətli cəzanın müddətini endirməklə CM-in müddəalarını pozmuşdur. Məhkumların əməllərində CM-in 59.1.9 və 59.1.10-cu maddələrində nəzərdə tutulmuş cəzanı yüngülləşdirən halların olmamasına baxmayaraq, apellyasiya instansiya məhkəməsi əsassız olaraq hər iki məhkum barəsində CM-in 60-cı maddəsini tətbiq etmişdir. Bundan başqa, məhkumların cinayəti bir qrup şəxs halında xuliqanlıq niyyəti ilə törətmələri sübuta yetirilməsinə baxmayaraq, apellyasiya instansiya məhkəməsi CPM-in 397.1 və 398.1-ci maddələrinin tələblərini pozmuş, onların əməlini CM-nin 29, 120.1 və 29, 120.2.2-ci maddələri ilə tövsif etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyinə əsasən məhkum barəsində CM-in 60-cı maddəsinin tətbiqi üçün cinayət törətmiş şəxsin əməlində CM-in 59.1.9 və 59.1.10-cu maddələrində göstərilən cəzanı yüngülləşdirən hallardan heç olmasa biri olmalı və şəxsin əməlində CM-in 61-ci maddəsində sadalanan cəzanı ağırlaşdıran hallardan hər hansı biri olmamalıdır. İşdə məhkumların əməllərində CM-in 61-ci maddəsində sadalanan cəzanı ağırlaşdıran hallardan heç birinin olmaması müəyyən edilmişdir. Bundan əlavə, iş apellyasiya instansiya məhkəməsində baxılarkən zərərçəkmiş şəxs E.İ. məhkəməyə ərizə ilə müraciət edərək bildirmişdir ki, həm E.K., həm də P.O. ilə barışmış, vurulmuş ziyan, müalicə üçün çəkilmiş xərclər məhkumların valideynləri tərəfindən ona ödənilmişdir. Buna görə də onun məhkumlara qarşı hər hansı tələbi yoxdur, onlara yüngül cəza təyin edilməsini xahiş edir. Ona görə də apellyasiya instansiya məhkəməsi CM-in 63.3-cü maddəsinin tələbini rəhbər tutaraq məhkumlar barəsində CM-in 60-cı maddəsini düzgün tətbiq etmiş və təyin edilmiş cəza müddətini azaltmışdır (1).

Fikrimizcə, bu məsələdə Ali Məhkəmənin mövqeyi düzgün deyildir. Belə ki, Ali Məhkəmə məhkumların əməllərində CM-in 29, 120.2.1 və 29, 120.2.2-ci maddələrində nəzərdə tutulan cinayətlərin tərkib əlamətlərinin mövcud olduğunu tanısa da, yəni cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildiyini qəbul etsə də, CM-nin 61.1.3-cü maddəsində cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsinin cəzanı ağırlaşdıran hal qismində nəzərdə tutulmasını, bunun isə CM-nin 60-cı maddəsinin tətbiqinə imkan vermədiyini nəzərə almamışdır.

Azərbaycan Respublikasının Prokurorluğu Konstitusiya Məhkəməsinə sorğu ve-

rib göstərmişdir ki, məhkəmələr müəyyən hallarda CM-nin 60-cı maddəsinin tətbiqi üçün 59.1.9 və 59.1.10-cu maddələrdə nəzərdə tutulan cəzanı yüngülləşdirən hallardan birinin olması ilə kifayətlənirlər. Halbuki CM-nin 59.1.9-cu maddəsində «və ya» bağlayıcısından istifadə edilmədiyindən, həmin maddənin cəzanı yüngülləşdirən hal kimi tətbiqi üçün könüllü gəlib təqsirini boynuna almış şəxsin cinayətin açılmasına, onun iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına fəal kömək etməsi də zəruri şərt kimi qoyulmuşdur. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 02 aprel 2012-ci il tarixli qərarında ifadə olunmuş mövqeyinə görə CM-nin 59.1.9 və 59.1.10-cu maddələrində nəzərdə tutulan cəzanı yüngülləşdirən halların hər biri təqsirin fərqli formalarını, müxtəlif növ cinayətləri xarakterizə edir. Belə ki, CM-nin 59.1.9-cu maddəsində nəzərdə tutulan hallar daha çox təqsirin qəsd formasında, iştirakçılıqla törədilən cinayətləri, CM-nin 59.1.10-cu maddəsində nəzərdə tutulan hallar isə bir qayda olaraq ehtiyatsızlıqdan törədilən cinayətləri səciyyələndirir. Qanunverici CM-nin 60-cı maddəsinin tətbiqi üçün CM-nin 59.1.9 və 59.1.10-cu maddələrində nəzərdə tutulan halların mütləq qaydada məcmu halında mövcud olmasını şərtləndirmir, təqsirin formasından, cinayətin xarakterindən asılı olaraq bu maddələrdə nəzərdə tutulan halların müstəqil olaraq tətbiqini də mümkün edir (7).

Hesab edirik ki, CM-nin 60-cı maddəsinin tətbiqi üçün «və» bağlayıcısı 59.1.9 və 59.1.10-cu maddələrdə göstərilən halların müstəqil surətdə deyil, bir-birinə bağlılıqda, yəni işin hallarından asılı olmayaraq mütləq birlikdə, məcmu halda tətbiq olunmalarını şərtləndirir. Başqa sözlə, 60-cı maddədə 59.1.9 və 59.1.10-cu maddələrdə nəzərdə tutulan yüngülləşdirici halların hər hansı birinin deyil, hamısının olması şərt kimi qoyulmuşdur. Bu, həm də praktik olaraq real deyildir. Məsələn, qəsdən adam öldürmə cinayətini törətmiş şəxs könüllü gəlib təqsirini boynuna ala bilər, lakin artıq həyatdan məhrum etmiş olduğu şəxsə necə tibbi yardım göstərə bilər. Yaxud cinayəti təkbaşına törətmiş şəxs könüllü gəlib təqsirini boynuna ala bilər, lakin cinayətin mövcud olmayan digər iştirakçılarını necə ifşa edə bilər. Bu məzmunlu siyahını uzatmaq olar. Hesab edirik ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu və Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən CM-nin 60-cı maddəsi ilə bağlı qanunvericiliklə müqayisədə daha düzgün mövqe ifadə olunmuşdur. Ona görə də Azərbaycan Respublikası CM-nin 60-cı maddəsində «59.1.9 və» sözlərindən sonra «ya» sözünün əlavə olunmasını, «yüngülləşdirən hallar» sözlərinin isə «yüngülləşdirən hallardan biri» sözləri ilə əvəz olunmasını təklif edirik.

CM-nin 59.1.10-cu maddəsində nəzərdə tutulan cəzanı yüngülləşdirən hallardan biri «zərərçəkmiş şəxslə razılıq əldə etməyə cəhd edilməsi» adlanır. Fikrimizcə, bu əla-

mət kifayət qədər mücərrəd məzmunludur və ayrı-ayrı hallarda CM-nin 59.1.10-cu maddəsində göstərilən digər yüngülləşdirən hallar ilə nəinki bağlı olmaya bilər, hətta cəzanı yüngülləşdirən halların ümumi mahiyyəti ilə zidd ola bilər. Bundan başqa, həmin hal məhkəmə təcrübəsində də ciddi problemlər yarada bilər. Məsələn, şəxs cinayəti törədəndən sonra səmimi niyyət olmadan, yalandan hər hansı şəxsi zərərçəkmişlə razılıq əldə olunması üçün onun yanına göndərə bilər və sonucda hər hansı razılıq da əldə olunmaz. CM-nin 60-cı maddəsinə görə isə belə halda da təyin olunan cəzanın müddəti və həcmi CM-nin Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş daha ciddi cəza növünün son həddinin dörddə üçündən artıq ola bilməz. CM-nin 59.1.10-cu maddəsində nəzərdə tutulan «zərərçəkmiş şəxslə razılıq əldə etməyə cəhd edilməsi» əlaməti normayaratma fəaliyyətinin əsas başlanğıcları kimi təsbit olunmuş müddəalara uyğun deyildir. Maraqlıdır ki, Azərbaycan Respublikasının qüvvədə olan CM-nin qəbulu zamanı nümunə qismində istifadə olunmuş Rusiya Federasiyasının qüvvədə olan 1996-cı il CM-nin müvafiq normasında (61-ci maddənin 1-ci hissəsinin k) bəndində) «zərərçəkmiş şəxslə razılıq əldə etməyə cəhd edilməsi» əlaməti nəzərdə tutulmamışdır. Biz Rusiya qanunvericiliyin mövqeyini düzgün sayırıq və Azərbaycan Respublikası CM-nin 59.1.10-cu maddəsindən «zərərçəkmiş şəxslə razılıq əldə etməyə cəhd edilməsi» əlamətinin çıxarılmasını təklif edirik.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. Cinayət işi № 1 (102)-38/2010.
2. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. İş № 1(102)-160/2010.
3. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. Cinayət işi № 1(102)- 175/2010.
4. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. Cinayət işi № 1(102)-187/2010.
5. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. İş № 1(102)-1632/2014.
6. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarlar Məcmuəsi (1991-2008). «Hüquq ədəbiyyatı» nəşriyyatı. Bakı, 2008, 380 s.
7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 02 aprel 2012-ci il tarixli qərarı / http://www.constcourt.gov.az/decisions/223
8. Bakı Apellyasiya Məhkəməsinin arxivi: Cinayət işi № 2 ci-762, 2006.
9. \Bakı Apellyasiya Məhkəməsinin arxivi. // Cinayət işi № 2 CK – 235/2007.
10. Bakı Apellyasiya Məhkəməsinin arxivi. Cinayət işi № 2 ci – 378/2007.
11. Səməndərov F.Y. Cinayət hüququnda cəza probemi: tarix və müsairlik. Dərs vəsaiti, Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2009, 286 s.
12. Səməndərov F.Y. Şəxsiyyət əleyhinə edilən cinayətlər (tövsif məsələləri). Dərs vəsaiti. Bakı, BDU, 1997, 192 s.
13. Брайнин Я.М. Принципы применения наказания по советскому уголовному праву. Киев, 1953, 257 с.
14. Комментарий к Уголовному кодексу Российской Федерации / Под общ. ред. д.ю.н., проф. Ю. И. Скуратова и доктора юридических наук, В. М. Лебедева. 3-е изд., М.: Издательство НОРМА, 2001, 896 с.
15. Кругликов Л.Л., Васильевский А.В. Дифференциация ответственности в уголовном праве. Санкт-Петербург, Юридический центр Пресс. 2003, 300 с.

## НЕКОТОРЫЕ ВОПРОСЫ НАЗНАЧЕНИЯ НАКАЗАНИЯ ЗА УБИЙСТВ, СОВЕРШЕННОЕ ПРЕСТУНЫМИ ГРУППАМИ

**Алиев Назим Казим оглы,**
**ведущий научный сотрудник отдела**
**«Уголовного права и уголовного процесса»**
**Института и Права НАНА,**
**доктор философии по праву, доцент.**

В статье рассматриваются вопросы назначения наказания за убийств, совершенное преступными группами на основе судебных материалов. Устанавливаются ошибки, допускаемые при назначении наказания за этих деяний, выявляются возможности применения некоторых положений уголовного закона, в том числе статьи 62 и 70 УК, а также выдвигаются предложения для усовершенствования уголовного законодательства.

**Ключевые слова:** *убийство, преступная группа, назначение наказания, обстоятельства, смягчающие наказание, обстоятельства, отягчающие наказание, условное осуждение.*

## SOME QUESTIONS OF SENTENCING FOR MURDER, COMMITTED BY CRIMINAL GROUPS

**Aliyev Nazim Kazim,**
**Leading scientific worker of the department of**
**«Criminal law and Criminal procedure»**
**of The Institution of Law, the assistant professor,**
**doctor of philosophy on law.**

In this article are discussed the purpose of punishment for murders committed by criminal groups on the basis of the court's records. Mounted errors when assigning punishment for these acts, revealed the possibility of the application of certain provisions of criminal law, including Articles 62 and 70 of the Criminal Code, and makes proposals for the improvement of the criminal law.

**Key words:** *murder, a criminal group, the purpose of punishment, the circumstances mitigating the punishment, the circumstances aggravating punishment, probation.*

# AVROPA İNSAN HÜQUQLARI KONVENSİYASININ 10-cu MADDƏSİ: "FİKRİ İFADƏ ETMƏK AZADLIĞI"

**Aslanov S.Ş.,**
**Azərbaycan Respublikasının Ali Məhkəməsi.**
e-mail: aslanov_suleyman@hotmail.cor
050-242-04-14

*Məqalədə müəllif tərəfindən Avropa insan hüquqları Konvensiyasının 10-cu maddəsi "Fikri ifadə etmək azadlığı" barədə məsələ nəzərdən kecirilir.*

**Açar sözlər:** Avropa İnsan Hüquqları Məhkəməsi, ifadə azadlığı, məlumat əldə etmək hüququ, informasiya, müdaxilə.

Fikri ifadə etmək azadlığı demokratik cəmiyyətin ən mühüm dayaqlarından birini təşkil edir. Avropa İnsan Hüquqları Konvensiyanın 10-cu maddəsi bu hüququn həyata keçirilməsinə və inkişaf etməsinə yardımçı olmağa yönəlmişdir. Belə ki, Avropa Məhkəməsi 10-cu maddə ilə bağlı qərarlarında bu hüququn vacibliyini qeyd edərək bildirmişdir ki, sözügedən maddə fikri ifadə etmək azadlığı ilə yanaşı, həm məlumat əldə etmək hüququnu, həm də öz rəyində qalmaq azadlığının realizəsini təmin edir.

10-cu maddənin məzmunundan da aydın göründüyü kimi fikri ifadə etmək azadlığı dedikdə öz rəyində qalmaq azadlığı və informasiya azadlığı nəzərdə tutulmuşdur. Öz rəyində qalmaq azadlığı fikri ifadə etməyin ilkin şərtidir, lakin bu hələ fikrin ifadə edilməsi demək deyildir. İnformasiya azadlığı isə məlumat almaq və məlumat yaymaq hüququnu ehtiva edir. Məlumat almaq və məlumat yaymaq hüququ mətbuat, kitablar, sənət əsərləri, radio və televiziya verilişləri, internet və s. kimi vasitələr ilə həyata keçirilir. Avropa Məhkəməsi 10-cu maddə ilə bağlı əksər qərarlarında mətbuatın cəmiyyətdə rolunun vacibliyini qeyd etmişdir. Bununla yanaşı Avropa Məhkəməsi mətbuat üçün müəyyən sərhədlər müəyyən etmiş və həmin sərhədlərin daim nəzarətdə saxlanılmasını qeyd etmişdir [1].

"Bodroşic Serbiyaya qarşı" işində ərizəçi barəsində qəzetdə "Faşistlərə verilən söz" adlı məqalə dərc olunmuş və burada ərizəçi sərt şəkildə tənqid edilərək faşist adlandırılmışdır. Avropa Məhkəməsi bildirmişdir ki, demokratik cəmiyyətdə mətbuatın yerinə yetirdiyi mühüm funksiyanı xüsusi olaraq nəzərə alır, baxmayaraq ki, mətbuat üçün də müəyyən sərhədlər vardır. Xüsusilə, başqalarının reputasiyası və hüquqlarına münasibətdə, mətbuat həmin sərhədləri aşmamalıdır. Mətbuatın vəzifəsi hər bir halda ictimai maraq kəsb edən bütün məlumatları özünün hüquq və vəzifələri ilə bir araya sığan tərzdə ötürməkdir [2].

Avropa Məhkəməsi təcrübəsindən aydın olur ki, 10-cu maddənin məzmunu ilə bir-

başa əlaqəli olan informasiyalar (məlumat) fakt və qiymətləndirici rəy olmaqla ikiyə ayrılır. Fakt dedikdə həqiqət, olub-bitmiş, sübut olunmuş və inkaredilməz məlumat nəzərdə tutulur. Qiymətləndirici rəy dedikdə isə müəyyən əsası olan, mənbəyi olan rəylər nəzərdə tutulur və bu tipli rəylərin müdafiəsi üçün kifayət qədər faktiki əsaslar mövcud olmalıdır.

"Oberşlik Avstryaya qarşı" işində canab Oberşlik tərəfindən "Sachverhalt" başlığı adı altında cənab Grabher-Meyerin hesabatları barədə məqalə dərc olunmuşdur. Bu məqalədəki məlumatların bir hissəsinin faktiki doğru olduğu mübahisəsizdir. Yazısında bu hesabatları analiz edən Oberşlik əlavə etmişdir ki, bu siyasətçi bilə-bilə nasistlərin ideologiyasına uyğun fikirlər ifadə etmişdir. Məhkəmə bildirir ki, məqalənin ikinci hissəsində Milli Sosialist Partiyasının Manifestinin mətni ilə siyasətçinin müəllifi olduğu təkliflərin müqayisəsi aydın şəkildə təqdim edilmişdir və ərizəçi tərəfindən yazılan bu məlumatlar yalnızca qiymətləndirici rəy hesab olunmalıdır. Məntiqi nəticə olaraq, cənab Oberşlik kifayət qədər əsası olan qiymətləndirici rəyin əks olunduğu məqalə nəşr etdirmişdir. Buna baxmayaraq, Avstrya məhkəmələri ərizəçidən iddialarının həqiqiliyini sübut etməsini tələb etmişdir. Avropa Məhkəməsi qeyd edir ki, qiymətləndirici rəy ilə bağlı bu tələbi yerinə yetirmək imkansızdır və bu hal 10-cu maddənin pozuntusuna səbəb olacaqdır [3].

İfadə azadlığı hüququnun subyekti 10-cu maddə ilə bağlı işlərin araşdırılmasında olduqca əhəmiyyətli məsələlərdən biridir. Belə ki, ifadə azadlığı hüququnun subyekti qismində, həm fiziki, həm də hüququ şəxslər çıxış edə bilərlər. Məhkəmə vurğulayır ki, 10-cu maddə fikri ifadə azadlığını hər bir şəxs üçün təmin edir, o bu hüququ həyata keçirərkən daşınan məqsədə və ya bunda fiziki və hüquqi şəxslərin roluna görə fərq qoymur. Buna baxmayaraq, Avropa Məhkəməsi ifadə azadlığı ilə bağlı subyekt kimi ictimai nüfuzu olan şəxsləri fərqləndirir və cəmiyyətdə ictimai nüfuzu olan fiqurların digərlərinə münasibətdə daha çox dözümlülük göstərməli olduğunu bildirir.

"Yerusəlim Avstriyaya qarşı" işində Avropa Məhkəməsi qeyd etmişdir ki, ifadə azadlığı ilə bağlı tənqidin yol verilə bilən hüdudları fərdi şəxslərə nisbətən siyasi fiqurlara münasibətdə daha genişdir. Buna baxmayaraq, hətta fərdi şəxslər belə özlərini ictimai nəzarət üçün açıq saxlayarsa, onlar da ictimai müzakirə predmeti sayılırlar. İctimai nüfuzu olan şəxslər bu kontekstdə daha böyük tolerantlıq nümayiş etdirməlidir [4].

Avropa Məhkəməsinin təcrübəsindən aydın olur ki, yuxarıda da qeyd olunduğu kimi mətbuatın ifadə azadlığı ilə bağlı rolu xüsusi qiymətləndirilir və Avropa Məhkəməsi hüququn aliliyinin rəhbər olduğu demokratik dövlətlərdə mətbuatın əvəzsiz rolunu dəfələrlə vurğulamışdır. Mətbuatın vəzifəsi ictimai maraq doğuran məsələlərə dair məlumat və ideyaları yaymaqdır. Mətbuatın informasiya və ideyaları yaymaq vəzifəsi ilə yanaşı, ictimaiyyətin də belə məlumatları almaq hüququ vardır. Bu, şübhəsiz, istənilən demokratik cəmiyyətin in-

kişafı üçün əhəmiyyətli olan məsələlər barədə xəbər hazırlamağa da aiddir. Əks təqdirdə, mətbuat "ictimai nəzarətçi" kimi önəmli rolu oynaya bilməzdi [5]. Avropa Məhkəməsi mətbuatın informasiya və ideyaları yaymaq vəzifəsini ilə bağlı "De Hayes və Giysels Belçikaya qarşı" qərarında bildirir ki, mətbuat müəyyən sərhədləri, xüsusən də digər şəxslərin nüfuz və hüquqları ilə bağlı müəyyən hədləri aşmalı deyil, hər halda onun vəzifəsi ümumi maraq doğuran siyasi və digər məsələlərə dair məlumat və ideyaları vəzifələrinə və məsuliyyətinə uyğun tərzdə yaymaqdır [6].

İfadə azadlığı hüququnun subyektləri içərisində jurnalistlərin fəaliyyətinin nizamlanmasına xüsusi diqqət edilmişdir. Belə ki, Avropa Məhkəməsi "Bladet Tromsö və Stensas Norveçə qarşı" işində qeyd etmişdir ki, jurnalistika azadlığı müəyyən dərəcədə şişirtməyə, yaxud hətta provokasiyaya əl atmağı da əhatə edir, lakin bu şişirtmə və təxribat xarakterli informasiyanın mümkünlüyü ilə yanaşı aydın görünür ki, məhkəmə bunun üçün müəyyən hədd də müəyyən etmişdir [7]. "«Radio France» və başqaları Fransaya qarşı" işində Məhkəmə xatırladır ki, ifadə azadlığının həyata keçirilməsi öhdəlik və vəzifələrlə müşayiət olunur və 10-cu maddənin jurnalistlərə verdiyi təminat belə bir şərtə bağlıdır ki, onlar jurnalistika etikasına uyğun olaraq düzgün və mötəbər informasiyanı təmin etmək üçün vicdanla hərəkət etməlidirlər [8].

Konvensiyanın 10-cu maddəsi ilə bağlı qeyd olunmalı xüsusi məsələlərdən biri də sözügedən maddə təkcə asan əldə oluna bilən və ya zərərsiz hesab olunan və ya müsbət qəbul edilən informasiya və ideyalara deyil, eləcə də, təhqiredici, şok effekti və ya narahatlıq yaradan fikirlərə münasibətdə də tətbiq olunur. 10-cu maddədə təsbit edildiyi kimi bu azadlıq ilə bağlı yuxarıda qeyd edilənlərə uyğun olaraq müəyyən məhdudiyyətlər vardır, əks təqdirdə Konvensiyanın 8-ci maddəsinə uyğun olaraq şəxsi həyata və ailə həyatına hörmət hüququnun pozulmasına səbəb olacaqdır.

"Bodroşic Serbiyaya qarşı" işində ərizəçi J.P-nin ictimai televiziyada Voevodinada yaşayan milli azlıqların tarixinə dair səsləndirdiyi müəyyən ziddiyyətli fikirlərə sərt münasibət bildirərək onu "axmaq" və "faşist" adlandırmışdır. Məhkəmə hesab edir ki, əvvəlki işlərdə ümumi mənada təhqiredici hesab olunan "axmaq" və "faşist" müəyyən hallarda tənqidi fikir kimi qəbul edilə bilər. Lakin, bu işdə ərizəçinin istifadə etdiyi ifadələrə əsaslanan məhkumluğunun güdülən qanuni məqsədə uyğun olub-olmamasına dair xüsusi hallar müəyyən edilməlidir. İlkin olaraq ərizəçinin fikirlərinə məqalənin kontekstində baxılmalıdır. Bu cür ictimai əhəmiyyətli fikirlərə reaksiya verməsi onun jurnalist vəzifəsi ilə əlaqədardır və bu hal başa düşüləndir. Daha sonra, Məhkəmə hesab edir ki, kimisə faşist, nasist və ya kommunist adlandırmaq, özü-özlüyündə həmin şəxsin faktiki partiya mənsubiyyəti ilə eyniləşdirilə bilməz. Ərizəçi J.P-ni tənqid edərkən cəmiyyətdə adətən təhqiredici hesab olunan sərt sözlərdən istifadə edib. Buna baxmayaraq, onun fikirləri təhrikedici (provokativ) müsahibəyə

reaksiya kimi və ümumdemokratik maraq kəsb edən məsələnin azad şəkildə ölkə və region miqyaslı müzakirəsinin nəticəsi olaraq səslənmişdir. Burada məzmunda heç bir halda zorakı məqsədli yanaşma mövcud olmamışdır [2].

10-cu maddə ilə bağlı təcrübədə problem yaradan məsələlərdən biri də jurnalist fəaliyyətinin həyata keçirilməsinə maneə törədilməsi ilə bağlıdır. Birmənalı olaraq Avropa Məhkəməsi jurnalistika fəaliyyətinin həyata keçirilməsinə maneə olan ictimai tədbirləri Konvensiyanın 10-cu maddəsinin tələblərinə uyğun olaraq araşdırır. "Gsell İsveçrəyə qarşı" işində Məhkəmə qeyd edir ki, jurnalistlərin peşə vəzifələrini yerinə yetirərkən dövlətin səlahiyyətli şəxsləri tərəfindən fiziki pis rəftara məruz qalmasının onların informasiya almaq və yaymaq hüququnun həyata keçirilməsinə ciddi mane olması və bu halın Konvensiyanın 10-cu maddəsinin pozuntuna səbəb olması mübahisəsizdir [9].

Avropa Məhkəməsi 10-cu maddənin subyektləri içərisində dövlət qulluqçusu və dövlət sektorunda çalışan işçilər üçün də ayrıca paraqraf açmışdır. Belə ki, dövlət qulluğunun xarakteri sözügedən subyektlərdən sadiqlik, təmkinli və tədbirli olmağı tələb edir və bu hal onları 10-cu maddənin digər subyektlərindən fərqləndirir. Məhz tutduqları vəzifənin xarakterinə görə dövlət qulluqçuları və dövlət sektorunda çalışan işçilər hökumətin müxtəlif qanuni məqsədlərdən ötrü məxfi və ya gizli saxlamaq istədiyi məlumatlardan xəbərdar ola bilərlər. Buna görə də sözügedən subyektlər tədbirli olmaq vəzifəsi daşıyırlar və bu vəzifə onların ifadə azadlığı hüququnu məhdudlaşdırmır, lakin yayılması və dərc edilməsi cəmiyyətin maraqlarına təsir edəcək məxfi məlumatlarla təmkinli və ehtiyatlı davranmağı tələb edir.

"Quja Moldovaya qarşı" işində Avropa Məhkəməsi bildirmişdir ki, demokratik cəmiyyətdə dövlət qulluqçusunun vəzifəsi hökumətə funksiyalarının icra edilməsində kömək etmək olduğundan və ictimaiyyətin onlardan demokratik şəkildə seçilmiş hökumətin işinə mane olmaq deyil, ona yardımçı olmağı gözləmək hüququ olduğundan sadiqlik və təmkinlilik vəzifəsi dövlət qulluqçuları üçün xüsusi əhəmiyyət kəsb edir [10].

Avropa Məhkəməsinin ifadə azadlığını demokratik cəmiyyətin əsaslarından biri kimi qeyd etməsinə baxmayaraq 10-cu maddənin məzmunundan aydın olur ki, ifadə azadlığı mütləq hüquq deyil və Konvensiyanın məzmununa bu hüquqla bağlı müəyyən məhdudiyyətlər daxil edilmişdir. Belə ki, 10-cu maddənin 1-ci bəndi radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoyulmasını ehtiva edir. Eyni zamanda sözügedən maddənin 2-ci bəndində də müəyyən məhdudiyyətlər qeyd edilmişdir ki, bu məhdudiyyətlər qanunla nəzərdə tutulmalı və demokratik cəmiyyətdə zəruri olmalıdır. Bu tipli işlərdə ifadə azadlığı hüququna müdaxilənin vacibliyi məsələsinin araşdırılmasına xüsusi diqqət edilməlidir. Belə ki, müdaxilə "qanunla nəzərdə tutulmalı" və 10-cu maddənin 2-ci bəndində qeyd edilən

legitim məqsədlərdən birinə və ya bir neçəsinə uyğun və bu məqsədlərə çatmaq üçün "demokratik cəmiyyətdə zəruri" olmalıdır. Belə müdaxilə, əgər 10-cu maddənin 2-ci bəndində nəzərdə tutulan tələblərə uyğun deyilsə, Konvensiyanın 10-cu maddəsinin pozuntusuna səbəb olacaqdır.

"Stil və Morris Böyük Britaniyaya qarşı" işində Avropa Məhkəməsi qeyd etmişdir ki, 10-cu maddədə təsbit edildiyi kimi bu azadlıq ilə bağlı müəyyən məhdudiyyətlərin tətbiqi mümkündür, lakin bu məhdudiyyətlər dar təfsir edilməli və hər hansı məhdudiyyətə ehtiyacın olması inandırıcı şəkildə əsaslandırılmalıdır [11].

Belə ki, ifadə azadlığına müdaxilə baş verdiyi hallarda 3 meyar ətraflı araşdırılmalıdır: 1.İfadə azadlığı hüququna müdaxilə edilməsi meyarı. 2.Müdaxilənin qanuniliyi və qanuni məqsədə yönəlməsi meyarı. 3.Müdaxilənin demokratik cəmiyyətdə zəruriliyi meyarı.

İfadə azadlığına müdaxilə edilməsi ilə bağlı işlərdə birinci meyar tələb edir ki, yerli hakimiyyət orqanları tərəfindən ifadə azadlığı hüququna müdaxilənin olub-olmaması aydınlaşdırılmalıdır. Əgər müdaxilə həqiqətən baş veribsə, 10-cu maddəyə zidd müdaxilə müəyyən edilməlidir. Daha sonra ikinci meyara uyğun olaraq müdaxilənin qanuniliyi və qanuni məqsədə yönəlməsi aydınlaşdırılmalıdır. Burada qanuni və qanuni məqsədə yönəlməsi ifadələri dövlətdaxili hüquqa istinad edildiyini bildirir və müvafiq dövlətdaxili hüququn keyfiyyətinə də aid edilir. Belə ki, sözügedən hüquq normaları qanunun aliliyinə uyğun olmalı, hər cür qanunsuzluq riskindən yaxa qurtarmaq üçün kifayət qədər çatımlı və dəqiq olmalı və onların nəticələrini öncədən görmək mümkün olmalıdır. Nəhayət, 3-cü meyarın tələblərinə uyğun olaraq müdaxilənin demokratik cəmiyyətdə zəruriliyi mübahisələndirilməlidir. Belə ki, qiymətləndirmə aparılarkən 3-cü meyara uyğun olaraq ifadə azadlığına müdaxilənin "təxirəsalınmaz sosial tələbata" əsaslanıb-əsaslanmamasını müəyyən etmək lazım gəlir və bu zaman yerli hakimiyyət orqanları müəyyən qiymətləndirmə sərbəstliyinə malikdirlər. Mətbuata aid olan işlərdə dövlətin qiymətləndirmə sərbəstliyi azad mətbuatın təmin edilməsilə əlaqədar onun öhdəlikləri ilə məhdudlaşdırılır. Özünün nəzarətedici funksiyasını həyata keçirərkən Məhkəmənin qarşısında duran məsələ, bütövlükdə işə aid olan müdaxiləni araşdırmaq və milli hakimiyyət orqanları tərəfindən təqdim olunan arqumentlərin münasib və kifayət edib-etməməsini müəyyən etməkdir. Avropa Məhkəməsi hər 3 meyarın əsaslığını vurğulasa da, 3-cü meyarın araşdırılmasına daha çox diqqət edir. Belə ki, yuxarıda da qeyd edildiyi kimi, ifadə azadlığı demokratik cəmiyyətin özəyini təşkil edir və bu hüquqa müdaxilə yalnız zəruri hallarda baş verə bilər.

"Fressoz və Ruaye Fransaya qarşı" işində Məhkəmə bir daha xatırladır ki, ifadə azadlığına qoyulan hər hansı məhdudiyyətin zəruriliyi inandırıcı şəkildə sübut edilməlidir. Qəbul edilməlidir ki, məhdudiyyət üçün təxirəsalınmaz ictimai tələbatın olub-olmadığını qiymətləndirmək ilk növbədə

milli hakimiyyət orqanlarının işdir və bu qiymətləndirməni həyata keçirərkən onlar müəyyən dərəcədə sərbəstliyə malikdirlər. Mətbuatla bağlı olan işlərdə milli hakimiyyət orqanlarının qiymətləndirmə sərbəstliyinin hüdudları demokratik cəmiyyətin azad mətbuatın mövcudluğunu təmin etmək və onu qoruyub saxlamaqdan ibarət marağı ilə məhdudlaşır. Eyni ilə, 10-cu maddənin 2-ci bəndi əsasında məhdudiyyətin qarşıya qoyulan qanuni məqsədə mütənasib olub-olmamasını müəyyən edərkən balansın gözlənilməsi məsələsində bu ictimai maraq böyük çəkiyə malik olur [12].

Avropa Məhkəməsi Konvensiyanın 10-cu maddəsi ilə bağlı işlər üzərində nəzarəti həyata keçirir və bu nəzarət istər qanunvericiliyi, istərsə də onun tətbiqi barədə qərarları, hətta müstəqil məhkəmələrin qərarlarını da əhatə edir. Buna görə də Avropa Məhkəməsinin tətbiq edilən məhdudiyyətin 10-cu maddə ilə qorunan fikri ifadə etmək azadlığına uyğun olub-olmaması barədə yekun qərar qəbul etmək səlahiyyəti vardır.

"Hertel İsveçrəyə qarşı" işində Məhkəmə bildirmişdir ki, nəzarət qaydasında yurisdiksiyasını həyata keçirən zaman Məhkəmənin vəzifəsi aidiyyəti dövlət orqanlarını əvəz etmək deyil, onların mülahizə sərbəstliyinə uyğun şəkildə qəbul etdikləri qərarları 10-cu maddə əsasında yoxlamaqdan ibarətdir. Məhkəmə barəsində şikayət verilən müdaxiləyə bütünlükdə işin kontekstində baxmalı və nail olunmasına səy göstərilən qanuni məqsədə uyğun olub-olmamasını və onu əsaslandırmaq üçün dövlət orqanları tərəfindən göstərilmiş səbəblərin işə aidiyyəti olması və mütənasiblik məsələlərini müəyyənləşdirməlidir [13].

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Avropa Şurası, Avropa İnsan Hüquqları Konvensiyası ( 4 noyabr 1950-ci il).
2. Avropa İnsan Hüquqları Məhkəməsinin "Bodrozic Serbiyaya qarşı" (№32550/05, 23 iyun 2009-cu il) qərarı.
3. Avropa İnsan Hüquqları Məhkəməsinin "Oberschlick Avstryaya qarşı" (№ 11662/85, 23 may 1991) qərarı.
4. Avropa İnsan Hüquqları Məhkəməsinin "Yerusəlim Avstriyaya qarşı" (№ 26958/95, 27 may 2001-ci il) qərarı.
5. Avropa İnsan Hüquqları Məhkəməsinin "Qudvin Birləşmiş Krallığa qarşı" (27 mart 1996-cı il) qərarı.
6. Avropa İnsan Hüquqları Məhkəməsinin De Hayes və Giysels Belçikaya qarşı" (24 fevral 1997-ci il) qərarı.
7. Avropa İnsan Hüquqları Məhkəməsinin "Bladet Tromsö və Stensaas Norveçə qarşı" ([Böyük Palatanın qərarı], ərizə № 21980/93, , 20 may 1999-cu il) qərarı.
8. Avropa İnsan Hüquqları Məhkəməsinin "« Radio France » və başqaları Fransaya qarşı" (№ 53984/00, 30 mart 2004-ci il) qərarı.
9. Avropa İnsan Hüquqları Məhkəməsinin "Gsell İsveçrəyə qarşı" (№ 12675/05, 8 oktyabr 2009-cu il) qərarı.
10. Avropa İnsan Hüquqları Məhkəməsinin "Quja Moldovaya qarşı" (№ 14277/04, 12 fevral 2008-ci il) qərarı.
11. Avropa İnsan Hüquqları Məhkəməsinin "Steel və Morris Böyük Britaniyaya qarşı" (№ 68416/01, 15 fevral 2005-ci il) qərarı.
12. Avropa İnsan Hüquqları Məhkəməsinin Fressoz və Ruaye Fransaya qarşı ([Böyük Palatanın qərarı], № 29183/95, 45-ci bənd, 21 yanvar 1999-cu il) qərarı.
13. "Hertel İsveçrəyə qarşı" (№ 59/1997/843/1049, 25 avqust 1998-ci il) qərarı.

## СТАТЬЯ 10 ЕВРОПЕЙСКОЙ КОНВЕНЦИИ ПО ПРАВАМ ЧЕЛОВЕКА: “СВОБОДА ВЫРАЖЕНИЯ МНЕНИЯ”

**Асланов С.Ш.,**
**Верховный суд Азербайджанской Республики.**

Статья 10 Европейской конвенции по правам человека наряду со свободой выражения мнений обеспечивает также право получать информацию и реализацию свободы придерживаться своего мнения. Информация, которая непосредственно связана с содержанием статьи 10, делится на две части: факты и оценочные суждения. Несмотря на то, что Европейский суд отметил свободу выражения мнений в качестве одной из основ демократического общества, исходя от содержания статьи 10 ясно, что свобода выражения мнений не является абсолютной и некоторые ограничения данного права были включены в Конвенцию. Таким образом, ограничения должны быть предусмотрены законом, быть в соответствии с одной или несколькими законными целями, упомянутыми в пункте 2 статьи 10, и необходимы в демократическом обществе для достижения этих целей.

## ARTICLE 10 OF THE EUROPEAN CONVENTION ON HUMAN RIGHTS: “FREEDOM OF EXPRESSION”

**Aslanov S.Sh.,**
**The Supreme Court of the Republic of Azerbaijan.**

Article 10 of the European Convention on Human Rights includes freedom of expression and also ensures the implementation of the right to receive information and freedom to hold opinions. The information (data) which is directly related to the content of the Article 10 consist of facts and value judgments. Although European Court noted freedom of expression as one of the pillars of a democratic society, it is clear from the content of Article 10 that freedom of expression is not absolute and certain restrictions have been included in the Convention regarding this right. Thus, the restrictions shuld be prescribed by law, must comply with legitimate objectives enshrined in the Article 10 § 2, must be necessary in a democratic society.

# AZƏRBAYCANDA İCBARİ TİBBİ SIĞORTAYA KEÇİD

**Hacıyeva Anara Kamil qızı,**
**AR Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun doktarantı.**
novruzova_anara@yahoo.com

*Məqalədə müəllif tərəfindən Azərbaycan İcbari Tibbi Sığortaya kecid adlı mövzuya dair məsələ nəzərdən kecirilir.*

**Açar sözlər:** icbari tibbi sığorta, səhiyyə, korrupsiya, dövlət.

Əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlülüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir. Dövlət insanların sağlamlığının qorunması istiqamətində kompleks tədbirlər reallaşdırmaqla bu sahədə mühüm nəticələrin əldə olunmasına nail olub. İdman komplekslərinin yaradılmasından tutmuş, səhiyyə ocaqlarının təmir-bərpasına, Müalicə-Diaqnostika Mərkəzlərinin inşasına qədər böyük işlər həyata keçirilib. Eyni zamanda, insanlara səhiyyə xidmətləri göstərəcək tibbi personalın da peşəkarlığının artırılması və müasir standartlara cavab verən müalicə metodlarının tətbiqi üçün əlverişli şərait yaradılıb. Bununla bərabər, dövlət bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə istifadə edilən icbari tibbi sığortanın da tətbiqinə hazırlaşır.

Bu gün dünyanın əksər ölkələrində tətbiq olunan icbari tibbi sığortanın faydaları və əldə olunacaq güzəştlər ilk növbədə ölkə vətəndaşları üçün önəmlidir. Belə ki, icbari tibbi sığorta tətbiq olunsa, dövlət büdcəsindən ayrılan vəsait birbaşa sığortaolunanlara veriləcək. Vətəndaş tibb müəssisiələrinə müraciət edərkən həmin vəsaitdən təyinatı üzrə istifadə edə biləcək. İcbari sığortanın tətbiqindən sonra səhiyyə işçiləri və xəstələr arasındakı münasibətə nəzarət edən bir qurum mövcud olacaq. Bu qurum müalicə və müayinə üsullarına nəzarət edəcək və ümümilikdə yarana biləcək sui istifadə hallarına yol verilməməsinə şərait yaradacaq. Nəzərə alsaq ki, tibbi sığorta adi vətəndaşların mənafeyinə yönəlmiş, onları keyfiyyətli tibbi xidmət və dərmanla təmin etməyə yardım edən bir sistemdir. Buraya sığorta işçilərin əməkhaqqından, əməkhaqqından ayırmalardan tutmuş tibb müəssisələrinin akkreditasiyasına kimi müxtəlif parametrlər daxildir. Bu eyni zamanda səhiyyə işçiləri və vətəndaşlar arasında neqativ hal saydığımız korrupsiya məsələsini aradan qalxmış olacaq. Belə ki, vətəndaşın icbari sığorta kartına ona göstərilmiş müalicə və müayinə yazılacaq. Beləliklə keyfiyyətli tibbi xidmətin sayı artacaq çünki həkimə buna görə əlavə gəlir hesablanacaq. Aydın olduğu kimi ölkədə göstərilən keyfiyyətli tibbi xidmətlərin sayı artacaq, dövlətin səhiyyə sektoruna ayırdığı xərclər ilbəil azalacaq. Səhiyyə xərclərinin maliy-

yələşdirilməsinin böyük bir hissəsi işəgötürənlərin hesabına icbari tibbi sığorta şirkətləri tərəfindən həyata keçiriləcək. İşəgötürən müəssisə də öz növbəsində icbari sığorta ayırmalarının sərfəli xərclənməsində, işçinin çox xəstələnməməsində, xəstələndikdə isə onun çox qısa vaxt ərzində müalicə olunması və işə qayıtmasında maraqlı olacaq. Səhiyyə müəssisəsi isə sığorta şirkəti ilə müqavilələr bağlamaq, gəlirlərini artırmaq üçün daha keyfiyyətli xidmət göstərərək fərqlənməyə çalışacaq. Nəticədə bu sistemin tətbiqindən bütün tərəflər faydalana biləcək, səhiyyə işçilərinin və tibb müəssisələrinin məsuliyyəti artacaq. Onlar daim öz peşəkarlıqlarını artırmağa çalışacaqlar. Bu da öz növbəsində xəstəxanalarda ölüm hallarının qarşısının alınmasına, belə hallar baş verdikdə isə zərərin ödənilməsini və həkimin məsuliyyətə cəlb olunmasını asanlaşdıracaq. İcbari tibbi sığortanın tətbiqi səhiyyə ilə yanaşı, sığorta bazarında da canlanma yaradacaq. Bu həm bazarın həcminə, həm də strukturuna təsir edəcək. Hazırda tibbi sığorta Azərbaycanda aparıcı sığorta növləri arasında 4-cü yeri tutur. İcbari tibbi sığorta sistemi qurularsa, bu mövqe xeyli irəliləyə bilər.

Son illər ölkədə icbari tibbi sığortanın tətbiq edilməməsini ləngidən obyektiv səbəblər xeyli dərəcədə aradan qaldırılıb. Belə ki, tibb müəssisələrinin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, regionlarda müasir avadanlıqlarla təchiz olunmuş və keyfiyyətli tibbi xidmət göstərə biləcək səhiyyə müəssisələrinin sayı artırılmış və ölkədə tibb sahəsində kifayət qədər kadr potensialı formalaşdırılmışdır.

Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqi üçün lazım olan bütün hüquqi əsaslar vardır. Hələ 1999-cu ildə qəbul edilmiş “Tibbi sığorta haqqında” qanun, daha sonra bu qanunun tətbiqi barədə 30 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı, “2008-2012-ci illərdə Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı” da hazırlanaraq Nazirlər Kabinetinin 11 avqust 2008-ci il tarixli 179 saylı qərarı ilə təsdiq olunub. Həmin Tədbirlər Planında icbari tibbi sığortanın tətbiqi Konsepsiyasının həyata keçirilməsi üçün görülməli olan işlərin bölgüsü və icraçı qurumların adları konkret şəkildə göstərilir. Bu Tədbirlər Planı adıçəkilən dövlət orqanları qarşısında əsas olaraq səhiyyənin maliyyələşdirilməsi sisteminin mövcud vəziyyətinin qiymətləndirilməsi, maliyyələşdirilmənin islahatı prosesinin normativ hüquqi tənzimlənməsi, qabaqcıl beynəlxalq təcrübənin tətbiqi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin potensialının inkişafı, səhiyyənin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi, tədris və maarifləndirilmə, monitorinq və qiymətləndirmə vəzifələrini qoyur. Ən azı texniki cəhhətdən bu qurumun formalaşması xeyli vaxt tələb edir. Bu qurum tam şəkildə fəaliyyətə başlayandan sonra mövcud olan qanunvericiliyin nə dərəcədə indiki reallıqlara uyğun gəlib-gəlmədiyi aydınlaşacaq. Hesab edirik ki, 1999-cu ildə qəbul olunmuş qanuna 2007-ci ildə əlavə və dəyişikliklər edilməsinə baxmayaraq, bu gün də ötən müd-

dəti nəzərə alaraq müəyyən düzəlişlər etməyə ehtiyac yaranıb. Lakin heç şübhəsiz icbari tibbi sığorta praktikasını həyata keçirmədən həmin qanunda nəyi dəyişmək haqqında aydın təsəvvür formalaşdırmaq bir o qədər də çətindir. Güman edirəm ki, bu il Azərbaycanda icbari tibbi sığorta praktikasının həyata keçirilməsini ən məsuliyyətli dövrü olacaq. Bu mərhələdə qurum formalaşacaq, onun fəaliyyət prinsipləri müəyyənləşəcək. Bir sıra pilot layihələr reallaşdırılacaq, Azərbaycana daha uyğun gələn sığorta modeli seçiləcək.

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası; 12 noyabr, 1995, Bakı.
2. "Tibbi sığorta haqqında" Qanun; 28 oktyabr, 1999, Bakı.
3. "2008-2012-ci illərdə Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı" təsdiq edilməsinə dair Nazirlər Kabinetinin qərarı; 11 avqust, 2008, №179.
4. Hüseynova F.E. Sağlamlığın qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Bakı, 2016, 232 s.
5. http://stat.gov.az/

## TRANSITION TO COMPULSORY HEALTH INSURANCE IN AZERBAIJAN

**Hajiyeva Anara.**

Benefits and discounts of compulsory health insurance applied in most countries of the world, firstly, are important for the country's citizens. Thus, in case the compulsory health insurance is applied, allocations from the state budget will be given directly to the insured. Citizen will be able to use this allocation by appointment in healthcare facilities.

**KEY WORDS:** *compulsory health insurance, healthcare, corruption, state.*

## ПЕРЕХОД К ПРИНУДИТЕЛЬНОМУ МЕДИЦИНСКОМУ СТРАХОВАНИЮ В АЗЕРБАЙДЖАНЕ

**Анара Гаджиева.**

В настоящее время польза и предоставляемые принудительным медицинским страхованием уступки, применяемые во многих странах мира, вызывают определённый интерес у граждан нашей страны. Так, при притворении в жизнь принудительного медицинского страхования, средства, выделяемые из государственного бюджета, будут предоставляться страхуемому лицу. Гражданин может распоряжаться вышеуказанной суммой при обращении в соответствующие медицинские учреждения.

**КЛЮЧЕВЫЕ СЛОВА:** *принудительное медицинское страхования, здоровье, коррупция, государство.*

# YARADICILIQ ƏSƏRI KİMİ TƏRCÜMƏNİN HÜQUQİ MÜHAFİZƏSİ

**Bağır ƏSƏDOV,**
**hüquq ü.f.d., dosent,**
**AR əməkdar hüquqşünası.**

*Məqalədə müəllif tərəfindən yaradıcılıq əsəri kimi tərcümənin hüquqi mühafizəsi barədə məsələ nəzərdən kecirilir.*

**Əsas sözlər:** yaradıcılıq əsəri, tərcümə, hüquqi mühafizə, müəlliflik hüququ, mülki qanunvericilik, tərcümənin hüquqi rejimi.

Milli ədəbiyyatımızın dünyəvi əhəmiyyət kəsb etməsi və xarici müəlliflərin elmi və bədii əsərlərinin dilimizə tərcümə olunması ölkəmizin dünyaya tanıdılması və ədəbiyyatımızın daha da zənginləşməsi üçün mühüm əhəmiyyət kəsb edir. Ulu öndər H. Ə. Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət komissiyasının iclasındakı yekun nitqində ədəbiyyatımızın dünya ictimaiyyətinə çatdırılması zərurətinə xüsusi diqqət verərək demişdir: "Son illər Azərbaycanda müstəqilliyimizin imkanlarından istifadə edərək tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahələrində çox işlər görmüşük, ancaq bundan sonra da şox işlər görməliyik və ümid edirəm ki, görəcəyik. Bunların hamısı Azərbaycanın müstəqil dövlət kimi dünyada tanınmasına kömək edəcəkdir"(1, s. 176). Ulu öndərin ədəbiyyat və mətbuat işçiləri qarşısında qoyduğu bu vəzifələrin real həyata keçməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İ. H. Əliyev 16 may 2014-cü il tarixdə "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi haqqında Əsasnamənin və Mərkəzin strukturunun təsdiq edilməsi haqqında " Fərman vermişdir. Həmin Fərman ölkədə tərcümə işinin təşkilinə və yaxşılaşdırılmasına yönəlməklə bərabər, bu işin nəticələrinin hüquqi müdafiəsinin möhkəmləndirilməsini də ehtiva edir.

5 iyun 1996-cı ildə qəbul edilmiş " Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində müəllifik hüququnun obyekti olan əsərlər arasında tərcümələr də qeyd edilmişdir. Bununla bərabər həmin Qanunun 11-ci maddəsində törəmə əsərlərə müəlliflik hüququndan bəhs edildikdə tərcüməçilərin müəlliflik hüququ da qeyd olunur.

Müəlliflik hüquq normaları elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması və onlardan istifadə edilməsi ilə əlaqədar meydana gələn münasibətləri tənzim edir. Müəllifin əsər yaratması prosesi əqli fəaliyyət olduğuna görə bu fəaliyyəti hüquq normaları ilə tənzim etmək mümkün deyildir. Deməli, müəlliflik hüququ baxımından yaradıcılıq prosesi deyil, bu prosesin nəticəsi olan əsərlər əhəmiyyət kəsb edir.

Mülki qanunvericilikdə müəlliflik hüququnun obyektləri "əsər" termini ilə ifadə

olunur. Lakin qanunvericilikdə əsərin anlayışı verilməmişdir. Mülki hüquq ədəbiyyatında yekdil mövcud olan fikrə görə yaradıcılıq fəaliyyətinin obyektiv formada mövcud olan nəticələri əsər hesab olunur. Tərcümə əsərin xüsusi növünü təşkil edir. Əgər orijinal əsərin obyektini insanlar, onların qarşılıqlı münasibətləri, təbiət və i. a. təşkil edirsə, tərcümənin obyektini bu obyektləri ifadə edən başqası tərəfindən yaradılmıs hazır əsər təşkil edir. Bu baxımdan, hüquq ədəbiyyatında tərcümənin hüquqi mahiyyəti barədə yekdil fikir yoxdur. Məsələ bundadır ki, tərcümənin orijinaldan asılı olması bəzi müəlliflərə əsas verir ki, tərcüməni "əsəri yenidən işləmə"nin bir növü hesab etsin. V.İ.Serebrovskinin fikrincə, əsər yenidən işləndikdə onun xarakteri dəyişilir (roman pyesə, pyes kinossenariyə və s. çevrilir), tərcümədə isə belə dəyişiklik baş vermir, əsərin yalnız dili dəyişir (2, s.16). V.S.Antimonov, Y.A.Fleyşits (3, s.123), V.Y.İonas (4, s.51), Q.A.Kudryavtseva (5, s.7) və başqaları tərcüməni bir tərəfdən törəmə əsər kimi xarakterizə edir, digər tərəfdən isə müstəqil əsər kimi qiymətləndirərək onu əsərin yenidən işlənməsindən fərqləndirirlər. Qeyd etmək lazımdır ki, bəzən tərcümədə orijinal əsər nəinki başqa dildə ifadə olunur, həm də yenidən işlənməyə məruz qalır. Məsələn, N.Gəncəvi "Yeddi gözəl" əsərində slavyan gözəlinin hekayətini fars dilində şeirlə yazmışdır. Tərcüməçi A.Sarovlu bu əsəri nəinki Azərbaycan dilinə tərcümə edib, həmçinin əsərin formasını dəyişərək onu şeirlə deyil, nəsrlə ifadə etmişdir. Bu heç də o demək deyildir ki, əsəri yenidən işləmə tərcümənin əlamətidir. Fikrimizcə, "tərcümə" və "əsəri yenidən işləmə" yaradıcılığın müstəqil formalarıdır." N.Gəncəvinin "Yeddi gözəl" əsərindən slavyan gözəlinin hekayətini tərcümədə nəşr edən "Gənclik" nəşriyyatı düzgün olaraq həmin kitabın giriş məlumatlarında bildirmişdir ki, A.Sarovlu həmin əsəri nəinki tərcümə etmiş, həmçinin uşaqlar üçün yenidən işləmişdir (6). V.Y.İonasın yazdığına görə, tərcümənin orijinaldan asılı olması onda müstəqillik əlamətinin olmasını istisna etmir. Tərcümə ilə orijinal arasında mühüm əlaqənin olması (orijinalsız tərcümənin olmaması) tərcümə işinin müstəqil yaradıcılıq xarakteri daşımasını istisna etmir (7, s.50).

Ədəbiyyatda tərcümənin növləri müxtəlif əsaslara görə fərqləndirilir. Müəlliflik hüququ baxımından, tərcümələri iki qrupa bölmək olar: müəlliflik hüququ şamil edilən tərcümələr və müəlliflik hüququ şamil edilməyən tərcümələr. Müəlliflik hüququ şamil edilən tərcümələr də müxtəlif əsaslarla qruplaşdırılır. Tərcümə edilən əsərin xarakterinə görə tərcümələr elmi və bədii əsərlərin, rəsmi sənədlərin və informasiya xarakterli materialların tərcüməsinə; tərcümənin xarakterinə görə bədii və sətri tərcüməyə; tərcümə və tərcümə edilən əsər arasında qarşılıqlı əlaqəyə görə orijinaldan, sətri tərcümədən və ara tərcümədən edilən tərcüməyə; tərcüməçinin hüquqi vəziyyətinə görə müqavilə bağlamaqla və ya müqavilə bağlamadan sərbəst yerinə yetirilən tərcüməyə, müəllif tərcüməsinə, müəlliflədirilmiş və yaxud qulluq vəzifələrinin yerinə yetirilməsi qaydasında edilən tərcümələrə bölünür.

Hüquq ədəbiyyatında müəlliflik hüququ aid edilən əsərlərin əlamətləri barədə yekdil fikir yoxdur. Sovet hakimiyyəti dövründə qüvvədə olmuş SSR İttifaqı və müttəfiq respublikaların mülki qanunvericilik Əsasla-

rının 96-cı və müttəfiq respublikaların mülki məcəllələrinin müvafiq maddələri-nə (Azərbaycan SSR Mülki Məcəlləsinin 474-cü maddəsi) əsaslanmaqla əksər müəlliflər müəlliflik hüququ şamil edilən əsərlər üçün iki əlaməti – əsərin yaradıcılıq fəaliyyətinin nəticəsi olmasını və obyektiv formada mövcud olmasını göstərirdilər. Bununla yanaşı, bəzi müəlliflər əsərlərin hüquqi mühafizəsi üçün əlavə olaraq aşağıdakı əlamətləri də qeyd edirdilər: əsərin elm, ədəbiyyat və incəsənət sahəsinə aid olması (7, s.559); əsərin yenilik xapakteri daşıması (8, s.10); əsərin təkrar istifadəyə qadir olması (9, s.10) və əsərin ictimai faydalı olması (10, s.63). Sovet qanunvericiliyində olduğu kimi, ”Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində də müəlliflik hüququ şamil edilən əsərlər üçün iki əlamət müəyyən olunmuşdur: əsərin yaradıcılıq fəaliyyətinin nəticəsi olması və obyektiv formada mövcud olması.

Fəlsəfi baxımdan “yaradıcılıq” ifadəsi əvvəllər gerçəklikdə mövcud olmayan nə isə yeni bir şeyin yaradılmasını nəzərdə tutur (11, s.20). Bu nöqteyi-nəzərdən yaradıcılığın nəticələri unikallığı, təkrarolunmazlığı ilə fərqlənirlər. Əsərdə yaradıcılığın xarakterini müəyyənləşdirmək üçün əksər müəlliflər onun məzmununu və formasını fərqləndirirlər. V.Y.İonasın yazdığına görə əsərin hüquq obyektliyini müəyyənləşdirmək üçün təkcə bu bölgü ilə kifayətlənmək olmaz. Bədii əsərlərin bu cür “ anatomiyası” olduqca bəsid olub, ”müəlliflık”, ”plagiat”, ”tərcümə”, ”yeni yaradıcılıq əsəri” və s. anlayışların izahı üçün kifayət deyildir (4, s.28-29). V.Y.İonas tərcüməyə münasibətdə belə nəticəyə gəlmişdir ki, tərcüməçinin yaradıcılığı orijinal əsərin sözlərlə ifadə edilən bədii formasının başqa dildə yaradılmasında özünü göstərir (4, s.28-29).

Müəlliflik hüququnun obyektləri üçün zəruri olan yaradıcılıq əlamətini tədqiq edən müəlliflər bu əlaməti ya yaradılan əsərin özünə ya da əsərin yaradılmasında tətbiq edilən əməyin xarakterinə aid edirlər. Fikrimizcə, bu müddəaların hər ikisinin elmi əsası vardır. Lakin dilçilikdən fərqli olaraq müəlliflik hüququnda yaradıcılığın predmet tərəfi müəyyənedici əhəmiyyətə malikdir. Buna görə müəlliflik hüququnun obyektləri müəyyən edildikdə əsərin yaradılması fəaliyyətinin deyil, əsərin özünün yaradıcılıq xarakterinə əhəmiyyət verilməlidir.

Əksər müəlliflər tərcüməçinin əməyində yaradıcılığı tərcümə edilən əsərin zahiri formasının başqa dildə ifadə olunmasında görürlər (15, s.9). Fikrimizcə, tərcüməçinin yaradıcılığını tərcümə edilən əsərin zahiri formasının başqa dildə ifadə olunması ilə məhdudlaşdırmaq olmaz. Əsərin tərcüməsi zamanı tərcüməçinin yaradıcılığını iki istiqamətdə qiymətləndirmək lazımdır: orijinal əsərin məzmununun başqa dildə dəqiq ifadə olunmasında və orijinal əsərin məzmununun başqa dildə müstəqil yaradılmasında. Orijinal əsərin və onun tərcüməsinin müəyyən mənada eyni olması heç də onların məzmununun və formasının mütləq eyni olması demək deyildir. Bu məsələyə qnoseloji baxımdan yanaşan B.H.Tahirbəyovun qeyd etdiyi kimi, tərcümə edilən əsər obyektiv gerçəkliyin inikası olduğu halda, tərcümə inikasın inikasıdır (13, s.140). Qeyd etmək lazımdır ki, obyektiv gerçəkliyin insan şüurunda inikası həqiqi və yaxud yalan ola bilər. Bu baxımdan tərcümədə orijinalın məzmununun mütləq mənada dəqiq verilməsi

qeyri-mümkündür. Deməli, tərcüməçinin yaradıcılığı təkcə orijinal əsərin tərcümədə dəqiq ifadə olunması ilə deyil, tərcümənin özunun məzmunu və forması ilə də müəyyən edilməlidir.

Tərcümənin səciyəvi xüsusiyyəti ondadır ki, məhdud mənada onun bazasını "həyat materialı" deyil, başqa müəllifin fərdiliyini (yaradıcılığını) əks edən hazır əsər təşkil edir. Tərcüməçinin əsas vəzifəsi tərcümə edilən əsəri dəqiq ifadə etməkdən ibarətdir. Lakin tərcümənin orijinalı dəqiq əks etməsi hərfi tərcüməni nəzərdə tutmur. Dilçilik nöqteyi-nəzərindən hərfi tərcümə orijinalda hər hansı dəyişikliyə və əlavəyə imkan verməmdiyinə görə ideal hesab edilə bilər. Lakin bu zaman tərcümə edilən əsərin bədii xüsusiyyətləri nəzərdən qaçmamalıdır. F.Vəlixanova düzgün olaraq qeyd etmişdir ki, tərcümənin əsas prinsipi dəqiqlikdir, lakin tərcüməyə münasibətdə bu termin xüsusi məzmun kəsb edir, heç bir halda dəqiqlik hərfiliklə əvəz edilməməlidir (14, s.21). Qeyd etmək lazımdır ki, dilçilik baxımından tərcümənin keyfiyyətinin qiymətləndirilməsində zərurətdən doğan orijinaldan kənara çıxma hallarını (mətnin qısaldılması və yaxud artırılması) qüsur saymaq düzgün deyildir. Tərcümənin keyfiyyətinin qiymətləndirilməsi üçün əsas meyar tərcüməçi tərəfindən tərcümə edilən əsərin məzmununun, bədii formasının və bütövlüyünün vəhdətdə yaradilmasıdır. Bu baxımdan tərcüməçinin yaradıcılığı tərcümə edilən əsərin üslubunu, obrazlar sistemini və müəllifinin bədii stilini saxlamaqda ifadə olunur.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə görə müəlliflik hüququ bütöv əsərlərə şamil edilir. Həmin maddənin 2-ci bəndinin 2-ci abzasına əsasən əsərin hissələri (adı, personajı və s.) həmin maddənin 1-ci bəndində göstərilən əlamətlərə (əsərin yaradıcılıq fəaliyyətinin nəticəsi olması və obyektiv formada mövcud olması ) malik olduğu və müstəqil istifadə oluna bildiyi halda müəlliflik hüququnun obyekti sayılır. Həmin maddənin mənasına əsaslanmaqla demək olar ki, hər bir əsər müəllifinin, habelə tərcüməçinin bədii stili yaradıcılıq xarakteri daşımaqla, müəlliflik hüququnun müdafiəsi dairəsinə daxildir. Q.Lomidze bu məsələ barədə əsaslı olaraq qeyd etmişdir ki, müəllifin stili ideya-estetik kaeqoriya kimi bütün əsərlər üçün eyni ola bilməz, şairin, yazıçının stili onun həyatı, psixoloji sistemidir (15, s.193). Deməli, orijinal əsər müəllifinin stili əsərin mühüm cəhəti olduğuna görə həmin əsərin tərcüməsi zamanı nəzərə alınmalı ünsürlərdən biridir.

Tərcüməçinin yaradıcılığı təkcə orijinal əsəri başqa dildə dəqiq ifadə etməkdə deyil, tərcümənin məzmununu və formasını müstəqil yaratmaqda da özünü göstərir. Tərcüməçinin yaradıcılığı tərcümə edilən əsər müəllifinin yaradıcılıq hüdudları ilə məhdudlaşsa da, müəyyən mənada onun yaradıcılıq sərbəstliyi qalır. Tərcümə nəzəriyyəsində tərcüməçinin sərbəstliyi dedikdə onun tərcümə edilən əsərə sərbəst münasibət bəsləməsi anlaşılır. Xalq şairi S. Vurğun əsaslı olaraq qeyd etmişdir ki, tərcümədə tərcüməçinin sərbəstliyi müəyyən ölçüdə və həddə orijinal əsəri tərcümədə yaratmaq məqsədi ilə ola bilər (16, s.272). Qeyd etmək lazımdır ki, tərcüməçinin orijinala sərbəst münasibəti müxtəlif səbəblərlə əlaqədar olur. Çox vaxt bu, orijinalın və tərcümənin ritm əsaslarının bir-birinə uyğun gəlməməsi;ədəbi

dillərin inkişaf səviyyələrinin fərqli olması; orijinal əsər müəllifinin və tərcüməçinin yaradıcılıq üslublarının fərqlənməsi və s. ilə əlaqədar olur. Tərcüməçi həmin maneələri dəf etmək üçün müxtəlf üsul və vasitələrdən istifadə etməli olur. Fikrimizcə, tərcüməçinin tərcümə edilən əsərə sərbəst münasibəti o həddə yol veriləndir ki, o, orijinalın dəqiq ifadə edilməsinə xidmət etsin.

Artıq qeyd edildiyi kimi, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında "Azərbaycan Respublikasi Qanununun 5-ci maddəsinin 1-ci hissəsinə görə bu və ya digər əsərin müəlliflik hüququnun obyekti olması üçün onun yaradıcılıq fəaliyyətinin nəticəsi olması ilə bərabər obyektiv formada mövcud olması əlaməti də tələb olunur. Yeri gəlmişkən, əsərin daxili formasını onun ifadə formasından fərqləndirmək lazımdır. Əsərın müəlliflik hüququnun obyekti olması üçün onun ifadə forması müəyyənedici əhəmiyyət kəsb edir. Göstərilən Qanunun 2-ci maddəsində müəlliflik hüququ ilə qorunan əsərlərin obyektiv ifadə formalarının təqribi siyahısı müəyyən olunmuşdur. Həmin maddəyə görə müəlliflik hüququ şamil edilən əsərlər yazılı (əlyazması, makina yazısı, not yazısı və s.); şifahi (kütləvi çıxış, kütləvi ifa və s.); səs, yaxud videoyazılma (mexaniki, maqnit, rəqəmli, optik və s.), təsviri (rəsm, eskiz, şəkil, plan, cizgi, kino-, tele-video- yaxud fotokadr və s.); həcmi-fəzavi (heykəl, model, maket, tikili və s.), habelə digər obyektiv formalarda ifadə oluna bilər. Tərcümə edilən əsər və tərcümə eyni xarakterli əsərlər olduqlarına görə onların ifadə olunma formaları eynidir. Yəni, onlar yazılı formada ifadə olunurlar. V.Y.İonasın qeyd etdiyi kimi, tərcümədə müstəqil yaradıcılıq elementi onun dilində, başqa sözlə zahiri formasında özünü göstərir, bütün digər ünsürlər – əsərin məzmunu və daxili forması (obrazlar sistemi) əlaqəli olur (8, s.56-57).

Qeyd edildiyi kimi, əsər başqa dilə tərcümə edildikdə yalnız onun dili mühüm dəyişikliyə uğrayır, əsərin məzmunu isə dəyişməz qalır. Yeri gəlmişkən belə suallar yaranır: yaxın dillərdən (dil ailəsi daxilində) və yaxud dilin qədim leksikonundan edilən çevirmələri sözün həqiqi mənasında tərcümə hesab etmək olarmı, əgər yoxsa onların hüquqi rejimləri necə olmalıdır? Qeyd etmək lazımdır ki, "dil ailəsi"ndə bir neçə dilin olması obyektiv səbəblərlə əlaqədardır. Məsələn, "Türk dili ailəsi"ndə 30-dan çox dil birləşir. Bu dillərdə çoxlu ümumi sözlərlə yanaşı, hər bir dilin yalnız özünə aid olan sözləri də az deyildir. "Ailədaxili" dillərdə ümumi sözlərin olması həmin dillərin eyni olması demək deyildir. Dil o zaman eyni olur ki, bir dildə olan mətnin başqa dildə ifadə edilməsi üçün lüğətə ehtiyac olmasın.

Müasir ədəbi dillərdə əsasən bədii, publisist, elmi, kargüzarlıq və danışıq-məişət leksikaları fərqləndirilir (17, s.303). Hesab edilir ki, Azərbaycan və türk dillərinin qarşılıqlı münasibətlərində yalniz danışıq-məişət dilində tərcüməçiyə ehtiyac yoxdur. Lakin bu halda da həmin dillər tamamilə eyni deyillər. Fikrimizcə, əgər hər hansı mətnin başqa dildə ifadə edilməsi üçün lüğətə ehtiyac yaranırsa, əldə edilən nəticə tərcümə hesab edilməlidir. Bu nəticə lüğətlərin müəlliflik hüququnun obyekti olması müddəası ilə də uzlaşır.

Yuxarıda qeyd edildiyi kimi, tərcümələrin müəlliflik hüququnun obyekti olması üçün onlarda yaradıcılıq əlamətinin olmasıdır. Bu nöqteyi-nəzərdən müəllüflik hüqu-

qunun sətri tərcümələrə şamil edilməsi məsələsi diqqəti cəlb edir.

Sətri tərcümənin müəlliflik hüququnun obyekti olması barədə hüquq ədəbiyyatında vahid fikir yoxdur. Əksər müəlliflərin fikrincə, sətri tərcümə işi yaradıcılıq deyil, texniki xarakter daşıyır, buna görə onun müəlliflik hüququnun obyekti hesab edilməsi üçün əsas yoxdur. Bəzi müəlliflər isə sətri tərcümədə də yaradıcılıq ünsürünün olduğunu bildirərək onu da müəlliflik hüququnun obyekti hesab edirlər. Bu baxımdan V.S.Antimonov və Y.A.Fleyşisin şərik fikirləri diqqəti cəlb edir. Onların yazdıqlarına görə əhəmiyyətli olmasa da hər bir sətri tərcümədə bu və ya digər dərəcədə yaradıcılıq ünsürü vardır. Onların yazdıqlarına görə, sətri tərcüməçi tərcümə etdiyi əsərin məzmununu, tərcümə müəllifinin fikrini başqa dildə dəqiq ifadə etmək üçün bir neçə sinonim sözü götür-qoy edərək onların arasından uyğun gələnini seçir. Bu baxımdan sətri tərcümə işini sırf texniki fəaliyyət hesab etmək düzgün deyildir (3, s.124). V.İ.Serebrovskinin fikrincə, tərcümənin müəlliflik hüququnun obyekti hesab edilməsi üçün yaradıcılıq onun əvəzedilməz əlaməti olmalıdır. Tərcümələrdə bunun aşkar edilməsi üçün onlara differensial yanaşmaq lazımdır (2, s.49). Bizim fikrimizcə, sətri tərcümənin hüquqi rejimi tərcüməçinin qarşısına qoyulan məqsədlə müəyyən edilməlidir. Sətri tərcümələr adətən tərcümə edilən əsərin dilini bilməyən müəlliflər tərəfindən gələcəkdə yenidən işlənmək məqsədi ilə edilir. Bu baxımdan sətri tərcümə elə səviyyədə olmalıdır ki, orijinal dilini bilməyən tərcüməci sətri tərcümə əsasında tərcümə edilən əsərin məzmununu təhrif etmədən onu dəqiq tərcümə edə bilsin. Sətri tərcüməçinin hüquqi vəziyyətini müəyyənləşdirməyə çalışan L.M.Azovun yazdığına görə, digər tərcüməçilərlə müqayisədə sətri tərcüməçilər üçün məhdud hüquqlar müəyyən etmək lazımdır (18, s.100). Fikrimizcə, bu fikir hələ 1886- ci ildə təsis edilmiş və Aşərbaycan Respublikasının iştirakçısı olduğu “Ədəbi və bədii əsərlərin mühafizəsi barədə” Bern Konvensiyasının müəlliflik hüququnun dəyərindən asılı olmayaraq bütün əsərlərə şamil edilməsi müddəasına uyğun deyildir. V. İ. Serebrovski qeyd etmişdir ki, ayrı-ayrı hallarda sətri tərcüməçi və tərcümə üzərində yenidən işləyən mütəxəssis tərcüməçi arasında şərikli müəlliflik münasibətləri mümkündür (2, s.49). A.İ.Vaksberq (19, s.19), B. L. Çertkov (20, s.22) və başqaları da bu fikirdədirlər. Bu fikir praktiki baxımdan daha əsaslıdır. Belə ki, şərikli müəlliflik münasibətləri bir qayda olaraq müəlliflərin razılaşmalarına əsasən yarandığına görə sətri tərcüməçi ilə tərcümə üzərində yenidən işləyən mütəxəssis tərcüməçi arasında da belə razılaşmanın olması mümkündür.

Diqqəti cəlb edən məsələlərdən biri də texniki vasitələrdən istifadə etməklə bu və ya digər mətnin başqa dilə tərcümə edilməsi və əldə edilən nəticələrin hüquqi rejiminin müəyyən edilməsidir. Müasir elmi-texniki inkişaf şəraitində bu və ya digər mətnin texniki vasitələrin köməkliyi ilə başqa dilə tərcümə edilməsi mümkündür. Bundan əlavə, müasir elmi nailiyyətlər təsdiq edir ki, əsəb sisteminin sözlərlə ifadə edilə bilən istənilən funksiyasını formal əsəb şəbəkələri vasitəsi ilə reallaşdırmaq mümkündür. Texniki vasitələrin köməkliyi ilə əldə edilən tərcümələrin müəlliflik hüququnun obyekti olub-olmamasını müəyyən-

ləşdirmək üçün onların müəlliflik hüququ aid edilən əsərlərə münasibətdə qanunda müəyyən edilmiş əlamətlərə malik olub-olmamalarını aydınlaşdırmaq lazımdır.

Məlum olduğu kimi, tərcümə edilən əsərlər də müəyyən mənada yaradıcılıq fəaliyyətinin (ədəbi, bədii, elmi) məhsulu olurlar. Deməli, bu əsərlərin tərcüməsi də ədəbi, bədii və elmi təxəyyülün tələblərinə cavab verməlidir. Əsəri tərcümə edən cihaz belə qabiliyyətə malikdirmi? Kibernetika sahəsində tanınmış mütəxəssis İ. Bar-Xillelin yazdığına görə əqli fəaliyyətin bir sahəsi olan bədii yaradıcılığın tam avtomatlaşdırılması mütləq utopiyadır. Əsərlər müəyyən biliyi və məntiqi təxəyyülü olan insanlar üçün yazılır. Texniki vasitələr heç bir halda insanların emosional vəziyyətlərini dərk etmək və bu vəziyyətləri ifadə etmək qabiliyyətinə malik deyildir (21, s.205). Fikrimizcə, ən mükəmməl maşın hətta kiçik formalı bir bədii əsəri bədii tərcümə etməyə qadir ola bilməz. Müəllifin əsərdə ifadə etdiyi hissləri ancaq belə hissə malik olan insan ifadə edə bilər. Buna görə, texniki vasitələrin köməkliyi ilə əldə edilən tərcümələrin müəlliflik hüququnun obyekti olması üçün nəinki hüquqi, habelə faktiki əsas yoxdur.

Müəlliflik hüququnun obyekti kimi tərcümənin başqa bir xüsusiyyəti onun müstəqil hüquqi mühafizə obyekti olmasıdır. Bu, iki istiqamətdə özünü göstərir.

Əvvəla, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində müəlliflik hüququnun obyekti olan əsərlərdən bəhs olunduqda digər əsərlərlə yanaşı tərcümə də müstəqil obyekt kimi müəyyən olunmuşdur. Belə ki, tərcümənin hüquqi mühafizəsi tərcümə edilən əsərin mühafizəsindən asılı olmayaraq təmin olunur. Yuxarıda göstərilən Qanunun 7-ci maddəsinin v) bəndinə görə xalq yaradıcılığı nümunələri (folklor) müəlliflik hüququ ilə qorunmadığı halda, onların yazılı formada olan nümunələri başqa dilə tərcümə edildikdə müstəqil şəkildə mühafizə olunur. Yaxud müəlliflik hüququnun qüvvədə olma müddəti keçmiş əsərlər müəlliflik hüququ ilə qorunmadığı halda onların tərcümələri müstəqil şəkildə qoruna bilər. İkincisi, eyni əsər ayrı-ayrılıqda müxtəlif şəxslər tərəfindən tərcümə edilə bilər. Bu tərcümələrin hər birinin müəlliflik hüququnun obyekti olması tərcüməçilərin müəlliflik hüququnun müstəqil subyekti olmasını təsdiq edir.

Tərcümənin hüquqi rejiminin müəyyən edilməsi tərcüməçinin hüquqi statusunu aydınlaşdırmağa imkan verir.

Ümumi hüquq nəzəriyyəsində hüququn subyektləri dedikdə hüquq münasibətlərinin iştirakçıları ola bilən, hüquq və vəzifələr daşıya bilən şəxslər nəzərdə tutulur. Müəlliflik hüququnun subyektləri tam və ya qismən müəlliflik hüququna malik olan şəxsləri əhatə edir. Mülki hüquq nəzəriyyəsində müəlliflik hüququnun subyektləri ilkin və törəmə müəlliflik hüququnun daşıyıcılarına bölünürlər (22, s.7). İlkin müəlliflik hüququnun subyektləri o şəxslər sayılırlar ki, onların müəlliflik hüquqları əsəri yaratdıqlarına görə əmələ gəlmiş olur. Törəmə müəlliflik hüququ isə əsərin yaradılmasına görə deyil, qanun əsasında və yaxud əsərdən istifadə olunması ilə əlaqədar müqavilə əsasında əmələ gəlir. M.V.Qordonun yazdığına görə, bir-biri ilə bağlı üç şərt mövcud olduqda şəxs ilkin

müəlliflik hüququnun subyekti ola bilər: 1) müəllifin əsər üzərində işinin yaradıcılıq xarakteri daşıması; 2) əsəri yaradan müəllifin və yaxud müəlliflər qrupunun mövcud olması; 3) müəyyən şərtlərə cavab verən şəxsin və yaxud şəxslər qrupunun müəlliflik hüququnun subyekti kimi tanınması (23, s.32). Hələ keçən əsrin 50-ci illərində M.V.Qordon tərəfindən irəli sürülmüş bu fikir müasir dövrdə də müəlliflik hüququnda hüquq subyektliyi məsələsinin həlli üçün müəyyənedici əhəmiyyət kəsb edir. Artıq qeyd edildiyi kimi, əsərin başqa dilə tərcümə edilməsi yaradıcılıq xarakteri daşıyır. Nəinki milli qanunvericiliyimiz, habelə dövlətimizin iştirakçısı olduğu "Ədəbi və bədii əsərlərin mühafizəsi haqqında" Bern Konvensiyasının 2-ci maddəsi tərcüməçini də müəlliflik hüququnun müstəqil subyekti kimi tanıyır. Beləliklə, demək olar ki, əsərlərin tərcüməçiləri də müəllif hesab edilərək qanunvericilikdə müəlliflər üçün müəyyən olunmuş hüquqlara və təminatlara malikdirlər. Tərcümə əsər-lərindən istifadə edildikdə orijinal əsər müəllifi ilə bərabər tərcüməçi ilə də müqavilə bağlanılmalı və mənbələrdə (kitablarda, afişalarda və s.) eyni vəziyyətdə tərcüməçinin də adı göstərilməlidir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 19-cu kitab. B., 2006
2. Серебровский В.И. Вопросы советского авторского права. М., 1956
3. Антимонов В.С., Флейщиц Е.А. Авторское право. М., 1957
4. Ионас В.Я. Критерий творчества в гражданском праве и судебной практике. М., 1963
5. Кудрявцева Г.А. Авторское право на перевод в СССР. Автореф. дис…. канд. юрид. наук. М. , 1970
6. Gəncəvi N. Slavyan gözəlinin hekayəti. B., 1986.
7. Комментарий к Гражданскому Кодексу РФ. М. , 1982, с. 559.
8. Ионас В.Я. Произведения творчества в гражданском праве. М., 1972
9. Кириллова М.Я. Развитие советского авторского права. С., 1982
10. Гордон М.В. Советское авторское право. М., 1955
11. Творчество и социальное познание. Сб. М., 1982
12. Зернин Н.В. Юридические факты в советском авторском праве. Автореф. дис… канд. юрид. наук. С., 1984
13. Таирбеков Б. Г. Философские проблемы науки о переводе (гносеологический анализ). Б., 1974
14. Велиханова Ф. Азербайджанская советская поезия на русском языке. Б., 1982
15. Ломидзе Г. Интернациональный пафос в советской литературе. М. , 1967
16. Vurğun S. Bədii tərcümənin nəzəri və təcrübi məsələləri haqqında. Əsərləri . V cild. B., 1972
17. Головин Б.Н. Введение в языкознание. М., 1977
18. Азов Л.М. Правовые вопросы литературного перевода. "Советское государство и право", 1954, №8
19. Ваксберг А.И. Издательство и автор (правовые взаимоотношения). М., 1958
20. Чертков Б.Л. Авторское право в периодической печати. М., 1977
21. Бар-Хиллел И. Будущее машинного перевода (филолог.науки), 1962, №4
22. Кабаков В.Г. Советское авторское право на произведения изобразительного искусства. Автореф. дис…канд. юрид. наук. М., 1954
23. Гордон М.Б. Советское авторское право. М., 1957

## ПРАВОВАЯ ОХРАНА ПЕРЕВОДА КАК РЕЗУЛЬТАТ ТВОРЧЕСТВА

**Багир Асадов**

В деле сближения национальных культур, упрочения их взаимосвязей следует особо подчеркнуть роль перевода. Формулируя понятие перевода как правовой категории, автор поддерживает мнение тех авторов, которые считают, что для определения понятия произведения в юридическом смысле следует дополнительно использовать выводы соответствующих специальных неюридических наук: философии, эстетики, литературоведения, искусствоведения и т. д. Автору представляется, что для решения этого вопроса следует учитывать и гносеологический анализ самого перевода как литературного явления. По мнению автора, несмотря на то, что перевод создается на основании чужого произведения (оригинала), авторское право переводчика носит самостоятельный характер по следующим основаниям: а) перевод признается законодательством самостоятельным объектом авторского права; б) авторское право переводчика регулируется законодательством самостоятельно; в) правоохранность перевода не зависит от правоохранности оригинала; г) авторское право переводчика возникает лишь с созданием перевода. Автор отмечает, что не только оригинальное, но и переводческое творчество представляется индивидуальным. В гносеологическом аспекте именно эти качества дают основание признать перевод творческим произведением и распространить на него действие авторского права.

**Ключевые слова:** *право, авторское право, перевод, переводчик, право на перевод.*

## THE LEGAL PROTECTION OF TRANSLATION AS A RESULT OF CREATION

**Bagir Asadov**

In the cause of rapprochement of the national cultures, strengthening their interconnection the role of translation should be especially emphasized. On formulating a nation of translation as a legal category the author backs up an opinion of those authors who consider that to define notion of a work in the juridical sense one should use additionally the conclusions of the respective special historical sciences: philosophy, esthetics, literary criticism, study of art and so on. The author conceives that to solve this question one has to take into account also the epistemological analysis of translation itself as a literary phenomenon. In author's opinion despite that translation is performed on the basis of other's work (original), the copyright of translator bears an independent character on the following grounds: a) translation is admitted by the legislation to be independent object of the copyright; b) the copyright of translator is regulated by the legislation independently; c) legal protection of translation doesn't depend on legal protection of the original; d) the copyright of translator arises at creation of translation. The author notes that not only original but also translator creation is individual. In epistemological aspect namely these qualities have every reason to admit translation as creative work and extend it to function of the copyright.

**Key words:** *law, copyright, translation, translator, right to translation.*

*Sən qorxaqsan, sən qulsan,*
*sən ermənisən!*
*A.S.Puşkin*

# ERMƏNİ MƏKRİ

**Abbasov İlham Qurban oğlu,**
**Ədliyyə Akademiyasının baş müəllimi, hüquq üzrə fəlsəfə doktoru, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi.**
e-mail:academyofjustice@mail.ru

*Məqalədə müəllif tərəfindən erməni məkri barədə məsələ nəzərdən keçirilir.*

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, Veliçko, ermənilər, İrəvan Xanlığı, Azərbaycan Milli İslam Şurası.

Azərbaycan dilinin izahlı lüğətinin 3-cü cild, 287-ci səhifəsində göstərilir ki, «məkr» sözü ərəb mənşəli olmaqla, hiylə, biclik, kələk mənalarında işlədilir [1, səh. 287]. Hiyləgərlik, biclik və kələkbazlıq isə ermənilər üçün xarakterik xüsusiyyətdir.

Gürcü xalqı belə deyir: «erməni gəldi və yeni bədbəxtliklər gətirdi». Bu sözlər də V.L.Veliçkonun «Кавказ. Русское дело и междуплеменные вопросы» kitabından götürülmüşdür [2, səh. 72].

Ermənilər kimdir? Onların mənşəyi az aydınlaşdırılmışdır... Bütün Qafqazlılar bilir ki, ... ermənilər ilk dəfə bu vilayətdə çoxlu sayda XIX əsrin əvvəllərində Türkiyədən qaçqınlar kimi peyda olmuşlar, onlar köklü sakinlər olmamışlar [2, səh. 65,69].

Professor D.N.Anuçin demişdir ki, ermənilər ali irq nəslindən deyil, onlar ariləşdirilmiş irqə aiddirlər (dilinə görə). Bu deyilənlərlə yanaşı, özlərini erməni hesab edənlər heç də köklü erməni nəslinə aid deyillər [2, səh. 65].

V.L.Veliçkonun sözügedən kitabında göstərilir ki, ermənilər içərisində böyük əksəriyyəti qaraçılara assimilyasiya olmuşlar. ... Belə bir şəraitdə aydındır ki, ermənilərin damarlarında hər cür qan var. Lakin ermənilər onların yəhudilərlə müqayisə edilmələrini qəti sevmirlər [2, səh. 66-67].

Ermənilər vaxtilə (XIX əsrin əvvəllərinə kimi-İ.A) Türkiyə ərazisində yaşasalar da onların bu ərazidə heç bir dövləti olmamışdır. Hər hansı xalqın, millətin yaxud, etnik qrupun müəyyən bir dövlətin ərazisində yaşaması o demək deyildir ki, həmin xalqın yaşadığı ərazidə dövləti olmuşdur.

«Böyük Sovet Ensiklopediyası»nın 27-ci cildinin 72-ci səhifəsinə Urartu çarlığı dövrünə aid bir xəritə əlavə edilmişdir. Orada göstərilir ki, xəritə bizim eradan əvvəl 9-7-ci əsrlərə aid Urartu çarlığının mövcud ərazisinə aiddir. Bununla bağlı məlumatda göctərilir ki, guya Urartu dövləti

keçmiş SSRİ, Türkiyə və İran ərazisini əhatə edir. Xəritədə, yalnız Urartu çarlığı kimi təqdim edilən, ərazinin, təxminən, dörddə üç hissəsi Türkiyə və İran ərazisinə aiddir. O cümlədən, Urartu çarlığının paytaxtı Tuşba şəhəri, həmçinin, Van gölü Türkiyə ərazisində, Urmiya gölü isə hazırkı İran İslam Respublikası ərazisindədir. Halbuki, Türkiyədə çoxsaylı ermənilərin yaşamalarına baxmayaraq, onların bu ərazidə heç vaxt dövləti olmamışdır. Doğrudur, ermənilər I Dünya müharibəsi zamanı buna çalışsalar da məqsədlərinə nail ola bilməmişlər [3, səh. 72].

Həmçinin, İran İslam Respublikası ərazisində də tarixin heç bir dövründə ermənilərin dövləti olmamışdır, halbuki, Türkiyə və İranda çoxsaylı ermənilər, faktiki olaraq, yaşamışlar [3, səh. 72].

Ermənilər dünyanın bir çox dövlətlərinin ərazilərində yaşamışlar. Onlar Türkiyədə, Livanda, ABŞ-da, Cənubi Amirakada (əsasən Argentinada, Uruqvayda, Braziliyada), İranda, Suriyada, Fransada, İspaniyada, İtaliyada, Rusiya Federasiyasında, Bolqarıstanda, Rumuniyada, Kanadada, Yunanıstanda, Avstraliyada, Hindistanda və digər bir sıra ərəb ölkələrində yaşamış, hazırda da həmin ölkələrdə yaşayırlar.

Hər hansı ölkə ərazisində isə bir millətin faktiki yaşaması, heç də onların həmin ərazidə dövləti olması anlamına gətirmir.

Orta əsr mənbələrində «Arran Qarabağı», «erməni Qarabağı» yox, məhz «Arran (Azərbaycan) Qarabağı» adlandırılan bu diyar Azərbaycanın çox böyük bir regionudur [4, səh. 45].

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru İqrar Əliyev erməni mənbələrinə, İ.M.Dyakanov və b. ciddi tədqiqatçılara istinad edərək yazır ki, ermənilər indiki Ermənistan ərazisinin yerli əhalisi deyil, buraya gəlmə elementdir [4, səh. 48].

Bir tarixi həqiqət də var: 387-ci ildən (bizim eranın–İ.A.), yaxud, 428-ci ildən ta 1918-ci ilə qədər, yəni əsrlər boyu Ermənistan dövləti olmamışdır, erməni xalqı dövlətçilikdən məhrum olmuşdur. Deməli, IV-V əsrlərdən sonra da Arsax, mövcud olmayan Ermənistan dövləti tərkibində və Ermənistan dövləti hakimiyyəti altında ola bilməzdi və olmamışdır [4, səh. 48].

Akademik T.Q.Köçərli «Qarabağ: yalan və həqiqət» kitabında daha sonra göstərir: bu necə «əzəli» Ermənistandır ki, bu necə «erməni Qarabağı»dır ki, onun adı da, erməni kəndlərinin adı da, coğrafi adlar da heç bir fərmansız-nəsiz azərbaycanca olmuşdur, beş inzibati erməni vahidi də ermənicə («naxarar») deyil, azərbaycanca («məliklik») adlanmışdır?! Yaxud, bu necə «erməni Qarabağı»dır ki, 1823-cü ildə onun əhalisinin yalnız 27,5 %-i erməni olmuşdur [4, səh. 52].

Keçmiş SSRİ-nin «Böyük Sovet ensiklopediyası»nın (rus dilində) 27-ci cildinin 72-ci səhifəsinə bizim eradan əvvəl mövcud olmuş Urartu dövlətinin xəritəsi əlavə edilmişdir. Həmin xəritədə göstərilir ki, Urartu dövlətinin mərkəzi Tuşba şəhəri olmaqla, Van gölünün sahilində yerləşir. Halbuki, Van gölü Türkiyə ərazisindədir. Bu xəritəyə əsasən Urmiya gölü Urartu dövlətinin əra-

zisində olmuşdur. Lakin Urmiya gölü isə İran dövlətinin ərazisinə aiddir. Sözügedən xəritəyə əsasən Urartu dövlətinin yalnız Şimalındakı bir hissə hazırkı Ermənistanın ərazisini əhatə edir [3, səh. 72].

Feodal dağınıqlılığın artması, həmçinin, Roma və İranın təcavüzünün artması Ermənistanın zəifləməsinə səbəb olur. Ermənistan 387-ci ildə İran və Roma arasında bölüşdürülür [5, səh. 757].

Beləliklə, ermənilərin 1918-ci ilin may ayının 29-na kimi dövlətçiliyi olmur.

Tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü M.Ə.İsmayılov «Erməni təcavüzü haqqında həqiqətlər» (rus dilində-İ.A.) kitabında yazırdı: «İran və Bizans (Roma dövləti)» arasında 387-ci ildə bağlanmış müqaviləyə əsasən dövlətçiliklərini itirdikdən sonra ermənilər XX əsrdə «Qərbi Ermənistan» adlandirilan dövlət yaratsınlar? [6, səh. 86].

Hər yerdə ermənilər Ermənistanı «Böyük Ermənistan» adlandırırlar. Halbuki, hazırki Zaqafqaziya respublikaları arasında istər əraziyə görə, istərsə də əhalinin sayına görə, digər Zaqafqaziya respublikaları-Azərbaycan və Gürcüstanla müqayisədə Ermənistan Respublikası, nisbətən, kiçik dövlətdir.

Əslində, bu ermənilərin əsası olmayan arzularının məhsuludur. Onların dənizdən-dənizə, başqa sözlə, Qara dənizdən Xəzər dənizinə qədər olan ərazidə, Erməni dövləti, «Böyük Ermənistan» yaratmaq kimi, qeyri-real arzularının nəticəsidir.

Hazırki Ermənistan Respublikası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qədim Azərbaycan torpaqları hesabına yaradılmışdır. Belə ki, 28 may 1918-ci ildə Tiflisdə Qafqaz Canişininin iqamətgahında Azərbaycan Milli İslam Şurasının qərarı ilə «İstiqlal bəyannaməsi» qəbul edilərək, Şərqdə ilk demokratik respublika-Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edildikdən sonra Azərbaycan Milli İslam Şurasının 19 üzvü 29 may 1918-ci ildə yenə Tiflisdə Qafqaz Canişininin iqamətgahına toplaşaraq Erməni dövlətinin yaradılması barədə qərar qəbul etmişlər.

Məsələ barəsində Azərbaycan Xalq Cümhuriyyəti müvəqqəti hökumətinin sədri, Milli İslam Şurasının üzvü F.X.Xoyskinin məruzəsi dinləlilmişdir. F.X.Xoyski məruzəsini belə bir məlumatla qutarır ki, Ermənistan federasiyası üçün siyasi mərkəz lazımdır, belə bir mərkəz Aleksandropol şəhəri (Gümrü şəhəri-İ.A) Türkiyəyə keçdikdən sonra, yalnız İrəvan şəhəri ola bilər, ona görə də İrəvan şəhərinin Ermənilərə güzəştə edilməsi qaçılmazdır. Məsələ barəsində Milli Şura üzvü Xəlil bəy Xasməmmədov M.Y.Cəfərov, Şeyxülislamov (axırıncı «Hümmət» partiyası adından çıxış edir), M.Məhərrəmov (sosialist müsəlman bloku adından) çıxış edərək İrəvanın Ermənilərə güzəştə gedilməsini tarixi zərurətdən irəli gəlməsini qəbul edirlər. Səsvermə zamanı Milli İslam Şurasının üzvlərindən 16 nəfəri təklifi leyhinə, 1 nəfəri əleyhinə səs verməklə, 3 nəfər isə bitərəf qalır.

Daha sonra isə F.X.Xoyski kooptasiya yolu ilə (hər hansı seçkili orqanın öz heyətinə seçkisiz olaraq yeni üzv qəbul edil-

məsi–İ.A.) Teymur bəy Makinskinin Azərbaycan Milli İslam Şurasının tərkibinə daxil edilməsini təklif edir və həmin təklif Şura tərəfindən yekdilliklə qəbul edilir [7, səh.130-131].

Azərbaycan Milli İslam Şurasının yuxarıda qəyd edilən məsələnin müzakirəsinə həsr olunmuş 3-cü–29 may 1918-ci il tarixli iclas protokolunun giriş hissəsində göstərilir ki, Şuranın 19 nəfəri həmin iclasda iştirak etmişdir. Lakin protokolun 4-cü abzasında göstərilir ki, Şuranın 28 üzvündən 16 nəfəri İrəvanın Ermənilərə güzəştə gedilməsi lehinə səs vermiş, 1 nəfəri əleyhinə olmuş, 3 nəfər isə birətəf qalmışdır. Lakin Azərbaycanın müstəqil dövlət kimi elan edilməsi haqqında Azərbaycan Milli İslam Şurasının 28 may 1918-ci il tarixli iclas protokolunda Milli İslam Şurasının tərkibinin 26 nəfərdən ibarət olması göstərilmiş, lakin həmin iclasda isə faktiki 19 nəfər iştirak etmişdir. [7, səh.123-127, 130-131].

Əgər hesab etsək ki, Azərbaycan Milli İslam Şurasının İrəvanın ermənilərə güzəştə gedilməsinə cəmi 16 nəfər səs vermişdir, deməli səsvermədə qərar o zaman qanuni qəbul edilmiş hesab edilərdi ki, iclasda iştirak edən üzvlərin ən azı 17 nəfəri lehinə səs versin, yalnız o zaman qəbul edilmiş qərar leqitim (qanuni-İ.A.) hesab edilə bilərdi. Halbuki, həmin qərar qəbul edilərkən məsələnin lehinə cəmi 16 nəfər, 1 nəfər isə əleyhinə səs vermiş, 3 nəfər isə bitərəf qalmışdır. Protokolda isə iclasda cəmi 19 nəfər Şura üzvünün iştirak etməsi göstərilmişdir. Beləliklə, həmin məsələnin-İrəvanın ermənilərə güzəştə gedilməsi haqda qərar qəbul edilərkən, əslində kvorum (yetərsay–İ.A.) olmamışdır.

Həmin Protokoldakı qeydlərin təhlili göstərir ki, Milli İslam Şurasının 26 üzvündən yalnız 19 üzvü iştirak etmiş, qərarın lehinə isə cəmi 16 nəfər səs vermişdir. Bu isə bir daha həmin iclasın kvorum olmadan keçirilməsinə dəlalət edir.

Hazırda ermənilərin dünyanın 60-dan çox ölkəsində yaşamasını nəzərə alsaq, belə çıxır ki, həmin ölkələrin hamısında da Erməni dövləti yaradılmalıdır (?!).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: «Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır... Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik» [8, səh.2].

Azərbaycan torpaqları hesabına Ermənistan dövlətinin yaradılması keçmiş İrəvan xanlığına Azərbaycanlı nümayəndələri narahat olmağa başlamışlar. B.Rzayev Milli İslam Şurasında təmsil olunmuş irəvanlılar adından demişdir: «Müstəqil Azərbaycan uğrunda çalışmaqla yanaşı, rica edirik, bizi – erməni respublikası ərazisində qalanları da unutmayasınız» [7, səh.135].

1918-ci il may ayının 28-də Azərbaycan Milli İslam Şurası «İstiqlal bəyannaməsi» ilə Azərbaycanın Şimal torpaqlarında Azərbaycan Demokratik Respublikasının (Azərbaycan Xalq Cümhuriyyətinin–İ.A)

yarandığını elan etdi. Bu tarixi sənəddə Şərqi və Cənubi Zaqafqaziyanın Azərbaycan torpaqları olduğu, Azərbaycan Demokratik Respublikasının qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmaq zərurəti təsbit olunmuşdu.

Çarizmdən miras qalmış inzibati-ərazi bölgüsünün əhalinin milli tərkibinə uyğun gəlməməsi yeni yaranmış Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında sərhədlərin müəyyənləşməsində kəskin ziddiyyətlərin meydana çıxmasına səbəb oldu. Azərbaycan hökuməti işə başladığı ilk günlərdə qonşulara müraciət edərək, sərhəd məsələsində mürəkkəb vəziyyətin yaranmasının qarşısını almaq və mehriban qonşuluq münasibətləri bərqərar etmək məqsədi ilə respublikaların ərazisini elan etməmişdən əvvəl üçtərəfli danışıqlarda bu məsələni müzakirə edib, razılaşma əldə etməyi təklif edirdi [9, səh.45].

1980-cı ildə nəşr edilmiş «Azərbaycan Sovet ensiklopediyası»nın IV cildinin 79-cu səhifəsində göstərilir: «Yerivan xanlığı (İrəvan xanlığı–İ.A.) – 18-ci əsrin ortalarında Zaqafqaziyada yaranmış fieodal dövlətlərindən biri. Ararat düzənliyini, Sevan gölü (Göyçə gölü-İ.A.) hövzəsini və Araz çayından Cənubi Qərbə uzanan ərazini əhatə edirdi. Xanlıq naiblərin idarə etdiyi 12 mahala bölünmüşdür. Xanın vəzir və inzibati vəzifə daşıyan bir neçə mirzədən ibarət divanı vardı. Qoşuna xan özü başçılıq edirdi. Əhalisi, əsasən ermənilər və azərbaycanlılardan ibarət idi: əkinçilik, bağçılıq, tərəvəzçilik və maldarlıqla məşğul olurdular... Kəndlilər onlarca vergilər verir və müxtəlif mükəlləfiyyətlər daşıyırdılar» [10, səh.79].

Həmin məlumatda daha sonra göstərilir ki, İrəvan xanlığına Həsənəli xan (1756-1764), Hüseynəli xan (1764-1783), Quaməli xan, Əliməhəmməd xan, Umma xan, Əliqulu xan, Məhəmməd xan, bir sözlə Azərbaycanlı millətindən olan xanlar rəhbərlik etmişdir.

«Azərbaycan Sovet ensiklopediyası»nda daha sonra göstərilir ki, Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının ərazisi Rusiyaya birləşdirildi [10, səh.79].

«Большая советская энциклопедия» kitabının 30-cu cildində Yerevanlı Mirzə Qədim Məmməd-Hüseyn oğlu (1825, Yerevan-1875, elə orada) haqqında məlumat verilməsinə baxmayaraq, həmin külliyyatda İrəvan xanlığı haqqında heç bir məlumat verilməmişdir.

XVIII yüzilliyin ortalarında Azərbaycan ərazisində yaranmış feodal dövlətlər müstəqil dövlətçilik ənənələrini özündə ehtiva etmiş, XIX əsrin əvvəlinə, bəziləri isə 1828-ci ilə qədər mövcudluğunu qoruya bilmiş, əksəriyyəti suverən xırda dövlətlər tariximizdə «Azərbaycan xanlıqları» adı ilə yaşamış, milli salnaməmizdə, qan yaddaşında silinməz izlər buraxmışlar. Xanlıqlar sırasında öz fərdiliyi ilə sseçilən, Rusiya imperiyasının işğalçı qüvvələrinin hücumlarına rəşadətlə müqavimət göstərmiş, sonda (4-cü hücumu zamanı) xəyanətlə təslim edilmiş İrəvan xanlığıdır [12, səh.3].

Beləliklə, uzunmüddətli və məqsədli fəaliyyətlər, habelə 1918-ci ildə yaranmış əlverişli tarixi şəraitin məntiqli nəticəsi

tarixin özü qədər qədim Azərbaycanın ayrılmaz parçası olan bir diyarda-keçmiş İrəvan xanlığı ərazisində Ermənistan dövləti yaradılır [12, səh.4-5].

Ermənilərin dahi adlandırılması üçün xidmətləri olmuşdurmu? Dünya tanıyacaq erməni olmuşdurmu? Enşteyn, Qaliley, Kopernik, Amper, Fermi, Mendeleyev, Küre, Edilson və başqaları-onlar çoxdurlar, lakin onların heç biri erməni olmamışdır [13, səh. 205].

Hələ 1889-cu illərdə ermənilər, «Daşnaksütun» kimi, dağıdıcı partiya yaratmaqla, öz irticaçı mahiyyətlərini bütün dünyaya bildirmişlər. «Daşnaksütun» partiyasının Proqram və Nizamnaməsi 1907-ci ildə təsdiq edilmişdir. Nizamnamənin 5-ci maddəsinə əsasən 7 və daha çox daşnak qruplar, o cümlədən, döyüş qrupları yaradır. «Daşnaksütun» partiyası Nizamnaməsinin 155-156-cı maddələrinə əsasən daşnakların terror tətbiq etmələrinə yol verilir. Mərkəzi komitə və məsul orqanlar terror haqqında qərar qəbul edə bilərdilər [14, səh. 27,30-31, 38 ].

Təsadüfi deyildir ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra F.X.Xoyski Tiflis şəhərinə getmiş və həmin ilin iyunun 19-da orada muzdlu erməni quldurları tərəfindən sui-qəsd nəticəsində qətlə yetirilmişdir [15, səh. 13].

Aleksandr Düma (Ata-İ.A.) özünün «Qafqaz səfəri» əsərində göstərmişdir: «...onlar həmişə qayda-qanun əvəzinə, zorakılıqla, kefi istədiyi kimi hökmranlıq edən qəddar, başqa dinə qulluq edən zalım hökmdarların hakimiyyəti altında olmuşlar».

Dünyaşöhrətli yazıçı Aleksandr Düma (Ata) daha sonra həmin əsərində göstərmişdir: «Azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur. Söz verdi, qurtardı» [16, səh. 54-55]. Əlavə şərhə ehtiyac yoxdur...

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

1. Azərbaycan dilinin izahlı lüğəti, III cild, səh 287// «Elm» nəşriyyatı, Bakı-1983, 555 səh.
2. Величко В.Л., «Русское дело междуплеменные вопросы», Баку, «Елм» nəşriyyatı, 1990, 224 səh.
3. Большая Советская Энциклопедия, Москва, Издательство «Советская Энциклопедия», 27-ci cild, 1977, 622 стр.
4. Köçərli T.Q., «Qarabağ: yalan və həqiqət», «Əbilov, Zeynalov və oğulları», İTK-nın mətbəsi, M.Qorki küç. 43, Bakı-1998, 243 səh.
5. «Советская Историческая Энциклоредия», Москва, Издательство «Советская Энциклоредия», 1961, 1-ci cild, 1024 səh.
6. Исмаилов М.А., «Правда об Армянской агреессии», Азербайджанское Государственное Издательство, Баку-1996, 106 стр.
7. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları, 1918-ci il, «Adiloğlu» nəşriyyatı, Bakı-2006, 214 səh.
8. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Milli Məclisin 2006-cı il payız sessiyasının açılışındakı nitqi, «Azərbaycan» qəzeti, 3 oktyabr 2006-cı il, №223 (4447), 4 səh.
9. Nəsibzadə N.L., Azərbaycan Demokratik Respublikası // Bakı, «Elm» nəşriyyatı, 1990, 112 səh.
10. «Azərbaycan Sovet ensiklopediyası», IV cild, Azərbaycan Sovet ensiklopediyasının baş redaksiyası, Bakı-1980, 591 səh.
11. «Большая советская энциклопедия», 30-cu cild, Москва. Издательство «Советская энциклопедия», 1978, 631 səh.

12. Hacıyeva.Z.Ə., «İrəvan xanlığının tarixşünaslığı» (Monoqrafiya), Bakı-«Çaşıoğlu» nəşriyyatı, 2012, 140 səh.
13. Saleh bəy, «Ermənilik» (Rus dilində), «Elm» nəşriyyatı, Bakı-1994, 439 səh.
14. Дашнаки (Из материалов департамента полиции), Баку-1990, 39 стр.
15. Fətəli Xan Xoyski, «Həyat və fəaliyyəti» (Sənəd və materiallar), Bakı, «Azərbaycan» nəşriyyatı, 1998, 152 səh.
16. Aleksandr Düma (Ata), «Qafqaz səfəri» (Təəssürat), Bakı, «Yazıçı» nəşriyyatı, 1985, 142 səh.

## АРМЯНСКАЯ ХИТРОСТЬ

**Аббасов И.Г.**
e-mail: academyofjustice@mail.ru

Автор статью посвятил актуальному вопросу – хитростным особенностям армян и в статье также ссылается и на цитату от А.С. Пушкина «ты трус, ты раб, ты Армянин».

И.К.Аббасов в статье приходит к выводу о том, что 29 мая 1918 года на исторически азербайджанских землях – на территории Иреванского ханства, была создана Армянская Республика.

**Ключевые слова:** *Азербайджанская Демократическая Республика, Величко, армяне, Иреванское ханство, Азербайджанский Национальный Исламский Совет*

## ARMENIAN TREACHERY

**Abbasov İ.Q.**
e-mail: academyofjustice@mail.ru

The author the article is devoted to actual problem-trickiest features of the Armenians and the article also refers to and quote from Pushkin A.S. "You are a coward, you are a slave, and you are Armenian."

I.K.Abbasov in the article concludes that in the May 29, 1918 on the historical Azerbaijani lands – on the territory of Irevan khanate was established Armenian Republic.

**Keywords:** *Azerbaijan Democratic Republic, Velichko, Armenians, Irevan khanate, Azerbaijan National Islamic Council.*

**Konstitusiya hüququ**
**UOT 34: 342.41**

# ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN AZƏRBAYCAN RESPUBLİKASININ HÜDUDLARINDAN KƏNARA İNZİBATİ QAYDADA ÇIXARILMANIN HÜQUQİ ƏSASLARI

**Ağasiyev Rasim Mizi oğlu,**
**Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və kadrlar idarəsinin rəisi, BDU-nin "Konstitusiya hüququ" kafedrasının doktorantı, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: rasim_agasiyev@mail.ru

*Məqalədə müəllif tərəfindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmanın hüquqi əsasları barədə məsələ nəzərdən keçirilir.*

**Açar sözlər:** əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qanunsuz miqrasiya, ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılma (deportasiya).

Bütün dünyada deportasiya hər bir dövlətin milli qanunları ilə tənzimlənir. Heç bir dövlət istəmir ki, onun ərazisində qanunsuz miqrantlar yaşasın. Qeyri-qanuni miqrant hər bir dövlət üçün təhlükə mənbəyi hesab edilir. Bu baxımdan, dövlət öz ərazisində qanunsuz miqrant aşkar edən kimi çalışır ki, nəyin bahasına olursa olsun onları ölkədən deportasiya etsin.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası dünyanın inkişaf etmiş ölkələri kimi bir sıra dövlət qurumlarının vasitəsilə qanunsuz miqrasiyaya qarşı mubarizə aparır. Bu qurumlardan Dövlət Miqrasiya Xidmətini (DMX), Daxili İşlər Nazirliyinin Baş Pasport Qeydiyyat və Miqrasiya İdarəsini (DİN-nin BPQMİ) və Dövlət Sərhəd Xidmətini (DSX) göstərmək olar. Azərbaycan Respublikasının dinamik iqtisadi inkişafını, ölkənin təhlükəsizliyinin, ictimai asayişin və sabitliyin qorunub saxlanılmasının təmin edilməsi baxımından miqrasiya proseslərinin vaxtında və düzgün tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan ölkəmizdə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti yaradılmış, Dövlət Miqrasiya Proqramı qəbul edilmiş, bu sahədə bir sıra qanunvericilik aktları qəbul edilərək qeyri-qanuni miqrasiyaya qarşı mübarizə gücləndirilmişdir. Lakin bütün bunlara baxmayaraq Dövlət Miqrasiya Xidmətinin idarəetmə sisteminin fəaliyyəti müasir dövrün tələblərinə tam cavab vermədiyinə görə, ölkəmizdə pasportsuz, vizasız, icasəsiz yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vaxtında aşkar edilib onların barəsində təsiredici

tədbirlər tətbiq etmək və yaxud da onları vaxtında ölkənin hüdudlarından kənara inzibati qaydada çıxarılmasında (deportasiya) müəyyən problemlər yaranır. Bunun bir neçə əsas subyektiv və obyektiv səbəbləri vardır. Həmin səbəblər aşağıdakılardan ibarətdir:

birincisi, Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarının işlərinin peşəkar səviyyədə qurulmaması və kifayət qədər beynəlxalq təcrübədən səmərəli istifadə edilməməsi;

ikincisi, qeyri-qanuni miqrasiyaya qarşı mubarizədə müvafiq dövlət qurumları (Dövlət Miqrasiya Xidməti, Dövlət Təhlükəsizlik Xidməti, Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) arasında xidməti əlaqələrin zəif olması və günün tələblərinə cavab verə bilən vahid işlək mexanizminin olmaması;

üçüncüsü, dövlət qurumlarının qeyri-qanuni miqrasiyaya qarşı apardıqları mübarizə barədə ölkə əhalisinə vaxtında məlumatların verilməməsi və maarifləndirmə tədbirlərinin düzgün təşkil edilməməsi;

dördüncüsü, Azərbaycan Respublikasının ərazisində qanunsuz yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin aşkar edilib barələrində qanuni tədbirlərin görülməsi üçün dövlət qurumları əməkdaşlarının birgə iştirakı ilə daimi yaşayış yerlərində, sanatoriyalarda, mehmanxanalarda, turist bazalarında, xəstəxanalarda, iş yerlərində və s. ictimai yerlərdə pasport rejim qaydalarının yoxlanması üçün birgə tədbirlərin (reydlərin) keçirilməməsi;

beşincisi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə (qərarına) əsasən, ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmış (deportasiya edilmiş) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin siyahısının mərkəzləşdirilmiş vahid bazada qeydiyyata alınmamasını və onların mərkəzləşdirilmiş qaydada müvəqqəti saxlanmalarının düzgün təmin edilməməsi;

altıncısı, həm ölkə daxilində, həm də ölkənin hüdudlarından kənarda miqrasiya məsələlərinin tənzimlənməsində qeyri-hökümət təşkilatlarının, ictimayyətin və bu sahə üzrə fəaliyyət göstərən hüquqi şəxslərin iş birliyindən istifadə edilməməsi.

Fikrimizcə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması sahəsində yuxarıda qeyd edilən nöqsanların mövcud olması qeyri-qanuni miqrasiyaya qarşı qəti mubarizə aparılmasında bir sıra problemlər yaradır.

Təcrübə göstərir ki, ölkəmizin hüdudlarından kənara inzibati qaydada çıxarılan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər bir müddətdən sonra bu və ya digər yollarla yenidən ölkəmizə gələrək dövlətdaxili qanunlarımızı kobud surətdə pozmaqda davam edirlər. Bu baxımdan təklif edərdik ki, ölkəmizin hüdudlarından kənara inzibati qaydada çıxarılmış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycana gəlmə hüquqlarının qanunla məhdudlaşdırılması məqsədəmüvafiq hesab edilsin. Bu məqsədlə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə və Azər-

baycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə yeni maddələr əlavə edilməlidir. Əlavə ediləcək maddələrdə Azərbaycanın hüdudlarından kənara inzibati qaydada çıxarılmış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin törətdikləri qanun pozmalarından asılı olaraq həmin subyektlərin ölkəmizin ərazisinə təkrar gəlməsinə birdəfəlik qadağanın qoyulması və yaxud onların törətdikləri qanunazidd əməllərindən asılı olaraq ölkəmizə daxil olma müddətinin 10 il müddətinədək məhdudlaşdırılması məqsədəmuvafiq hesab edilsin. Fikrimizcə, tətbiq ediləcək ciddi inzibati sanksiyalar vasitəsilə ölkəmizdə qanunsuz miqrasiya ilə mubarizə aparmaq musbət nəticələr verə bilər.

Yuxarıda qeyd edildiyi kimi, ölkəmizdə qeyri-qanuni miqrasiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə bir sıra normariv hüquqi aktlar qəbul edilmişdir. Həmin normativ aktlardan biri də "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2 iyul 2013-cü il tarixli 713-IVQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsidir. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmasının əsaslarından biri də həmin subyektlərin inzibati xəta törətməsidir (4.s.84). Qanuna əsasən, inzibati xəta törətmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılır. Dövlət Miqrasiya Xidməti aşağıda göstərilən hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində kənara çıxarma haqqında qərar qəbul edir: vizası və ya müvəqqəti olma müddətinin uzadılması barədə qərarı, yaxud müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi ləğv edildikdə; Azərbaycan Respublikası ərazisində olması arzuolunmaz hesab edildikdə; cəza çəkməkdən azad edilmiş əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşamaları üçün qanunla müəyyən edilmiş əsaslar olmadıqda və qaçqın statusu verilməsindən imtina edildikdə. Bu hallardan biri mövcud olduqda kənara çıxarma haqqında qərar qəbul edilir. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə görə, kənara çıxarma haqqında qərarla əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin 5 ilədək müddətə ölkə ərazisinə gəlməsinə məhdudiyyət qoyulur (4.s.83). Fikrimizcə, həmim subyektlərə qarşı sanksiyaların sərtləşdirilməsi məqsədilə qanunda nəzərdə tutulmuş 5 ilədək məhdudiyyətin qoyulması, yuxarıda qeyd edildiyi kimi, 10 il müddəti ilə əvəz edilməsi qanunamüvafiq hesab edilmiş olardı.

Milli qanunvericiliyimizə görə, Azərbaycan Respublikasında müvəqqəti və yaxud daimi yaşaması üçün icazəsi olmayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər qanunvericiliyin tələblərini kobud surətdə pozduqda, Azərbaycan Respublikası

Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin və ya məhkəmənin qərarı əsasında Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıla bilərlər.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli 96-VQ nömrəli Qanunu ilə Azərbaycan Respublikasının yeni İnzibati Xətalar Məcəlləsi təsdiq edilmişdir. Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması, yaşaması, yaxud Azərbaycan Respublikası ərazisindən tranzitlə keçməsi qaydalarının pozulması ilə bağlı normalar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575-ci maddəsi ilə tənzimlənir [3. s.345]. Bu maddəyə əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız yaşamasına, etibarsız sənədlərlə Azərbaycan Respublikasının ərazisində olmasına və ya yaşamasına, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olduğu, müvəqqəti və ya daimi yaşadığı dövrdə Azərbaycan Respublikasına gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyətlə məşğul olmasına, iş icazəsi tələb olunduğu hallarda bu icazə olmadan Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmasına, bir yerdən başqa yerə getdikdə olduğu yer və yaşayış yeri üzrə qeydiyyat qaydalarına əməl etməməsinə, ölkədə olma və ya yaşama müddəti qurtardıqdan sonra getməkdən boyun qaçırmasına, Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçmə qaydalarına əməl etməməsinə görə – əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir [3, s.345-346].

Fikrimizcə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşama qaydalarını pozduqlarına görə, bu maddədə nəzərdə tutulan sanksiyanı məqbul hesab etmək olmaz. Bu maddənin tələblərinə görə yaşama qaydalrını pozmuş əcnəbilərin ölkə ərazisinin hüdudlarından kənara çıxarılması sual altında qalır. Belə ki, inzibati xəta törətmiş həmin subyektlərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada hansı hallarda çıxarılması və hansı hallarda çıxarılmaması öz əksini tapmamışdır. Həmçinin, bu maddədə bir inzibati xəta törətmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla yanaşı, həm də onlara qarşı cərimə tətbiq edilir. Bu baxımdan sözügedən maddənin sanksiyası ilə razılaşmaq olmaz. Belə ki, həmin subyektlərin ölkənin hüdudlarından hansı hallarda kənara inzibati qaydada çıxarılmaları qanunda konkret olaraq öz əksini tapmalıdır. Bu məsələ ilə bağlı təklif edərdik ki, AR İXM-in 575.1-ci maddəsinin yarımbəndlərində göstərilən inzibati xəta törədən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə cərimə tətbiq edilmədən Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çı-

xarılması məqsədəmüvafiq hesab edilsin. Fikrimizcə, qeyd edilən təklifin qəbul edilməsi ilə dövlətdaxili qanunların daha da möhkəmləndirilməsinə kömək etmiş olarıq.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin I hissəsinə görə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər [1.s.21]. Bu baxımdan təklif edərdik ki, AR İXM-in 575.1-ci maddəsinin yarımbəndlərində göstərilən inzibati xəta törədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin, Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılma kimi deyil, "Deportasiya edilmə" kimi qəbul edilməsi konstitusion müddəaların tələblərinə uyğun hesab edilmiş olardı.

Bundan başqa, həmin Məcəllənin 575.3-cü göstərilir ki, Azərbaycan Respublikasında əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri qəbul edən, onlara xidmət göstərilməsini və ya onların işə qəbul olunmasını təmin edən və onların Azərbaycan Respublikasında olması, yaşaması və ya Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçməsi şərtlərinə əməl edilməsi ilə əlaqədar vəzifələri yerinə yetirən müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxsləri tərəfindən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınmasının və qeydiyyatdan çıxarılmasının, onlara Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlərin rəsmiləşdirilməsinin Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydalarının pozulmasına görə – vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir [3. s.346].

AR İXM-in maddəsinin tələblərindən belə məlum olur ki, ölkəmizdə əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri işə qəbul edən, onların ölkəmizdə olması, yaşaması və ya ölkənin ərazisindən tranzitlə keçməsi ilə əlaqədar müəssisə, idarə və təşkilatların vəzifəli şəxsləri, həmçinin, həmin subyektlərin qeydiyyata alınmasının və qeydiyyatdan çıxarılmasının, onlara yaşama hüququ verən sənədlərin rəsmiləşdirilməsi üçün qanunla müəyyən edilmiş qaydaların pozulmasına görə – vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər isə iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir. Lakin bu maddədə ölkəmizdə əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri işə qəbul edən müəssisə, idarə və təşkilatların vəzifəli şəxslərinə tətbiq edilən cərimənin məbləği ilə, həmin subyektlərə Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlərin rəsmiləşdirilməsinə məsul olan vəzifəli şəxsin (dövlət məmurunun) hansı məbləğdə cərimənin tətbiq edilməsi öz əksini tapmamışdır. Təklif edərdik ki, sözügedən maddədə vəzifəli şəxslərin kateqoriyası konkret müəyyən edilsin və həmin vəzifələrə uyğun

olaraq cərimənin məbləği də müəyyən olunsun.

Bundan başqa, AR İXM-in 577-cı maddəsində göstərilir ki, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaşayış sahəsi vermiş Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada onların vaxtında olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlər görülməməsinə görə – üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir [3. s.347].

Düşünürük ki, bu maddənin tələbləri Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin və digər normativ hüquqi aktların tələbləri ilə ziddiyyət təşkil edir. Qanuna görə, Azərbaycan Respublikasına gəlmiş əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri, vaxtında olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması səlahiyyəti müvafiq dövlət orqanlarının (DMX, DTX, DSX, DİN, XİN, ƏƏSMN) vəzifəli şəxslərinin bilavasitə vəzifəsidir. Bu baxımdan, həmin vəzifənin icrasının Azərbaycan Respublikası vətəndaşlarının üzərinə qoyulması qanunla yolverilməzdir. Həmçinin AR İXM-in 575.3-cü maddəsi ilə AR İXM-in 577-cı maddəsi arasında müqayisə aparsaq görərik ki, ölkəmizdə əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri işə qəbul edən, onların ölkəmizdə olması, yaşaması və ya ölkənin ərazisindən tranzitlə keçməsi şərtlərinə əməl etməyən müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxsləri üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edildiyi halda, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə öz şəxsi yaşayış sahəsini kirayə vermiş Azərbaycan Respublikasının vətəndaşları da üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilirlər. Fikrimizcə, iqtisadi çətinliyinə görə öz yaşayış sahəsini əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti (kirayə) istifadəsinə vermiş ölkə vətəndaşları ilə ölkəmizdə əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri işə qəbul edən, müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxslərinə tədbiq edilən cərimənin (üç yüz manatdan beş yüz manatadək) məbləğinin eyniləşdirilməsi məqbul hesab edilməməlidir. Belə ki, öz yaşayış sahəsini müvəqqəti istifadəyə vermiş ölkə vətəndaşları AR İXM-in tələblərini bilməyə bilər. Lakin əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri işə qəbul edən, müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxsləri mövcud qanunları bilməli və onlara riayət etməyə borcludurlar. Bu baxımdan təklif edərdik ki, AR İXM-nin 575.3-cü maddəsində müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxslərinə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə tətbiq edildiyi halda, AR İXM-in 577-cı maddəsində Azərbaycan Respublikasının vətəndaşlarına tədbiq edilən cərimənin məbləğinin əlli manatdan yüz manatədək müəyyən edilməsi məqsədəmüvafiq hesab edilsin. Fikrimizcə, bu təklif AR İXM də sosial ədalət prinsipinin düzgün tənzimlənməsinə xidmət etmiş olardı.

Qeyd etmək lazımdır ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmasının (deportasiya) hüquqi əsaslarının daha da möhkəmləndirilməsi istiqamətində tərəfimizdən verilən təkliflər günün tələbi kimi qiymətləndirilməlidir. Belə ki, ölkəmizin güclü iqtisadi inkişafına uyğun olaraq qanunvericilik bazasınını daim təkmilləşdirilməsi zərurəti yaranır. Bu məqsədlə gələcəkdə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmanın hüquqi əsaslarını daha da möhkəmləndirib bu institutun “deportasiya” anlayışı ilə əvəz edilməsi qanunamuvafiq hesab edilməlidir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkənin hüdudlarından kənara inzibati qaydada çıxarılma institutu öz kövrək addımlarını atmaqdadır. Bu institutunun təkminləşdirilməsi məqsədilə milli qanunvericilikdə bir sıra dəyişikliklər edilmişdir. Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma adlı AR İXM-in 29-cu maddəsində göstərilir ki, İnzibati Xətalar Məcəlləsinin Xüsusi hissəsində nəzərdə tutulmuş hallarda əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edilir [3. s.23].

Eyni zamanda, həmin maddədə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlmə hüququnun 1 ildən 5 ilədək müddətə məhdudlaşdırıldığı göstərilmişdir. Lakin ölkəmizdə qəbul edilmiş bu qanun beynəlxalq hüquq normalarına uyğun olaraq “Qaçqın” statusunu almış və ya dövlətimiz tərəfindən siyasi sığınacaq verilən şəxslərə, eləcə də insan alverinin qurbanı olan uşaqlar barəsində tətbiq edilmədiyi təsbit edilmişdir.

Xüsusilə qeyd edilməlidir ki, ölkə vətəndaşları kimi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də qanunda nəzərdə tutulmuş əsas və əlavə inzibati tənbehlər tətbiq edilir. Xəbərdarlıq, inzibati cərimə, ictimai işlər və ya inzibati həbs yalnız əsas inzibati tənbeh növləri kimi tətbiq edilir. Qanuna görə bu subyektlərə həm əsas, həm də əlavə cəza növü tətbiq edlə bilməz. Belə ki, AR İXM-in 23.3-cü maddəsinə görə, bir inzibati xətaya görə əsas tənbeh, yaxud əsas və əlavə tənbeh tətbiq edilə bilər. Bu Qanunun tələblərinə görə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin törətdikləri inzibati xətalara görə barələrində həm cərimə, həm də ölkə hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilə bilməz. Qanuna əsasən, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, fiziki şəxs verilmiş xüsusi hüququn məhdudlaşdırılması, əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma həm əsas, həm də əlavə inzibati tənbeh növləri kimi tətbiq edilə bilər (AR İXM, mad. 23.2).

Qeyd etmək lazəmdır ki, Azərbaycan Respublikasında bu günə kimi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin deportasiya edilməsi barədə qanun qəbul edilməmişdir. Bu baxımdan, ölkəmizdə həmin subyektlərin deportasiya qaydalarını tənzimləyən vahid normativ hüquqi akt yoxdur. Nəzərə alsaq ki, qüvvədən düşmüş köhnə İXM-in 457-ci maddəsində əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması haqqında qərarın icrası ilə bağlı bəzi məsələlər tənzimlənsə də, lakin bu maddənin müddəaları günün tələblərinə tam cavab vermirdi. Bundan başqa AR İXM-in 457-ci maddəsi ölkə qaydalarını pozan əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ölkənin ərazisindən deportasiya edilməsi faktını, onların Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması kimi tanıyırdı. Fikrimizcə, bu cür tanıma beynəlxalq hüquq normalarına uyğun gəlmir. Belə ki, Azərbaycan Respublikasının günbəgün artan iqtisadi inkişafını və Avropaya sürətli inteqrasiyasını nəzərə alaraq təklif edərdik ki, ölkəmizdə "Deportasiya haqqında" qanunun qəbul edilməsi məqsədəuyğun hesab edilsin. Qəbul ediləcək "Deportasiya haqqında", qanun əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarını, onlara "qaçqın", "məcburi köçkün", "siyasi sığınacaq" və sair hüquqların verilməsini, birgəyaşayış qaydalarına əməl etmələrin prosedur qaydalarını, könüllü şəkildə üçüncü ölkəyə göndərilmələrini, repatriasiya, deportasiya və digər hüquqi münasibətlərinin tənzimlənməsinə xidmət edəcəkdir.

Onu da qeyd etmək lazımdır ki, əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri ölkənin hüdudlarından kənara inzibati qaydada çıxartma barədə vahid işlək mexanizm olmadığı üçün, hazırda Azərbaycan Respublikasında mövcud olan qanunvericilk normaları ilə bu məsələlərin tənzimlənməsində müəyyən problemlər yaranır. 2016-cı ilin martın 1-dən qüvvəyə minən Azərbaycan Respublikasının 29 dekabr 2015-ci tarixli 96-VQ nömrəli Qanunu ilə Azərbaycan Respublikasının yeni İnzibati Xətalar Məcəlləsi təsdiq edilmişdir. Güman edilirdi ki, AR İXM-in 457-ci maddəsi yeni redaksiyada daha təkmilləşmiş şəkildə öz əksini tapacaqdır. Lakin yeni nəşr edilmiş İXM ilə tanış olduqda məlum olur ki, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması haqqında qərarın icrası adlı maddə Məcəllədən çıxarılmışdır. Hazırda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmasının ümumi qaydaları Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə tənzimlənir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən inzibati qaydada çıxarılması ilə bağlı normalarla yanaşı, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının 30 dekabr

1999-cu il tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin "Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma" adlı 52-ci maddəsi ilə tənzimlənir. Həmin maddənin 52.1-ci bəndində göstərilir ki, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma əcnəbilərə, onlar cinayət törətdiklərinə görə təyin olunmuş əsas cəza növünü çəkdikdən sonra, bu Məcəllənin 58.3-cü maddəsində göstərilmiş hallar nəzərə alınmaqla tətbiq edilə bilər [2. s.91-92].

Cinayət Məcəlləsinin 52.1-ci maddəsinin tələblərindən məlum olur ki, ölkənin hüdudlarından kənara məcburi çıxarma həm də vətəndaşlığı olmayan şəxslərə şamil edilir. Bundan başqa, həmin maddədə o da göstərilir ki, onlar təyin olunmuş əsas cəza növünü çəkdikdən sonra və Cinayət Məcəlləsinin 58.3-cü maddəsində göstərilmiş hallar nəzərə alınmaqla ölkənin hüdudlarından kənara məcburi çıxarıla bilərlər. Bu barədə Cinayət Məcəlləsinin 58.3-cü bəndində göstərilir ki, cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır [2. s.97].

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 52.2-ci maddəsinə görə, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növü aşağıdakı şəxslərə şamil edilmir: barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək beş il Azərbaycan Respublikasının ərazisində daimi yaşayan şəxslərə; barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan şəxslərə; Azərbaycan Respublikasında doğulmuş şəxslərə; valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxslərə; qaçqın statusuna malik olan və ya Azərbaycan Respublikası tərəfindən siyasi sığınacaq verilmiş şəxslərə; himayəsində Azərbaycan Respublikasının vətəndaşı olan yetkinlik yaşına çatmayan uşağı, fəaliyyət qabiliyyəti olmayan və ya I və II qrup əlili olan şəxslərə; məcburi çıxarıldığı zaman gedəcəyi ölkədə işgəncəyə və ya təqibə məruz qala biləcəyinə ciddi əsaslar olduğu ehtimal edilən və ya məcburi çıxarılması milli təhlükəsizliyin təmin edilməsi mənafeyinə zidd olan şəxslərə [2. s.92].

Göründüyü kimi, Azərbaycan Respublikasından əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmasının hüquqi əsasları adlı məqalə üzrə aparılan araşdırmadan məlum olur ki, İnzibati Xətalar Məcəlləsinin 29-cu maddəsinə əsasən, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilir.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Qanun" nəşriyyatı, 2014
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: "Qanun" nəşriyyatı, 2016.

3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı: "Qanun" nəşriyyatı, 2016.
4. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Bakı: "Qanun" nəşriyyatı, 2013.
5. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının 30 sentyabr 1998-ci il tarixli 527-IQ nömrəli Qanunu. Bakı: "Qanun" nəşriyyatı, 2012.
6. Əsgərov Z.A. Konstitusiya hüququ: Dərslik. Bakı, 2006.
7 . "Vətəndaşlıq haqqında " 1963-cu il tarixli Avropa Konvensiyası.
8. Çirkin V.V. Xarici ölkələrin konstitusiya hüququ. Bakı. 2009.

## ПРАВОВЫЕ ОСНОВЫ ДЕПОРТАЦИИ В АДМИНИСТРАТИВНОМ ПОРЯДКЕ ЗА ПРЕДЕЛЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИНОСТРАНЦЕВ И ЛИЦ БЕЗ ГРАЖДАНСТВА

**Агасиев Р.М.**
e-mail: rasim_agasiyev@mail.ru

В статье исследуются правовые основы депортации в административном порядке за пределы Азербайджанской Республики иностранцев и лиц без гражданства. Проводятся сравнения недостатков, существующих в отдельных положениях Кодекса Административных проступков Азербайджанской Республики в связи с применением в административном порядке депортации за пределы Азербайджанской Республики и даются ряд научных предложений.

**Ключевые слова:** *иностранцы и лица без гражданства, незаконная миграция, принудительная высылка за пределами страны в администрат порядке (депортация).*

## LEGAL GROUNDS FOR EXPULSION OF FOREIGNERS AND STATELESS PERSONS FROM THE REPUBLIC OF AZERBAIJAN IN ADMINISTRATIVE ORDER

**Agasiyev Rasim Mizi oglu.**
e-mail: rasim_agasiyev@mail.ru

The author investigates the legal grounds for expulsion of foreigners and stateless persons from the Republic of Azerbaijan in administrative order. He carries out comparisons related to some gaps and shortcomings in some clauses of the Code of Administrative Offences and makes certain suggestions in connection with the application of expulsion in administrative order in the Republic of Azerbaijan.

# İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması sahəsində Avropa Şurasının İnsan hüquqları üzrə Komissarının fəaliyyəti

**Pərviz Məmmədov,**
**Azərbaycan MEA-nın Hüquq və İnsan Haqları İnstitutunun doktorantı.**

*Bu məqalədə Avropada işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınmasında İnsan hüquqları üzrə Avropa Komissarının rolu təhlil edilmişdir. Qeyd edək ki, bu məsələ Azərbaycan hüquq elmində bu günə qədər araşdırılmamışdır.*

**Açar sözlər:** işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza, İnsan hüquqları üzrə Avropa Komissarı, monitorinq, preventiv mexanizm.

Əsas insan hüquq və azadlıqlarına, o cümlədən işgəncəyə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququna üzv dövlətlər tərəfindən əməl olunmasına nəzarət etmək məqsədi ilə Avropa Şurası çərçivəsində bir çox qurumlar təsis olunmuşdur [1]. Bu qurumlar sırasında İnsan hüquqları üzrə Avropa Məhkəməsini və qeyri-məhkəmə (monitorinq) mexanizmlərini – CPT-ni (İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsini), Avropa Sosial Hüquqlar Komitəsini, Milli azlıqların hüquqlarının müdafiəsi haqqında Çərçivə Konvensiyası üzrə Məsləhət Komitəsini, ECRI-ni (İrqçilik və dözümsüzlük əleyhinə Avropa Komissiyasını), Regional dillərin və ya milli azlıqların dilləri haqqında Avropa Xartiyası üzrə Ekspertlər Komitəsini, GRECO-nu (Korrupsiyaya əleyhinə Dövlətlər Qrupunu), GRETA-nı (İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupunu), MONEYVAL-ı (Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsini) və GREVİO-nu (Qadınlara qarşı zorakılıqla və məişət zorakılığı ilə mübarizə üzrə Ekspertlər Qrupunu) göstərmək lazımdır. Bunlardan əlavə, insan hüquqlarının müdafiəsində və təşviqində, o cümlədən işgəncənin və digər pis rəftarın qarşısının alınması sahəsində Avropa Şurasının İnsan hüquqları üzrə Komissarı, habelə siyasi qurumlar – Parlament Assambleyası və Nazirlər Komitəsi də mühüm rol oynayırlar.

İnsan hüquqları üzrə Avropa Komissarı Avropa Şurasına üzv olan dövlətlər tərəfindən insan hüquq və azadlıqlarına səmərəli surətdə əməl olunmasına kömək göstərmək məqsədi ilə yaradılmışdır və onun kifayət qədər geniş mandatı vardır. O, İnsan hüquqları üzrə Avropa Məhkəməsindən və Avropa Şurası çərçivəsində fəaliyyət gös-

tərən monitorinq qurumlarından əhəmiyyətli dərəcədə fərqlənən qeyri-məhkəmə mexanizmidir. İnsan hüquqları üzrə Komissarın geniş monitorinq funksiyaları və üzv dövlətlərin hökumətləri ilə birbaşa kontaktları bu olduqca mühüm təsisata siyasi səciyyə verir və onun insan hüquqları diplomatiyasında vacib rolunu şərtləndirir [2, s. 515-521; 3, s. 114-124].

İnsan hüquqları üzrə Avropa Komissarı və ya Avropa Ombudsmanı institutunun təsis edilməsi ideyası hələ 1970-ci illərdə Avropa Şurasının Parlament Assambleyasında nəzərdən keçirilmişdi. Belə bir təklif irəli sürülmüşdü ki, o vaxtlar İnsan hüquqları üzrə Avropa Məhkəməsi ilə yanaşı fəaliyyət göstərən İnsan hüquqları üzrə Avropa Komissiyası çoxlu sayda işlərə baxmaqdan imtina etdiyinə görə, yaradılacaq bu yeni quruma fərdi şikayətlərə baxmaq səlahiyyəti verilsin. Lakin Parlament Assambleyası göstərilən təklifi rədd etdi. Bu mənfi qərarın arxasında əsas iki səbəb var idi: birincisi, dövlətlər Komissara ölkədaxili mühakimə icraatı ilə bağlı sənədlərlə tanış olmaq hüququnu vermək istəmirdilər və ikincisi, o zaman BMT səviyyəsində İnsan hüquqları üzrə Ali Komissar Ofisinin təsis olunması prosesi gedirdi.

Sözügedən ideya bir daha 1980-ci illərdə Avstriya hökuməti tərəfindən onun Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə qaldırıldı. Lakin həmin təşəbbüs yalnız Nazirlər Komitəsi tərəfindən Ombudsman təsisatı haqqında ümumi tövsiyələrin (Avropa Şurası Nazirlər Komitəsinin Rec(85)13 nömrəli Tövsiyəsi) qəbul edilməsi ilə nəticələndi və Avropa səviyyəsində belə bir qurum yaradılmadı.

İnsan hüquqları üzrə Avropa Komissarı institutunun təsis edilməsi üçün əlverişli məqam 1990-cı illərdə Mərkəzi və Şərqi Avropa ölkələrinin Avropa Şurasına qoşulmasından sonra yarandı. Qeyd edək ki, artıq 1993-cü ildə BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı təsis olunmuşdu. Avropa Komissarı institutunun yaradılması ideyasını bu dəfə Finlandiya hökuməti irəli sürdü və o, həmin təşəbbüsü Avropa Şurasının genişlənməsi faktı, habelə İnsan hüquqları üzrə Avropa Komissiyasının ləğv edilərək əvəzində yalnız Avropa Məhkəməsinin fəaliyyət göstərəcəyi ilə əsaslandırdı. Finlandiya hökuməti haqlı olaraq hesab edirdi ki, Məhkəmənin iş yükü bundan sonra sürətlə artacaqdır və bu səbəbdən Məhkəmənin icraatına qəbul edilməyən fərdi şikayətlərlə məşğul ola biləcək yeni quruma ehtiyac vardır. Təklifə görə, yeni təsis ediləcək qurum fərdi şikayətlərlə yanaşı, ictimaiyyətə məlumatlar və məsləhətlər verə bilərdi və Strasburq Məhkəməsi tərəfindən işlərə baxılması zamanı amicus curiae qaydasında müdaxilələr edə bilərdi [4].

Göstərilən təklif ümumən üzv dövlətlər tərəfindən bəyənildi və 1997-cil ilin oktyabrında Avropa Şurası Sammitində qəbul olunmuş Fəaliyyət Planına daxil edildi [5]. Lakin dövlətlərin əksəriyyəti belə hesab edirdi ki, Ombudsman tipli bu yeni təsisatın mandatı daha çox siyasi xarakter daşımalı, preventiv funksiyaya malik olmalı və təsisat fərdi şikayətlərlə məşğul olmamalıdır. Sözügedən qurum yaradılarkən

məhz bu mülahizələr əsas götürüldü və qurumun beynəlxalq müqavilə əsasında deyil, tövsiyə xarakterli sənəd – Avropa Şurası Nazirlər Komitəsinin qətnaməsi (1999-cu il 7 may tarixli 99(50) nömrəli qətnamə) əsasında yaradılması qərara alındı [6].

İnsan hüquqları üzrə Avropa Komissarının səlahiyyətləri, onun fəaliyyətinin normativ əsasları göstərilən qətnamədə təsbit olunmuşdur.

Qətnaməyə əsasən, İnsan hüquqları üzrə Komissar Avropa Şurası Parlament Assambleyası tərəfindən yalnız bir dəfə olmaqla altı il müddətinə seçilir.

Qətnamənin 1-ci maddəsində göstərilir ki, Komissar "Avropa Şurasının sənədlərində təsbit olunmuş insan hüquqlarına hörməti, insan hüquqları sahəsində təhsili və maarifçiliyi təşviq etmək üçün yaradılan qeyri-məhkəmə mexanizmidir". Həmin maddədə Komissarın mandatı üçün hədlər müəyyən edilmişdir; nəzərdə tutulmuşdur ki, Komissar Avropa Şurasının digər hüquq müdafiə mexanizmlərinin səlahiyyətlərinə hörmət etməli və həmin səlahiyyətlərdən fərqli funksiyalar yerinə yetirməlidir. Beləliklə, birmənalı müəyyən olunmuşdur ki, İnsan hüquqları üzrə Avropa Komissarı fərdi şikayətlərə baxa bilməz. Qətnamənin 2-ci maddəsi ilə Komissarın üzərinə müstəqil və qərəzsiz fəaliyyət göstərmək vəzifəsi qoyulmuşdur. Xüsusilə vurğulamaq istərdik ki, müstəqillik və qərəzsizlik İnsan hüquqları üzrə Avropa Komissarının prinsipial cəhətləridir.

İnsan hüquqları üzrə Avropa Komissarını hüquq müdafiə mexanizmi kimi səciyyələndirən ümdə xüsusiyyət onun monitorinq səlahiyyətlərinə malik olmasıdır. Qətnaməyə əsasən, Komissara bu istiqamətdə aşağıdakı funksiyalar həvalə edilmişdir: a) Avropa Şurasına üzv olan dövlətlər tərəfindən insan hüquqlarına səmərəli surətdə əməl olunmasının təşviqi; b) Avropa Şurasının sənədlərində təsbit olunmuş insan hüquqlarına əməl edilməsi ilə bağlı üzv dövlətlərin qanunvericiliyində və təcrübəsində mövcud olan mümkün çatışmazlıqların aşkara çıxarılması; c) göstərilən insan hüquqlarının üzv dövlətlər tərəfindən səmərəli implementasiyasının təşviqi və dövlətlərin razılığı ilə onlara bu cür çatışmazlıqların aradan qaldırılması işində kömək göstərilməsi.

Komissarın monitorinq fəaliyyətini asanlaşdıran mühüm amil onun üzv dövlətlərlə birbaşa əlaqələr qurmaq hüququna malik olmasıdır. Bundan əlavə, üzv dövlətlər Komissarın öz funksiyalarını müstəqil və səmərəli surətdə həyata keçirməsinə yardım etməyə borcludurlar (Qətnamənin 6-cı maddəsi). Komissar hökumətlərin, parlamentlərin, ombudsmanların, təşkilatların və ayrı-ayrı fərdlərin ünvanladıqları və onun müvafiq hesab etdiyi istənilən məlumat əsasında tədbirlər görə bilər.

İnsan hüquqları üzrə Avropa Komissarı tövsiyələr və rəylər vermək, habelə məruzələr hazırlamaq səlahiyyətinə malikdir və bunları Avropa Şurası Nazirlər Komitəsinin və Parlament Assambleyasının diqqətinə çatdıra bilər. İllik məruzə bu orqanlara təqdim olunmalıdır [7, s. 72-73].

Qeyd edək ki, 99(50) nömrəli Qətnamənin qəbulundan sonra İnsan hüquqları üzrə Avropa Komissarının səlahiyyətləri bir qədər genişlənmişdir. Bunlardan ən

əhəmiyyətlisi İnsan hüquqları haqqında Avropa Konvensiyasının 14 nömrəli Protokolunda öz əksini tapmışdır: həmin Protokolda Komissara İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında icraata üçüncü tərəf kimi müdaxilə etmək, yəni yazılı şərhlərini təqdim etmək və dinləmələrdə iştirak etmək hüququ verilmişdir (bax: İnsan hüquqları haqqında Avropa Konvensiyasının 36-cı maddəsinin 3-cü hissəsi). Məsələn, 2015-ci il noyabrın 12-də Komissar N.D. v. Spain və N.T. v. Spain işləri ilə bağlı şərhlərini Avropa Məhkəməsinə təqdim etmişdir. Həmin sənəddə Komissar əcnəbilərin ölkə ərazisindən kollektiv surətdə çıxarılmasının qadağan olunması barədə normaya Avropa Şurasına üzv olan dövlətlər tərəfindən necə əməl olunduğuna diqqət çəkmiş və Komissarın bu sahədəki fəaliyyətini işıqlandırmış, İspaniyanın Mərakeşlə sərhəd olan Melilla və Ceuta adlanan ərazilərindən miqrantların geri qaytarılması və bu zaman non-refoulement prinsipinin pozulması ilə bağlı ciddi narahatlığını bildirmişdir [8].

İnsan hüquqları üzrə Avropa Komissarının mandatı ilə BMT-nin İnsan hüquqları üzrə Ali Komissarının mandatını müqayisə etmək maraqlı olardı. Hər iki qurumun monitorinq və məsləhət funksiyaları oxşardır. Əsas fərq onların formal müstəqilliyi ilə bağlıdır. Ali Komissar BMT-nin Baş Katibi tərəfindən vəzifəyə təyin edilir (bir dəfə yenidən təyin oluna bilər) və Baş Katibin və BMT Baş Məclisinin nəzarəti altında fəaliyyət göstərir. Ondan fərqli olaraq, Avropa Komissarı Avropa Şurası çərçivəsində müstəqil təsisatdır; o, Avropa Şurasının Parlament Assambleyası tərəfindən altı il müddətinə və yalnız bir müddətə seçilir.

İnsan hüquqları üzrə Avropa Komissarının hökumətlərlə davamlı dialoqu onun insan hüquqları ilə bağlı vəziyyəti hərtərəfli dəyərləndirmək üçün bütün üzv dövlətlərə etdiyi müntəzəm səfərlərdə öz əksini tapır. Bu səfərlər zamanı Komissar hökumət və parlament üzvləri, məhkəmə hakimiyyətinin nümayəndələri, eləcə də hüquq müdafiə təşkilatlarının və vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşlər keçirir. Bir qayda olaraq, Komissar qapalı müəssisələrə – polis məntəqələrinə, penitensiar müəssisələrə, qanunsuz miqrantların saxlanıldığı yerlərə, psixiatriya müəssisələrinə və bu kimi digər yerlərə baş çəkir. Bu cür səfərlərin müddəti bir neçə gündən bir neçə həftəyə qədər ola bilər.

Dəyərləndirmə missiyalarının nəticəsi olaraq, Komissar ölkə üzrə məruzə hazırlayır. Həmin məruzədə insan hüquqları ilə bağlı vəziyyət təhlil olunur və vəziyyətin yaxşılaşdırılmasına yönələn tövsiyələr əks etdirilir. Məruzə dərc edilməmişdən öncə müvafiq dövlətə göndərilir və həmin dövlətin təqdim etdiyi şərhlər məruzənin son mətninə əlavə olunur. Hər bir məruzə ilə bağlı onun dərc edildiyi gün Avropa Şurasının Nazirlər Komitəsində müzakirələr keçirilir.

Komissarın monitorinq səfəri zamanı müəyyən etdiyi faktlar səfərdən sonra dərhal dərc olunur və bu fakt prosedurun şəffaflığı üçün əlamətdar amil kimi çıxış edir.

Qeyd edək ki, Komissarın üzv dövlətlərin ərazisində həbsxanalara və digər həbs yerlərinə etdiyi səfərlərin müddəti

CPT-nin həyata keçirdiyi səfərlərdən daha az olur və eləcə də həmin səfərlər qədər müfəssəl və ya "ixtisaslaşmış" olmur. Komissarın ofisi ilə CPT-nin Katibliyi arasında davamlı məlumat mübadiləsi mövcuddur; bu, hər iki təsisat tərəfindən eyni bir ölkəyə eyni zamanda səfər həyata keçirilməsindən, habelə eyni bir dövlətə fərqli tövsiyələrin verilməsindən yan qaçmağa imkan verir. Mütəmadi olmasa da, Komissar özü də CPT-nin üzvləri, xüsusən CPT-nin sədri ilə görüşlər keçirir.

2015-ci ilin son rübündə həyata keçirdiyi səfərlərində Komissar azadlıqdan məhrum edilmiş şəxslərlə necə rəftar olunması və onların saxlanma şəraiti ilə bağlı məsələlərə xüsusi diqqət yetirmişdir. Məsələn, noyabrın 24-dən 27-dək Macarıstanda səfərdə olarkən o, immiqrantların və qaçqınların insan hüquqları ilə bağlı vəziyyətini öyrənmiş, bu məqsədlə göstərilən kateqoriyaya aid olan şəxslərin saxlandığı mərkəzlərə baş çəkmiş və həmin şəxslərin bəziləri ilə təkbətək görüşlər keçirmişdir. Komissar bu səfəri zamanı Macarıstanda qanunsuz miqrantlarla rəftara aid qanunvericilikdə və praktikada ciddi pozuntular aşkara çıxarmışdır. Digər məsələlərlə yanaşı, o, Macarıstan hökumətinə tövsiyə etmişdir ki, həbsdə olan qanunsuz miqrantların saxlanma şəraiti yaxşılaşdırılmalı və miqrant uşaqlar həbsdə saxlanmamalıdırlar [9].

İmmiqrantların və sığınacaq axtaran şəxslərin hüquqlarının müdafiəsi məsələləri habelə Komissarın 2015-ci il 7-11 dekabrda Kiprə etdiyi səfər zamanı xüsusilə araşdırılmışdır. Komissar xüsusən Suriya qaçqınlarının həbsə alınması praktikasına son qoyulmasını və Mennogeia mərkəzində saxlanılan miqrantların sayının CPT-nin tövsiyələrinə uyğun olaraq yarıya qədər azaldılmasını müsbət addım kimi dəyərləndirmişdir. Bununla belə, Komissar qanunsuz miqrantların uzun dövr ərzində həbsdə saxlanıldığını, həbs əvəzinə alternativ tədbirlərdən istifadə olunmadığını və həmin şəxslərə kifayət qədər sosial və psixoloji dəstəyin göstərlmədiyini Kipr hökumətinə irad kimi bildirmişdi [9].

Dəyərləndirmə missiyalarından başqa, Komissar qısamüddətli faktaraşdırıcı səfərlər də həyata keçirə bilər. Bu cür səfərlərin məqsədi əvvəllər verilmiş tövsiyələrin müvafiq dövlətlər tərəfindən necə yerinə yetirilməsini yoxlamaqdan ibarətdir.

Avropa Komissarının üzv dövlətlərdə insan hüquqlarının həyata keçirilməsinə ciddi problemlər yaradan böhran və münaqişə situasiyalarına dərhal reaksiya verə bilməsi bu təsisatın güclü cəhətlərindən biridir. Qurumun çevikliyi, müstəqilliyi və qərəzsizliyi, eləcə də Komissarın şəxsi nüfuzu bu hallarda xüsusi rol oynayır. Vaxtilə Çeçenistandakı vəziyyət [10], Rusiya ilə Gürcüstan arasındakı münaqişə [11], Ermənistanda [12] və Moldovada [13] seçkilərdən sonra baş vermiş zorakılıqlarla bağlı Komissar bu ərazilərə dərhal səfərlər etmiş, vəziyyəti araşdırmış və aşkar etdiyi nöqsanların və çatışmazlıqların aradan qaldırılmasına yönəlmiş tövsiyələr vermişdir.

Komissarın monitorinqlə bağlı mandatının əhatə etdiyi insan hüquqlarının dairəsi kifayət qədər genişdir. Ölkələr üzrə məruzələrində Komissar mülki, siyasi, iqtisadi,

sosial və mədəni hüquqlarla bağlı məsələlərə toxunur və bu zaman nəinki Avropa Şurasının insan hüquqlarına dair standartlarına, habelə BMT çərçivəsində qəbul olunmuş sənədlərə və Avropa İttifaqının direktivlərinə istinad edir.

Avropa Şurasının digər monitorinq mexanizmlərindən fərqli olaraq, İnsan hüquqları üzrə Avropa Komissarının fəaliyyəti müvafiq konvensiya və ya qətnamələrdə həmin mexanizmlər üçün müəyyən olunmuş tematik cəhətdən məhdud mandata malik deyildir. Bu, Komissara öz monitorinq fəaliyyətində tematik prioritetlər müəyyənləşdirməyə imkan verir. Komissar bu və ya digər ölkədə bir neçə müxtəlif xarakterli mövzuya toxuna bilər və bununla da həmin ölkədə insan hüquqları ilə bağlı vəziyyəti daha geniş dəyərləndirə bilər.

Komissarın hazırladığı bir çox dəyərləndirmə məruzələrində önəm verilmiş mövzuları qeyd etmək olar. Həbs yerlərində olan şərait, ayrı-seçkilik, miqrantlarla rəftar bu mövzular sırasındadır. Klassik ombudsman yanaşmasına uyğun olaraq, Komissar tez-tez penitensiar müəssisələrə və digər həbs yerlərinə baş çəkir və müvafiq dövlət orqanlarının diqqətini həmin yerlərdə aşkar etdiyi ciddi problemlərə yönəldir. Bu problemlərlə bağlı üzv dövlərlərlə apardığı dialoqunda Komissar, bir qayda olaraq, CPT-nin müəyyən etdiyi hallara söykənir.

Komissarın mandatının mühüm bir komponenti olan tematik işə gəldikdə isə, onun diqqətdə saxladığı mövzular sırasında aşağıdakıları xatırlatmaq istərdik: uşaq hüquqları, terrorçuluq əleyhinə mübarizə, iqtisadi böhran, mətbuat azadlığı və miqrasiya.

İnsan hüquqları üzrə Komissarın çoxşaxəli fəaliyyəti onun təqdim etdiyi, 2015-ci il oktyabrın 1-dən dekabrın 31-ə qədər olan müddəti əhatə edən rüblük məruzədən aydın görünür. Məruzədə həmin müddət ərzində Komissarın diqqətdə saxladığı aşağıdakı məsələlər əks etdirilmişdir: immiqrantların, sığınacaq axtaran şəxslərin, qaçqınların və məcburi köçkünlərin hüquqları; insan alverinin qurbanlarının hüquqları; etnik və dini əsasda ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə; əlillərin hüquqları; terrorçuluğa qarşı mübarizə kontekstində insan hüquq və azadlıqlarının qorunması [9].

İnsan hüquqlarının təşviqi ilə bağlı fəaliyyətini Komissar müxtəlif forma və vasitələrlə, əsasən, tematik sənədlər dərc etdirməklə və seminarlar təşkil etməklə həyata keçirir. Tematik sənədlər dedikdə, Komissarın bütün üzv dövlətlərə ünvanladığı rəylər, tədqiqatlar, məruzələr və digər sənədlər başa düşülür.

Avropada insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı verdiyi rəylərində İnsan hüquqları üzrə Komissar müvafiq beynəlxalq standartları şərh edir. Bu cür rəylərə misal olaraq, 2008-ci il iyunun 16-da verilmiş “Azadlıqdan məhrum edilmiş şəxslərin ailə üzvləri ilə görüşməsi” barədə rəyi [14] və 2015-ci il dekabrın 3-də verilmiş “Əqli pozğunluğu olan şəxslərin onların qeyri-könüllü psixiatriya müəssisəsinə yerləşdirilməsi və qeyri-könüllü müalicə olunması ilə bağlı insan hüquqlarının və ləyaqətinin qorunması barədə” rəyi [15] misal göstərmək olar.

Tədqiqatlarda (“Issue papers”) insan hüquqlarının aktual problemləri işıqlandırılır və həmin problemlərin həlli yolları təklif edilir. Bu tədqiqatlar vasitəsilə ictimaiyyət, habelə dövlət orqanları və insan hüquqlarının müdafiəsi sahəsində çalışan qeyri-hökumət təşkilatları məlumatlandırılır. Həmin sənədlər sırasında aşağıdakıları göstərmək olar: “Uşaqlar və yuvenal ədliyyə: təkmilləşdirilmə üçün təkliflər” [16]; “Avropada qanunsuz miqrantların insan hüquqları” [17].

İnsan hüquqları üzrə Avropa Komissarının istifadə etdiyi metodlardan biri də onun Avropa Şurasına üzv olan ölkələrdə insan hüquqlarının vəziyyəti ilə bağlı aktual məsələlərə dair öz mövqeyini rəsmi sənəd (“Position Paper”) şəklində ortaya qoymasıdır. Bu sənədlərdə Komissarın çoxşaxəli fəaliyyətinin, o cümlədən monitorinq səfərlərinin nəticəsi olaraq müəyyənləşdirdiyi faktların, gəldiyi nəticələrin və etdiyi tövsiyələrin ümumiləşdirilmiş qısa icmalı öz əksini tapır. Həmin sənədlər yeni faktlar və tövsiyələr daxil edilməklə vaxtaşırı yenilənir. İnsan hüquqları üzrə Komissarın mövqeyinin ifadə olunduğu bu sənədləri müəyyən mənada mövcud və qəbul olunması arzu edilən standartlar məcmusu kimi dəyərləndirmək olar.

Apardığımız tədqiqatın predmeti ilə bu və ya digər dərəcədə bağlı olan həmin sənədlərə misal olaraq aşağıdakıları göstərmək olar: “Romanların (qaraçıların) insan hüquqları [18]; “Qanunsuz vəziyyətdə olan miqrantların hüquqları [19]”; Sığınacaq əldə etmək və sığınacaqdan istifadə etmək hüququ” [20]; “Qanunsuz vəziyyətdə olan yetkinlik yaşına çatmamış miqrantların hüquqları” [21]; “Terrorçuluqla mübarizə və insan hüquqlarının müdafiəsi” [22].

Qeyd etmək istərdik ki, İnsan hüquqları üzrə Avropa Komissarının kollegial qurum kimi deyil, tək mandat sahibi kimi fəaliyyət göstərməsinin üstünlükləri olsa da, bir mənfi tərəfi də vardır: üzv dövlətlərə səfərlər etmək və monitorinq həyata keçirmək üçün onda qaçılmaz vaxt məhdudiyyəti vardır. Bu problem Komissara bütün üzv dövlətlərin hökumətləri və digər maraqlı qurumlarla eyni zamanda davamlı dialoq aparmağa imkan vermir.

Şübhəsiz, prinsipial məqam ondan ibarətdir ki, İnsan hüquqları üzrə Avropa Komissarının tövsiyələri hansı dərəcədə üzv dövlətlər tərəfindən yerinə yetirilir. Komissarın səfərlər zamanı, adətən, ən yüksək hakimiyyət nümayəndələri tərəfindən qəbul olunması və onun məruzələrinə dövlətlərin müfəssəl şərhlər təqdim etməsi ən azı Komissar təsisatına ciddi münasibət göstərilməsinə dəlalət edir. Doğrudur, Komissarın verdiyi tövsiyələrin müəyyən hissəsi reallıqda yerinə yetirilməmiş qalır.

Bununla belə, İnsan hüquqları üzrə Avropa Komissarı təsisatına üzv dövlətlər hörmətlə yanaşırlar və onun monitorinq fəaliyyətini yüksək qiymətləndirirlər. Bu təsisat Avropa Şurası çərçivəsində insan hüquqlarının, o cümlədən işgəncəyə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququnun müdafiəsinə və təşviqinə sanballı töhfə verir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Human rights monitoring mechanisms of the Council of Europe (G. De Beco ed.). London-New York, 2012, 243 p.
2. Hammarberg T., Dalhuisen J. The Council of Europe Commissioner for Human Rights //International Human Rights Monitoring Mechanisms: Essays in Honour of Jakob Th. Moeller (Eds. Alfredsson G. et al.). 2nd edition. Leiden: Martinus Nijhoff, 2009, pp. 515-521.
3. Lezertua M., Forde A. The Commissioner for Human Rights //The Council of Europe (Ed. Kleinsorge T.). Alphen aan den Rijn: Kluwer Law International, 2010, pp. 114-124.
4. Committee of Ministers of the Council of Europe, Proposal to Create a Council of Europe Commissioner for Human Rights, 7 January 1997, CM(97)12.
5. Second Summit of Heads of State and Government of the Council of Europe, Final Declaration and Action Plan, Strasbourg, 10-11 October 1997, CM(97)169.
6. Resolution (99) 50 on the Council of Europe Commissioner for Human Rights (adopted by the Committee of Ministers on 7 May 1999at its 104th Session); https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=09000016805e305a
7. Muller-Rappard E. The terms of reference and activities of the Council of Europe Commissioner for Human Rights //Bulletin des droits de l'homme, 2002, No. 10, pp. 71-79.
8. The Commissioner - CommDH(2015)27 12 November 2015; Third party intervention by the Council of Europe Commissioner for Human Rights under Article 36, paragraph 3, of the European Convention on Human Rights. N.D. v. Spain and N.T. v. Spain; https://wcd.coe.int/ViewDoc.jsp?Ref=CommDH(2015)27&Language=lanEnglish
9. Fourth quarterly activity report 2015 by Nils Muižnieks, Council of Europe Commissioner for Human Rights; Strasbourg, CommDH(2016)5; (1 October to 31 December 2015); https://wcd.coe.int/ViewDoc.jsp?Ref=CommDH%282016%295&Language=lanEnglish
10. Commissioner's Report on the Russian Federation (Chechen Republic and the Republic of Ingushetia), CommDH(2009)36
11. Commissioner's Report on the Conflict Region in Georgia, CommDH(2008)22.
12. Commissioner's Report on Armenia, CommDH(2008)11 REV.
13. Commissioner's Report on Moldova, CommDH(2009)27.
14. Opinion of the Commissioner for Human Rights regarding family visits to persons deprived of their liberty, Strasbourg, 16 June 2008, CommDH(2008)15; http://www.coe.int/en/web/commissioner/opinions
15. Comments of the Council of Europe Commissioner for Human Rights on the "Working document concerning the protection of human rights and dignity of persons with mental disorder with regard to involuntary placement and involuntary treatment", Strasbourg, 03 December 2015, CommDH(2015)28; http://www.coe.int/en/web/commissioner/opinions
16. Children and juvenile justice: proposals for improvements; The Commissoner – CommDH/İssue paper (2009)1 / 19 June 2009; http://www.coe.int/en/web/commissioner/issue-papers
17. The human rights of irregular migrants in Europe; The Commissoner – CommDH/Issue paper (2007)1 / 17 December 2007; http://www.coe.int/en/web/commissioner/issue-papers
18. Commissioner for Human Rights. Positions on the human rights of Roma; Strasbourg, 30 May 2010, CommDH/PositionPaper (2010)3; https://wcd.coe.int/ViewDoc. jsp?id=1631909
19. Commissioner for Human Rights. Positions on the rights of migrants in an irregular situ-

ation; Strasbourg, 24 June 2010, CommDH/PositionPaper(2010)5; https://wcd.coe.int/ViewDoc.jsp?id=164081

20. Positions on the right to seek and enjoy asylum Position Paper from the Council of Europe Commissioner for Human Rights; Strasbourg, 24 June 2010, CommDH/PositionPaper(2010)4; https://wcd.coe.int/ViewDoc.jsp?id=1640757
21. Commissioner for Human Rights. Positions on the rights of minor migrants in an irregular situation; Strasbourg, 25 June 2010, CommDH/PositionPaper(2010)6; https://wcd.coe.int/ViewDoc.jsp?id=1654377
22. Commissioner for Human Rights. Positions on counter-terrorism and human rights protection; Strasbourg, 05 June 2015, CommDH/PositionPaper(2015)1

## Деятельность Комиссара Совета Европы по правам человека в области предупреждения пыток и бесчеловечного или унижающего достоинство обращения или наказания

**Парвиз Маммадов.**

В статье анализируется деятельность Комиссара по правам человека – одного из важнейших механизмов, функционирующих в рамках Совета Европы, в сфере предупреждения пыток и бесчеловечного или унижающего достоинство обращения или наказания. Обращается особо внимание на его роль в мониторинге мест заключения, освещаются особенности методов его деятельности. Подчеркивается значимость Комиссара по правам человека в предупреждении пыток и других форм плохого обращения.

**Ключевые слова:** *пытки, бесчеловечное или унижающее достоинство обращение или наказание, Комиссар Совета Европы по правам человека, мониторинг, превентивный механизм.*

## Activities of the Council of Europe Commissioner for Human Rights in the field of prevention of torture and inhuman or degrading treatment or punishment

**Parviz Mammadov.**

The present article analyses the work of the Commissioner for Human Rights, which is one of the most important mechanisms functioning within the Council of Europe, in the field of prevention of torture and inhuman or degrading treatment or punishment. Particular attention is attached to the role of the Commissioner in monitoring of detention places, and peculiarities of his working methods are highlighted. The author underlines the importance of the Commissioner for Human Rights in the prevention of torture and other ill-treatment.

**Key words:** *torture, inhuman or degrading treatment or punishment, Council of Europe Commissioner for Human Rights, monitoring, preventive mechanism.*

## “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası”na və “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI Bölməsinin həyata keçirilməsinə dair Saziş”ə qoşulmaq barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 1982-ci il dekabrın 10-da Yamaykanın Monteqo Bey şəhərində qəbul olunmuş “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası”na və 1994-cü il iyulun 28-də Nyu-York şəhərində qəbul olunmuş “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI Bölməsinin həyata keçirilməsinə dair Saziş”ə qoşulsun.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2016-cı il
№ 165-VQ

## “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair” Sazişin təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair” 2016-cı il fevralın 2-də Dubay şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 aprel 2016-cı il
№ 204-VQ

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında” Sazişin təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında” 2016-cı il martın 15-də Ankara şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 may 2016-cı il
№ 221-VQ

## “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında hava nəqliyyatı haqqında” Sazişin təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında hava nəqliyyatı haqqında” 2016-cı il aprelin 6-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 may 2016-cı il
№ 235-VQ

## "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair Qaydalar"ın təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1303-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 576 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair Qaydalar" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaların şamil edildiyi avtonəqliyyat vasitələri 2016-cı il 1 iyul tarixindən rəqəmsal taxoqraflarla təchiz edilsin.

**3.** Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, rəqəmsal taxoqrafların növlərinin müəyyənləşdirilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş "Standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi məqsədi ilə sınaqların keçirilməsi, standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi, bu barədə sertifikatın verilməsi, ölçmə vasitələrinin yoxlamalararası intervalının müəyyən edilməsi və dəyişdirilməsi qaydası, standart nümunələrin və ölçmə vasitələrinin tipini təsdiq edən nişanlara dair tələblər və həmin nişanların vurulma Qaydası"na uyğun rəqəmsal taxoqrafların ölçmə vasitəsi kimi tipinin təsdiq edilərək ölçmə vasitələrinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**4.** "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının həyata keçirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 dekabr tarixli 244 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №12, maddə 1125; 2014, №7, maddə 947) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** həmin qərarla təsdiq edilmiş "Rəqəmsal taxoqraf kartlarının sisteminə dair Qayda"ya 1, 2, 3, 4 və 5 nömrəli əlavələr yeni redaksiyada təsdiq edilsin *(əlavə olunur);*

**4.2.** həmin qərarla təsdiq edilmiş "Taxoqrafların quraşdırılması, yoxlanması, təmiri, sınağı, kalibrlənməsi və onlara texniki xidmət göstərilməsi ilə bağlı işləri yerinə yetirən xidmət mərkəzlərinin (servis emalatxanalarının) fəaliyyəti Qaydaları"na 1 nömrəli əlavədə "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin" sözləri "Azərbaycan Respublikası qanunvericiliyinin" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri Artur Rasi-zadə**
Bakı şəhəri, 10 mart 2016-cı il
№ 118

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair QAYDALAR

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 556-IIIQ nömrəli Qanununa, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun hazırlanmışdır.

**1.2.** Bu Qaydalar ölkədaxili avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri sürücülərinin (bundan sonra sürücü) iş və istirahət rejimini, bununla bağlı avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən hüquqi şəxslərin və fərdi sahibkarların (bundan sonra daşıyıcı), sürücülərin hüquqlarını, vəzifələrini, həmçinin Azərbaycan Respublikasının ərazisində rəqəmsal taxoqrafla (bundan sonra taxoqraf) təchiz olunmuş sərnişin və yük daşımalarını həyata keçirən xarici və yerli daşıyıcılara məxsus olan avtonəqliyyat vasitələrinin sürücülərinin iş və istirahət rejiminə riayət etmələrinə nəzarətin həyata keçirilməsinin əsaslarını müəyyən edir.

**1.3.** Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarətin təşkili məqsədi ilə aşağıdakı kateqoriyalara aid sərnişin və yük avtonəqliyyat vasitələrinin tipi təsdiq edilərək, ölçmə vasitələrinin dövlət reyestrinə daxil edilir və yoxlamadan keçirilmiş taxoqrafla təchiz olunur:

**1.3.1.** sərnişin daşınması üçün nəzərdə tutulan, oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə 8-dən artıq olan, maksimum kütləsi 5 tondan artıq olmayan avtobuslar (M2 kateqoriyası);

**1.3.2.** sərnişin daşınması üçün nəzərdə tutulan, oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə 8-dən artıq olan, maksimum kütləsi 5 tondan artıq olan avtobuslar (M3 kateqoriyası);

**1.3.3.** yük daşımaları üçün nəzərdə tutulan, maksimum kütləsi 3,5 tondan artıq olan, lakin 12 tondan artıq olmayan avtonəqliyyat vasitələri (N2 kateqoriyası);

**1.3.4.** yük daşımaları üçün nəzərdə tutulan, maksimum kütləsi 12 tondan artıq olan avtonəqliyyat vasitələri (N3 kateqoriyası).

**1.4.** Aşağıda göstərilən avtonəqliyyat vasitələri taxoqrafla təchiz edilmir:

**1.4.1.** şəhərdaxili (rayondaxili) müntəzəm sərnişin daşımalarını yerinə yetirən nəqliyyat vasitələri;

**1.4.2.** daşıma məsafəsi 50 km-dən çox olmayan şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşımalarını yerinə yetirən nəqliyyat vasitələri;

**1.4.3.** icazə verilən maksimum sürəti 40 km/saatdan çox olmayan nəqliyyat vasitələri;

**1.4.4.** taksi minik avtomobilləri.

**1.5.** Bu Qaydaların 1.3-cü bəndində göstərilmiş sərnişin və yük avtonəqliyyat vasitələrinin taxoqrafla təchiz edilməsi hüquqi şəxslərin və fərdi sahibkarların öz vəsaitləri hesabına həyata keçirilir.

**1.6.** Bu Qaydaların şamil edildiyi sürücülərin iş və istirahət rejiminə, həmçinin daşıyıcılar tərəfindən bu rejimə riayət olunmasına nəzarəti qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi həyata keçirir. Sərnişin və yük daşımalarını həyata keçirən sürücülər tərəfindən yol hərəkəti qaydalarına və hərəkətin təhlükəsizliyinə riayət olunmasına nəzarəti Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

**1.7.** Taxoqrafdan istifadə qaydaları, taxoqraf kartlarının sistemi, habelə taxoqrafların quraşdırılması, yoxlanılması, təmiri, sınağı, kalibrlənməsi və onlara texniki xidmət göstərilməsi ilə bağlı işləri yerinə yetirən xidmət mərkəzlərinin (servis emalatxanalarının) fəaliyyəti "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının həyata keçirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 dekabr tarixli 244 nömrəli qərarı ilə təsdiq edilmiş müvafiq Qaydalara uyğun olaraq həyata keçirilir.

**2. Sürücülərin iş vaxtı və onun uçotunun aparılması**

**2.1.** Sürücülərin iş və istirahət vaxtı, o cümlədən növbəli iş rejimində iş və istirahət vaxtı iş (növbəlilik) cədvəlləri əsasında müəyyən edilir. Bütün sürücülər üçün iş (növbəlilik) cədvəlləri işəgötürən tərəfindən hər bir iş günü (iş növbəsi) əks olunmaqla və iş vaxtının gündəlik və ya cəmlənmiş uçotu aparılmaqla hər ay tərtib edilir və onların tətbiqinə ən azı bir ay qalmış sürücülərin nəzərinə çatdırılır. İş (növbəlilik) cədvəlləri gündəlik iş vaxtının başlanma və bitmə anını, müddətini, istirahət və qidalanma üçün fasilələrin vaxtını, gündəlik (növbələrarası) və həftəlik istirahət vaxtını müəyyən edir. İş (növbəlilik) cədvəli işəgötürən tərəfindən təsdiq edilir.

**2.2.** Gündəlik iş (növbəlilik) cədvəli ilə müəyyən edilmiş müddətdə sürücünün əsas iş yerinə qayıda bilməsinin mümkünsüz olduğu daşımalarda avtomobil sürücüləri uzaq reyslərə göndərilərkən, işəgötürən sürücünün yerinə yetirəcəyi tapşırığın müddətini təyin etdiyi zaman bu Qaydaların tələblərini və avtomobilin hərəkət və dayanma müddətlərini nəzərə alır.

**2.3.** İş vaxtı ərzində sürücü öz əmək funksiyalarını əmək müqaviləsinin şərtlərinə, təşkilatın daxili intizam qaydalarına və iş (növbəlilik) cədvəlinə uyğun olaraq yerinə yetirməyə borcludur.

**2.4.** Daxili intizam qaydaları və iş (növbəlilik) cədvəlləri ilə müəyyən edilmiş vaxtda əsas iş yerinə gəlmə anı iş vaxtının başlanma anı, avtomobilin duracaq yerinə qaytarılması üçün yekun işlərin görülüb başa çatdırıldığı an isə iş vaxtının bitmə anı hesab olunur. Bilavasitə iş yerinə gəlməklə və iş yerindən getməklə bağlı qeydiyyata sərf olunan vaxt iş vaxtına daxil edilmir. Ayrı-ayrı hallarda işin başlanma və bitmə vaxtı əsas iş yerindən kənarda müəyyən edilə bilər və bu barədə əvvəlki iş günü başa çatmamış sürücüyə məlumat verilməlidir. Şəhərlərarası (rayonlararası) daşımalar zamanı iş (növbəlilik) cədvəli ilə müəyyən edilmiş istirahət vaxtının başa çatdığı an növbədəki sürücünün iş vaxtının başlanma anı sayılır, marşrutun aralıq və ya son məntəqəsində cədvəl üzrə istirahət vaxtının başlandığı an isə iş növbəsinin bitmə anı hesab olunur.

**2.5.** Gündəlik iş vaxtına uyğun olan həftəlik iş vaxtının müddəti 40 saatdan artıq müəyyən edilə bilməz. İki istirahət günü olan beşgünlük iş həftəsində gündəlik iş vaxtının (növbəsinin) müddəti 8 saatdan, bir istirahət günü olan altıgünlük iş həftəsində

isə gündəlik iş vaxtının (növbəsinin) müddəti 7 saatdan çox olmamalıdır.

**2.6.** Sürücünün iş vaxtı aşağıdakı dövrlərdən ibarətdir:

**2.6.1.** xəttə çıxmazdan əvvəl və xətdən geri qayıtdıqdan sonra hazırlıq və yekun işlərinin yerinə yetirilməsi üçün tələb edilən vaxt, şəhərlərarası (rayonlararası) daşımalarda isə geri qayıdış məntəqəsində və ya yolda (duracaqda) növbədən əvvəl və növbə başa çatdıqdan sonra işlərin görülməsi üçün tələb edilən 20 dəqiqəlik vaxt;

**2.6.2.** sürücülərin reysqabağı tibbi müayinədən keçirilməsi üçün 5 dəqiqəlik vaxt;

**2.6.3.** avtonəqliyyat vasitəsinin idarə olunduğu vaxt;

**2.6.4.** reysə iki sürücü göndərildiyi zaman sürücünün iş yerində olduğu, lakin avtonəqliyyat vasitəsini idarə etmədiyi vaxt;

**2.6.5.** yükvurma və yükboşaltma məntəqələrində, sərnişinlərin avtonəqliyyat vasitəsinə mindiyi və düşürüldüyü yerlərdə, xüsusi təyinatlı avtonəqliyyat vasitələrinin istifadə edildiyi yerlərdə dayanma müddəti;

**2.6.6.** sürücünün təqsiri olmadan baş verən boşdayanmaların müddəti;

**2.6.7.** yolda avtonəqliyyat vasitəsinin idarə edilməsini dayandıraraq istirahət etmək və marşrutun son təyinat məntəqələrində dincəlmək üçün iş (növbəlilik) cədvəlində nəzərdə tutulmuş xüsusi fasilələrin müddəti;

**2.6.8.** xətdə iş zamanı avtonəqliyyat vasitəsinin istismarı zamanı yaranmış nasazlıqların aradan qaldırılması üçün görülən və mexanizmlərin sökülməsini tələb etməyən işlərin, habelə səyyar şəraitdə texniki yardım olmadan görülən tənzimləmə işlərinin müddəti;

**2.6.9.** mühafizə vəzifələri sürücü ilə bağlanılmış əmək müqaviləsində nəzərdə tutulubsa, şəhərlərarası (rayonlararası) daşımalar həyata keçirilərkən, marşrutun aralıq və sonuncu məntəqələrində yükün və avtomobilin mühafizə edildiyi müddət.

**2.7.** Reysə iki sürücü göndərilərkən, sürücünün iş yerində olduğu, amma avtomobili idarə etmədiyi müddətin sürücünün iş vaxtına aid edilən hissəsi işəgötürən tərəfindən 50 faizdən az olmamaqla müəyyən edilir.

**2.8.** Yükün və avtonəqliyyat vasitəsinin mühafizə edildiyi müddətin sürücünün iş vaxtına aid edilən hissəsi işəgötürən tərəfindən 30 faizdən az olmamaqlamüəyyən edilir.

**2.9.** Sərnişin və yük daşımalarının həyata keçirilməsi üçün uzaq reyslərə göndərilərkən, işəgötürən sürücünün yerinə yetirəcəyi tapşırığın müddətini təyin etdiyi zaman hazırlıq və yekun işlərinə sərf olunan vaxtın qüvvədə olan normalarını, reysqabağı tibbi müayinənin müddətini, yolda qısa və uzunmüddətli istirahət vaxtını, yükvurma və yükboşaltmanın müddətini, daşıma məsafəsini və sürücülərin təyin olunmuş iş rejimini, yük avtomobillərinin yürüş məsafəsi üzrə normalarını nəzərə alır. Tapşırıqda (cədvəldə) müəyyən edilmiş müddət iş vaxtı hesab edilir.

**2.10.** İş vaxtından artıq vaxtda görülən işin Azərbaycan Respublikasının əmək qanunvericiliyinə uyğun olaraq hər saatı üçün əməkhaqqı ödənilir. Azərbaycan Respublikasının əmək qanunvericiliyində, habelə kollektiv müqavilədə (sazişdə) nəzərdə tutulmuş hallar istisna olmaqla, iş vaxtından artıq vaxtda işə cəlb olunmağa yalnız sürücünün razılığı ilə yol verilir.

**2.11.** Növbəli iş rejimi sürücülərin növbə ilə bir-birini əvəzləməsinin ardıcıllığını müəyyən edir və hər bir növbənin müddəti qanunvericiliklə müəyyən edilmiş gündəlik iş (növbə) müddətindən az olmamalıdır. Digər iş rejimləri (iş vaxtının hissələrə bölünməsi, sutkalıq növbələr) növbəli iş rejiminə aid edilmir. Növbəli iş rejimində iş vaxtı rejimi iş (növbəlilik) cədvəli ilə müəyyən edilir.

Bu zaman növbənin müddəti 12 saatdan artıq ola bilməz. Sürücülər növbələr üzrə bərabərlik qaydasında bir-birini əvəzləyirlər. Ardıcıl olaraq iki növbə ərzində işləməyə yol verilmir.

**2.12.** Müəyyən edilmiş gündəlik və ya həftəlik iş vaxtına əməl olunması istehsalat (iş) şərtləri səbəbindən mümkünsüz olduğu və ya iqtisadi cəhətdən məqsədəuyğun olmadığı hallarda, sürücülərin iş vaxtının cəmlənmiş uçotu aparılır.

**2.13.** İş vaxtının uçot dövrü işəgötürən tərəfindən müəyyən edilir və bu dövr bir təqvim ilindən artıq ola bilməz. Uçot dövrü təqvim dövrləri (ay, rüb) ilə və ya digər dövrlərlə müəyyən edilə bilər.

**2.14.** Sürücülər üçün uçot dövrü bir ay təşkil edən iş vaxtının cəmlənmiş qaydada uçotu tətbiq edilir. İş vaxtının cəmlənmiş qaydada uçotu işəgötürən tərəfindən müəyyən edilir.

**2.15.** İş vaxtının cəmlənmiş qaydada uçotu aparılarkən, sürücü gündəlik işin (növbənin) və iş həftəsinin müəyyən edilmiş müddətini bütövlükdə uçot dövrü ərzində işləyib başa vurur. Bu zaman iş növbəsi və ya iş həftəsi üçün planlaşdırılmış iş vaxtları bərabər olmaya bilər. Bütün hallarda uçot dövrü üçün iş (növbəlilik) cədvəli üzrə iş saatlarının cəmi həmin dövr üçün Azərbaycan Respublikasının əmək qanunvericiliyinə uyğun olaraq hesablanan saatların normasından artıq olmamalıdır.

**2.16.** İş vaxtının cəmlənmiş uçotu aparılarkən, işəgötürənin sərəncamı ilə sürücünün iş gününün (iş növbəsinin) müddəti 10 saatdan artıq olmamaq şərtilə ayrı-ayrı hallarda (müntəzəm marşrut xətlərində sərnişinlərin daşınmasını həyata keçirən şəhərdaxili avtonəqliyyat vasitələrinin sürücüləri şəhərlərarası daşımanı həyata keçirərkən, onların istirahət etmək üçün müvafiq yerə gedə bilməsinə imkan yaratmaq zəruri olduğu hallarda) isə 12 saatdan artıq olmamaq şərtilə təyin edilə bilər və bu zaman uçot dövrü ərzindəki iş vaxtının müəyyən edilmiş normasına riayət edilməlidir. Ardıcıl iki təqvim günündən artıq müddətdə 12 saatlıq iş gününün (iş növbəsinin) müəyyən edilməsinə yol verilmir. Şəhərlərarası (rayonlararası) daşıma həyata keçirilərkən, sürücünün 12 saatdan artıq müddətdə avtomobildə olmasının nəzərdə tutulduğu hallarda reysə iki sürücü göndərilir.

**2.17.** İş vaxtının cəmlənmiş qaydada uçotu aparılarkən, sürücülərin iş vaxtı iş (növbəlilik) cədvəlləri ilə tənzimlənir. Bu zaman iş (növbəlilik) cədvəlləri bütün uçot dövrü üçün tərtib edilir və sürücünün həmin dövrə müəyyən edilmiş iş saatlarını işləməli olduğu nəzərə alınır. Cədvəllərdə gündəlik işin (növbənin) başlanma və bitmə anı və ümumi müddəti, istirahət və qidalanma üçün fasilə vaxtları, habelə növbələrarası və həftəlik istirahət üçün ayrılan vaxt müəyyən edilir. Sənaye, tikinti, kənd təsərrüfatı müəssisələrinin və digər təşkilatların texnoloji proseslərində daşımalarla məşğul olan sürücülər üçün iş (növbəlilik) cədvəlləri tərtib olunarkən, həmin cədvəllərin xidmətlərin göstərildiyi təşkilatların işçilərinin iş (növbəlilik) cədvəlləri ilə uzlaşması nəzərə alınır.

**2.18.** Sürücülər üçün hissələrə bölünmüş iş günü tətbiq edilə bilər. İş gününün ayrı-ayrı hissələri arasında istirahət və qidalanma üçün 4 saatdan çox olmamaq şərtilə 2 saatdan artıq bir fasilə, yaxud ümumi müddəti 4 saatdan çox olmamaq şərtilə iki və daha artıq fasilə verilə bilər. Bu zaman gün ərzində iş vaxtının ümumi müddəti iş (növbəlilik) cədvəli ilə müəyyən edilmiş gündəlik iş vaxtının müddətindən artıq olmamalıdır. İş gününün hissələri arasındakı fasilələr iş vaxtına daxil edilmir. İş gününün iki hissəsi

arasında fasilə avtomobilin dayanacağı yer qismində müəyyən edilən və sürücünün istirahəti üçün təchiz olunan yerdə verilir. İş gününün hissələrə bölünməsi məsələsi işəgötürən tərəfindən həll edilir.

**2.19.** Sürücülərin iş vaxtının uçotu iş vaxtında istifadəyə dair qeydlərin aparıldığı uçot tabeli, habelə yol vərəqələri əsasında həyata keçirilir.

**2.20.** Növbələrarası boşdayanmaların müddəti 5 dəqiqədən başlayaraq nəzərə alınır. Sürücülərin boşdayanmalarının müddətinin uçotu boşdayanmalara dair qeydlərin aparıldığı vərəqələrin doldurulması ilə və ya müəyyən edilmiş formada hazırlanan yol vərəqəsində xüsusi qeydlərin yazılması ilə həyata keçirilir. Boşdayanma müddətində işçilərin digər işlərdə istifadə edilməsi müddəti boşdayanma vərəqəsinə daxil edilmir. Ezamiyyə yerində sürücünün iş vaxtı onun iş yerində müəyyən edilmiş ümumi qaydaya uyğun olaraq nəzərə alınır. Ezamiyyə yerində iş daimi iş yerindəki iş (növbəlilik) cədvəlindən fərqli qaydada müəyyən edilibsə, avtomobil sürücüsünün iş vaxtı müəyyən edilərkən onun işlədiyi faktiki müddət nəzərə alınır və işlədiyi yerdən onun iş vaxtının uçot tabeli təqdim edilir.

### 3. Sürücülərin istirahət vaxtı

**3.1.** İş günü ərzində sürücülərə istirahət və qidalanma üçün 20 dəqiqədən az və 2 saatdan çox olmamaqla fasilə verilir. Sürücülər həmin fasilədən istədikləri kimi istifadə edə bilərlər. Fasilə iş vaxtına daxil edilmir.

**3.2.** İş (növbəlilik) cədvəlində gündəlik iş vaxtının (növbənin) müddəti 8 saatdan artıq müəyyən edildikdə, sürücüyə istirahət və qidalanma üçün ümumi müddəti 2 saatdan çox və 30 dəqiqədən az olmamaqla iki fasilə verilə bilər.

**3.3.** İstirahət və qidalanma üçün fasiləni işin başlanmasından 4 saat sonra vermək tövsiyə olunur.

**3.4.** İstirahətin verilmə vaxtı və konkret müddəti daxili intizam qaydaları və ya iş (növbəlilik) cədvəli ilə, yaxud da sürücü ilə işəgötürən arasındakı razılaşma ilə müəyyən edilir.

**3.5.** Avtonəqliyyat vasitəsini fasiləsiz olaraq 2 saat idarə etdikdən sonra sürücüyə 10 dəqiqəlik xüsusi texniki fasilə (onun müddəti iş vaxtına daxil edilir) verilir. İstirahət və qidalanma vaxtı başlamadığı təqdirdə, bu müddət avtomobilin 4 saat ərzində idarə olunmasından sonrakı fasiləyə əlavə oluna bilər.

**3.6.** İş (növbəlilik) cədvəlinə görə növbənin müddəti 8 saatdan çoxdursa, növbələrarası gündəlik istirahət müddətinin azaldılması həftəlik fasiləsiz istirahət müddətinin artırılması hesabına kompensasiya olunur.

**3.7.** İş vaxtının cəmlənmiş uçotu aparılan sürücülərin və ya hissələrə bölünmüş iş günü ilə işləyən sürücülərin ayrı-ayrı iş dövrlərində gündəlik (növbələrarası) istirahət müddəti sürücünün razılığı ilə işəgötürənin göstərişi əsasında 12 saatadək azaldıla bilər.

**3.8.** Şəhərlərarası daşımalarda iş vaxtının cəmlənmiş qaydada uçotu aparılarkən, marşrutun son və ya aralıq məntəqəsində sürücünün gündəlik (növbələrarası) istirahət müddəti istirahətə qədərki iş növbəsinin müddətindən, avtomobilin ekipajı iki sürücüdən ibarət olduqda isə istirahətə qədərki iş növbəsinin müddətinin yarısından az ola bilməz və bu zaman gündəlik (növbələrarası) istirahət müddəti bilavasitə əsas iş yerinə qayıdışdan sonra müvafiq müddətədək artırılır.

**3.9.** Növbəli qaydada işləyən sürücülər və iş vaxtının cəmlənmiş uçotu aparılan sürücülər üçün istirahət günləri iş (növbəlilik) cədvəlinə uyğun olaraq həftənin müxtəlif

günləri müəyyən edilə bilər. Bu zaman cari ayda həftəlik istirahət günlərinin sayı həmin aydakı tam iş həftələrinin sayından az olmamalıdır. Həmin günlərin sayı iş (növbəlilik) cədvəlində sürücünün işləməkdən azad olduğu günlərin ümumi sayı nəzərə alınmaqla hesablanır.

**3.10.** Azərbaycan Respublikasının əmək qanunvericiliyində nəzərdə tutulan hallar istisna olmaqla, daxili intizam qaydaları və ya iş (növbəlilik) cədvəli ilə müəyyən edilmiş istirahət günündə sürücünün işə cəlb olunmasına yalnız onun razılığı ilə yol verilir. Hər bir sürücünün ildə 12 istirahət günündən çox olmamaqla göstərilən qaydada işə cəlb edilməsinə yol verilir.

**3.11.** Azərbaycan Respublikasının əmək qanunvericiliyində nəzərdə tutulmuş hallarda, sürücünün öz razılığı olmadan işə cəlb edildiyi istirahət günləri onun istirahət günlərinin ümumi sayına daxil edilmir.

**3.12.** İş vaxtının cəmlənmiş uçotu aparıldığı hallarda, şəhərlərarası daşımalarda həftəlik istirahət müddəti 42 saatdan artıq ola bilər, həmçinin 24 saatdan az olmamaqla qısaldıla da bilər.

**3.13.** İstirahət, səsvermə, iş günü hesab edilməyən bayram günlərində və ümumxalq hüzn günündə yerinə yetirilən iş tərəflərin razılığı ilə başqa istirahət gününün verilməsi və ya Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödəniş edilməsi yolu ilə kompensasiya oluna bilər. Şəhərlərarası daşımaları həyata keçirən sürücülər iş səfərləri dövründə həftəlik istirahət günlərindən istifadə etmək imkanına malik olmadıqda, əsas iş yerinə qayıtdıqdan sonra onlara başqa istirahət günləri verilməlidir.

**3.14.** Səsvermə, iş günü hesab edilməyən bayram günlərində və ümumxalq hüzn günündə əhaliyə və təşkilatlara fasiləsiz xidmət göstərmək zərurəti ilə əlaqədar sürücülərin işləməsinə həmin günlər iş (növbəlilik) cədvəlində iş günləri kimi nəzərdə tutulduğu, həmçinin işlərin dayanması istehsalat-texniki şərtlərə görə mümkünsüz olduğu təxirəsalınmaz təmir və yükvurma-yükboşaltma işləri aparıldığı hallarda yol verilir. İş vaxtının cəmlənmiş uçotu aparıldığı hallarda iş (növbəlilik) cədvəlinə əsasən səsvermə, iş günü hesab edilməyən bayram günlərində və ümumxalq hüzn günündə yerinə yetirilən iş uçot dövrünün iş vaxtı normasına daxil edilir.

**4. Yekun müddəalar**

**4.1.** Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarında nəqliyyat vasitələrinin hərəkət cədvəlləri, habelə sürücülərin iş (növbəlilik) cədvəlləri bu Qaydalarda nəzərdə tutulmuş iş və istirahət rejiminə əsasən tərtib edilir.

**4.2.** Daşıyıcı avtomobil nəqliyyatı ilə yerinə yetirdiyi sərnişin və yük daşımalarını və avtonəqliyyat vasitələrinin işçi heyətlərinin maarifləndirilməsini bu Qaydaların tələblərinə uyğun olaraq təşkil etməlidir.

**4.3.** Daşıyıcı sürücülərin iş və istirahət vaxtına nəzarət etməli, habelə ona məxsus avtonəqliyyat vasitələrinin yerinə yetirdiyi reyslər barədə məlumatları təhlil etməli, bu Qaydaların tələblərinin pozulması hallarını aşkar etdikdə, onların aradan qaldırılmasına yönəldilmiş tədbirlər görməli, o cümlədən iş (növbəlilik) cədvəllərinə və marşrutlara düzəlişlər etməlidir.

**4.4.** Sürücülərin iş və istirahət rejimi ilə bağlı Qaydalarda nəzərdə tutulmayan digər məsələlər Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

**4.5.** Bu Qaydaların pozulmasına görə hüquqi, fiziki və vəzifəli şəxslər qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il*
*10 mart tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmişdir*

*"Rəqəmsal taxoqraf kartlarının*
*sisteminə dair Qayda"ya*
***1 nömrəli əlavə***

**Azərbaycan Respublikasının**
**Nəqliyyat Nazirliyinə**

_______________________________________________ tərəfindən
(ərizəçinin adı, soyadı, atasının adı)

**Sürücü kartının ilk dəfə verilməsi üçün**

**Ə R İ Z Ə**

**1.** Xahiş edirəm mənə avtomobil daşımalarının həyata keçirilməsi zamanı istifadə ediləcək sürücü kartını verəsiniz:

□ beynəlxalq

□ ölkədaxili

**2.** Sürücü kartının verilməsi üçün məlumatlar:

**2.1.** adı, soyadı, atasının adı ______________________________

**2.2.** yaşayış ünvanı ______________________________

**2.3.** poçt ünvanı ______________________________

**2.4.** doğulduğu tarix ______________________________

**2.5.** şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsi, kim tərəfindən və nə vaxt verilmişdir (xarici vətəndaşlar üçün xarici pasportun məlumatları)______________

______________________________________________

**2.6.** milli sürücülük vəsiqəsinin nömrəsi ______________________

**2.7.** sürücülük vəsiqəsinin verildiyi ölkənin adı ____________________

**2.8.** ünsiyyət dili______________________________

**2.9.** xüsusi təlim keçmə barədə məlumat ________________________________

**3.** Bu ərizə ilə sürücü kartının verildiyi andan onun qüvvədəolma müddətinin bitməsinədək istifadə müddəti və şərtlərinə dair “Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi”nin tələblərinin yerinə yetirilməsinə razı olduğumu təsdiq edirəm.

**4.** □ Beynəlxalq avtomobil daşımaları zamanı sürücü kartını ondan istifadə etmək hüququ olmayan digər şəxslərə verməməyi və “Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi”nin tələblərinə və onun təyinatına uyğun olaraq, kartın istifadəsini mümkünsüz edən hallar yarandıqda (məsələn, sürücülük hüquqlarından məhrumetmə və s.), kartı onu verən orqana qaytarmağı öz öhdəmə götürürəm.

**5.** □ Ölkədaxili avtomobil daşımaları zamanı sürücü kartını ondan istifadə etmək hüququ olmayan digər şəxslərə verməməyi, Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə və onun təyinatına uyğun olaraq, kartın istifadəsini mümkünsüz edən hallar yarandıqda (məsələn, sürücülük hüquqlarından məhrumetmə və s.), kartı onu verən orqana qaytarmağı öz öhdəmə götürürəm.

**6.** Sürücü kartının verilməsi üçün xidmət haqqını ödəməyə təminat verirəm.

**7.** Ərizədə göstərilmiş məlumatları ərizəyə əlavə olunan aşağıdakı sənədlərlə təsdiq edirəm:

**7.1.** şəxsiyyəti təsdiq edən sənədin məlumatlarını (soyadı, adı, atasının adı, kim tərəfindən və nə vaxt verilmişdir, qeydiyyat yeri) əks etdirən səhifələrinin surəti;

**7.2.** sürücülük vəsiqəsinin surəti;

**7.3.** xüsusi təlim keçmə barədə sənədin surəti;

**7.4.** fotoşəkil.

________________________________________________

(tarix) (ərizəçinin imzası) (adı, soyadı)

M.Y.

**Qeyd.** Bu ərizənin 2.8-ci, 2.9-cu, 7.3-cü bəndlərinin və 3-cü hissənin tələbləri ölkədaxili avtomobil daşımalarına şamil olunmur.

*"Rəqəmsal taxoqraf kartlarının*
*sisteminə dair Qayda"ya*
***2 nömrəli əlavə***

**Azərbaycan Respublikasının**
**Nəqliyyat Nazirliyinə**

_______________________________________________ tərəfindən
(ərizəçinin adı, soyadı, atasının adı)

**Sürücü kartının təzələnməsi üçün**

**Ə R İ Z Ə**

**1.** Xahiş edirəm mənə qüvvədəolma müddətinin bitməsi ilə əlaqədar avtomobil daşımalarının həyata keçirilməsi zamanı istifadə edilən yeni sürücü kartını verəsiniz:

□ beynəlxalq

□ ölkədaxili

**2.** Əvvəl verilmiş kartın nömrəsi _______________________________

**3.** Şəxsi məlumatların dəyişdirilməsi barədə məlumatlar (əgər həmin məlumatlarda dəyişikliklər olmuşdursa):

**3.1.** adı, soyadı, atasının adı _______________________________

**3.2.** yaşayış ünvanı _______________________________

**3.3.** poçt ünvanı _______________________________

**3.4.** doğulduğu tarix _______________________________

**3.5.** şəxsiyyəti təsdiq edən sənədin nömrəsi, kim tərəfindən və nə vaxt verilmişdir (xarici vətəndaşlar üçün xarici pasport məlumatları)_______________________________

_______________________________________________

**3.6.** milli sürücülük vəsiqəsinin nömrəsi _______________________________

**3.7.** sürücülük vəsiqəsinin verildiyi ölkənin adı _______________________________

**3.8.** ünsiyyət dili _______________________________

**4.** □ Bu ərizə ilə sürücü kartının verildiyi andan onun qüvvədəolma müddətinin bitməsinədək istifadə müddəti və şərtlərinə dair "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinin yerinə yetirilməsinə razı olduğumu təsdiq edirəm.

**5.** □ Beynəlxalq avtomobil daşımaları zamanı sürücü kartını ondan istifadə etmək hüququ olmayan digər şəxslərə verməməyi və "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinə və onun təyinatına uyğun olaraq, kartın istifadəsini mümkünsüz edən hallar yarandıqda (məsələn, sürücülük hüquqlarından məhrumetmə və s.), kartı onu verən orqana qaytarmağı öz öhdəmə götürürəm.

**6.** □ Ölkədaxili avtomobil daşımaları zamanı sürücü kartını ondan istifadə etmək hüququ olmayan digər şəxslərə verməməyi və Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə və onun təyinatına uyğun olaraq, kartın istifadəsini mümkünsüz edən hallar yarandıqda (məsələn, sürücülük hüquqlarından məhrumetmə və s.), kartı onu verən orqana qaytarmağı öz öhdəmə götürürəm.

**7.** Sürücü kartının təzələnməsi üçün xidmət haqqını ödəməyə təminat verirəm.

**8.** Şəxsi məlumatların dəyişdirilməsi ilə əlaqədar ərizədə göstərilmiş məlumatları ərizəyə əlavə olunan aşağıdakı sənədlərlə təsdiq edirəm:

**8.1.** şəxsi məlumatların dəyişdirilməsini təsdiq edən sənədlər;

**8.2.** fotoşəkil.

---

(tarix) (ərizəçinin imzası) (adı, soyadı)

M.Y.

**Qeyd.** Bu ərizənin 3.8-ci bəndinin və 4-cü hissəsinin tələbləri ölkədaxili avtomobil daşımalarına şamil olunmur.

*“Rəqəmsal taxoqraf kartlarının*
*sisteminə dair Qayda”ya*
***3 nömrəli əlavə***

**Azərbaycan Respublikasının**
**Nəqliyyat Nazirliyinə**

______________________________________________________ tərəfindən
(daşıyıcı hüquqi şəxsin adı və ya fərdi sahibkarın adı, soyadı, atasının adı)

**Daşıyıcı kartının ilk dəfə verilməsi və təzələnməsi üçün**

**Ə R İ Z Ə**

**1.** ______________________________________________________ şəxsində
(vəzifəsi, adı, soyadı, atasının adı)

______________________________________________________________
(hüquqi şəxsin və ya fərdi sahibkarın adı)

avtomobil daşımalarının həyata keçirilməsi zamanı istifadə ediləcək _______ ədəd daşıyıcı kartının verilməsini xahiş edirik:

□ beynəlxalq
□ ölkədaxili

**2.** Bunlardan:

**2.1.** _______ ədəd daşıyıcı kartının ____________________________________
(vəzifəsi, adı, soyadı, atasının adı)

**2.2.** ________ədəd daşıyıcı kartının ____________________________________
(vəzifəsi, adı, soyadı, atasının adı)

adına rəsmiləşdirilməsini xahiş edirəm.

**3.** Bu ərizə ilə daşıyıcı kartının verildiyi andan onun qüvvədəolma müddətinin bitməsinədək istifadə müddəti və şərtlərinə dair “Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi”nin tələblərinin yerinə yetirilməsinə razı olduğumu təsdiq edirəm.

**4.** □ Beynəlxalq avtomobil daşımaları zamanı “Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi”nin tələblərinə və təyinatına uyğun olaraq, daşıyıcı kartının istifadəsini mümkünsüz edən hallar yarandıqda, kartı qaytarmağı öz öhdəmə götürürəm.

**5.** □ Ölkədaxili avtomobil daşımaları zamanı Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə və təyinatına uyğun olaraq, daşıyıcı kartının istifadəsini mümkünsüz edən hallar yarandıqda, kartı qaytarmağı öz öhdəmə götürürəm.

**6.** Daşıyıcı kartının verilməsi üçün xidmət haqqını ödəməyə təminat verirəm.

**7.** Daşıyıcı kartının verilməsi üçün hüquqi şəxs (fərdi sahibkar) haqqında məlumatlar:

**7.1.** tam və qısaldılmış adı ____________________________________________

**7.2.** qeydiyyat və idarəetmə orqanının ünvanı ____________________________

**7.3.** poçt ünvanı ____________________________________________________

**8.** Daşıyıcı kartı verilən şəxs (şəxslər) barədə məlumatlar:

**8.1.** sürücülərin iş və istirahət rejiminə nəzarətin həyata keçirilməsinə məsul şəxsin vəzifəsi, adı, soyadı, atasının adı ____________________________________

**8.2.** doğulduğu tarix ________________________________________________

**8.3.** şəxsiyyəti təsdiq edən sənədin məlumatları (nömrəsi, kim tərəfindən və nə vaxt verilmişdir)__________________________________________________________

**8.4.** xüsusi təlim keçmə barədə məlumat _______________________________

**8.5.** sürücülərin iş və istirahət rejiminə nəzarətin həyata keçirilməsinə məsul şəxsin təyin edilməsi barədə əmrin nömrəsi və tarixi ____________________________

______________________________________________________________________

**9.** Əvvəllər verilmiş daşıyıcı kartı haqqında məlumatlar:

**9.1.** kartın nömrəsi _________________________________________________

**9.2.** qüvvədəolma müddəti ___________________________________________

**9.3.** daşıyıcı kartının verildiyi şəxsin adı, soyadı, atasının adı ________________

______________________________________________________________________

**10.** Ərizədə qeyd edilən məlumatları ərizəyə əlavə olunan aşağıdakı sənədlərlə təsdiq edirəm:

**10.1.** hüquqi şəxsin (fərdi sahibkarın) dövlət qeydiyyatına alınması haqqında sənədin surəti;

**10.2.** sürücülərin iş və istirahət rejiminə nəzarətin həyata keçirilməsinə təyin edilmiş məsul şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti;

**10.3.** sürücülərin iş və istirahət rejiminə nəzarətin həyata keçirilməsinə məsul şəxsin təyin edilməsi barədə əmrin surəti;

**10.4.** kartın verilməsi nəzərdə tutulmuş hər bir şəxsin xüsusi təlim keçməsi haqqında sənədin surəti;

**10.5.** təzələnməsi tələb olunan əvvəllər verilmiş kartlar.

______________________________________________________________________

(tarix) (ərizəçinin imzası) (adı, soyadı)

M.Y.

**Qeyd.** Bu ərizənin 3-cü hissəsinin, 8.4-cü və 10.4-cü bəndlərinin tələbləri ölkədaxili avtomobil daşımalarına şamil olunmur.

*“Rəqəmsal taxoqraf kartlarının*
*sisteminə dair Qayda”ya*
***4 nömrəli əlavə***

**Azərbaycan Respublikasının**
**Nəqliyyat Nazirliyinə**

_______________________________________ tərəfindən
(emalatxana rəhbərinin adı, soyadı, atasının adı, vəzifəsi)

**Emalatxana kartının ilk dəfə verilməsi və təzələnməsi üçün**

**Ə R İ Z Ə**

**1.** _______________________________________
(hüquqi şəxsin və ya fərdi sahibkarın adı)

_______________________________________ şəxsində
(vəzifəli şəxsin vəzifəsi, adı, soyadı, atasının adı)

“Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi” üzrə səlahiyyətli orqan tərəfindən icazə verilən taxoqrafların quraşdırılması, yoxlanılması, plomblanması, təmiri və onlara texniki xidmət göstərilməsi üçün ____________________ ədəd emalatxana kartının verilməsini xahiş edirik.

**2.** Bunlardan:

**2.1.** _____ ədəd emalatxana kartının ______________________________
(vəzifəsi, adı, soyadı, atasının adı)

**2.2.** _____ ədəd emalatxana kartının ______________________________
(vəzifəsi, adı, soyadı, atasının adı)

adına rəsmiləşdirilməsini xahiş edirik.

**3.** Emalatxana kartının verilməsi üçün hüquqi şəxs (fərdi sahibkar) barədə məlumatlar:

**3.1.** emalatxanaya səlahiyyət verilməsi haqqında attestatın tarixi və qeydiyyat nömrəsi _______________________________________

**3.2.** tam və qısaldılmış adı ______________________________

**3.3.** qeydiyyat və idarəetmə orqanının ünvanı ______________________

**3.4.** poçt ünvanı______________________________________

**4.** Emalatxana kartının verilməsi üçün məlumatlar:

**4.1.** kartların alınması, saxlanılması və istifadə edilməsi üçün hüquqi şəxs (fərdi sahibkar) tərəfindən təyin edilmiş təşkilatın rəhbəri və ya digər şəxsin (şəxslərin) adı, soyadı, atasının adı və vəzifəsi ______________________________

**4.2.** doğulduğu tarix ______________________________________

**4.3.** şəxsiyyəti təsdiq edən sənədin məlumatları (nömrəsi, kim tərəfindən və nə vaxt verilmişdir) ______________________________________

**4.4.** xüsusi təlim keçmə barədə məlumat ______________________________

**4.5.** kartın alınması, saxlanılması və istifadə edilməsi üçün məsul şəxsin təyin edilməsi barədə əmrin nömrəsi və tarixi ______________________________

**5.** Əvvəllər verilmiş emalatxana kartı haqqında məlumatlar:

**5.1.** kartın nömrəsi ______________________________

**5.2.** qüvvədəolma müddəti ______________________________

**5.3.** kartının verildiyi şəxsin adı, soyadı, atasının adı ______________________________

**6.** Bu ərizə ilə daşıyıcı kartının verildiyi andan onun qüvvədəolma müddətinin bitməsinədək istifadə müddəti və şərtlərinə dair "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinin yerinə yetirilməsinə razı olduğumu təsdiq edirəm.

**7.** □ Beynəlxalq avtomobil daşımaları zamanı "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinə və təyinatına uyğun olaraq, emalatxana kartının istifadəsini mümkünsüz edən hallar yarandıqda (müvafiq fəaliyyətin dayandırılması, emalatxanaya səlahiyyət verilməsi haqqında attestatın qüvvəsinin dayandırılması və ya ləğv olunması, xidmət göstərilən növ taxoqrafların istismardan çıxarılması və s.), kartı onu verən orqana qaytarmağı öz öhdəmə götürürəm.

**8.** □ Ölkədaxili avtomobil daşımaları zamanı Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə və təyinatına uyğun olaraq, emalatxana kartının istifadəsini mümkünsüz edən hallar yarandıqda (müvafiq fəaliyyətin dayandırılması, emalatxanaya səlahiyyət verilməsi haqqında attestatın qüvvəsinin dayandırılması və ya ləğv olunması, xidmət göstərilən növ taxoqrafların istismardan çıxarılması və s.), kartı onu verən orqana qaytarmağı öz öhdəmə götürürəm.

**9.** Emalatxana kartının verilməsi üçün xidmət haqqını ödəməyə təminat verirəm.

**10.** Ərizədə göstərilən məlumatlar ərizəyə əlavə edilən aşağıdakı sənədlərlə təsdiq edilir:

**10.1.** hüquqi şəxsin (fərdi sahibkarın) dövlət qeydiyyatına alınması haqqında sənədin surəti;

**10.2.** emalatxanaya səlahiyyət verilməsi haqqında attestatın surəti;

**10.3.** emalatxana üzrə təyin edilmiş məsul şəxsin və ya rəhbərin şəxsiyyətini təsdiq edən sənədin surəti;

**10.4.** kartların alınması, saxlanılması və istifadə edilməsinə məsul şəxsin təyin edilməsi barədə əmrin surəti;

**10.5.** kartın verilməsi nəzərdə tutulmuş hər bir şəxsin xüsusi təlim keçməsi haqqında sənədin surəti;

**10.6.** təzələnməsi tələb olunan ilk dəfə verilmiş kartlar.

______________________________

(tarix) (ərizəçinin imzası) (adı, soyadı)

M.Y.

**Qeyd.** Bu ərizənin 7-ci hissəsinin, 5.4-cü və 11.5-ci bəndlərinin tələbləri ölkədaxili avtomobil daşımalarına şamil olunmur.

*"Rəqəmsal taxoqraf kartlarının*
*sisteminə dair Qayda"ya*
***5 nömrəli əlavə***

**Azərbaycan Respublikasının**
**Nəqliyyat Nazirliyinə**

________________________________________ tərəfindən
(ərizəçinin vəzifəsi, adı, soyadı, atasının adı)

**Nəzarətçi kartının ilk dəfə verilməsi və təzələnməsi üçün**

**ƏRİZƏ**

**1.** □ Beynəlxalq □ Ölkədaxili avtomobil daşımalarını həyata keçirən sürücülərin iş və istirahət rejiminə nəzarətin həyata keçirilməsi üçün aşağıdakı əməkdaşlara nəzarətçi kartlarının verilməsini xahiş edirik.

**2.** Nəzarətçi kartının verilməsi üçün məlumatlar:

**2.1.** nəzarət orqanının adı ________________________________

**2.2.** ünvanı ________________________________

**3.** Nəzarətçi kartının verilməsi nəzərdə tutulmuş şəxs (şəxslər) barədə məlumatlar:

**3.1.** vəzifəsi ________________________________

**3.2.** doğulduğu tarix ________________________________

**3.3.** şəxsiyyəti təsdiq edən sənədin məlumatları (nömrəsi, kim tərəfindən və nə vaxt verilmişdir) ________________________________

**3.4.** xüsusi təlim keçmə barədə məlumat ________________________________

**4.** Bu ərizə ilə nəzarətçi kartının verildiyi andan onun qüvvədəolma müddətinin bitməsinədək istifadə müddəti və şərtlərinə dair "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinin yerinə yetirilməsinə razı olduğumu təsdiq edirəm.

**5.** □ Beynəlxalq avtomobil daşımaları zamanı "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinə və təyinatına uyğun olaraq, nəzarətçi kartının istifadəsini mümkünsüz edən hallar yarandıqda (kartın verildiyi nəzarətçi tutduğu vəzifədən azad olunduqda və s.), kartı onu verən orqana qaytarmağı öz öhdəmə götürürəm.

**6.** □ Ölkədaxili avtomobil daşımaları zamanı Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə və təyinatına uyğun olaraq, nəzarətçi kartının istifadəsini mümkünsüz edən hallar yarandıqda (kartın verildiyi nəzarətçi tutduğu vəzifədən azad olunduqda və s.), kartı onu verən orqana qaytarmağı öz öhdəmə götürürəm.

**7.** Nəzarətçi kartının verilməsi üçün xidmət haqqını ödəməyə təminat verirəm.

**8.** Ərizədə qeyd olunan məlumatları ərizəyə əlavə edilən aşağıdakı sənədlərlə təsdiq edirəm:

**8.1.** nəzarətçi kartının verilməsi nəzərdə tutulmuş şəxsə (şəxslərə) dair məlumatlar;

**8.2.** şəxsiyyəti təsdiq edən sənədin məlumatlarını (nömrəsi, soyadı, adı, atasının adı, kim tərəfindən və nə vaxt verilmişdir, qeydiyyat yeri) əks etdirən səhifələrinin surəti;

**8.3.** xüsusi təlim keçmə barədə sənədin surəti;

**8.4.** fotoşəkil.

(tarix) (ərizəçinin imzası) (adı, soyadı)

M.Y.

**Qeyd.** Bu ərizənin 5-ci hissəsinin, 3.4-cü və 10.2-ci bəndlərinin tələbləri ölkədaxili avtomobil daşımalarına şamil olunmur.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində nəqliyyat sahəsində islahatların keçirilməsinə dair əlavə tədbirlər haqqında" 2015-ci il 21 dekabr tarixli 709 nömrəli Fərmanının 9.2-ci bəndinin, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli Fərmanının 3.5-ci bəndinin və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N9, maddə 745; 2010, N11, maddə 1041, N12, maddə 1125; 2011, N4, maddə 372; 2013, N8, maddə 1025, N12, maddə 1629; 2014, N7, maddə 945, N8, maddə 1014; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 yanvar tarixli 11 nömrəli və 18 fevral tarixli 65 nömrəli qərarları) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2-ci bəndə ikinci halda "sonra" sözündən sonra "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində avtomobil nəqliyyatı ilə sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və

Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi (bundan sonra müvafiq qurumlar), Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri əlavə edilsin.

**2.** 4.3-cü bəndin birinci cümləsinə "baxımından", ikinci cümləsinə "əsasında", 4.10-cu bəndə birinci halda "cədvəlləri" və 6.4-cü bəndin ikinci cümləsinə "qaydaları" sözlərindən sonra "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri əlavə edilsin.

**3.** 4.32-ci və 9.3-cü bəndlər ləğv edilsin.

**4.** 13.2-ci bəndə "Azərbaycan Respublikası" sözlərindən əvvəl "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri əlavə edilsin.

**5.** 13.2.5-ci yarımbəndə "Azərbaycan Respublikası" sözlərindən əvvəl "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumların, Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri əlavə edilsin.

**6.** 16.1-ci bənddə "nəzarət bu Qaydalara uyğun olaraq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi səlahiyyətləri çərçivəsində tərəfindən" sözləri "nəzarət bu Qaydalara uyğun olaraq Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən səlahiyyətləri çərçivəsində" sözləri ilə əvəz edilsin.

**7.** Həmin Qaydalara 3 və 4 nömrəli əlavələr ləğv edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri Artur Rasi-zadə**
Bakı şəhəri, 7 aprel 2016-cı il
№ 149

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 dekabr tarixli 381 nömrəli qərarı ilə təsdiq edilmiş "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində nəqliyyat sahəsində islahatların keçirilməsinə dair əlavə tədbirlər haqqında" 2015-ci il 21 dekabr tarixli 709 nömrəli Fərmanının 9.2-ci bəndinin, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli Fərmanının 3.5-ci bəndinin və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 dekabr tarixli 381 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N12, maddə 1659) ilə təsdiq edilmiş "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə

bağlı SMS məlumatlandırma Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci bəndə "göndərilməsi" sözündən sonra "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi (bundan sonra müvafiq qurumlar), Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri əlavə edilsin.

**2.** 2.1-ci və 2.6-cı bəndlərdə "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin" sözləri "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinin" sözləri ilə əvəz edilsin.

**3.** 2.4-cü bəndin ikinci cümləsinə "qiyməti" sözündən sonra "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri Artur Rasi-zadə**
Bakı şəhəri, 7 aprel 2016-cı il
№ 150

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"də dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1303-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 576 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №3, maddə 196; 2001, №10, maddə 663; 2003, №6, maddə 342; 2005, №4, maddə 386; 2006, №5, maddə 463, №9, maddə 822; 2008, №2, maddə 125, №8, maddə 782; 2011, №5, maddə 455; 2012, №5, maddə 487, №7, maddə 776, №9, maddə 921; 2013, №6, maddə 575, №8, maddə 1021, №11, maddə 1462; 2015, №4, maddələr 463, 467; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 fevral tarixli 44 nömrəli qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"nin 3.2-ci bəndinin 3-cü yarımbəndindən, 4.6-cı bəndinin ikinci abzasından, 4.8-ci bəndinin ikinci cümləsindən və 7.2-ci bəndindən "təminatlı" sözü çıxarılsın.

**Azərbaycan Respublikasının**
**Baş naziri Artur Rasi-zadə**
Bakı şəhəri, 15 aprel 2016-cı il
№ 155

**"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyində "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "CityBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 30 mart tarixli 89 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1303-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 576 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyində "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "CityBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 30 mart tarixli 89 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 3, maddə 334) 4-cü hissəsindən "təminatlı" sözü çıxarılsın.

**Azərbaycan Respublikasının**
**Baş naziri Artur Rasi-zadə**
Bakı şəhəri, 15 aprel 2016-cı il
№ 156

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1303-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 576 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 2, maddə 145) ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1-ci bənddən "şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə müntəzəm" sözləri çıxarılsın.

**2.** 2.2.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.2.6-cı yarımbənd əlavə edilsin:

**"2.2.6.** dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.".

**3.** Həmin Əsasnaməyə 1 nömrəli əlavə "Avtovağzala / avtostansiyaya / pasportun verilməsi üçün ərizənin nümunəvi forması"na aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

**"4.** Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.".

**Azərbaycan Respublikasının**
**Baş naziri Artur Rasi-zadə**
Bakı şəhəri, 15 aprel 2016-cı il
№ 157

# MÜNDƏRİCAT

"ASAN xidmət" – dünyanin maraq göstərdiyi Azərbaycan brendi ........................................5
*İ.Həbibbəyli.* Heydər Əliyevin dövlətçilik təlimində Azərbaycançılıq ...................................9
*Z.Əsgərov.* Heydər Əliyevin müəllifi olduğu Konstitusiya insan hüquq və azadlıqlarının etibarlı təminatçısıdır ........................................................................................20
*A.Mustafayeva.* Multikulturalizmin Azərbaycan modeli .......................................................28
*F.Abdullayev.* Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasından 18 il keçir ....................................................................................35
*Ə.Hüseynli.* Heydər Əliyevin dövlət quruculuğu siyasətində multikulturalizm amili ...44
*A.Məhərrəmov.* Ulu öndər təhsilin inkişafına xüsusi qayğı ilə yanaşırdı ..............................49
*İ.Məmmədzadə.* İqtisadi modernləşmə, siyasi liberalizm və hüquqi dövlət konsepsiyası57
*A.Şəkərəliyev.* Böyük siyasi kursun uğurlu davamı ..................................................................63
*M.Quliyev.* Azərbaycanda dövlət təhlükəsizliyinin təmin olunması ulu öndər Heydər Əliyev ənənələrinə əsaslanır ...........................................................69
*S.Müslümov.* Azərbaycanın sosial dövlət konsepsiyası: sosial sabitlikdən müasir innovasiyalara doğru ...................................................................................76
*S.Məmmədov.* Heydər Əliyev yol infrastrukturunun inkişafına qayğı ilə yanaşırdı ......86
*R.Qarayev.* Konstitusiyaya dəyişikliklər beynəlxalq hüquqa uyğundur .................................93
*А.Маремкулов.* Экономического фактора геополитики России на Северном Кавказе ........................................................................... 97
*Z.Xəlilov.* Kabotaj qaydası əsasında suborbital kosmik uçuş hüququ – onuncu "Hava Azadliği" kimi .........................................................................................102
*S.Əliyeva.* İmkanların bərabərliyi və müyəssərlik prinsipləri əlillərin hüquqlarının müdafiəsinə təsirin mühüm elementləri kimi ......................................................109
*M.Qarayeva.* İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 5-ci maddəsinin 1-ci bəndinin məqsədləri üçün «qanunilik», «hüquqi müəyyənlik» və "əsaslı şübhə" şərtləri ................................122
*S.Həsənov.* Dini qurumların mülki hüquq qabiliyyətinin bəzi xüsusiyyətləri ..........................131
*S.Həsənzadə.* Ailənin statusu ........................................................................................138
*V.Hüseyn.* Tərəflərə məxsus olmayan silahli qüvvələrin mövcud olmaması Xəzər dənizində hərbi fəaliyyətin prinsipi kimi ...............................................................149
*N.Əliyev.* Cinayətkar qrup halında törədilən qəsdən adam öldürmə cinayətlərinə görə cəza təyininin bəzi məsələləri ....................................................................158
*S.Aslanov.* Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsi: "Fikri ifadə etmək azadlığı" ..........................................................................................171
*A.Hacıyeva.* Azərbaycanda icbari tibbi sığortaya keçid ..........................................................178
*B.Əsədov.* Yaradıcılıq əsəri kimi tərcümənin hüquqi mühafizəsi ..........................................181
*İ.Abbasov.* Erməni məkri .............................................................................................190
*R.Ağasiyev.* Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmanın hüquqi əsasları ..........197
*P.Məmmədov.* İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması sahəsində Avropa Şurasının İnsan hüquqları üzrə Komissarının fəaliyyəti ..........................................................................207

## RƏSMİ SƏNƏDLƏR


"Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası"na və "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI bölməsinin həyata keçirilməsinə dair Saziş"ə qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu ....................**216**

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ....................**216**

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....................**217**

"Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında hava nəqliyyatı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....................**217**

"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair Qaydalar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ....................**218**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ....................**234**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 dekabr tarixli 381 nömrəli qərarı ilə təsdiq edilmiş "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ....................**235**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ....................**236**

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyində "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "CityBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 30 mart tarixli 89 nömrəli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ....................**237**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ....................**237**

Jurnal Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq olunmuş «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin Siyahısı»na daxil edilmişdir.

* * *

Журнал включён в «Список научных изданий, рекомендуемых для публикации основных результатов диссертаций в Азербайджанской Республике», утверждённый Высшей Аттестационной Комиссией при Президенте Азербайджанской Республики.

* * *

The magazine was inscribed in «The scientific edition list, recommended to publication of main results of the dissertations in Azerbaijan Republic», confirmed by Superior Examination Board under President of Azerbaijan Republic.

* * *

Dergi Azerbaycan Cumhuriyyeti Cumhurbaşkanı yanında Yüksek Tasnif Komisyonu tarafından onaylanmış Azerbaycan Cumhuriyyetinde doktoraterlerin genel sonuclarının yayınlanması önerilen bilimsel yayınların listesinə dahil edilmiştir.

* * *

## JURNALDA ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRƏ DAİR ƏLAVƏ TƏLƏBLƏR

**Word proqramı**
**Səhifənin formatı – A4**
**Azərbaycan, rus və ingilis dillərində mətnlər «Times New Roman», Az_Times_lat şriftləri ilə verilsin**
**Əsas mətn – 14 pt**
**Sətirlərarası məsafə – 1,5 interval**
**Vərəqin sağ və sol hissəsindən 2 sm, yuxarı və aşağıdan isə 3 sm ölçüdə zolaq ayrılsın**
**Məqalənin həcmi – 10 səhifəyədək**
**Məqalə fiziki kağız və elektron versiyada verilməlidir.**